**Aydın Dadaşov**

**MƏHƏMMƏD HƏSƏN**

# HACINSKİ

**Bakı – BDU-nun nəşriyyatı – 2004**

*Elmi redaktor:* Tarix elmləri doktoru
professor Tofiq **VƏLİYEV**

*Rəyçilər:* tarix elmləri doktoru,
professor **Seyidağa ONULLAHİ**
tarix elmləri doktoru **ADİL MƏMMƏDOV**
tarix elmləri doktoru **Xəlil KÖÇƏRLİ**

**Aydın DADAŞOV**
**Məhəmməd Həsən Hacınski**
Bakı, BDU-nun nəşriyyatı, 2004.

A 5030209070 – 20
M – 658 (07) – 054
054 – 2004

**BDU-nun nəşriyyatı 2004**

## MÜƏLLİFDƏN

Ötən əsrin birinci yarısında Bakıda üç məşhur Hacınski nəsli vardı. Neft milyonçusu, mədənləri və kerosin zavodları, Qız qalasının qarşısında gözəl mülkü olan, 1896-cı ildən 20 il müddətinə Şəhər Dumasının üzvü seçilmiş, Balaxanski (Füzuli) küçəsində yerləşən (F.Əfəndiyev adına xəstəxananın binası) imperator III Aleksandr kişi gimnaziyasının hamisi İsa bəy Hacınski (1861-1919), Şillerin "Qaçaqlar" pyesini Azərbaycan dilinə tərcümə etmiş və səhnəmizdə Karl Moor ("Qaçaqlar"), Nadir şah (Nərimanov "Nadir şah") kimi obrazlar yaratmış, "Tərcüman", "Kaspi", "İqbal", "İrşad" qəzetlərində, "Zənbur", "Molla Nəsrəddin" jurnallarında teatr məqalələri çap etdirmiş, Cümhuriyyət dövründə parlament üzvü olmuş Mehdi bəy Hacınski (1887-1942), onun qardaşı, Sankt-Peterburq Universitetini bitirmiş (1912) Qubalı imzası ilə publisistika və teatr tənqidinə dair məqalələr yazmış Camo bəy Hacınski (1887-1942) və nəhayət, maarifçi-demokrat, ictimai xadim Məhəmməd Həsən Hacınski.

Hələ səksəninci illərin ortalarında M.H.Hacınskinin ailəsilə mənim ilk tanışlığımın səbəbkarı onun həyat yoldaşı Səadət xanımın əmisi oğlu, kinostudiyada hamının Aqusya dayı deyə çağırdığı səs rejissoru Ağahüseyn Kərimov olmuşdu. Aqusya dayının həyat yoldaşı Zeynəb xanım Kazımova tanınmış kinorejissor idi. Əvvəlki ailəsində yeganə qızı on yaşında polimelitdən dünyasını dəyişdikdən sonra övladları olmasa da, bu insanlar hər kəsə, xüsusilə cavanlara öz doğmaları kimi münasibət göstərirdilər. Hacınskilər haqqında sənədli film ssenarisi yazmağı da mənə məhz Aqusya dayı məsləhət görmüşdü. Artıq üzərində işlədiyim ssenaridə Tiflis, Semi-Palatinski, Moskva, Berlin şəhərlərilə yanaşı, Aqusya dayının və Səadət xanımın babası molla Talıbın köçüb ömrünün sonuna qədər yaşadığı Hayfa şəhəri də vardı. İş burasındadır ki, XIX əsrin sonlarından Bakıda da meydana çıxan Bəhayi dini-siyasi fəallarından olan Molla Talıb müsəlmanların təzyiqilə Bəhayi mərkəzinin yerləşdiyi Hayfaya köçməyə məcbur olmuşdu. Aralıq dənizində yerləşən eynən bizim şəhərə bənzəyən Hayfadakı çəkilişlərdə babasının qəbrini tapıb ziyarət edəcəyinə ümid bəsləyən Aqusya dayı artıq filmin musiqisini də tapıb yığmışdı. Ssenari yazılıb hazır olmasa da, müxtəlif səbəblər ucbatından ezamiyyətlər baş tutmadığından filmi Bakıda çəkməklə kifayətləndik. Hacınskilər ailəsinin övladları Muxtar, Minurə və Leylanın atasının tikdiyi, doğulub böyüdükləri mülkə buradakı mənzillərin yeni sahibləri tərəfindən buraxılmamaları filmin ən dramaturji epizodu oldu. Sonrakı dövrlərdə özümdən asılı olmayaraq bu ailə ilə bağlı faktları və hadisələri toplamağa çalışdım.

Qeyd edək ki, sənədlərlə tanış olduqca çar Rusiyası, ADR və Sovet dövründə yüksək vəzifəli dövlət məmuru olmuş M.H.Hacınskinin halallığı önə

çəkməklə yanaşı, daim öz xalqına sədaqətini qoruması təsdiq olunur. Bununla belə nədənsə M.H.Hacınskiyə qarşı müxtəlif dövrlərdə bir çox mütəxəssislər tərəfindən ziddiyyətli münasibətlər meydana çıxmışdı. Sovet hakimiyyəti illərində onu müsavatçı, xalq düşməni kimi damğalamışdılar. Keçid və müstəqillik dövrlərində isə Cümhuriyyət yaradıcıları haqqında əsərlər yazılsa da, M.H.Hacınski sovet illərində yüksək vəzifə tutmuş şəxs kimi diqqətdən kənarda qalmışdı. Fakt və sənədlərlə tanışlıqdan sonra bu şəxsin vətəni, xalqı yolunda gördüyü işlərin həqiqi mənzərəsi gözümüz önündə canlanır. M.F.Axundovun yaratdığı maarifçi-demokratiya məktəbinin ideyalarını öz işi və əməllərilə həyata keçirən Məhəmməd Həsən Hacınski bir an belə bu yoldan sapınmamışdır. Yaxın tariximizin dəyişkən mərhələlərində müxtəlif rakurslardan dəyərləndirilmiş M.H.Hacınskinin həyat və fəaliyyətini maarifçilik və demokratiya kontekstində işıqlandıraraq oxuculara təqdim etməyi özümə borc bildim.

## AZƏRBAYCAN MAARİFÇİ-DEMOKRAT HƏRƏKATI

Azərbaycanda M.F.Axundovun və Həsən bəy Zərdabinin yaratdığı maarifçilik məktəbi özündən sonrakı tarixi mərhələlərdə belə daim fəaliyyət göstərərək mühüm əhəmiyyət kəsb etmişdir.

Milli maarifçilik ideyalarının ilk təşəbbüskarı M.F.Axundov yeni əlifba uğrunda yorulmaz mübarizəsinin ilkin mərhələsində ərəb əlifbasının islah edilməsini, yazı formasını olduğu kimi saxlayaraq yalnız tələffüzdə deyilən, lakin yazılmayan saitlər üçün işarələr düzəldib hərflərlə birlikdə yazılmasını və nöqtələrin atılmasını təklif edir. Növbəti mərhələdə nöqtələrin atılması ilə yanaşı, saitlərin sözlərdə, hərflərin ayrılıqda yazılmasını, üçüncüdə isə əlifbanın tamam dəyişdirilib latına keçərək soldan sağa yazmağı israr edir. Xüsusən qeyri-ərəblərin qavrayışı üçün çətin olan ərəb əlifbasında yazan xalqların maarifçiliyi: ana dilində təhsil, kitab və mətbuatın yaranması prosesini gücləndirmək naminə bütün yaradıcılığını demokratik təlimə həsr etmiş M.F.Axundov insan azadlığı ideyalarının açarını bilik və savadda görürdü. "Oxumuşların sayı çox olan ölkələrdə təfəkkür sahiblərinin sayı da çox olur. Təfəkkür sahiblərinin çox olduğu ölkədə isə həyatın bütün sahələrində xalq gündən-günə tərəqqi edə bilər" (5.səh.7) – deyən M.F.Axundovun mütərəqqi ideyaların yayılması prinsipi onun maarifçiliyinin əsas göstəricilərindən birinə çevrilir. Bu yolda real addımlar atmaqla birbaşa maarifçiliyə xidmət edən M.F.Axundovun yeni əlifba uğrunda mübarizəsi də onun mütərəqqi ideyaların yayılmasını sürətləndirmək istəyindən doğurdu. Yeni əlifba uğrunda ömrünün yetkin çağlarının iyirmi ilindən artığını həsr etmiş M.F.Axundovun müxtəlif ölkələrin mühafizəkar rəhbər və məmurlarının maneələrinə baxmayaraq bu fikirdən dönmədiyini onun məktubundan görmək olar: "Ola bilsin ki, deyəcəksiniz: Mirzə Fətəli, bu, soyuq dəmiri döymək kimi bir işdir. Bəli, bunu mən özüm də başa düşürəm. Lakin yenə də yazıram və nə qədər ki, sağam, yenə də yazmaqda davam edəcəyəm ki, əlifbanı dəyişdirmək fikri bütün xalq arasında yayılmış olsun". (5.səh.9). 4 may 1853-cü ildə Qafqaz canişinliyinin təhsil məsələləri ilə bağlı iclasında yazılı məruzə edən M.F.Axundov özünə xas olan diplomatik gedişlərlə burada yaşayan və əhali arasında sayca çoxluq təşkil edən tatarların fars və ya osmanlı deyil, təmiz ana dilində savadlanmasına diqqət yetirmiş keçmiş canişin A.P.Yermolovun xidmətini yada salır: "Bu ölkəni abadlaşdırmağa və ondakı əhalinin milliyyətini saxlamağa meyl göstərən xeyirxah hökumətimiz bir çox tədbirlərlə yanaşı, tatar dilində ədəbiyyatın yaranmasına diqqət vermişdir. Buna görə də birinci dəfə general Yermolov bu ölkənin hakimi olduğu zaman tatarlar yaşayan yerlərə göndərdiyi əmrlərlə əhalinin farsca yazmasını qadağan edərək öz yaşı işlərini ancaq tatarca aparmalarını məsləhət görmüşdür. Bundan sonra hər yerdə müxtəlif qaydalarda olsa da, yazı işləri tatar

dilində aparılmağa başlandı. Daha sonra hər yerdə qəza məktəbləri açıldığı zaman, hökumət başqa fənlərlə bərabər, həmin məktəblərdə tatar dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı. Mənə məlum olduğuna görə bu çətinliklər hələ də aradan qaldırılmamış və bu dil hələ indiyə qədər demək olar ki, ancaq təcrübi qayda ilə öyrənilir. Tiflisdə teatr təsis olunduğu zaman bir çox adamlarda ədəbiyyata, xüsusilə dram sənətinə böyük həvəs oyanmışdı. O zaman məndə tatar dilində komediyalar yazmaq fikri oyandı" (5.səh.58). Göründüyü kimi, M.F.Axundov 1796-cı ildə İrana yürüşdə iştirak etmiş, sonradan burada səlahiyyətli səfir kimi fəaliyyət göstərmiş, 1816-cı ildən Qafqaz korpusunun komandanı olmaqla çarizmin işğalçı siyasətini həyata keçirsə də, yerli tatarlar arasında maarifçiliyi yaymağa cəhd göstərmiş Çingizxanın törəməsi general Aleksandr Yermolovun fəaliyyətinin əsasında dövlət siyasətilə yanaşı, bi tatar oğlu kimi şəxsi prinsiplərinin olduğuna da sözarası işarə vurur.

23 sentyabr 1857-ci ildə Qafqaz canişinliyinin dəftərxana direktoruna yazdığı məruzədə M.F.Axundovun əlifba məsələsində necə israrlı və qətiyyətli olduğu üzə çıxır: "Müsəlmanların ədəbiyyatını ağır vəziyyətdə saxlayan əlifbanın həmişəlik bir maneə kimi yaşamasına imkan vermək olmazdı. Hətta 500 il bundan sonra olsa belə bu əlifbada mütləq bir dəyişiklik əmələ gətirmək lazımdır. Ancaq mən belə bir dəyişikliyi tezliklə icra etmək qərarına gəldim; bütün nöqtələri atdım, indiyə qədər yazılmayan sait hərfləri əlifbaya daxil etdim. Onların hər birisi üçün gözəl şəkillər ixtira etdim. Əlifbanı çatışmayan hərflərlə tamamladım, hərflərin hər birisi üçün nöqtələrin köməyi olmadan xüsusi bir şəkil tapdım, danışmaq və ifadəni aydınlaşdırmaq üçün bir neçə lazımi durğu işarəsi yaradaraq düzgün yazmaq və yazını asan üsul ilə öyrətmək üçün qaydalar göstərdim və bu yol ilə də ərəb, fars və türk dilləri üçün yeni bir əlifba tərtib etdim ki, öz xüsusiyyəti etibarilə köhnə əlifbaya əsla biganə deyil və tamamilə məqsədəuyğundur" (5.səh.63).

1857-ci ildə əlifbasını dəyişdirmək fikrini fars dilində yazdığı bir kitabçada əsaslandıran M.F.Axundov İrandan iş açmayacağını görüb 1863-cü ildə Qafqaz canişininin icazəsi ilə İstanbula gedərək Osmanlı dövlətinin sədr-əzəmi Fuad paşayla görüşür və türkcə "Təmsilat"ı ilə bərabər gəlişinin məqsədini də yazılı olaraq təqdim edir. Sədr-əzəmin əmri ilə əlifbanın dəyişdirilməsi məsələsi müzakirə edilərək hər cəhətdən əlverişli hesab olunsa da, bəzi hərflərin bitişik olması səbəbindən çap işində çətinlik yaradacağı söylənilib həyata keçirilməsinə icazə verilmir. Bu məsələ ilə bağlı M.F.Axundov yazır: "Mən dedim ki, bu nöqsanı aradan qaldırmaq üçün köhnə islam əlifbasında tam bir dəyişiklik aparmaq lazım gəlir. Buna görə də islam əlifbasındakı hərflər, avropalıların yazısında olduğu kimi bitişməz olmalıdır. Yazı soldan-sağa doğru yazılmalıdır. Nöqtələr tamamilə atılmalıdır. Hərflərin şəkilləri latın əlifbasından seçilməlidir və sait hərflərin

hamısı samit hərflərin sırasında yazılmalıdır. Sözün qısası, sillabi əlifbamız alfabeti əlifba ilə əvəz edilməlidir" (5.səh.269). Bu səfərdən sonra ruhdan düşməyən, ruhanilərə güzəştə gedərək, hətta sağdan-sola yazılışa da razılaşsa da, dini fanatizm sayəsində bir nəticə hasil olmadıqda Mirzə Fətəli tutarlı dəlillərə əsaslanan "Kəmalüddövlə" əsərini yazıb öz daxili üsyanını bədii şəkildə gələcək oxucularına çatdırır. Maraqlıdır ki, 1918-1923-cü illərdə Mustafa Kamal Atatürkün başçılıq etdiyi milli azadlıq hərəkatından sonra Türkiyədə ədəbi dil normalarının tədqiqi və nəhayət, 1928-ci ildəki "Dil devrimi" adı ilə həyata keçirilən əlifba islahatlarının latına keçid ideyası da Axundovun adı ilə bağlıdır.

M.F.Axundov maarifçilik prinsiplərinin reallaşmasında yorulmadan çalışaraq xalqı elm öyrənməyə sövq edən, mətbuatımızın ilk qaranquşu "Əkinçi"nin naşiri H.B.Zərdabiyə 1 yanvar 1877-ci il tarixli məktubunda: "Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy!" – deyə xitab edərək ən səmimi fikirlərini yazırdı: "Elmi harada öyrənək və kimdən öyrənək və hansı dildə öyrənək?" sualı ilə məktəblərin, müəllimlərin, dərsliklərin yoxluğundan yana-yana söz açan dahi sənətkar daxili birliyin olmasını da əsas əngəllərdən biri sayırdı: "Qafqaz bölgəsində sakin olan müsəlmanların yarısı şiədir, yarısı sünni. Şiələrin sünnilərdən zəhləsi gedir, sünnilərin şiələrdən. Heç biri bir-birinin sözünə baxmaz, ittifaq hardan olsun? Vəsiləmiz dəxi yoxdur. Ondan ötrü ki, türki və farsi və ərəb dillərində on beş ilin müddətinədək ancaq bir yarımçıq savad kəsb etməyə qadirik. Əgər müttəsil oxusaq, aya, bu dillərdə elmi necə öyrənək? Sənin sözünə qoy osmanlılar və qızılbaşlar baxsınlar. Pəs onlar niyə elmsizdir? Külli-Ərəbistan bisavaddır. Ərəblər ya dilənçilik, ya çəpəvolçuluq edirlər. Külli-Anatoliya bisavaddır. Külli-İran bisavaddır. Ancaq İstanbulda və Tehranda və Təbrizdə beş-altı nəfər yazan və oxuyan tapılır. Səbəb odur ki, müsəlman dillərində oxumaq çətindir. Bir də şikayət edirsən ki, sənin qəzetini alan yoxdur. Sözün çox hesabı. Kim alsın? Vəqta ki, şəhərlərdə və kəndlərdə və obalarda xanzadəmiz, bəyzadəmiz, sövdəgərzadəmiz, əkinçilərimiz, sərkarlarımız, çobanlarımız oxumaq və yazmaq bilmirlər, ünas əhli hakəza, qəzetəni alıb neyləsinlər? Cırsınlar və tullasınlar? Külli-İrəvan quberniyasının xalqı türki oxumaq bilmir. Qalan yerlərdə ki, bir paraları filmcümlə oxumaq, yazmaq bilirlər, alıblar. Dəxi nə istəyirsən? Sənin muradın o vaxtda kamilən yetər ki, bizim hətta çobanlarımız da Prus çobanları kimi oxumaq, yazmaq bilərlər və ünas tayfamız da oxumaq bilə. Təvəqqe edirəm ki, mənim bu kağazımı biduni-ziyd və nöqsan onun cavabı ilə öz qəzetində basasan" (5.səh.255). Göründüyü kimi, içərisindən çıxdığı qövmün ağrı-acılarını çəkib onun maddi və mənəvi qayğıları ilə yaşayan Axundov vəziyyətdən çıxış yolunun yalnız maarifçilik olduğunu hesab edirdi. Geniş kütlə arasında maarifçiliyin təbliği üçünsə ilk növbədə savadlanmaq və əlbəttə ki, milli mətbuat gərək idi.

XIX əsrdən Azərbaycanda dövri mətbuatın yaranması tarixi zərurət kimi meydana çıxdı. Tiflisdə çap olunan "Tiflisskie vedomosti" (1828-32) qəzetinin 1832-ci ildəki saylarında, azərbaycan dilində Abbasqulu ağa Bakıxanov haqqında məlumat və səyahətnaməsindən parçaların dərc edilməsi milli maarifçiliyə az da olsa xidmət etsə də, 1804-cü ildə Gəncənin işğalının rusların qəhrəmanlığı kimi əks olunması xalqımızın mənəviyyatının təhqirinə çevrildi.

1838-ci ildən Tiflisdə buraxılan "Zakavkazski vestnik" qəzetinin isə 1845-ci ildən azərbaycan dilində nəşr olunduğu müddətdə bu xalqın tarixi və müasir həyatı ilə bağlı materiallar da çap etdiyi məlumdur. Lakin müstəmləkə psixologiyası əsasında dövlət ideyalarını diktə edən bu nəşrləri bülleten-vərəqə hesab etmək olar. Bütövlükdə isə "Zakavkazski vestnik" qəzeti müstəmləkə siyasətinin strategiyasına xidmət edən siyasi və dini təbliğatla məşğul idi. Qəzetin 1851-ci il 1 iyun tarixində çıxan sayında dəqiq fakta əsaslanmayan mücərrəd məqalədə oxuyuruq: "Bir müsəlman Tiflisdəki Şavnabadi kilsəsinin yanından keçərkən ona öz tutub "əgər sənin qüdrətin varsa mənim köhnə çarıqlarımı yenisi ilə əvəz et" söyləmiş və evinə çatdıqdan sonra onun ayaqları tutulmuşdur" (229). Məqalədən göründüyü kimi, guya qohumları həmin adamı yenidən kilsəyə gətirmiş və ayaqları açıldıqdan sonra o şəxs məmnuniyyətlə xristianlığı qəbul etmişdir. Bütün bunlarla yanaşı, qəzet M.F.Axundovun ədəbi fəaliyyətini işıqlandırır, 1853-cü ildə onun beş pyesinin kitab şəklində çap olunduğunu da xəbər verir. Professor Nazim Axundovun göstərdiyi kimi N.Berdzenov qəzetin 1853-cü ildə 28 və 34-cü saylarında çap etdirdiyi "Axundovun komediyaları" məqaləsində yazır: "Axundovun komediyaları burada və Rusiyada geniş maraq doğurmuşdur. Onların məzmununu bu vaxta qədər heç kimin toxunmadığı məsələlər təşkil edir". (7.səh.36).

"Zakavkazski vestnik" ilə paralel olaraq çıxan "Kavkaz" qəzeti M.F.Axundov yaradıcılığına daha geniş yer verirdi. 1851-56-cı illərdə ədibin özünün ruscaya tərcümələri, komediyaları və "Aldanmış kəvakib" povesti də silsilə şəklində məhz bu qəzetdə çap olunurdu.

XIX əsrdən Rusiyada başlanan maarifçilik hərəkatı dalğasının əsrin sonlarından ucqarlara da gəlib çatması hesabına məktəblərin, qiraətxanaların, mətbəələrin və qəzetlərin açılması Qafqazın da ictimai həyatında mühüm rol oynadı. Bu hərəkatı dəyərləndirən tədqiqatçı Rasim Mirzə yazır: "Həmin maarifçilik, əlbəttə, imperiyanın Qafqazdakı "vəhşi", "qeyri-mədəni" saydığı xalqları ram etmək yollarından biri kimi düşünülmüşdü. Subyektiv olaraq hakimiyyətə loyal münasibət bəsləyən Rusiya təbəələri yetişdirmək məqsədi izləyirdi, lakin obyektiv surətdə ilhaq etdiyi xalqa tarixi-mədəni xidmət idi" (60.səh.120). Məhz bu ilkin maarifçilik hesabına təhsil görüb savadlanmış ziyalılar ictimai şüurda müstəqillik toxumu səpərək gələcəkdə qurulacaq azad və suveren dövlətlərin demokratik dəyərlərə əsaslanan ideoloji bünövrəsini yaradırdılar.

1883-cü ildə H.Z.Tağıyevin (1823-1924) tikdirdiyi teatr binası əsas fond kimi bu sənətdə dövriyyə vəsaiti sayılan pyeslərin yaranmasına imkan verərək maarifçiliyin bərqərar olmasında müstəsna rol oynadı. Elə həmin ildən peşəkar teatr qrupuna çevrilən həvəskarlar truppası M.F.Axundov, N.Vəzirov, Ə.Haqverdiyevin pyeslərini oynamağa başladı. XIX əsrin 80-ci illərindən hələ dini fanatizmin hökm sürdüyü bir şəraitdə mal-dövlətini maarifçilik işinə əsirgəməyən H.Z.Tağıyevin xahişi ilə H.Zərdabi 1896-cı ilin yanvarından Nikolayevski (İstiqlal) küçəsində inşasına başlanan gözəl binanın qız məktəbi kimi fəaliyyətinə icazə almaq barədə Bakı qubernatoruna müraciət etsə də, bir nəticə hasil olunmadı. III Aleksandr tərəfindən də məktəb açmaq barədə yazılı xahişinə rədd cavabı alan H.Z.Tağıyev çarın ölümündən sonra onun arvadı Aleksandra Fyodorovnaya qiymətli hədiyyələr göndərib açacağı məktəbin də onun adına adlandırılacağına söz verir. 7 oktyabr 1991-ci il "Kaspi" qəzetinin 218-ci sayının ilk səhifəsindəki elandan göründüyü kimi: "Bazar günü saat on ikidə dəvətnamələri olanların Aleksandra Fyodorovna adına rus-tatar qız məktəbinin açılışında gözlənildiyi bildirilir" (235). 9 oktyabr 1901-ci il "Kaspi" qəzetinin 219-cu sayındakı təfsilatlı məqalədə yazılır: "Məktəbin idarəçiliyini həyata keçirən hamilər şurasında H.Zərdabi, onun həyat yoldaşı – məktəbin direktoru Həmidə xanım, təsisçi H.Z.Tağıyevin özü və xanımı, Bakı quberniya qazisi, xalq məktəblərinin direktoru, kişi gimnaziyasının direktoru, qadın məktəbinin rəisi, üç nəfər duma qlasnısı, "Kaspi" qəzetinin naşiri və redaktoru Ə.Topçubaşov və Peterburq Dağ-Mədən İnstitutunun məzunu mühəndis Fərrux bəy Vəzirov daxil idi. Yüksək rütbəli çar məmurlarının iştirak etdiyi bu mərasimi açan Ə.Topçubaşovun rusca yazılı məktubunda deyilirdi: "Bu gün müsəlmanların məhəlləsində görünməmiş bayramdır! Bu xoşbəxt məqam bütün mütərəqqi müsəlmanların arzusunun çin olduğu gün kimi tarixə düşür. Gələcək tarixçilər bizim indi bayram etdiyimiz bu günü müsəlman qadın intibahının başlanğıcı hesab edəcəklər. Müsəlman aləmi üçün mühüm əhəmiyyət kəsb edən bu tarix ictimai, dövləti və beynəlxalq əhəmiyyətli bir mütərəqqi hadisədir. Qadın intibahının meydana çıxmasına şərait yaradanlardan biri, bu bayramın səbəbkarı, böyük maarifçi sizsiniz, çox hörmətli Hacı Zeynalabdin!" (131).

Qəzetin göstərdiyi kimi: "Yazılı təbrikə ilk imza atan müsəlman ziyalılarının imzasına Həsən bəy Məlikov bu sözləri də əlavə etdi: "Çox yaşa Hacı!" (131). Qeyd etmək lazımdır ki, rusca çıxan "Kaspi" qəzeti Həsən bəyin salonda əks-səda verən "Çox yaşa Hacı!" sözlərini doğma dilimizdə çap etməklə yanaşı, "Ura! Ura! Ura!" "Vivat noster Taqieff!" nidalarına da yer vermişdi. Ə.Ağaoğlu qəzetin yaradıcısı kimi tatarca oxuduğu təbrikdə "müsəlmançılığın üzərinə maarif günəşinin doğulduğu bu gündən yaranmağa başlayan təhsilli anaların bəşəriyyəti savadsızlıq zülmətində məhv olmaqdan qoruyacaq gələcək

nəsillərin mütərəqqi cəmiyyəti üçün təminat oldu"ğunu və bu işdə H.Z.Tağıyevin müstəsna əhəmiyyətini göstərirdi. Məqalədən göründüyü kimi, məktəbin açılışı münasibətilə göndərilmiş teleqramlar arasında Baxçasaraydan İsmayıl bəy Qaspralının təbrikindəki: "Bu gün Rusiya müsəlmanlarının maarif dünyasının yaddaşında böyük hadisədir. Sizin əməllərinizi və xeyirxahlığınızı unutmayacağıq, cənab Tağıyev" (131) sözləri türk dünyası maarifçiliyini yaradanlar arasındakı rezonansdan xəbər verirdi. Çıxış etmək üçün söz alan H.Z.Tağıyevin: "Bu binanın təməli möhkəmdir. Hesab edirəm ki, binaya bir mərtəbə də əlavə etmək mümkündür. Bu gün mənim ən böyük arzum həyata keçir" (236) sözləri salondakıları riqqətə gətirir. Qəzetin yazdığı kimi mərasimin sonunda məktəbin müəllimi Mirzə Yaqub Əlizadənin yaratdığı qızlardan ibarət xorun ifasında tatar xalq mahnıları, çara dua və təhsilə alqış nəğmələrinin oxunması bədii hissəni tanmamlayır.

1899-cu ildə N.Nərimanovun "Türk-azərbaycan dilinin müxtəsər nəhvi" kitabı çapdan çıxır. 1901-ci ildə Rəşid bəy Əfəndiyevin yazıb nəşr etdirdiyi "Uşaq açıqgözlüyü" (Bəsirət-ül-ətfal) kitabı birbaşa maarifçiliyin ilk dərsliyi olur. Həmin il Həsən bəy Zərdabinin tərtib etdiyi "Türk mahnıları" külliyyatının nəşri də bu istiqamətdə əhəmiyyətli addım idi. 1902-ci ildə Ə.Topçubaşovun "Kaspi" qəzetinin nəzdində yaratdığı rusca-azərbaycanca kitabxana, 1907-ci ildə isə Bakı rus-tatar məktəblərinin müəllimləri M.Mahmudbəyov, S.Əbdürrəhmanov, S.S.Axundov, F.Ağayev, A.Şaiq və Ə.Əfəndiyevin tərtib etdikləri "Üçüncü il" dərsliyi bu müqəddəs işin davamı oldu. 1906-07-ci illərdə M.Mahmudbəyovun redaktorluğu ilə "Rəhbər", Q.Mirzəzadə və A.Əfəndiyevin müştərək redaktorluğu ilə "Məktəb" jurnallarının nəşri metodik vəsait kimi müəllimlərin pedaqoji fəaliyyətinə güzgü tuturdu. 1906-1908-ci illərdə A.İ.Cəfərzadənin və M.H.Əfəndiyevin redaktəsi ilə nəşr olunan şəkilli "Dəbistan" jurnalı isə şagirdlərin sevimli vəsaiti idi.

1908-ci ildə işıq üzü görmüş Ü.Hacıbəyovun "Hesab" kitabı, 1910-cu ildə Abdulla Şaiqin "Uşaq gözlüyü" adlı birinci sinif dərsliyi, 1911-ci ildə K.Nərimanbəyovun və M.M.Qəmərlinskinin "Ana dili", 1912-ci ildə F.Köçərlinin "Balalara hədiyyə", Q.Qarabəyovun tərtib etdiyi "Türkcə-rusca tam lüğət", 1914-cü ildə Q.Mirzəzadənin "Qafqaz coğrafiyası"nın nəşri tədris üçün əvəzsiz dərs vəsaitinə çevrildi. Sonrakı illərdə Azərbaycanın iri yaşayış məntəqələrinin əksəriyyətində müəllimlik fəaliyyətilə məşğul olan pedaqoqların bir çoxu qiraətxanalar açdılar ki, onlar da maarifçilik işində müstəsna əhəmiyyətə malik oldular.

1918-ci ildə Novruz bayramı ərəfəsində Şaumyanın başçılığı ilə Daşnak bolşevik hərəkatının törətdiyi qırğından sonra fəaliyyətini bərpa edə bilməyən qızlar məktəbinin binası Cümhuriyyət dövründə parlamentə həvalə olundu. Manaf Süleymanovun yazdığına görə 16 dekabr, 1918-ci ildəki parlamentin üçüncü

iclasında çıxış edən "H.Z.Tağıyev sadə bir dildə dedi: "Hökumətdən şikayət edirəm. Qoymurlar ki, fabrikanın malını özüm camaata satım. Bezin arşınını xam arşını ilə beş manatdan alıb kənarda on yeddi manata satırlar. İçində olduğunuz bu bina mənimdir. Qız məktəbinə vermişəm. Burada gərək qızlarımız oxusun. Hökumət binanı əlimdən aldı, idarə elədi" (81, səh.38).

Cümhuriyyət dövründə Təhlükəsizlik İdarəsinin rəisi olmuş Nağı bəy Keykurun (Şeyxzamanlının) H.Z.Tağıyevin xeyriyyəçiliyi barədə yazdıqları maraq doğurur: "Bir gün məşhur türkçü İsmayıl bəy Qaspralı Bakıya gəlir və Hacını ziyarət edir. Söhbət əsnasında İsmayıl bəy Krımın Baxçasarayındakı hər nüsxəsində "Dildə, fikirdə, işdə birlik" ideyasını yayan "Tərcüman" adlı qəzetinin az oxunduğundan, abunəçilərinin az olduğundan şikayətlənir. Bakıda nəşr olunan qəzet və jurnallara daim yardım göstərən Hacı ertəsi gün katibinə: "Qafqazın şəhər və kəndlərini gəzərsən, nə qədər türkcə oxuyan varsa isim və ünvanlarını qeyd edib mənə təqdim edərsən" – deyir. Bu iş başa çatdıqdan sonra Hacı ödənişlə abunəçilərin isim və ünvanlarını da Qaspralıya göndərir. Bu vəziyyət illərlə davam edir. Sonralar qəzet alanlara məlum olur ki, abunə pulu Hacı Zeynalabdin tərəfindən ödənilirmiş" (83.səh.156). Nağı bəyin yazdığı kimi Azərbaycan xalqı istiqlalına qovuşduqdan, mərkəz Gəncədən Bakıya köçdükdən sonra, Fətəli xan Xoyskini ziyarət edib: "Əgər hökumətinizə pul lazım olarsa, bütün var-dövlətim sizin ixtiyarınızdadır" xitabını edən, Cümhuriyyətin ikinci ilində Dövlət Universitetinin açılışında isə öz çıxışında "Əziz qardaşlarım, mən Bakıda bir çox məktəblərin açılışında iştirak etmişəm. Bakıda universitet açılmasını çox arzu edirdim. Nə yaxşı ki, ulu Tanrım məni məyus etmədi, öz dövlətimizi qurduq və Bakıda universitet açdıq. Mənim də bu ürfan ocağında bir hikmətim olsun deyə bu binanı universitetə hədiyyə edirəm" (83.səh.158) – deyən Tağıyev qlobal maarifçiliyini daim davam etdirsə də, qız məktəbinin idarəyə çevrilməsini maarifçilik tarixində müstəsna işlər görmüş Cümhuriyyət hökumətinə bağışlaya bilməmişdi.

Müsəlmanlara və türklərə mürtəce münasibət göstərən çarizm siyasətinin ayrı-seçkiliyi nəticəsində dövlət və hərbi işlərdə azəri türklərinə etimad göstərilməməsi, sünni-şiə məzhəblərinin qarşılaşdırılması hər zaman gündəmdə dururdu.

XIX əsrin ikinci yarısında neft sənayesinin yaratdığı ictimai-siyasi və mədəni mühit Bakıda kütləvi informasiya vasitələrinin, xüsusilə də qəzetlərin yaranma zərurətini meydana çıxardı. "Kavkaz" qəzetinin 1868-ci il 5-ci sayında oxuyuruq: "Bakıda çap və qəzet nəşri həvəsində olanlar vardır. Ticarət qəzeti çap etdirmək istəyənlərin sayı ədəbi qəzet həvəskarlarından daha çoxdur" (127).

Axundovun təsiri ilə Həsən bəy Zərdabinin (1832-1907) yaratdığı, mətbuat tariximizin başlanğıcı olan "Əkinçi" (1875-1877) qəzetinin maarifçi-demokrat

yönümünü təsdiq etməsi fərəhləndirici haldır. Milli mətbuatımızın banisi Həsən bəy Zərdabi nəşrinə hazırlaşdığı "Əkinçi" qəzetinin çapına icazə almaq üçün 12 aprel 1873-cü ildə Bakı qubernatoruna yazırdı: "Quba mülkədarı general mayor Abdulla ağa Bakıxanov mənə Bakı şəhərində tatar dilində pulsuz olaraq qəzet nəşr etmək məqsədilə mətbəə açmaqdan ötrü 1000 manat pul verir. Bu təsadüfdən istifadə edərək, mən aşağıdakı şərtlər əsasında qəzet nəşr etməyi qərara almışam" (161).

Göründüyü kimi, Həsən bəy ilk öncə gələcək qəzetin maliyyə mənbəyini rəsmi idarəyə açıqlayır və bundan sonra şərtləri göstərir. Həsən bəy Zərdabi satış probleminə də öncədən ciddi yanaşırdı. O, 1873-cü ildə M.F.Axundova göndərdiyi məktubunda yazırdı: "Mənim nəşrinə başlamaq istədiyim qəzetlə əməkdaşlıq etmək istədiyinizi bildirirsiniz. Mütəşəkkirəm, ancaq bədbəxtlikdən hələ bu vaxtacan icazəni ala bilməmişəm. Sizin baron bu barədə nə fikirləşir bilmirəm. Amma mənə elə gəlir ki, qəzetə münasibəti yaxşı deyil. Nə isə falçılıq eləməyək, görək nə olur. Qəzetin nəşri haqqında olacaq elanı sizə göndərirəm ki, yayılmasına kömək edəsiniz" (5.səh.315). Cavabında Axundov belə yazır: "Mənə göndərilən elanlardan on dənəsini xahişimə əsasən buradakı İran konsulu cənabları qəbul etdi. Beləliklə, on nəfər abunəçinin pulunu oradan alacaqsınız. Qalan on beş elana gəlincə, onlar hələlik məndədir. Mən nəzərdə tutmuşam ki, savadlı tanışlarıma təsadüf etdikcə, bu elanlardan onlara təqdim edərək sizin qəzetinizə abunəçi olmalarını xahiş edim" (5.səh.243).

Moskvada Petrovsko-Razumovskaya Akademiyasında təhsil alan Nəcəf bəy Vəzirov (1854-1926) "Əkinçi" qəzetinə abunəçilərin yığılması üçün böyük səy göstərirdi. Halbuki, orada Nəcəf bəyin maliyyə vəziyyəti olduqca ağır idi. Sonralar özünün yazdığı kimi: "Havası soyuq Moskvada üstümə örtəcək bir yorğanım da yox idi. Gecə üstümə dünya malından təkcə gümanım gələn, bircə palasımı çəkərdim. Bu palas da, mənim hali-pərişanım kimi bir halda idi... Əgər bu palas indi əlimə keçərsə, çox baha qiymətə alardım" (87.səh.401). O palas yəqin ki, tarix muzeyimizin ən dəyərli eksponatlarından birinə çevrilərdi.

Təkcə nəşrinin icazəsinə üç il vaxt sərf etdikdən sonra nəhayət, böyük zəhmət bahasına Həsən bəy 400 nəfərlik abunəçi yığmağa nail olur. Onun 22 iyul, 1875-ci ildə "Əkinçi" qəzeti işıq üzü gördü. Nəcəf bəy Moskvada qəzetin yayılması üçün fədakarlıqla çalışırdı. O, "mənim sevimli, əziz müəllimim Həsən bəy!" – deyə yazırdı: "Qəzetin ilk iki nömrəsini aldım ... hərçənd çətin olsa da, burada abunəçilər taparam" (92). Xalqı tərəqqiyə səsləyən bu qəzetin davamlı olaraq işıq üzü görməsi üçün ziyalılarımızın səyi göz qabağındadır. Qəzetin ilk sayındakı iqtisadiyyat mövzusundakı məqalə alış-verişə dair vergi ilə bağlı dövlət qərarlarını araşdırır və bu xüsusda dəyərli məsləhətlər verir: "Bir neçə ildir ki, Rusiya dövlətinə tabe olmuşuq və bu çağadək bizim ticarətimiz qədim sayaq olan

kimi olubdur. Amma Rusiya dövlətinin öz əhli zikr olan xərci çox zamandır ki, verir... Doğrudur, bezi arşın ilə satıb altmış manat xərc verməyin nəfi azdır. Amma əlli min manat mayası olan kəsə, bu tövr ticarət artıq nəf edir. Onun üçün altmış manat artıq xərc deyil. Bəs min manat mayası olan kəs, sənin dad etməyin nə lazım. Bezi arşın ilə satmağın xərci çoxdur, bez satma, min manatla elə alış-veriş et ki, onun xərci az olsun və ya heç olmasın" (90.səh.19). "Əkinçi"nin 25 iyul 1876-cı il 14-cü sayındakı məqalə analitik şəkildə yeni qanunu araşdırır: "Cənab Sərdarın dəftərxanası bəyan edir ki, iyulun əvvəlində Qafqazda araq çəkənlər üçün təzə qanun qoyulub. Arağın bərkliyi gərək 40 dərəcə olsun və hər dərəcəyə 7 qəpik xərc var. Üzüm və qeyri-meyvələrdən araq çəkən, onun qazanının hər vedrəsinə hər gündə gərək versin maşın işləyirsə 41 qəpik, maşınsız araq çəkilirsə 5 qəpik. Kişmişdən araq çəkən maşın olsa 3 manat 90 qəpik, olmasa 2 manat 60 qəpik. Məxsusi bağı olanlar öz meyvəsindən araq çəkəndə gərək zikr olan xərci versinlər. Amma onlarda ixtiyar var şəhadətnaməni 1-7 günə alsınlar, lakin qeyri-kəslər gərək bir ilə ala" (90.səh 214).

"Əkinçi" qəzeti mühüm sosial ictimai hadisəyə çevrilsə də, daim maliyyə problemi ilə üzləşirdi. Məlum olduğu kimi qəzetdən gələn gəlir "Müsəlman şagirdlərinə yardım" cəmiyyətinin xeyrinə sərf olunurdu. Milli mətbuatımızın qaranquşu sayılan "Əkinçi"nin qayəsi olan xalqını bütün sahələrdə maarifləndirmək prinsipi həmişə qorunub saxlanılırdı. 19 dekabr 1975-ci il tarixli "Əkinçi" qəzetinin 11-ci sayında Nəcəf bəy Vəzirov Moskvadan göndərdiyi məqaləsində aqrar maarifçilik məsələlərini önə çəkərək oxuduğu Petrovski Akademiyasının əkinçilik və maldarlıq sahəsindəki müasir təlimlərini və yaradılmalı olan şəraiti oxuculara çatdırırdı: "Akademiyanın öz yerində meşələr, əkin yerləri və malları var ki, oxuyanlar elmləri oxumaqdan savayı, özləri əkin əkib, meşə saxlayıb maldarlıq etsinlər. Bu dəfə bizim mal-qara saxlamağımızdan danışaq: akademiyanın 100 baş malı var ki, bu halda qış olduğuna görə onları töylədə saxlayıblar. Töylə bir mərtəbə daş evdir. Onun ortasında uzunlamasına iki cərgə axurlar qayrılıb və axurların arasında dəmir yolu ayrılıb ki, bir fəhlə əlində ərradə o yolda gedib-gələ bilsin. Töylənin axur olan yerləri, yəni ortası hündür, amma divarlarının yanı bir az alçaqdır ki, malların nəcisi və sidiyi axıb oraya getsin. Hər bir malın öz yeri və axuru var. Onları zəncir ilə üz-üzə bağlayıb səkkiz ay ki, bizim qışdır saxlayırlar. Bir fəhlə əlində ərradə axurların arası ilə gedib hər gündə beş dəfə mallara yem verir: sübh saat rusi beşdə, onda və on birdə, günortadan sonra saat dörddə və altının yarısında. Əvvəl dəfə quru ot və saman, ikinci dəfə su buğunda saxlanmış yem. Bu yemi belə qayırırlar: kələm və zılx yarpaqlarını bir böyük qazana qat-qat yığıb üstə maşın ilə doğranmış zılx, yerkökü töküb onun üstə kəpək töküb qazanı doldurub üstə bir az duz səpib ağzını bərkidirlər. Sonra bir qeyri qazanda su qaynadıb onun buğunu novça ilə əvvəlinci

qazana aparıb o buğun içində yemi bir gecə saxlayıb sübh saat onda mallara verirlər, üçüncü dəfə yenə ot ya saman. Bəzi vaxtda saat on ikidə mallara turş yem verirlər. Turş yemi belə qayırırlar: kələm və i.a. yarpaqlarının hər birini bir əlahiddə quyuda turşudurlar. Quyunun uzunu iki sajın, eni və dərinliyi bir sajındır. Onun dibini və yanlarını taxta ilə tutublar ki, yağış suyu ona dolmasın və yarpaqların suyu oradan çıxmasın. Hər bir araba yarpağa bir girvəngə duz səpib quyunu doldurub üstünü torpaqlayırlar. Belə saxlanmış yarpaqları iyirmi gündən sonra mallara vermək olar. Malları iki dəfə sulayırlar. Bir sübh saat səkkizdə və bir də günorta saat üçdə. Hər səfər qaynanmış və kəpəyə qarışmış su verirlər. Malları hər gün iki dəfə şotka və qaşo ilə təmiz edib, iki dəfə də onların altının otlarını dəyişdirirlər" (87.səh.391-392).

Bu qəzetin 21 iyul 1877-ci il 15-ci sayındakı bir elanı nəzərdən keçirək: "Pavel Yeqoroviç Zaparojçenko ki, tamojnaxanada ambarçılıq edirdi – məlum edir ki, sudlarda vəkillik eləməkdən ötrü şəhadətnamə alıb. Hər kəs onu vəkil etməyə xahiş etsə onun mənzilinə getsin ki, Kokorevin imarətində sakin olur" (90.səh.414). Elanın mətnində ambarçının vəkil şəhadətnaməsi almasına açıq müqavimət hiss olunaraq "Əkinçi" qəzetinin dövrün reallıqlarını informasiya gerçəkliyi zəminində oxucularına çatdırması təsdiqini tapır.

1877-ci ildə "Əkinçi" bağlandıqdan sonra mətbuat aləmində boşluq yarandı. 1879-cu ildə çar hökuməti Tiflisdə Zaqafqaziya ruhani idarəsinin üzvü Seyid Ünsizadəyə "Ziya" qəzetini çap etməyə icazə verdi. Sonradan bu qəzetin adı dəyişib "Ziyayi-Qafqaziyyə" (1879-84) oldu. Qəzet öz səhifələrində əsasən dini təbliğatı ön plana çəkirdi. Və təbii ki, ərəb-fars kəlmələrindən gen-bol istifadə edirdi. Akademik M.İbrahimov qəzet barədə yazır: " ..."Ziya" və "Ziyayi-Qafqaziyyə" kimi mürtəce fikirlər və mövhumat yayan qəzetlər və onların ətrafına toplaşmış şəxslər, əlbəttə, mütərəqqi-demokratik hərəkatın qarşısını ala bilmədilər. Lakin əngəl törətdilər" (38.səh.85). Qəzet dini təbliğatla yanaşı, çar üsuli-idarəsinə birbaşa yarınmaqdan da çəkinmirdi. Bilavasitə peşəkar üslubun yoxluğundan bu kobud şəkildə üzə çıxırdı: "Xudavədi-aləm padşah imperatorumuzu mühafizə və vüqayə etsin" (142).

Bu dövrdə milli mətbuatımızın banisi, peşəkar qələm sahibi Həsən bəy Zərdabi kənara çəkilməyə məcbur olmuşdu. Məddahlıq və yaltaqlıq rəsmiləşdirilməkdə idi. Siyasi təqiblərə məruz qalan Həsən bəy Zərdabi 1880-ci ildə ailəsilə doğma Zərdaba köçür. 1896-cı ildə Bakıya qayıdaraq Dövlət Dumasında çalışmaqla yanaşı, "Kaspi" qəzetilə əməkdaşlıq etməklə kifayətlənir.

XIX əsrin sonlarında Azərbaycanda rus dilində ona yaxın mətbu orqan nəşr olunurdu ki, onlardan biri "Kaspi" (1881-1919) qəzeti idi. 1881-ci ildən Bakıda rus dilində çap edilən "Kaspi" az vaxt ərzində geniş populyarlıq qazanmışdı. Qəzetlə yaxından əməkdaşlıq edən M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu,

N.Nərimanov, C.Hacıbəyov kimi milli ziyalılar kommersiya istiqamətində belə maarifçiliyi önə çəkirdilər. "Kaspi" qəzetinin 6 iyul 1893-cü il 144-cü sayındakı "Provaslavlığa qoşulun" çağırışındakı: "Bazar günü iyunun 4-də Bakı qəzasının Türkan kəndinin sakini, 33 yaşlı Səfər Əli oğlu kilsədə provaslavlığı qəbul edib və Sergey Vasilyeviç Vasilyev adlandırılıb" (128) məlumatı artıq yerlərdə xristian dininin təbliği sahəsində ciddi addımlar atıldığının təsdiqidir. Məhz bu addımların yaratdığı əks reaksiya formalaşmaqda olan yeni ideologiyada islamlaşma faktorunu gücləndirirdi. Türkləşmək, islamlaşmaq və müasirləşmək formulunu azərbaycançılıq ideyasının təməli hesab edən Əli bəy Hüseynzadə və onun tərəfdarları maarifçilik istiqamətində daha qətiyyətlə fəaliyyət göstərməyə başladılar. Genetik yaddaşa söykənərək, öz soykökünə arxalanıb müasirləşməni hədəf seçən Əli bəy Hüseynzadənin maarifçiliyi avropalılarla qarşılıqlı mənəvi mübadiləyə mühüm əhəmiyyət verirdi. Onun maarifçilik konsepsiyası sistemli şəkildə inkişaf edərək Şərqin elm və sənət klassiklərinin dünyəviləşməsini alqışlayır, bəşəri dəyərlərin dilimizə tərcümə edilərək kitabxanalar vasitəsilə kütlələrin savadlanmasına yönəldilməsini vacib sayırdı.

1897-ci ilin oktyabrından "Kaspi" qəzetinin naşirlik səlahiyyəti xeyriyyəçi-kapitalist H.Z.Tağıyevin ixtiyarına keçir. 24 iyun 1898-ci ildən qəzetin redaktoru H.Zərdabinin kürəkəni, görkəmli hüquqşünas Ə.M.Topçubaşovun təyin olunması və onun 20 oktyabr 1907-ci ilə qədər bu vəzifədə çalışması "Kaspi"nin hüquq maarifçiliyi istiqamətində də yeni imkanlar açır.

1846-cı ildə çarın fərmanı ilə keçmiş bəy-xan zümrəsindən mülkədar sinfinin yaranması formal mahiyyət daşıyırdı. Çünki əslində idarəçiliyi rus hərbi rəhbərləri yerinə yetirirdi. 1861-ci ildə Rusiyada təhkimçilik hüququnun ləğv edilməsinin yerlərdə tətbiq edilməməsi istehsal vasitələrindən məhrum olmuş kəndlini kölə halında saxlayırdı. Rusiyanın özündə də təhkimçilik hüququnun ləğv edilməsi torpaq mülkiyyəti problemini həll etmədi, bu isə iqtisadiyyatın inkişafına əngəl törədirdi. XIX əsrin sonlarından başlayaraq torpaq da daxil olmaqla əsas vasitələr üzərində xüsusi mülkiyyətin sistemləşdirilməməsi kənd təsərrüfatının iflasa uğramasına və kütləvi aclığa səbəb oldu. Ağır və ləng işləyən mühafizəkar bürokratiya mexanizmi isə islahatların keçirilməsinə imkan vermədikcə əyalətlərdə baş verən talançılığın miqyası get-gedə artırdı. 29 avqust 1902-ci ildə Kursk quberniyasına səfər edən II Nikolay dəmiryol vağzalında yığılan yerli deputatlara müraciətində belə demişdi: "Talançılıqda günahkar olanlar öz cəzalarına çatacaqlar və gələcəkdə belə hallara yol verilməyəcəkdir. Unutmayın ki, başqasının malını qarət etməklə deyil, yalnız tanrının qisməti ilə halal əmək və qənaətçilik hesabına varlanmaq olar" (11.səh.167). Göründüyü kimi, rus çarı kəndliləri deyil, onu əhatə edən mülkədar və məmur zümrəsini öz çıxışı ilə razı salmaqla əsaslı islahatdan vaz keçmək məqsədi güdürdü. Halbuki, hələ ilin əvvəlində qraf L.V.Tolstoyun II

Nikolaya məktubundakı: “Təsəvvür edin ki, mənə yaxınlaşan ölümümü gözlədiyim halda sizə sanki o dünyadan yazıram... Mütləqiyyət öz ömrünü başa vurmuş idarəçilik formasıdır. Yüz milyonluq xalq torpaq mülkiyyətinin olunması sayəsində əkib-becərmək azadlığı əldə etmək istəyir. Düşünürəm ki, kəndliyə bu şəraiti yaratmaqla rus xalqının maddi rifahının yüksəlməsi istiqamətində əsaslı nəticələr əldə etmək mümkündür” (117.səh 475). Məsləhətlərinə əhəmiyyət verilməməsi hərbi gərginlik şəraitində milyonluq orduya əsgər verən xalqın maddi və mənəvi yüksəlişinə səbəb ola bilərdi.

Sələflərindən fərqli olaraq döyüşməyi sevməyən, nəyin bahasına olursa-olsun sülh əldə etmək istəyən II Nikolayın məğlubiyyətlərə dözümlülüyü belə ölkəni gözləyən uğursuz müharibənin qarşısını ala bilmədi. Saysız-hesabsız ərazilər işğal edib xalqların zindanına çevrilmiş imperiya əjdahasının başı bədənindən uzaq düşməkdə idi. Avstriya və Almaniya ilə sülh müqavilələri mehriban qonşuluq əlaqələrinə təminat versə də, hələ 1895-ci ildən Yaponiya ilə müharibə labüd idi. Təbiətlə ünsiyyəti önə çəkən buddizmin Dze fəlsəfəsinin “Seldən sonra baş qaldıra bilən ot, selin kökündən çıxara bildiyi nəhəng palıd ağacından güclüdür!” şüarını önə çəkən “kiçik” Yaponiya “böyük” Rusiyaya qalib gələcəyinə inanırdı. Bir milyonluq ordusu olan Rusiyaya qarşı yönələcək bu ədalət müharibəsində Çin və Koreyada canından keçmiş əsgər ruhlarının da iştirak edəcəyinin gerçəklik kimi qavranılması mənəvi gücün miqyasından xəbər verirdi.

27 yanvar 1904-cü ildə ənənəvi gözlənilməz hücum taktikasını seçən Yapon minaatan qayıqlarının “Царевич”, “Ретвизан” zirehli gəmilərini, “Поллада”, “Варяга” kreyserlərini batırmasının Port-Arturda yaratdığı çaxnaşma müxalifətin kütləvi ixtişaşları ilə əks-səda verdi. Beynəlxalq miqyasda isə “Yaponların azadlıq mübarizəsi”nə Amerika ilə İngiltərənin dəstəyi Rusiya daxilində sionizmin əməyi kimi dəyərləndirilərək antisionist dalğa formalaşdırması yəhudilərin xüsusi yer tutduğu məmur və tacir zümrəsində də hakimiyyətə inamsızlıq yaratdı.

27 fevral 1904-cü ildə donanma komandiri kimi Port-Artura gələn admiral S.O.Makarovun 31 martda öz ştabının yerləşdiyi “Аскольт” kreyserində iki dəqiqə ərzində batırılmasıyla Rusiya imperiyasının mifi dağıdıldı. 14 iyun 1906-cı il tarixli “İrşad” qəzetindəki “Yeni inqilab xadimi” məqaləsindəki M.Ə.Rəsulzadə yazırdı: “İş zahiri cüssədə deyil, ruhani və mənəvi qüvvət və istiqamətdədir. Yapon da cüssəsi, cəsaməti tərəfindən zəif idi, kiçik idi. Lakin cəsamətli və əzəmətli olan Rusiyanı nə günlərə qoydu, başına nələr gətirdi?” (70.səh.47).

Y.V.Çəmənzəminlinin 1916-cı ildə “Bizə ciddi mətbuat çoxdan lazım idi” məqaləsində yazdığı kimi: “Yaponların Uzaq Şərqdə ruslara qələbə çaldıqları cəmi Asiyaya əcaib bir təsir buraxdı: əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib ayılmağa başladılar. İslam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini açdı, kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri “maarif” deyə

səsləndilər. Məktəb, mətbuat, xeyriyyə, maarif cəmiyyətləri ortalığa çıxdı (15.səh. 175),

“Molla Nəsrəddin”, “Həyat”, “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “İqbal” və sair mətbu orqanlarda saysız-hesabsız publisistik yazıları dərc olunan Ü.Hacıbəyov (1885-1948) 15 may 1906-cı il “İrşad”ın 113-cü sayında çap olunan “Dövlət dumasının açılışı” məqaləsindəki ölkənin siyasi vəziyyəti dəqiqliklə təhlil edərək yazır: “Yapon davasında rus dövlətinin basılması camaatı qandırdı ki, belə hökumət ilə nə camaat saxlamaq olar və nə də düşmən qabağına çıxmaq olar. Ona görə bu cür hökumətə bir nəhayət çəkmək lazımdır. Camaatın bu arzusu elə şiddətli idi ki, bunu hüsulə gətirmək üçün candan və maldan keçməyi lazım bildilər və habelə iğtişaş başlandı. Əvvəl hökumət iğtişaşı yatırmaq üçün elə bir çox şiddətli tədbirlər görməyi lazım bilmədi, çünki Yapon kimi balaca (lakin azad) dövlətə basılmağı onu Yapon davasını əvvəldən heç arzu etməyən millət qabağında şərməndə etmişdi” (24.səh.28). Böyük dövlətin zəifliyini demokratik islahatların aparılmamasında görən müəllif siyasi iflasın əsas səbəbini ölkədəki mövcud bürokratik mexanizmin ətalətdə qalması ilə əlaqələndirərək yazırdı: “Hanki məmləkətdə ki, bürokratlar güclü və ixtiyarlıdır, o məmləkətin işi xarabdır, çünki ixtiyarlı bürokratın vücudu ilə millət özü heç bir iş görə bilməyib, həmişə bürokratların buyurduğuna əməl etməyə məcbur olar və heç bir ixtiyarı olmaz ki, durub bürokratların tutduğu əməllərə nəzər yetirsin ki, görək aya, bu əməllər millətdən ötrü nə qədər ağırdır və milləti əzməkdə bürokratın nə haqqı var. İxtiyarlı bürokrat millətə qəyyum hesab olunur, millət dəxi onun qulu yerində görünür. Heç insaf deyildir ki, millət öz xeyir və şərini gözəlcə anladığı yerdə durub uşaq kimi qəyyum əlinə verilə; halbuki bu qəyyum öz mənsəbini bütün millətin xeyrinə satmaz. İrana və Osmanlıya bir nəzər edək. Millətin qoyun sürüsü kimi dolanıb pərişan və sərgərdan qalmağına səbəb nədir? Bürokratiyanın gücü və ixtiyaratı...” (24.səh.35). Bu məqalədə demokratiyanın üç əsas göstəricisindən biri olan azad seçkinin həyata keçirilməsi mexanizminə də toxunan Ü.Hacıbəyov “Seçki gərək ümumi külli olsun, yəni uşaq, dəli və qoşun əhlindən savayı hamının vəkil seçməyə ixtiyarı olsun (ağanın və nökərin ixtiyarı bir olsun). Bu ixtiyar kişiyə verilən kimi arvada da verilsin. Seçki məxfi olsun, yəni hər seçkiçi hansı adamı istəyirsə, onun adını xəlvətcə yazıb versin, çünki seçki bu cür məxfi olmayıb aşkar olsa, o surətdə zəif adamlara qüvvətlilər güc edib istəmədiyi adamı seçməyə məcbur edərlər. Seçki gərək vasitəsiz olsun, yəni haman birinci seçkidə seçilən adamlar vəkil adlanıb millət məclisi qurmağa getsinlər” yazmaqla siyasi maarifçiliyin əsaslarını geniş oxucu kütləsinə çatdıraraq sakinin vətəndaşa çevrilməsi prosesində müstəsna rol oynayırdı.

1 yanvar 1910-cu il tarixli “Həqiqət” qəzetinin 1-ci sayında çap olunan “Öz qədrimizi bilmirik” yazısında “Belə bir ağır şərait içində yaşadığımız halda bizim

içimizdən ingilislərin şekspirlərinə müqabil adamlarımız olmadığı təbiidir, lakin orasını unutmamalıdır ki, bizim millətimiz içində indi və ya gələcəkdə şekspirlər istedadında yaradılmış adamlar yox deyildir. Vardırlar və bədbəxtlik burasıdır ki, biz öz cəhalətimizlə o dahilərin zühuruna mane oluruq. Onlar üçün müsaid şərait hazırlamırıq ki, öz zühurları ilə həm bizi sairləri içində başıuca etsinlər, həm də insaniyyətə bir xidmət göstərsinlər" (24.səh.142) yazan, cahil mühitə qarşı barışmaz olan Ü.Hacıbəyov məqalələrində olduğu kimi pyeslərində də cəhaləti, geriliyi şər qüvvələrin daşıyıcısı kimi dramaturji ziddiyyətin tərəfinə çevirə bilirdi. "Türkləşmə, islamlaşma və müasirləşmə" formulunu öz musiqisində üzvi şəkildə yarada bilmiş Üzeyir bəyin publisistikası da xalqı işıqlı gələcəyə səsləyən maarifçilik mayakına çevrildi.

Məlumdur ki, iqtisadi səviyyəsi zəif olsa da, mədəniyyətcə yüksək ölkənin, xalqın, qövmün iqtisadiyyatı güclü, lakin mədəni səviyyəsi aşağı olanlar tərəfindən işğalı ikili mədəniyyət sistemini yaradır. Götürək elə ərəb-fars mədəniyyət sisteminin məhsulu olan Firdovsinin "Şahnamə" əsərində işğalçının sifarişində belə islami dəyərlərin deyil, İran səltənətinin tarixi keçmişinin mədh olunmasını. Deməli, dövlətçilik ideyasının mövcud olduğu təqdirdə hər hansı bir gəlmə ideyanın kök atıb boy verməsinə münbit şərait yarana bilmir.

Mərkəzi dövlət strukturundan məhrum olan, xanlıqlar şəklində olsa da, otuz il əsarətə müqavimət göstərən Azərbaycanın mədəni səviyyəsi işğalçı Rusiyadan çox yüksəkdə dururdu. Mətin əqidə sahibi olan istiqlal salnaməçimiz Mirzəbala Məmmədzadənin göstərdiyi kimi "Rusiyada o zamandan ta 1861-ci ilədək rəsmən, dövrümüzə qədər isə fələn bir köləlik sistemi mövcud olub, hər bir haqq və hüquqdan məhrum olan kəndli bazarda əşya kimi satılırdı. XIX əsrin rus qəzetlərində və rəsmi jurnallarında tez-tez belə elanlar oxumaq mümkün idi: "Köhnə bir araba və iki qız satılır. Gənc və sağlam olan qızlar toxumaq da bacarırlar. Təcrübə üçün baxmaq da mümkündür". Və bu Fransa inqilabı ideyalarının, insan hüququ Bəyannaməsinin prinsiplərinin bütün dünyaya yayıldığı dövrdə baş verirdi. Halbuki, Azərbaycanda istər böyük Çingizin qanunundan qalan milli, istərsə də Quranın təsiri ilə dini ənənə hökmünə uyğun olaraq "Türk kölə ola bilməzdir" və kölə azad etmək savab sayılırdı" (57.səh.15).

15 aprel 1899-cu ildə çarın imzaladığı "Zaqafqaziyaya köçürülməyə icazə haqqında qanun" əsasında provaslav dininə mənsub ilk rus köçkünlərinin kütləvi olaraq Azərbaycanın kənd ərazilərinə yerləşdirilməsi çarizmin müstəmləkə siyasətinin açıq təzahürü oldu. 22 dekabr 1900-cü ildə qəbul olunmuş yeni qanunda isə rus mənşəli kəndlilərə vəsait və yerlərdə torpaq ayrılması məsələsi qoyulurdu. Müstəmləkə siyasətini yürüdən və qeyri-xristian əhaliyə qərəzli münasibət yaradan bu sərəncamı həyata keçirən məmurlar 1901-ci ilin yazından "qonaqlar" üçün torpaq sahələri müəyyənləşdirdilər. tədqiqatçı D.İsmayılzadənin göstərdiyi kimi:

"1903-cü ilin iyununda köçürmə işi üzrə xüsusi müşavirədə mövcud layihəyə əlavələr edilərək Dövlət Şurasına təqdim olunur və köçürmə təkcə aqrar məsələnin həlli üçün deyil, həm də rus əhalisinin ölkənin qorunmasının zəif olduğu ucqarlarda məskunlaşması kimi siyasi məqsədin əldə edilməsi zərurətindən doğur" (105.səh.143).

Sıxışdırılmış yerli əhalinin mənafeyini qoruyan Əlimərdan bəy Topçubaşov 9 iyul 1905-ci ildə çıxan "Kaspi" qəzetinin 132-ci sayındakı "Ədalətli tədbir" məqaləsində "1899-cu ildə Qazax qəzasının kəndlilərindən müsadirə olunmuş 3,3 min desyatin torpağın geriyə qaytarılması barədə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun qəbul etdiyi qərarı ədalətli tədbir" kimi qiymətləndirirdi. "Yerli əhalidən nəinki əkin və otlaq sahələri, bağ-bağça, dirriklər, kəhrizlər, su quyuları, mal-qara və hətta əmək alətləri də müsadirə olunub gəlmələrə verilir! (84) yazan müəllif bütün bunları görünməmiş hüquq pozuntusu sayırdı. Məqalədə hüquqlarına təcavüz olunmuş müsəlman kəndliləri arasında Qazaxdan Qaraqoyunlu, Şuşadan Xanaşen, Qullar və Qızılqayın sakinlərinin adları çəkilir. "Özlərinə qarşı ədalətsiz münasibət görən kəndlilərə üstəlik gəlmə məmurların "narazısınızsa köçüb sizin Türkiyəyə gedə bilərsiniz" – deyən müəllif kütləvi halda Türkiyəyə köç etməyə məcbur olanlar barədə belə yazır: "Qafqaz müsəlmanlarını Türkiyəyə köç etməyə vadar edən oranın qohum ölkə olması deyil, sadəcə həqiqətə inamını itirmişlərin, köçkünlüyə sürüklənmişlərin ədalət axtarışlarıdır. 1899-cu ildə Qazaxda torpağı əlindən alındıqdan sonra illərlə Türkiyədə min bir zillətlə pul toplayan bir qocanın yenidən yurd-yuva qurmaq üçün Qafqaza dönməsi, bu adamların doğma torpağa sevgisini təsdiq edir" (84). Əslində "Ədalətli tədbir" məqaləsində İ.İ.Vorontsov-Daşkovun haqqında söhbət gedən qərarının gözdən pərdə asmaq olması hadisələrin sonrakı gedişində təsdiq olunur. Canişinin müsadirə olunmuş torpaqları geriyə qaytarması isə sadəcə hiddətlənmiş əhalini sakitləşdirmək məqsədi daşıyırdı.

1 dekabr 1905-ci il "Kaspi" qəzetinin 233-cü sayındakı "Azadlıq və Zaqafqaziya kəndlilərinə münasibət" məqaləsində yenidən bu mövzuya qayıdan Ə.M.Topçubaşov (1862-1934) "Vorontsov-Daşkovun dövlət idarəçiliyində iştirak edən deputatlara müraciətlə dediyi "Torpaq ilk öncə yerli kəndlilərindir!" (85) fikri yerlərdən gələn xəbərlərlə tərs mütənasibdir. Dünən aldığımız xəbərə görə Cavad qəzasının Lənkəran əyalətinin hələ 1831-ci ildəki çar müstəmləkəçiliyinə qarşı yönəlmiş Talış üsyanının mərkəzi sayılan Alar kəndinin nəinki torpaqları, hətta qoşquları və digər əmək alətləri də alınıb Rusiyanın daxili quberniyalarından buraya köçürülənlərə verilmişdir. Yerli sakinlər müqavimət göstərdikdə isə Belasuvardan çağırılmış silahlı kazaklar zorakılıq nümayiş etdirmişlər" yazmaqla çarizmin özbaşınalığı ilə yanaşı, köçkünlərin yerləşdirilməsi üçün Qafqazda gen-bol münbit torpaqlar olduğundan bəhs edərək Peterburqdakı rəhbərləri şirnikləndirən buradakı məmurların yaltaqlığını da tənqid edirdi. "Yerli əhaliyə

qarşı bədnam münasibətin ifadəsi üçün söz də tapmaq çətindir. Mədəniyyətin və vətəndaş hüququnun avam kəndliyə şamil edilməsi budurmu?"(85) – deyən Topçubaşov bu xitabla artıq qeyrətli bir hüquq müdafiəçisi olduğunu mətbuatda bir daha nümayiş etdirirdi.

Avropa tipində mətbuat formalaşdıran mütərəqqi ziyalılarımız ilk öncə azad fikrin qarşısına çıxan maneələrin aradan götürülməsi üçün var qüvvələrini əsirgəmirdilər. İctimai fikrin əsası olan düşüncə azadlığını bərqərar etmək naminə deyilən sözə görə cəzanın və repressiyanın tətbiq olunmasını rədd edərək qarşıya çıxan problemlərin mülki qanunlar çərçivəsində həllini tələb edirdilər.

Hüquqları pozulan, repressiyaya uğrayan, kütləvi şəkildə Yaxın Şərq ölkələrinə köç edən yerli xalqların mənafeyinin qorunması üçün ictimai fikrin formalaşması və azad sözün müdafiəsi naminə atılan ilkin addım ana dilində məktəblərin və xeyriyyə cəmiyyətlərinin yaradılması idi.

Çarizmin müstəmləkə siyasəti müsəlman türklərinə təkcə Zaqafqaziyada deyil, bütün imperiya ərazisində milli dildə təhsili qadağan etməklə yanaşı, ziyalıların da qarşısına sədd çəkirdi. Ə.Ağaoğlu kimi mükəmməl təhsil görmüş ziyalının doğma şəhəri Şuşanın adi bir məktəbində siravi müəllim kimi dərs deməyə on bir il gözləməsi vəziyyətin dözülməzliyinə əyani sübutdur. 1905-ci il inqilabından sonra maarif və mətbuat sahəsində qismən də olsa yumşalma hiss olundu. 30 mart 1905-ci il tarixli "Kaspi" qəzetinin 57-ci sayında çap olunmuş Ə.Ağaoğlunun "Müsəlmanların ərizələrinə lazımi izah" məqaləsində artıq müəllif mövcud problemləri cəsarətlə söyləyirdi. Əsas problemləri önə çəkən Ə.Ağaoğlu Rusiya hökuməti dövründə maddi çətinliklərlə yanaşı, mənəvi basqılara da məruz qalan müsəlman türklərinin İran və Türkiyə ərazisinə məcburi köç etməsindən söz açır. Məqalənin 1 aprel 1905-ci il, 59-cu sayındakı davamında faktları da önə çəkən müəllif yazır: "Xarkov Universitetinin tarix-filologiya fakultəsini bitirmiş müsəlman dostum "yalnız xristian olmadığına görə" iş tapa bilmir. Nəzərə almaq lazımdır ki, həmin dostum bütün Qafqzazda ali təhsilli ikinci müsəlman türküdür. Soruşmaq lazımdır ki, bizim məktəbləri "bu qorxulu elementdən" qorumağa dəyərmi?" (2). Həmin məqalədə Ə.Ağaoğlu xeyriyyə cəmiyyətlərinin yaradılmasına müxtəlif bəhanələrlə mane olan çar hökumətinin ögey-doğmalıq etdiyini oxuculara çatdırmaq üçün yazırdı: "Müsəlmanların xeyriyyə cəmiyyətinin yaradılmasına rədd cavabı verilsə də, sayca bizdən çox az olan erməni və gürcülərin bu sahədə problemləri yoxdur" (2).

Ə.Haqverdiyev (1870-1933) "Bizim yabılığımız" adlı məqaləsində "aristokrat hesab olunan, yeməyinə, içməyinə, tövləsinə həmişə artıq diqqət yetirilən, minik üçün və ya faytonlara və karetalara qoşulmaq üçün saxlanılan" köhlən atla yabını müqayisə edir. Köhləndən fərqli olaraq, yalnız ağır yük üçün istifadə olunan, arabalara qoşulan yabıların "yeməyinə, içməyinə diqqət

verilmədiyini, ayda bir dəfə tumarlanmadığını, həmişə belində bir ağır palan, yük altında olduğunu qeyd edərək mətləbə keçir: "Müsəlman tayfası indiyədək yabılıqda olub nə maarif arpasından və nə təməddün bir (mədəniyyət) samanından və nə tərəqqi otundan ona qarnı dolusu indiyədək verilməyib. Hər vəqt istəyiblər ki, köhlənlər yediyi axura bu da bir ağzını uzatsın, o saat başından dəyənək dəyib: Pobedonostsev, İlminski, Çirivanski, İqnatyev və bizim rəfiq Levitski tək dəyənəklər həmişə bu yabıların təpəsinin üstündə olub. Üç yüz il bu növ yabılıqla qalıb, indi özümüz isə yabıxasiyyət olmuşuq. Yabının xasiyyətinin biri budur: görürsən bir yabını bir neçə gün tövlədə bəsləyib saxlayandan sonra ki, havaya çıxartdın, yabı başlayır yerlə, göylə əlləşməyə. Bir növ özünü çəkir və bir növ nərə çəkib qışqırır ki, bir köhlənə müyəssər olmaya" (27.səh.360). Göründüyü kimi, xalqını tükənməz bir məhəbbətlə sevən müəllif zahirən guya onu ələ salıb təhqir etməklə əslində qlobal problemləri üzə çıxarır. Hüquqlarına edilən təcavüzün ünvanını belə göstərən Ə.Haqverdiyev ətalətə sürüklənən xalqın maarifdən uzaq düşməsindən yana-yana bəhs edir. Xeyriyyə cəmiyyətləri, nəşriyyat və xüsusən qəzet işlərinin yarımçıq qaldığından gileylənir: "Qızğın iş görürük, iştə nitqlər söyləyirik. Sair şəhərlərdən pud-pud nəsr və şerlə təbriklər gəlir. Qəzet bir il ya altı ay gedir. Axırda ya "Təkamül" tək bağlanır və ya müdiri qapı-qapı düşüb müştəri yığır. Bizim də bədənimiz köpüklənib, bir növ yabılığımız sübut olur... Bir az da "Nicat" cəmiyyəti-xeyriyyəsindən danışaq. Bu cəmiyyət açılan vəqq, həmçinin camaət çox hummət göstərib. Min manatlar, beş yüz manatlar və yüz manatlar yağış tək yağıb. Amma indi bir il tamam olmamış orada da yabılıq göstərdik" (27.səh.361). Tənqidi realizm üslubunu qoruyan müəllif məqalənin sonunda: "Bir dürüst fikir edin yabı olmaq insan sifəti deyil!" (27.səh.361) sözləri ilə oxuculara müraciət edir.

Maarifçilik ideyalarının həyata keçirilməsində müstəsna rol oynayan xeyriyyə cəmiyyətlərinin yaradılmasının gecikdirilməsi H.Zərdabini narahat edirdi. 25 noyabr 1905-ci il "Həyat" qəzetinin 107-ci sayındakı "Bəs biz haçan ayrılacağıq?" sualı ilə bitən "Cəmiyyəti-xeyriyyə binası" məqaləsində H.Zərdabi yazırdı: "...Bizim elm zəmanəmizdə heç bir millət yoxdur ki, onun nəinki bir, hətta bir neçə cəmiyyəti-xeyriyyəsi olmasın. Və onlar on və dəxi illər artıqdır ki, xeyirli işlər görməklə məşğuldurlar" (91.səh.209). 17 oktyabr 1905-ci ildə çarın manifestində vəd edilmiş söz və mətbuat azadlığı əsasında dövlət dumasının tərtib etdiyi qanun layihələrinə ümid bəsləyən ziyalılarımızın xeyriyyə cəmiyyətləri açmaqda əsas məqsədlərindən biri də mətbuatı dövlətin şaquli idarəçiliyindən azad edib ictimaiyyətin üfüqi müstəvisinə keçirmək idi.

"Füyuzat"ın 1906-cı il 3-cü sayındakı "Şüunat" məqaləsində Ə.Hüseynzadə maddi və mənəvi problemlər içərisində çabalayan xalqın halına acıyan qələm əhlinə öz rəğbətini bildirirdi. "Şuşa, Zəngəzur, Cavanşir, Cəbrayıl uyezdlərindəki

öz aclarımızı da unutmamalıyız. Bunlara imdad üçün “İrşad”da Əhməd bəy Ağayevin, “Kaspi” sütunlarında Qarabəy Qarabəyovun fəryadları kainatları titrədiyor... Lakin insanlar sadə maddi aclıqlar üçün fəryad etmiyorlar. Bir tərəfdən də mənəvi aclıqlar başlıyor” (34.səh.75) – deyən Ə.Hüseynzadə çarizmin milli qırğın siyasətini qəti şəkildə pisləməklə yanaşı, mənəvi aclıqdan doğan maarifçilik tələbatını da önə çəkirdi.

“Füyuzat”ın 1906-cı il 5-ci sayındakı “Qırmızı qaranlıqlar içində yaşıl işıqlar” məqaləsində də Ə.Hüseynzadə məhz Qarabəyova istinad edərək yazır: “Doktor Qarabəy Qarabəyovun daşnaksütunçulara və bilxassə Q.X. cənablarına “Kaspi” sütunlarında verdiyi cavablarda olduğu kimi “Biz özümüz bir yol bulub gedəcəyiz. Bizim başqaları ilə büğz və ədavətimiz yoxdur. Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti qəflətdə bulunan külliyatı-avam arasında nuri-maarifi əkməkdir” (34.səh.85).

Maarif işığını yayan jurnalistlər və tədricən sağlam biznes faktoru üzərində qərar tutan, qərbin kommersiya modelinə, informasiya, maarif, əyləncə prinsiplərinə uyğun gündəlik qəzetlər yaratdılar ki, onlardan biri də rus dilində çıxan “Kaspi” idi.

26 iyun 1908-ci il tarixli “Tazə həyat” qəzetinin 145-ci sayında Nəcəf bəy Vəzirov “Bir amerikalının sualına cavab” məqaləsində müəllif imzası kimi istifadə etdiyi “Dərviş”in dilindən yazır: “Mən nə edim, aşkar gördüm ki, vətənim, gözəl vətənim İran məhv olur. İndiyədək padşahlarımız eyş-işrətlə məşğul olur, bilmərrə bədbəxt vilayəti atıblar. Cəlladlar əlində günü-gündən zillətdə, axırın bu hala düşüb mənim yazıq vətənim, biçiz vətənim!... Bizlərdə əgər insaf, mürüvvət olmuş olsa, daşürəkli gərək olmuş olaq ki, belə müsibətə qan ağlamıyaq... Bir yerdə ki, qırx gün ulaq üstə Tehrana kömür gələr, bir vilayətdə ki, hər şeydə möhtac olasan əcnəbi tayfalarına, qazanc yeri bir kişmiş ola, bir düyü; əlbəttə, əcnəbilər qanın içəcəklər, günü-gündən müflis, günü-gündən məzlum, yazıq vətən!...” (87.səh.372).

4 aprel 1917-ci il tarixli “Açıq söz” qəzetinin 441-ci sayında Nəcəf bəy Vəzirov “Getsin gəlməsin” məqaləsində çarizmin işğalçı siyasətinə yenidən nəzər yetirir: “Zəmani ki, yerlərimiz işğal olundu, əski idarə tərəfindən əvvəl təşrif gətirən “komendant” cənabları oldu. Bu cənab bir neçə müddət basdı, kəsdi, asdı... Sonra təşrif gətirdilər ağa “murovlar” ... Bu ağalar hərəsi öz mahalında dövr etdilər. Bu kənddən o kəndə, o kənddən bu kəndə ...Nazirin nar çubuğu “rozği” ...Qulluği-şərəflərində dilmancı. Katibi və dəftərxana əmələsi. Hesabsız çaparlar və çaparbəyi... Hər mənzildə pişəzvəqt sursat yığılmaqda. On rəs qoyun, bir rəs kök dügə, iki pud soğan, on girvəngə duz, bir pud yağ, çörək nə qədər lazım olsa... Atlar üçün arpa, saman, ot... Hamısı yazıq camaatdan... Sursat az olmaq üçün bir az da cib xərcliyi qabaqcan təşrif gətirən cənab çaparbəgiyə... Bunlardan sonra təşrif gətirdilər ağa pristavlar, “strajniklər”, “qaradovoylar”... Qaradovoylardan

qorxduq, pristavların qabağında titrədik, dilimiz tutuldu, nitqimiz olmadı dərdimizi söyləməyə... Getsin gəlməsin, xudaya! Hər nə qazandıq, qopardılar... Əl atdılar torpağımıza. Saldılar bizi cəhalət dəryasına. Əlimizdə olan mədəniyyət yavaş-yavaş puç oldu... Axırı qəsd etdilər dilimizi, dinimizi batırsınlar... Cəlladlarımız bizi axır nəfəsə yetirdilər... Getsin gəlməsin, xudaya!...” Rusiyada baş vermiş fevral inqilabından ruhlanan müəllif: “Şükürlər olsun, xudaya. O zalım, birəhm idarə cəhənnəmə vasil oldu... Düşdü Bakının neft quyusuna... Dalınca qənbər atız, hərc-mərc olsun...” – deyə irtica dövrünün bir daha təkrarlanmayacağına inanmaqla bərabər, istiqlal ideyalarının formalaşmasında müstəsna rol oynamış “Açıq söz” kimi mütərəqqi qəzetin ruhuna uyğun: “Yaşasın hürriyyət, yaşasın müsavat, yaşasın yeni hökumət” (87.səh.387-388) şüarı ilə fikrini bitirir. İmperiyada baş verən hakimiyyət böhranı müvəqqəti olaraq Qafqazda Rusiyanın nüfuzunun azalmasına səbəb olsa da, bu dövlətin xarici siyasəti dəyişmədiyindən yeni hakimiyyətlər Pyotrun vəsiyyətlərini əldə rəhbər tutduqlarından, siyasət strategiyası daim Qafqazda erməni faktoruna arxalanırdı.

10 fevral 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinə görə Eçmiədzin Rusiyanın tərkibinə daxil olmuş, katalikos isə bütün ermənilərin ümumdünya patriarxı hüququnda qalmışdı. Həmin dövrdə “Parçala və hökm sür!” deyən Pyotrun vəsiyyətinə görə rüşvət və qiymətli hədiyyələrlə ələ alınan müsəlman din xadimlərindən dini təriqətlər arasında nifaq salmaq tələb olunurdu.

XIX-XX əsrin qovşağında Qafqaz xalqlarının adət-ənənəsi, tarixi keçmişi və sosial siyasi mühiti ilə yaxından maraqlanaraq dəyərli məqalələr yazmış, 1 yanvar 1846-cı ildən 15 fevral 1918-ci ilədək Tiflisdə rusca çıxan “Qafqaz” qəzetinin uzun müddət redaktoru olmuş Vasili Lvoviç Veliçko dövlət quruluşunu çoxdan itirmiş ermənilərin özünümüdafiə qabiliyyətlərinin olmadığını da jurnalist məharəti ilə aça bilir: “Ermənilərdə həm də başqa xalqlarla məcburi, zorakı cütləşmə də olub. İran qoşunları da, Azərbaycan tatarları da, türklər də, gürcülər də, dağlılar da, ehtimal ki, dövlət quruluşunu və bu səbəbdən də özünümüdafiə qabiliyyətlərini itirən bir xalqın qadınlarının da nazı ilə oynamırdılar” (99.səh.48).

1877-78-ci illərdəki türk-rus müharibəsindən sonra ermənilərin Qafqaza köçürülməsi V.L.Veliçkonun redaktoru olduğu “Qafqaz” qəzetində çap etdiyi və sonrakı dövrdə ayrı-ayrı nəşriyyatlar tərəfindən kitab kimi dəfələrlə dərc olunmuş məqalələrində belə təsvir edilir: “Paskeviçin dövründə erməniləri dəvət etmək üçün polkovnik Lazarev İrana göndərilmişdir. Nəticədə təxminən 40.000 erməni köçüb Zaqafqaziyaya gəlmişdi. Eçmiədzin patriarxı da bu tədbirdə iştirak etmişdi. O, erməni keşişlərinə İrandan köçməyi buyurmuş və bu kilsəyə mənsub olan dindarların hamısı onların dalınca gəlmişdi. Adrionapol sülhünə görə biz 100.000-dən artıq Türkiyə ermənisi qəbul etmişdik. Təkcə Ərzurum arxiyepiskopu Karapet 70.000-ə qədər erməni gətirmişdi. Həmin vaxtdan da müsəlman dövlətlərindən

ermənilərin Rusiyaya tədricən köçürülməsi fasiləsiz, gah gözəçarpacaq dərəcədə dəstə ilə, gah da son bir neçə il ərzində olduğu kimi böyük sürətli axınla davam edirdi. İndi Qafqaz inzibatçılarının daha çox erməni dartıb gətirmək cəhdlərinin nə ilə nəticələndiyi qismən aydın olanda malorus (Ukrayna) zərbi məsəlini yada salmaq tamamilə təbiidir: "Qarğaya göz verəndə qaş da istədi" (99.səh.61).

Qeyd edək ki, 1804-13-cü illərdə birinci, 1826-28-ci illər ikinci Rusiya-İran müharibəsi dövründə və nəhayət, ədalətsiz Gülüstan müqaviləsindən sonra öz müstəqilliklərini itirmiş şimali Azərbaycan xanlıqlarının əhalisi 200.000-dən çox ermənінin Qarabağ, Naxçıvan, İrəvan ərazisinə gətirilməsi ilə Yaxın Şərq ölkələrinə köç etməyə məcbur oldu. Əsarət altına alınmış xanlıqların pozulmuş idarəçilik sistemi isə çarizmin hərbi cəza mexanizmini əvəzləyə bilmədiyindən zorakılıq baş alıb gedirdi.

Azərbaycan ərazisindən əhalinin Yaxın Şərq ölkələrinə, xüsusilə İrana köçməsini qızışdıran amillərdən biri də oranın şiə təriqətinə əsaslanan rəsmi və dini dairələrin həyata keçirdiyi siyasətlə bağlı idi. Elm və maarifdən məhrum olmuş savadsız əhalinin gəlmə ruslar və ermənilərlə hər hansı bir sosial-iqtisadi münasibətinin təqib olunması bu prosesi gücləndirdi. Arxasında hərbi gücün dayandığı gəlmə əhali kafir hesab olunur, onların keçdikləri cığırlardan, çəkdikləri arxlardan istifadə etmək belə yasaqlaşırdı. Beləliklə, "murdarlanmış" torpaqlar asanlıqla yad əllərə keçirdi.

Rusiya hökumətinin dəstəklədiyi ermənilərin Qafqazda yerləşdirilməsi buradakı yerli xalqların onsuz da gərgin olan sosial-siyasi vəziyyətlərini daha da ağırlaşdırdı. Çarizmin Azərbaycanda həyata keçirdiyi aqrar siyasət, xüsusən ağır qul əməyi tələb edən pambıqçılığın inkişaf etdirilməsi görünməmiş fəsadlar törədirdi. Ziyalı zümrəni təmsil edən əsilli-nəcabətli bəy-xan nəsli isə getdikcə iflasa uğrayaraq öz sosial dayaqlarından məhrum olurdu. Əvəzində isə çarizmin dəstəyi nəticəsində inzibati amirlik sistemində vəzifə tutan ermənilər özlərini Qafqazın tam hüquqlu sahibi kimi aparmağa cəhd edirdilər. Gəlmə məmurların ən münbit torpaqları, meşələri və xüsusən çar hökuməti tərəfindən xarici inhisarlara icarəyə verilmiş müxtəlif filiz yataqları ilə zəngin aran və yaylaq torpaqlarını zorla mənimsəmələri fəlakəti daha da kəskinləşdirirdi. Sözsüz ki, bu problemi də hiss edən V.L.Veliçkonun qətnaməsinə görə: "Gürcülər və Qarabağın borca düşmüş müsəlmanları Qafqazda qeyri-səmimi halda gülümsəyərək bəzən deyirlər ki, rus hökuməti Zaqafqaziyadan qoşunlarını çıxartsa, ermənilərin burda izi-tozu da qalmaz" (99.səh.76).

Ötən əsrin əvvəllərində gəlmə ermənilərin ruslarla da ixtilafları meydana çıxırdı. V.L.Veliçkonun yazdığına görə: "13 avqust 1903-cü ildə axşam saat 7-də Aleksandropol şəhərindən üç erməni kəndinin provaslavlığa göndərilməsinə görə erməni inqilab komitəsini bərk hiddətləndirən provaslav protoirey Vasilev küçədə

xəncərlə öldürülmüşdü. Qafqazda olduqca geniş yayılmış adətə görə qatil izsiz-soraqsız gizlənmişdi" (99.səh.113). Çarın 12 iyun 1903-cü il fərmanına görə Qriqoryan kilsəsinin əmlakının dövlət müəssisələrinin ixtiyarına keçirilməsindən və kilsə məktəblərinin Maarif Nazirliyinə verilməsindən hiddətlənən ermənilərin cəlb olunduqları ayrı-ayrı terror hadisələri ilə yanaşı, artıq kütləviləşən silahlı təxribatlar da jurnalist Veliçkonun nəzərindən qaçmırdı: "29 avqust 1903-cü ildə Qars şəhərində Quba alayının kazarmalarının yaxınlığındakı xəlvət bir dalanda Tanoyanın mənzilində Amerika vətəndaşı, erməni Con Naxikyan əl qumbaraları hazırlamaqla məşğul idi. Görünür ki, bu vətənpərvər və onun silahdaşları kürdlərlə vuruşmağa yox, Əlahəzrətin 12 iyun fərmanına qarşı dinamit və başqa partlayıcı maddələrin vasitəsilə ilə qəti etiraz etməyə hazırlaşmışdılar. Bu caniləri allah-təala özü cəzalarına çatdırdı: partlayış baş verdi və onlar yerlərindəcə gəbərdilər". Qanuna itaətsizlik əmrini vermiş Eçmiədzin patriarxının razılığı ilə Azərbaycan ərazisində törədilən təxribatlar da müəllifin nəzərindən qaçmır: "29 avqust Yelizavetpolda, şəhər kənarındakı erməni kilsəsinin qabağında zəng səsi ilə dağılışmaq tələbinə daş "yağışı" və tapança atəşləri ilə cavab verərək polisləri və qarovul dəstəsini geri çəkilməyə məcbur edən bir neçə min erməni yığışmışdı. Özünü iğtişaş yerinə çatdıran qoşun hissələri odlu silahdan istifadə etməyə məcbur oldular və kütlə yeddi meyidi, 27 yaralını orada qoyaraq qaçıb dağılışdı" (99.səh.115). Və nəhayət, tarixən erməni fitnələrinin mərkəzi sayılan, o dövrdə ikinci Paris hesab edilən Şuşadakı təxribatlara da toxunan Veliçko yazır: "Aşağıdan yuxarıya kimi yerli ermənilərin siyasi həyəcanı və qeyri-adi həyasızlıqları ilə çoxdan məşhur olan Şuşada 12 sentyabrda kilsə əmlakının dövlətə verilməsinin qəbulu vaxtı erməni kütləsi son dərəcə bərk səs-küy qaldırdı və hədə-qorxu ilə qubernatorun mənzilinə tərəf yollandı. Qoşunlar onlarla döyüşə girməyə məcbur oldular, ölənlər və yaralananlar oldu. Bununla bərabər, Şuşada ruhanilər irəli çıxmırdı. Bir çox başqa məntəqələrdə kilsə əmlakının təhvil verilməsi bu cür iğtişaşlarla müşayiət olunurdu. Siyasi qətllər davam edirdi" (99.səh.116).

İmperiya mənafeyinə xidmət göstərən "Qafqaz" qəzetinin redaktoru V.L.Veliçko XIX əsrin otuzuncu illərindən başlayaraq Qafqaza köçürülmüş təriqətçi slavyan əhalinin türk-rus müharibəsindəki rolunu belə dəyərləndirir: "Onlar rus dövlət və xalq işinə nəticədə xeyirxahcasına münasibət bəsləyirdilər, çoxları qoşunlarda həvəslə xidmət edirdi. 1877-1878-ci il müharibəsi zamanı təriqətçi kəndilər öz qoşqu nəqliyyatı vasitələri ilə bizim qoşuna son dərəcə yüksək xidmət göstərmişdilər. Onların bu cəsarətini əlahəzrət Qafqaz canişini və onun davamçısı, knyaz A.M.Dondukov-Korsakov layiqincə qymətləndirmişdir" (99.səh.169).

Tiflisdə çıxan "Kavkaz" qəzetinin 1896-cı il saylarındakı Azərbaycana dair dərc olunmuş məlumatlarını nəzərdən keçirməklə o dövrün ictimai-siyasi

vəziyyətini də xarakterizə etmək olur. Belə ki, “Kavkaz” qəzetinin 1896-cı il 181-ci sayında professor N.Axundovun üzə çıxardığı: “Şuşada baş verən əcaib oğurluqda şairə Natəvanın evindən qiymətli tarixi və bədii əsərlər də qarət olunmuşdur...” (7.səh.64) məlumatı bir tərəfdən Çingiz xan nəslinin nümayəndəsi, Pənahəli xanın törəməsi xan qızı Natəvanın təcavüzə məhkumluğunu əks etdirir və onun köməksizliyi ürək ağrısı yaradır. Digər tərəfdən isə çar üsul-idarəsinin xalqımıza qarşı biganəliyi təsdiq olunur. X.Natəvanın (1832-1897) məruz qaldığı siyasi repressiyaların nəticələrini “Kavkaz” qəzetində gedən informasiyalarda aydın şəkildə görmək olar. Qəzetin 186-cı sayındakı “Xurşudbanunun Məqribova verəcəyi 189 manat borc əvəzinə “Sultanbud” malikanəsi açıq satışa qoyulmuşdur”, 188-ci sayında isə “Xurşudbanu 5 min manat borcu ödəmək üçün zinət əşyalarını satışa qoymuşdur” elanı şairənin vəziyyətinin çıxılmazlığını bildirir. Professor Ş.Qurbanovun yazdığı kimi: “Son elan bir qadın və ana üçün ən dəhşətlisi idi. Bu, son vasitə, son ümid, daha doğrusu ümidsizlik idi. Malı-mülkü, əynindəki zinət şeyləri satılıb qurtarandan sonra quruca canı qalırdı ki, onu da təslim etmək üçün çox gözləmək lazım gəlmədi. Yenə də qəzet elanlarına müraciət edək: “Kavkaz” qəzeti 2 oktyabr 1897-ci il: “Dünən Şuşada Qarabağ xanı general-mayor Mehdiqulu xanın qızı, şairə və yazıçı, knyaqinya Usmiyeva vəfat etmişdir” (48.səh.210-211). Qeyd edək ki, xan qızı Natəvanın məhz Qafqaz canişini M.S.Vorontsovun təhrikilə çar generalı, kumık xanının nəslindən olan knyaz Xasay bəy Usmiyevə ərə getməsi bir sıra hüquqi problemlər də yaratmışdı. 1864-cü ildə ailəsini atıb gedən Xasay bəy Usmiyevin knyaz Loris Melikovla münaqişəsi nəticəsində sürgünə göndərildikdən və orada özünü öldürdükdən sonra boşanmaq üçün hüquqi əsas qazanmış Natəvanın mirası birinci nigahından doğulan iki uşağına qaldığı üçün Usmiyevdən sonra 1869-cu ildə şəriət qaydası ilə ərə getdiyi Seyid Hüseyndən olan beş övladının əmlak hüququ pozulmuşdu. İkinci dəfə öz arzusu ilə ailə qurmasına baxmayaraq Natəvan maddi və mənəvi iztirablara düçar olur. Onun böyük oğlu Mehdiqulu xan anası ilə aralarındakı konfliktlərin nəticəsində evdən baş götürüb gedir. Bir qədər sonra isə Natəvanın 16 yaşlı oğlu Mirabbas vəfat edir. Ş.Qurbanovun qeyd etdiyi kimi: “1887-ci ildə böyük oğlu Mehdiqulu xan Usmiyev Qarabağa köçüb ata-baba mülkünə sahib oldu və ana bir, ata ayrı qardaş-bacılarına demək olar ki, heç nə vermədi. Bu, Natəvana çox ağır təsir göstərdi. Bir az sonra 1891-ci ildə ikinci əri Seyid Hüseynin ölümü də ona son zərbəni yendirdi və şairə bir daha qəddini düzəldə bilmədi” (48.səh.209-210).

Bütün sənətkarların himayəsinə sığındığı, ədəbi məclislərin yaradıcısı, uzaq şəhərlərdə oxuyan tələbələrin hamisi sayılan Natəvan 1872-ci ildə “Məclisi-Üns” ədəbi məclisini yaradaraq otuza yaxın ədibi öz ətrafına toplamışdı. O, həmçinin 1873-cü ildə sıldırım qayalıqlardan keçən yeddi kilometrlik məsafədən Şuşaya içməli su çəkdirmişdi. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi

haqqında ilk məlumat isə 1858-ci ildə Qafqaza səyahət etmiş məşhur fransız yazıçısı A.Dümanın "Qafqaz səfəri" kitabında qeyd edilmişdi. Elə həmin kitabda A.Düma kiçik Mehdiqulunun xəncər gəzdirməsindən, Xasay xanın fransızca əsl parisli kimi danışmasından heyrətləndiyini bildirərək yazır: "Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da vardı. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu, böyük qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə nənəsinin dizinə sıxılmış və sövqitəbii ilə kiçik əlini belindən asılan xəncərin üstünə qoymuşdu. Mən mat qalmışdım. Bu, fransız qadınının uşağın oynamasına icazə verə biləcəyi oyuncaq xəncər deyildi. Oğlanın belindəki əsl iti xəncər idi. Gənc xanımın həyat yoldaşı Xasay xan Usmiyev ürəyə yatan, gözəl insanlarla yolda baş çəkdiyimiz Andreyevo kəndində anadan olmuşdur... Fransızca parislilərdən heç də pis danışmayan Xasay xan ləyaqətli adam idi. Mən onun mədəniyyətinə, ağlına, fransızca təmiz danışmağına heyran qalmışdım" (18.səh45).

Xan qızı Natəvan kimi xalqın dərdinə qalan mənsəb sahiblərinin və ziyalıların maddi-mənəvi təcavüzə uğradıqları bir şəraitdə biçarə insanların hüquq müdafiəsindən söz açılması üçün milli mətbuata ehtiyac var idi. Nəhayət ki, məzlum xalqın içərisindən çıxmış milli burjuaziyanın mətbuat bazarına maraq göstərməsi ictimai şüurun oyanmasına əsaslı şərait yaratdı. Lakin hələ ki, çarizmin müstəmləkə siyasəti bu işin hasilə gəlməsi üçün iynənin ucu qədər belə işıq ucu qoymurdu. "Kavkaz" qəzetinin 1896-cı il 262-ci sayındakı: "Nikolayev kilsəsinin baş keşişi A.İ.Yunski kilsə və dini məktəbin tikintisi məqsədilə sahə ayrılması üçün məsələ qaldırıb. İndi demək olar ki, Bakının bütün hissələrində provaslav kilsələri olacaq" (137) məlumatında göstərildiyi kimi müstəmləkəçilik siyasəti açıq-aşkar baş alıb gedirdi.

Əsrin əvvəlində İ.Aşurbəylinin və Orucov qardaşlarının mətbəələrinin işə düşməsi Azərbaycanda mətbuatın inkişafına real şərait yaratsa da, qəzet nəşri üçün rəsmi icazə almaq müşkül məsələ idi.

1883-cü ilin əvvəlindən jurnal, 1884-cü ilin mart ayından qəzet kimi Tiflisdə çıxan "Kəşkül" 1891-ci ilin oktyabrında bağlandıqdan sonra müstəmləkə siyasəti Azərbaycanda milli dildə qəzet nəşrinin qarşısına sədd çəkdiyindən on illik bir dövr ərzində ana dilimizdəki mətbuat aləmində sükunət yarandı.

"Füyuzat"ın 21 dekabr 1906-cı il 5 sayındakı "Şiller" məqaləsində Ə.Hüseynzadə aktyor, tərcüməçi, publisist Mehdi bəy Hacınskinin "Qaçaqlar" pyesini dilimizə çevirməsini alqışlamaqla yanaşı, maarif və mədəniyyət tariximizdə zorən yaradılmış bu dövrü belə səciyyələndirir: "Bizim Qafqaz müsəlmanları arasında, tənviri-əfkarın vasitələrindən biri qəzetə olduğunu ilk əvvəl Həsən bəy Məlikov dərk etmiş bulunduğu kimi, təhzibi-əxlaqın da vasitələrindən biri teatr və darülbədaye olduğunu ən əvvəl mərhum Mirzə Fətəli Axundov

anlamış idi. Bunların hər ikisi də öz məsləklərində böyük bir istedad, qabiliyyət göstərmiş olduqları halda, təşəbbüs etdikləri iş paydar olmayıb tərk edildi. İki işığın ikisi də söndü, həm də, bir xeyli müddət şölələnməmək üzrə söndü" (34.səh.95).

Çar üsul-idarəsinin maarif və mədəniyyətin qarşısına sədd çəkməsi dövlətin strateji marağına uyğun gəldiyindən məmurlar müxtəlif bəhanələrlə mətbuatın inkişafına mane olurdular. Onlardan biri yerli ziyalıların artıq rusca qəzet oxuya bilmələri, digəri isə geniş kütlələrin savadsızlığı idi. Mətbuat işləri üzrə baş idarə rəisi irticaçı professor M.P.Solovyovun M.Şahtaxtlıya dediyi: "Ziyalılar qoy sizdən nümunə götürüb rusca oxusun, sadə tatarlar isə öz sürülərini otarmaqla məşğul olsunlar" (68.səh.31) sözləri dövlətin siyasətini əks etdirirdi. Çar üsul-idarəsinin bu addımı azsaylı savadlı təbəqəni rus dilli mətbuata yönəltmək məqsədi daşısa da, oxucular müsəlman dünyasında çap olunan mətbu orqanlara üz tutdular.

Naxçıvandakı ata mülkünü 18 min manata sataraq Tiflisdə mətbəə açan M.Şahtaxtlı (1846-1931) 1903-cü il martın 30-dan "Şərqi-Rus" (1903-1905) qəzetini nəşr etdirdi. Qeyd edək ki, Leypsik Universitetinin fəlsəfə, tarix və hüquq fakultəsini bitirən Məhəmməd ağa 1899-cu ildə Beynəlxalq Fonetika, bir il sonra Beynəlxalq Asiya, 1903-cü ildə isə Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin həqiqi üzvü seçilmişdi. Maarifçi-demokrat M.F.Axundovun fəal ardıcılı kimi M.Şahtaxtlı 1979-cu ildə Tiflisdə əlifba islahatı tarixində ilk kitab olan "Təkmilləşmiş müsəlman əlifbeyi"ni nəşr etdirmişdi. XIX əsrin 80-ci illərində "Moskovskiye vedemosti" qəzetinin İstanbul üzrə xüsusi müxbiri kimi çalışmış, 1891-93-cü illərdə "Kaspi"nin müvəqqəti redaktoru olmuşdu.

Az vaxtda geniş populyarlıq qazanaraq Rusiyada, Avropa və Yaxın Şərqdə yayılmağa başlayan, 1500 nüsxə ilə çıxan bu qəzetin abunəçilərinin sayı get-gedə artırdı. 1904-cü ilin 193-cü sayında artıq hər gün çıxan qəzetin gərgin iş prinsipi redaktorunun yazdığı sətirlərdə özünün parlaq əksini tapır: "Qəzeti gündəlik etdik. Kağız pulu, poçt pulu, hamıdan artıq idarə və mətbəə mübaşirlərinin və əmələlərin ticarəti yarıdan daha ziyadə artdı... Mühərrir, mütərcim, mürəttib, maşinist və qeyriləri gecə yarıya qədər gözləyirlər ki, teleqraf gəlsin. Tərcümə edirlər, təshih edirlər, tərtib edirlər, maşına qoyurlar, gün çıxana qədər çalışırlar. Bu günün nömrəsi çıxır, amma gün çıxmamış, yəni iş vəqti başlamış, gərək sabahın nömrəsini hazırlayaq. Dünənin yorğunluğu bu günə keçir, taqət azalır, bəzən kəsilir. Amma nə etməli, işləməli ki, müsəlmanlar da heç olmazsa bu üzdən mədəni qövmlər kimi yaşaya bilsinlər, yəni, yerlərindən qalxanda bizim canımız, sinirlərimiz, beyinlərimizlə hazırlanan "Şərqi-Rus" nömrəsini ələ alıb dünya və mafihanın o günkü vüquatına öz dillərində asanlıqla, gülə-gülə, çay içə-içə etella kəsb etsinlər" (68.səh.74).

Müxtəlif problemlərin həllinə yönəlmiş mövzular arasında qəzet teatrla bağlı bir sıra məsələləri öz səhifələrində işıqlandırırdı. "Şərqi-Rus"un 4 fevral 1904-cü il 13-cü sayında "Hacı Qara" tamaşasına həsr olunmuş "Müsəlman teatrı" resenziyasında oxuyuruq: "Təəssüf, çox təəssüf ki, oyun nə qədər yaxşı idisə, camaatın tərtib və oturuşları o dərəcədə biqaidə və səliqəsiz idi, hətta bu qaidəsizlik o mərtəbədə idi ki, bu dəfə teatra çox az gələn mötəbər familiya və şəxslər birinci pərdədən sonra teatrdan çıxıb getməyi özlərinə fərz bildilər" (68.səh.151).

Nəcəf bəy Vəzirov özünün "Tərcümeyi-halım" adlı xatiratında ilk milli teatr tamaşasının meydana çıxması barədə yazır: "Qırx il bundan əqdəm 1873-cü ildə altıncı klasda olduğum halda birinci dəfə rus teatrına getdim. Bu gecə mənə nəhayət dərəcədə əsər elədi. Onun necə bir nəsnə olduğunu başa düşdüm. Sabahı günü gimnaziya müəllimi Həsən bəy Məlikov cənablarına rucu edərək sordum ki: Aya bizim dilimizdə teatr əsərləri ya məzhəkə və ya faciə varmıdır? Mümaileyh Məlikov mərhum Mirzə Fətəli Axundovun "Hacı Qara" komediyasını tapdı. Bu komediyanı pansionda olan müsəlman şagirdləri ilə bir yerdə oynamaq üçün hazırlanmağa başladıq. Hər gün nahardan sonra pansionun nahar otağında hazırlanırdıq. Bizim hazırlanmamıza Həsən bəy Məlikov tamaşa edirdi. Amma şagirdləri mən hazırlayırdım. Hacı Qara rolunu sabiq Gəncə şəhər qlavası mərhum Əsgər bəy Adıgözəlov Gorani oynayırdı. Mən isə arvad rolu götürdüm..." Əsgər ağa Gorani kimi məşhur ictimai xadimin aktyor olaraq səhnəyə çıxması ziyalılarımız arasında teatr sənətinə olan marağın miqyasından xəbər verir. Lakin savadlı zümrənin bu marağı müqabilində tamaşaçı kütləsinin qeyri-millətlərdən olması acı təəssüf hissi yaradır: "Tamaşa günü çox adam var idi. əksəri ermənilərdən ibarət idi. Bakı qubernatoru mütəvəffa Staroselski öz əyalı ilə hazır idilər. Bizim bu teatrımız camaata nəhayət dərəcədə xoş gəldi. Tamaşadan sonra qubernatorun dilmancı mərhum Həsən bəy Həbibəyov bizi qonaq elədi. Haman gecə müəllimimiz Həsən bəy Məlikov teatr müsənnifi Mirzə Fətəli Axundova təbrik teleqramı göndərdi. Müsənnif Axundov iki vərəqə dolusu böyük bir rizaməndlik kağızı yazmışdı. Axırda bunu əlavə etmişdi ki, "Bu gün "Hacı Qara"nı səhnədə göstərməklə mənim ömrümün üzərinə on il daha artırdınız" (87.səh.399). Mirzə Fətəli Axundovun bu hadisəyə həssas münasibəti maarifçilik məktəbimizin banisinin öz əməyinin bəhrəsinə sevincinin təsdiqidir.

Dramaturq və ədəbiyyatşünas Ə.Haqverdiyev "Azərbaycanda teatr" məqaləsində teatr tariximizə nəzər salır: "Knyaz Vorontsovun Tiflisdə bütün Qafqazda ilk dəfə olaraq teatr yaratmaqda məqsədi Zaqafqaziyada çarizimin möhkəmləndirilməsi üçün teatrdan bir vasitə kimi istifadə etmək idi. Bu vəzifə Mirzə Fətəli Axundova izah edilmişdi, o da vicdanla bu vəzifəni yerinə yetirirdi. O zaman Zaqafqaziyada ən qüvvətli və nüfuzlu ictimai qrup ruhanilik idi. Knyaz

Vorontsov ikibaşlı bir oyun oynayırdı: bir tərəfdən o, Zaqafqaziya şeyxül-islamının simasında ruhaniliyə hər cür hörmət edirdi, digər tərəfdən isə Axundova, əhalinin gözündə ruhaniliyi nüfuzdan salmağı təklif edirdi" (27.səh.421). Göründüyü kimi, sadəcə faktları sadalamaqla kifayətlənməyən Ə.Haqverdiyev məharətlə dövrün sosial-ictimai portretini yaratmaqla M.F.Axundovun da faciələrinə səbəb olan çarizmin işğalçı siyasətinin iç üzünü açır.

Ə.Haqverdiyev "Mirzə Fətəlinin faciəsi" məqaləsində Qafqazda teatr sənətinin və dramaturgiyanın inkişafına təkan verən bir amili xüsusi vurğulayır: "1849-cu ildə canişin Vorontsovun əmri ilə Tiflisdə teatr binası tikilmişdi. Erməni, gürcü və azərbaycan dillərində teatr əsərləri yazmaq üçün canişin üç komisyon təşkilinə əmr verdi. Erməni, gürcü komisyonları çox tezliklə işə başladılar. Azərbaycan komisyonunda işləmək üçün Mirzə Fətəlidən başqa bir adam tapılmadı. Axırda Mirzə Fətəli özü təklikdə komediyalar yazmağa başladı..."

Mirzə Fətəlinin ömrünün axırına qədər öz əsərlərini Azərbaycan dilində səhnədə görmədiyini faciə hesab edən Ə.Haqverdiyev bu məsələ üzərində də dayanır: "1873-cü ildə Bakıda indiki Zəhmət sarayında birinci dəfə olaraq Azərbaycan dilində "Hacı Qara" komediyasının oynanılmasının xəbərini Həsən bəy Zərdabidən alıb, ona belə bir cavab verdi: "Mən qocalmışam və qəbr evinə yaxınlaşmamı yəqin etmişdim. Əmma sizin bu xəbəriniz mənim ömrümün on sənə daha uzanmasına səbəb oldu". On il yox, beş il ondan sonra Mirzə arzuları, əməlləri ürəyində qalaraq gözlərini həmişəlik yumdu. Mirzənin vəfatı da faciəsiz keçmədi... Şeyxül-islam Molla Əhməd Mirzənin vəfat xəbərini eşidib dedi: "Mən Mirzə ilə çox müsahibətdə olduğumdan onun əqidələrinə dürüst bələdəm. Bu bələdiyyət, məni onun namazını qılmaqdan imtina etməyə məcbur edir". Bu sözü eşidib qalan mollalar da Mirzənin namazını qılmaqdan boyun qaçırtdılar. Mirzəyə namaz lazım deyildi. Fəqət bu, onun əqrəbası üçün bir nisgil oldu. Çox danışıqdan sonra əməleyi-mövtadan Molla Hüseyn adlı bir kişi gedib onun namazını qıldı.

Mirzə ömrünün axırına qədər camaatı bürümüş zülmət və mövhumatla mübarizə etdi. Amma xalq onun bu mübarizəsini dinsizlik adlandırıb cənazəsini yerdən götürmək istəmədi. Üç gün cənazəsi evdə qalandan sonra canişin divanxanasının qulluqçuları tərəfindən qaldırılıb qəbiristana aparıldı. "Möminlər" onun cənazəsinin dalında da getmədilər. Bir neçə nəfər hər birisi üç rublə alıb, onu qəbrə qoymağa razı oldular" (27.səh.386-387). Ürək yandıran faktları qələmə almaqla Ə.Haqverdiyev tarixi gerçəklikləri önə çəkərək maarifçiliyin qarşısına çıxan çoxsaylı əngəlləri göstərir və davamçısı olduğu Axundov məktəbinin həmişəyaşarlığı ilə qürur duyurdu.

Təkcə Azərbaycanda deyil, bütün Şərqdə teatra reqressiv münasibəti tənqid edən Ə.Haqverdiyev "Müsəlmanlarda teatro" məqaləsində islam aləmində mədəniyyət sahəsində irəli getmiş, böyük şairlər, filosoflar yetişdirmiş qədim

İranda dram sənətinin yayılmadığına təəssüflənir. Xəlifə Harulənrəşid zamanında yunan mədəniyyətini və ədəbiyyatını öyrənən ərəblərin yalnız Aristotelin, Əflatun və Sokratın fəlsəfəsi, Arximed və Pifaqorun həndəsəsi ilə məşğul olduqlarına, Sofoklun faciələrinə, Aristofanın komediyalarına məhəl qoymadıqlarına təəccüb edir. Böyük mütəfəkkirlərdən Cəmaləddin Rumi, şair Nəvai, tarixçi Əbulqazi Bahadır xan hesabına qəzəliyyət və fəlsəfə sahəsində irəli getmiş Şərqdə ilk rəsədxana qurmuş münəccim Uluq bəy kimi dühalar vermiş Orta Asiyada da teatr sənətinin və dramaturgiyanın inkişafdan qaldığını göstərdikdən sonra yazır: "Türkiyədə dramaya dair əsər ancaq Əbdülhəmid sultanlığı zamanında aləmə gəlmişdir. Amma bu müstəbidin zamanında bütün ədəbiyyat sıxıldığı kimi, teatro da boğulmaqda idi. Buna görə də biz Türkiyədə lazımi dərəcədə bir teatro görə bilməyirik. Yüngül fransız məzhəkələri, fars, operetta – budur türk teatrolarının Əbdülhəmid sultanlığı zamanında göstərdikləri. Hərçənd türk dilində Şekspir, Şillerin əsərlərindən tərcümələr var idi. Amma bunlar teatroya yaxın buraxılmazdı. Çünki böyük mütəfəkkirlərin əsərləri və ruhu ilə cəmaətə tərbiyə vermək Əbdülhəmid ruhuna və fikrinə zidd idi. Unutmamalı ki, bu əsərlər də Əbdülhəmidin sultanlığından, yəni Türkiyədən xaricə sürgün olunmuş Türkiyə yazıçıları tərəfindən tərcümə olunurdu. Türk teatroları 1907-ci il inqilabından sonra azad nəfəs almağa başladı və burada da qarşıya teatro tamaşalarına dair təlifatsızlıq məmanəti çıxdı. Mən demək istəmirəm ki, Türkiyədə dram əsərləri yoxdur, amma onlardan heç biri teatroya və səhnəyə uyğun deyildir. Çünki Türkiyə teatrolarının sırasında ciddi teatro olmadığına görə müəlliflər öz əsərlərini səhnədə görməyə ümidvar deyildilər. Ona görə də öz kitablarını fəqət qiraət üçün yazırdılar, nəinki teatro və səhnə üçün" (27.səh.375). Bütün bunları qeyd edən müəllif 1905 və 1917-ci il inqilablarından sonra türklər arasında teatr və dram sənətinin inkişafından ətraflı bəhs etməklə özünün mükəmməl bir ədəbiyyat tarixçisi olduğunu da təsdiq edir.

Teatr problemləri ilə məşğul olan ədib və jurnalist Hüseyn Baxşalı oğlu Minasazov (1881-1932) da 17 iyul 1909-cu il "Zakavkazye" qəzetinin 107-ci sayında "Müsəlmanların səhnəyə münasibəti" məqaləsində yazırdı: "Müsəlmanların yığıldığı məscid, hamam və teatr onların bir-birilə görüşüb ümumi maraqlarını bölüşdürmələri üçün üç məkandır. Yüz illərdən bəri mövcud olan birincidən fərqli olaraq sonuncu – yalnız müasir dövrün məhsuludur. Müsəlman ziyalılarının məsciddə və nadir hallarda hamamda olmalarını yaxşı anlasam da, onların teatrdan uzaq düşmələrini heç bir vəchlə anlaya bilmirəm.

Dövlət teatrında, "Nadir şah" tamaşasında boz kütlə çoxluq təşkil etsə də, ziyalıların yoxluğuna heyrət etdim. Əgər teatr ruhani tələbatı ödəyirsə, onda yuxarı təbəqədən fərqli olaraq aşağı təbəqənin ruhi qidaya daha çox ehtiyac duyması məni

heyrətləndirir. Qeyri-təbii halların tüğyan etdiyi müsəlman mühitində belə məsələlər adi hal kimi qəbul olunur" (107.səh.77).

Göründüyü kimi, maarifçiliyin əsas problemlərindən biri də tamaşaçı zümrəsinin tərbiyə olunub yetişdirilməsi olsa da, gündəmdə millətlərarası ədavət kimi daha qlobal məsələlər dururdu.

1905-ci ildə baş vermiş millətlərarası ədavətə maarifçi mətbuatın münasibəti humanist dəyərlərin önə çəkilməsi ilə müşayiət olundu. M.Şahtaxtlı "Şərqi-Rus"un 7 iyul 1905-ci il 134-cü sayında millətlərarası münaqişəyə həsr olunmuş "Barışığa dair" məqaləsində yazırdı: "Müsəlmanlar və ermənilər din və milliyyətcə ayrı-ayrı xalqlardır. Lakin iqtisadi cəhətdən onlar sakini olduqları Zaqafqaziya torpaqlarında vahid bir təsərrüfat, ümumi bir iqtisadi orqanizm təşkil edirlər (...) həyatın iqtisadi tələbləri erməni və müsəlmanları belə bir labüd ehtiyaca dəvət edir: sülh ilə qardaşcasına yaşamaq" (68.səh.39). Eyni problemə Ü.Hacıbəyovun 9 mart 1906-cı ildə "İrşad" qəzetinin 64-cü sayında çap olunmuş "Biz hamımız qafqazlı balalarıyıq" məqaləsində də münasibət bildirilir: "Mədəniyyət və mərifətlimiz cəhalətdə qalanımıza, qüvvətlimiz zəifimizə, sərvətlimiz tavansızlarımıza arxa olmalıdır" (24.səh.24) çağırışı ilə müxtəlif xalqları əmin-amanlığa səsləyir.

1904-cü ildə Şekspirin "Otello" faciəsini tərcümə edərək Şuşada həmin əsərin tamaşasında baş rolda çıxış etmiş Haşım bəy Vəzirovun (1868-1916) 1 aprel 1907-ci il "Tazə həyat" qəzetinin 1-ci sayında dərc etdirdiyi, Ömər Faiq Nemanzadənin təbirincə desək "qanlı ürək və göz yaşları ilə yazdığı" "Kefim gələndə" silsilə məqalələrinin birində çarizmin ədalətsiz "Qafqaz siyasəti" tutarlı dəlillərlə ictimaiyyətə çatdırılırdı: "Bayandurlu göçsün gərək Minkəndə. Onların yeri verilsin erməniyə, çün onda iş düzgün olar. O yanda gedirsən olur Gorus, Naxçivan, İqdır, Zeytun, Samsun, Van və qalan erməni zəmin. Nə şiş yanar nə kabab. Allah Zəngəzur naçalnikinə ömür versin" (86.səh.99). Həmin qəzetin 20 aprel 1907-ci il 19-cu sayında dərc etdirdiyi "Xeyirxah qonşularımız" məqaləsində gedən "...kirvələrimiz çox vaxt bizi dövlət nəzarətində və sair millətlər gözündə mümkün olan qədər həqir, xar, vəhşi və insaniyyətdən kənar bir tayfada görmək istəyirlər" (86.səh.131) sətirlərlə isə H.Vəzirov erməni mətbuatının iç üzünü açıb göstərirdi.

Xalqımıza qarşı çarizmin tutduğu ədalətsiz mövqeyə baxmayaraq maarifçilik yolunu seçmiş demokratik mətbuat millətlərarası ədavət kimi qlobal problemlərə də yüksək humanist və dünyəvi dəyərlər prizmasından yanaşırdı.

Əsrin əvvəlində nəşr olunan çoxsaylı jurnallar arasında 1906-cı ildə Cəlil Məmmədquluzadənin (1866-1932) yaratdığı, redaktoru və naşiri olduğu "Molla Nəsrəddin" məcmuəsi özünün mükəmməlliyi ilə seçilərək, ictimai həyatın mühüm hadisəsi oldu. Məcmuədə real həyat gerçəkliyinə M.F.Axundov ənənəsinə uyğun

olaraq satirik gülüş və məzhəkə mövqeyindən yanaşılması əsas məqsəd oldu. Bu mühüm işə başlayarkən maddi problemdən olduqca narahat olan Mirzə Cəlil yazırdı: “Pul məsələsi bizim boş cibimiz üçün ən ağır məsələ idi. Məcmuənin karikaturalarını çəkdirmək üçün pul lazım idi. Bunu bir növ həll etdik ki, möhtərəm nəqqaşımız Şmerlinq qabaqkı nömrənin şəkillərinin zəhmət haqqını nisyə çəkməyə razı oldu” (55.səh.64).

Vətəndaşlıq ağrısı ilə çətin işə başlayan Mirzə Cəlil dövrün ən ağır sosial yükünün mənəvi daşıyıcısı olmağa hazır idi. 1906-07-ci illərdə milyonçu Tağıyevin maliyyəsi ilə “Füyuzat” jurnalının 32 sayını çıxarmış digər ziyalımız Əli bəy Hüseynzadə “Molla Nəsrəddin” məcmuəsini belə dəyərləndirir: “...bu qədər qəmli bir zamanda belə bir məzhəkə məcmuəsinin çıxması qəribə görünsə də, diqqətlə nəzərdən keçirildikdə görünür ki, bu məzhəkə ancaq zahiri olub daxildə axan göz yaşlarını gizlədir” (124).

Məcmuə kəskin, barışmaz ziddiyyəti əks etdirən satira janrını formalaşdırmaqla yanaşı, maarifçilik funksiyası daşımaqla özünün əsas ictimai-siyasi platformasını müəyyən etdi. Maarifçilik funksiyasını üzərinə götürən jurnal müasir dildə desək geniş mənada sosial reklamla məşğul oldu. “Molla Nəsrəddin”in tədqiqatçısı, professor Ə.M.Mirəhmədovun yazdığı kimi: “Deməli, obıvatelin fəal vətəndaşa çevrilməsinə kömək etmək, camaata poçtun “sirrini” açmaq, savadsıza əlifba öyrətmək, məktəbə lağ eləyəni skamyada oturtmaq, dərviş nağılından xoşlananı teatra çəkmək, çuxaya öyrəşənə kostyum geyindirmək kimi işlərdən başlamış, azadlıq və tərəqqi yolunu göstərməyənədək böyük, geniş bir proqram həyata keçirilməli idi. Sadədən mürəkkəbə, məişətdən siyasətə “Molla Nəsrəddin” bu yolu seçmişdi” (59.səh.253-254). Odur ki, ilk sayından populyarlaşan məcmuə mətbuat bazarında görünməmiş uğur qazandı.

Sağlam biznes faktoru üzərində qurulan mətbuat bazarı ictimai fikri formalaşdıra bilən demokratik mətbuatın yaranmasında mühüm rol oynayırdı. Digər tərəfdən isə müxtəlif dövlətlərin marağına dolayı yolla olsa belə xidmət edən mətbuat orqanları sağlam bazar rəqabətinə davam gətirə bilmirdi. Milli burjuaziyanın dirçəlişi fonunda mətbuat bazarının biznes faktoru üzərində qurulması milli maraqların önə keçməsinə şərait yaratdı. Məhz belə şəraitdə ciddi mətbuat kimi özünü təsdiq etmiş “Şərqi-Rus”un mühafizəkarlığı onun imicinə mənfi təsir göstərdiyindən qəzet tədricən iflasa uğradı.

Bir müddət qəzetlə əməkdaşlıq etmiş Mirzə Cəlilin tərcümeyi-halı timsalındakı “Xatiratım”da “Şərqi-Rus”un daxili mühiti, abi-həvanı dəqiq təsvir edilmişdir: “O ki qaldı siyasi məsələlərə, bu barədə dilim lal olsun: haman əsrin sansorunun tələbatı o qədər səxt idi ki, siyasət nədir ki, siyasətin qorxusundan “s” hərfini yazmağa cürət eləməzdik” (54.səh.82). “Şərqi-Rus”un iflası səbəblərini də Mirzə Cəlil bu yazıda göstərmişdir: “Qafqazda müsəlmanlar içində türkcə qəzet tək

bir “Şərqi-Rus” idi. Bu da ki məlumdur, Tiflisdə bina olmuşdu və orada da çıxmaqda idi. Bakı şəhəri, o milyonlu və mədənli Bakı şəhəri öz qəhrəman yazıçıları ilə, öz Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Haşım bəy Vəzirov, Məhəmməd Əmin Rəsulzadə, doktor Qarabəy Qarabəyov, şair Müznib, Hacı İbrahim Qasımov, Cəfər Bünyadzadə və qeyri bunlar kimi əqli-qələmləri ilə uzaqdan Tiflisə baxıb onun gündəlik “Şərqi-Rus” qəzetinə həsəd aparırdılar” (54.səh.145).

Ana dilli yeganə qəzeti xilas etmək məqsədi güdən Əhməd bəy Ağaoğlunun “Şərqi-Rus” qəzetinin rəhbərliyinə şərikliyi maddi çətinlikləri həll etsə də, digər etik-psixoloji problemlər yaradırdı. Ən azı müasir islamizm ideyasının yaradıcısı sayılan Əhməd bəy Ağaoğlunun dinin elmiliyini belə təhlil edən məqalələrinə qəzet səhifələrində yer verilməsi M.Şahtaxtlı imicinə zərbə vurmaya bilməzdi.

Ömər Faiq Nemanzadənin (1872-1950) “Şərqi-Rus” qəzetinin (23 may 1904-cü il) 60-cı sayındakı “Əhməd bəy Ağayev” məqaləsində göstərdiyi kimi: “Sarbon Universitetinin məzunu, Bakıda nəşr edilən “Kaspi” qəzetinin ən yorulmaz, ötgün qələmli, məlumatlı mühərriri” (62.səh.49) Əhməd bəy Ağaoğlu yeni ziyalı zümrə arasında daha geniş populyarlıq qazanmaqla yanaşı, milli burjuaziya sinfinin öndə gedənləri ilə də yaxın münasibət saxlayırdı. Əhməd bəy Ağaoğlunun həmyerlisi, onu yaxından tanıyan Y.V.Çəmənzəminli 11 fevral 1936-cı ildə yazdığı “Həyatımın 20 ili” adlı xatirələrində onun maarifçiliyini qeyd etməklə yanaşı, şəxsi-psixoloji portretini də yaratmışdır: “Əhməd bəy olan məclisdə heç bir mövhum fikirlərə yer qalmırdı. Camaat Əhməd bəyin Fransada təhsil aldığını bilirdi, ona “firəng Əhməd bəy” deyərdilər. İslam və türk tarixinə hər kəsdən artıq vaqif idi. Məclisdə danışanda heç bir molla cəsarət edib onun fikirlərinə qarşı çıxa bilmirdi. Əhməd bəy sərt və əsəbi adam idi, bilxassə bəylərin qudurğanlığına dözə bilməzdi, onlarla bir məclisdə qarşı-qarşıya gəldimi, həmişə dalaşar, həmişə tapancasını hazır saxlayardı. Bəylər də ona qarşı intriqalar çevirərdilər, bir gün onu təhqir etmək üçün klubdan şapkasını və paltosunu oğurlamışdılar, evinə başı açıq dönməyə məcbur olmuşdu.

1896-cı ildə Əhməd bəy Şuşada türk hissəsində birinci olaraq qiraətxana və kitabxana təşkil etdi, o biri il Bakıya getdikdə bu müəssisə qapandı” (15.səh.287).

Sonralar, 1918-19-cu illərdə, Cümhuriyyət dövründə Y.V.Çəmənzəminli qələmə aldığı proqram xüsusiyyətli “Milli və mədəni işlərimiz” məqaləsində kitab nəşrinin maarifçilikdə oynadığı rolu yüksək qiymətləndirərək yazırdı: “Hansı yolda qənaət olunsa, nəşriyyat üçün gərək qənaət olunmasın. Çünki bu günlər basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, onlar sərf olunur və əməli nəticələr də vermir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayələr vücuda gətirir” (16.səh.45).

Ömər Faiq Nemanzadə "Dəvət" adlı bədii publisistik əsərində İsmayıl Qaspralının əsasən Rusiya müsəlmanları və türkləri üçün nəşr etdirdiyi, "Əkinçi" ənənələrindən bəhrələnən "Tərcüman" (1882-1916) qəzeti barədə yazırdı: "Qəzetlərimizin millətə ən xeyirlisi və nəfisi hamıya məlum olam möhtərəm "Tərcüman"dır. Lakin bir "Tərcüman" ilə otuz milyon xalqın ehtiyacı görülə bilməz...bizə beş-on deyil, yüz mətbəə, bir-iki deyil, on beş-iyirmi qəzet, jurnal lazımdır" (62.səh.80). "Qonşularımızın bizə görə tərəqqilərini zikr etməkdən məqsədim onlara həsəd etmək, çox görmək deyil, qəsdim budur ki, qonşularımızla bərabər biz də rahət və insanca yaşamaq üçün mərifət və mədəniyyətdə mütləq onlarla bərabər olmalıyıq" (62.səh.82) fikirlərində Ö.F.Nemanzadə maarifçiliyə tələbatı bir daha göstərməklə yanaşı, "Şərqi-Rus" qəzetinin probleminə də toxunur: "Hərçənd Rusiya hökuməti Rusiyanı müsəlmanlara bildirmək və Şərq ilə daha ziyada kəsb-münasibət etmək üçün türk dilində bir qəzetin vücudunu vacib bilib "Şərqi-Rus" adında bir qəzet ehdas və mühərrirliyini məlum olan şəxsə həvalə elədisə də, o da hər nədənsə çox davam edə bilməyib əcaib bir yuxuya tutulmuşdur. Heyf bizlərə ki, təzədən nəşr edilməyinə dua ilə məşğuluq" (62.səh.83).

Mirzə Cəlilin yazdığı kimi Əhməd bəy Ağaoğlunun maddi çətinliklərlə üzləşən qəzetə şərik olması və tezliklə onu Bakıya köçürmək iddiası qəzetin süqutuna səbəb olan amillərdən biri idi. Bununla belə maarifçilik yolunda öz tarixi missiyasını yerinə yetirmiş "Şərqi-Rus" qəzeti ictimai fikir tariximizdə vacib rol oynadı. Sovet hakimiyyəti illərində Dövlət Universitetimizin ilk milli professoru olmuş, 1931-ci ilin dekabrında 85 yaşında vəfat etmiş və çox təəssüf ki, məzarı itirilmiş bu nəhəng jurnalist Məhəmməd ağa Şahtaxtlı sonrakı jurnalist nəsilləri üçün örnək oldu.

Milli maarifçiliyimizin formalaşmasında müstəsna rol oynayan Ömər Faiq Nemanzadənin "İrşad" qəzetinin 10 dekabr 1906-cı il 282-ci sayında çap etdirdiyi "Millətpərəstlik zamanıdır" məqaləsini nəzərdən keçirək: "Bir Tağıyevdən savayı hansı bir dövlətlimiz öz başına bir məktəb, bir mədrəsə, bir kitabxanə vücuda gətirib? (...) Hər yana baxsan, dövlətlilərimiz, bəylərimiz öz kef və mənfəətlərindən savayı heç bir şeyi fikir etmirlər. Qarabağ və Zəngəzur aclarının ahu-fəryadları istər göylərə çıxsın, yetim çılpaq balaların göz yaşları istər çaylar təşkil etsin, sahibsiz, hamisiz qalan anaların, bacıların irzi-namusları, istərsə düşmənlərin təcavüzünə düçar olsun, heç kəsdə birtəəsübi-milliyyə, bir qeyrəti-diniyyə oyandırmır" (62.səh.153).

"İrşad" qəzetinin 26 dekabr 1906-cı il 293-cü sayındakı "çinovniklərimiz" məqaləsində Ömər Faiq Nemanzadənin "Ha deyirik ki, filankəs on beş ildən bəri qazıdır, pristavdır və ya baş strajnikdir, bu müddət ərzində bəlkə on beş min dilsiz müsəlmanı döyüb həbslərə salıblar. Müsəlmanların arasında partiyabazlığı, quldurluğu, avamlığı çoxaldıb, qədim milli maarifimizi belə kökündən kəsiblər,

müstəbid hökumətə ən müstəbidanə, zalimanə köməkçi olublar" (62.səh.160) sözlərinin uzun dövrdən sonra belə aktual səslənməsi bir tərəfdən müəllifin yüksək peşəkarlığına dərin hörmət hissi yaratsa da, digər tərəfdən tərəqqinin bizdən yan keçməsi kimi pessimist fikirlər oyadır.

Onun "Yeni iqbal" qəzetinin 2 iyul 1915-ci il 57-ci sayında çap etdirdiyi "Eşq və məhəbbət" məqaləsindəki vətən yanğısı qaynar sözlərlə ifadə olunaraq torpaq azadlığı kimi müqəddəs missiyanı həyata keçirməli olan cəmiyyətimizdə ən vacib ideyanın formalaşmasına birbaşa xidmət edir: "Mən inanmıram ki, məhəbbətlə can qıyılan yerdə dünyalar əmələ gəlməyə. Eşidirik ki, bir yaponiyalı dənizdə üzən qorxulu bir düşmən minası partladıb, öz vücudu ilə bərabər darmadağın edir. Eşidirik ki, bir avropalı on min metrdən aeroplan ilə bərabər aşağı fırlanıb düşmənin əhəmiyyətli bir flotunu özü ilə bərabər parça-tikə edir. Eşidirik ki, bir şəxs Vətən uğrunda düşmən qalasının barıt anbarını odlayıb özü ilə bərabər havaya sovurur. Bəli, məhəbbət nələr, nələr elətdirməz" ( 62.səh.228).

"Azərbaycan" qəzetinin 9 iyul 1919-cu il 220-ci sayında çap olunmuş "İşlərimizdə hərcmərclik" məqaləsində Ömər Faiq Nemanzadə müstəqilliyini qazanmış gənc respublikanın dövlət xəzinəsinə əl uzadan rüşvətxor məmurları qamçılayır: "Mayda Quliyev İrandan 16 vaqon düyü tranzit üsulu ilə gətirib Novorosiyskiyə götürürdü. Quliyev bu düyüləri burada dayandırmayıb düz götürməli idi. Lakin böylə etmədi. Burada günlərcə əylədib, germankada təmizlənib tranzit nizamını pozdu. O halda bu mallardan gömrük idarəsi gərək yarım milyondan artıq xərc alaydı. Lakin işi hacı-bacı oyununa çevirdilər" (62.səh.274).

Vətənpərvərlik kimi ülvi hissi uca tutan N.Vəzirov isə "Nalə" adlı qeydlərində təxəllüs kimi istifadə etdiyi "Dərviş"in adından yazır: "Berne adlı bir nəfər vətənsiz yəhudi öz kitabında bu sözləri yazmış: "Özümü sevirəm, külfətimi özümdən artıq sevirəm, külfətimdən artıq vətənimi sevirəm". Bu vətənsiz cənab yalnız anadan olduğu şəhəri özünə vətən hesab edib, onu külfətimdən artıq sevirəm demiş. Hərgah onun vətəni Azərbaycan kimi gözəl, dağlı, çəmənli, varlı olsaydı, o vaxt o görəsən o, nə dil ilə, necə sözlərlə öz məhəbbətini ona bildirərdi? Yəqindir ki, yazardı: "Gözəl Azərbaycan, uca dağlarına canım qurban, laləli, çiçəkli çəmənlərinə malım qurban, soyuq bulaqlarına, meyvəli bağlarına balalarım qurban! Hansı millətin Muğan çölü kimi, Mil düzü kimi, Şirvan səhrası kimi, Abşeron yarımadası kimi yeri, torpağı var? Heç bir millətin!... Yaşa vətənim, çox yaşa!" Bəs indi biz azərbaycanlılar öz vətənimizin haqqında necə rəftar edirik? Biz bədbəxtlər ancaq vətənimizi tar-mar edən quzğunluq yaratmışıq!... Vətənin pərişan halı, işlərimizin hərc-mərc olması, daxili-xarici düşmənlərin varlığı məni, mən qoca Dərvişi o qədər yandırmır, o qədər dərdə salmır, nə qədər ki, hal-hazırda içimizdə olan quzğunluq!... Gecə-gündüz, vaxtlı-vaxtsız hər dəqiqə vətənin qanın

soran quzğunluq!" Müəllif məqaləsində "pətənələri çuvaldan geniş olan, insaf, vicdan, mürvət bilməyən "quzğunlara" birbaşa müraciət edir: "Amandır, quzğunlar! Vətən əldən gedər, yaman günlərə qalarıq. Balalarımızın xatirinə, gələcəkdə övladlarımızın xatirinə rəhm edin millətə, əl çəkin mürtəd işlərdən, yoxsa gələcək tarixində adınız çəkiləndə lənət oxunacaqdır..." (87.səh.389-390).

1905-ci il inqilabından sonra Azərbaycanda bir neçə bolşevik qəzeti çap olunmağa başladı. Bu qəzetlər özlərinin üsyankar ideyaları ilə seçilirdi. 1906-cı ildən M.Əzizbəyov və S.M.Əfəndiyevin rəhbərliyi ilə nəşr olunan ilk leqal bolşevik qəzeti "Dəvət-Qoç" əsas ideyanı 19 iyul 1906-cı il 19-cu sayında belə müəyyən edirdi: "Camaətin nicatına və rahatlığına ancaq bir çarə var, o da camaəti müsəlləh etməkdir, yəni, hamısına silah verməkdir" (123). Göründüyü kimi, siyasi platformaların formalaşdığı ilkin mərhələdən başlayaraq bolşeviklər hakimiyyəti ələ almaq üçün silahlı qarşıdurma yaratmaqla vətəndaş müharibəsi törətməkdən belə çəkinmirdilər. Məhz silahlı üsyanla Rusiyada hakimiyyəti ələ almış bolşeviklər, sonrakı fəaliyyət dövründə də marksizm-leninizm ideyalarının digər dövlətlərə ixracını yalnız silahlı təcavüz kimi təsəvvür edərək, kütləvi informasiya vasitələrində demokratik siyasi marketinq imkanlarından istifadə olunmasını ağıllarına belə gətirmirdilər. Bu isə inzibati amirliyin tüğyan etdiyi bir ölkədə məmurlar ordusunun özbaşınalığı və vətəndaşdan sakinə çevrilmiş qara kütlənin yaşamaq uğrunda mübarizədən üz döndərib içkiyə qurşanması üçün üzdəniraq "məhsuldar" mühit yaradırdı.

Leninin şərqdə ən ağıllı adam saydığı əsl demokrat Məhəmməd Əmin Rəsulzadə (1884-1955) "İrşad" qəzetinin 26 noyabr 1906-cı il 272-ci sayında "Dur ay yatmış" jurnalındakı "Araq içməyiniz" məqaləsini tərcümə etmiş: "Hər bir butulka araq içməyinizlə siz camaətin xoşbəxtliyini və azadlığını içirsiniz. Siz bununla ilanı, balığı bankada spirtləyən kimi öz hürrüyətinizi spirtliyorsunuz. Hər bir butulkasına verdiyiniz 123 qəpik pulun 11 qəpiyi bürokratlara çatıyor (...) məlumdur ki, piyan camaət ilə dolanmaq bürokratlara çox asandır (...) öz ailəsinin səadəti də piyana lazım deyil" cümlələrindən sonra: "Bu tərcüməyə əlavə olaraq biz də öz tərəfimizdən "Araq içməyiniz!" əvəzində "Araq içməyə öyrətməyiniz!" – desək daha yaxşı, daha müsəlmanlara münasib olar zənnindəyiz. Həqiqətən də biz müsəlmanlar içkiçi olmasaq da, buna başlamışıq. Hətta Kazan tatarları, türkmən təkələri, ləzgilər bu babətdə heç rus mujikindən geri qalmazlar, amandır, arkadaşlar, araq içməyə öyrənməyiniz, öz səadətinizi içməyiniz!" (70.səh.69) - əlavə etməklə artıq gündəmə gəlməkdə olan bu problemə özünün sağlam münasibətini bəyan etmişdir.

Məhəmməd Əmin Rəsulzadə "Tərəqqi" qəzetinin 30 sentyabr 1908-ci il 65, 68-ci saylarında dərc etdirdiyi "Kooperativ cəmiyyətləri" məqaləsində bazar iqtisadiyyatının tələblərini aydın şəkildə şərh edir: "Fabrikaçının imkanı

olduğundan maşın vasitəsi ilə müdam işləyib məta hazırlıyor. Məta hazırlıyor da, satılacağını heç bilmiyor. Buna görə də ona lazımdır ki, azad olsun, yollar rahat olsun, insanların bir-birilə rəftarı və əşyanın hüsulu asan vəchə düşsün. Ona gərəkdir ki, hər yerdə müəyyən bir qanun mühafizəsi görsün" (70.səh.197). O dövrdə sənayeləşmə nəticəsində yeni peyda olmuş reklam agentlərini arxaik dildə dəllal adlandıran müəllif yazır: "Bir nəfər dəllalı güdəndə görün ki, o, dükanları qapı-qapı gəzib nələr qayırır? Baxınız ki, o nə yollar ilə mağazalara girib vəkil olduğu ticarətxanənin, yainki, fabrikanın mətaını nə dillərlə tərif edib nə üsullar ilə işə verir" (70.səh.202).

Naməlum şəxs tərəfindən Nobel şirkətinin mühəndisi Maksimova atılan gülləyə görə iki yüz fəhlənin işdən atılmasına münasibətini Məhəmməd Əmin Rəsulzadə "Tərəqqi" qəzetinin 16 fevral 1909-cu il 37-ci sayında dərc etdirdiyi "Açıq terror" məqaləsində: "Bir nəfər caniyə qisas etmək üçün iki yüz nəfərə cani olmaq nə böyük istibdad! Haqsızlıq!" – deyə qətiyyətlə bildirir. Bütövlükdə mütərəqqi dövrü mətbuatda gəlmə şirkətlərin yerli xalqların taleyinə biganə qalmaları tez-tez işıqlandırılırdı. Təsadüf deyil ki, adı çəkilən şirkətlər fəhlələr üçün eyni tipli baraklardan, xarici rəislərin yaşadıqları saray və bağdan savayı şəhərdə heç bir tikinti aparmamışdılar. Fəaliyyətlərində daim müstəmləkə siyasətindən doğan sərt siyasi və iqtisadi qanunların yaratdığı məhdudiyyətlə buxovlanan yerli sərmayədarlar gəlmələrdən fərqli olaraq tək maddi qazancla kifayətlənməyərək öz talelərinin doğma xalqla bağlı olduğunu dərk edirdilər. Məhz bu zəmində formalaşan strateji təfəkkür tərzi onların bir çoxunu maarifçiliyi təbliğ etmək məqsədi ilə yaranan mətbuatın, təhsilin, mədəniyyətin, elmin, texnikanın inkişafını nizamlayan, hüquqi status qazanmış mütərəqqi cəmiyyətlərin himayədarı etdi. Milli kapitalizmin formalaşması artıq dövrün tələbinə çevrilir və Hacı Zeynalabdin kimi xeyriyyəçilər örnək hesab olunurdular. Bununla belə öncə dünyaya, sonra millətə sevgini önə çəkən mütərəqqi ziyalılarımız millətçiliyi qətiyyən qəbul etmirdilər. Məhəmməd Əminin "Tərəqqi" qəzetinin 29 iyun 1909-cu il 143-cü sayında dərc etdirdiyi "Qəribə bir baykot" məqaləsindəki: "Millətçilik! İnsan-insanlar əvəzində utanıyor, xəcalət çəkiyor" (70.səh.378) sözləri buna parlaq misaldır. 1910-cu ildən milli müstəqillik ideyalarını önə çəkən "Açıq söz" qəzeti Məhəmməd Əmin Rəsulzadənin simasında Azərbaycan xalq Cümhuriyyətinin mənəvi təməlinin qoyulmasına başladı.

Y.V.Çəmənzəminli də "Açıq söz" qəzetində çap olunmuş "Bizə ciddi mətbuat çoxdan lazım idi" məqaləsində müharibə meydanındakı məğlubiyyətdən laxlamış məmur idarəçiliyinin zəifləməsi nəticəsində yaranmış və demokratik fikir təməlində bərqərar olmuş kütləvi informasiya vasitələrinin imkanlarını dəyərləndirir: "Rus-yapon" müharibəsi bizə "Həyat" ilə "İrşad"ı bəxş etmiş idi. Böyük Avropa dalğası da "Açıq söz"ü vücuda gətirdi. Məsləksiz mətbuatdan

inciyib kənara çəkilmiş mühərrirlərimiz yenə də qəzet başına toplandılar. Dərdlərimiz müzakirə olunur, halımızı təsair edirlər" (15.səh.182).

Maarifçiliyi əldə dəstəvuz tutaraq xalq yolunda min bir zəhmət çəkmiş görkəmli publisistlərimiz arasında dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyovun da xüsusi yeri vardır. Ü.Hacıbəyov "İrşad" qəzetinin 23 fevral 1907-ci il 32-ci sayındakı "Təəssüflər olsun" məqaləsində yazır: "Lənət olsun o günə ki, maarif və mədəniyyət qapıları bizim üzümüzə bağlanıb bizi cəhalət və vəhşaniyyət vadisində sərgərdan qoydu. Və lənət olsun bu uzun zamana ki, bu tulani mürurilə bizim içimizdən millət, camaat qəhrəmanı olacaq bir dahi çıxara bilmədi. Bir dahi ki, həqiqi ömür sürmək üçün, qabağımızı kəsib duran sədləri nisü nabüd eədəcək qədər qüvvəti mənəviyyəyə və cismaniyyəyə malik olub bizi zülami-cəhalətdən nuri-maarifə tuş edə biləydi!" (24.səh.69).

27 noyabr 1907-ci ildə M.F.Axundovun qoyduğu bünövrə üzərində maarifçiliyin binasını ucaltmış H.Zərdabinin ölümü onun davamçılarını qüssəyə qərq etdi. Həsən bəyin dəfn mərasimində özünün natiqlik məharətini də nümayiş etdirən Əhməd bəy Ağaoğlunun çıxışını nəzərdən keçirək: "Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadlarımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz getdiniz? Məmləkətimiz xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında xar, zəlil, məzlum, əhvalımız pozğun! Gündən-günə tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız. Əlan işimiz, sənətimiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Eh kaş nə biz olaydıq, nə böylə irs" (32.səh.225). Həsən bəyin digər davamçısı, sonralar dini mahiyyətli "İttihad" partiyasından parlament üzvü olarkən sovetlərin gəlişinə səs vermiş doktor Qarabəy Qarabəyovun: "Həsən bəyin Bakıda qəzetə çıxardığı zamanlar öylə bir vaxt idi ki, onda yerin sacınını üç qəpiyə almaq mümkün idi. Neft yerləri demək olar ki, müftə paylanırdı. Həsən bəy istəsəydi indi Bakının kapitalistlərindən ola bilərdi. Lakin o, bunu eləmədi. Dünya malına göz dikmədi. Ancaq camaət dərdinə qaldı. Axırda da quru taxta üstə vəfat edib öz əhli-əyalına heç bir şey qoymadı" (32.səh.227) – sözləri bu böyük maarifçinin ictimai mövqeyinin portretini yaradır.

Görkəmli maarifçimiz Həsən bəy Zərdabinin vəfatı bütün ziyalılarımızı eyni dərəcədə sarsıtmışdı. H.Vəzirov 29 noyabr 1907-ci il "Tazə həyat" qəzetinin 1-ci sayında bir gün əvvəl vəfat etmiş Həsən bəy Zərdabiyə həsr etdiyi nekroloqda yazır: "Bizi düşündürən, bizi ağladan, bu növ ürəgi, dili, əfalı, məsli bir, qorxusuz, açıq-açığına deyən millət mücahidinin qaib olmasıdır" (86.səh.199).

"İrşad" qəzetinin 2 dekabr 1907-ci il 122-ci sayında çap olunmuş Məhəmməd Əmin Rəsulzadənin dəfn mərasimində çıxışındakı "Bizdə rəis yoxdur. Bizim rəislərimiz camaəti bu cəlladların əlindən qurtarmalıdır. Bu xilaslıq da

camaətin öz əli ilə gərək olsun. Başqa yol yoxdur. Camaət özü öz azadlığına gərək çalışsın. Rəislərə yalvarmaq, onlardan mərhəmət istəməklə onun halına heç bir fayda olmaz. Çün həmişə qoyun nə qədər xırıldasa, nə qədər nalə iltica etsə də, qəssab onun bu naləsinə baxmaz (...). Dəyərki, camaət öz haqq və ixtiyarını, öz bacarıq və gücünü bilsin. O zaman heç kəs onu sıxıntı altında saxlaya bilməz. Camaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? - maarif, maarif, maarif!" (70.səh.151) – cümlələri "parçalanmış və talan olan millət" yolunda məşəl kimi yanan müəllifin inqilabi coşğunluğunu, siyasi səviyyəsini və maarifçilik yanğısını nümayiş etdirir. "İrşad" qəzetində Ə.Ağaoğlunun yaratdığı sağlam mühitdə, ideyası uğrunda varından-yoxundan keçməyə hazır olan M.Ə.Rəsulzadə ilə yanaşı, digər maarifçilərimiz də xalqın mənafeyi üçün yorulmadan çalışırdılar.

Təəssüflə qeyd edək ki, 17 dekabr 1905-ci ildən başlayaraq Ə.Hüseynzadə, N.Nərimanov, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, Q.Qarabəyov, S.S.Axundov kimi qələm sahiblərinin çıxış etdikləri "İrşad" qəzeti özünün rəhbəri Ə.Ağaoğlunun bütün səylərinə baxmayaraq 20 iyun 1907-ci ildə fəaliyyətini dayandırmalı oldu. 29 aprel 1907-ci il "İrşad"ın 79-cu sayında qəzeti qorumaq naminə çar məmurları ilə dil tapmaq istəyən Ə.Ağaoğlu yazırdı: " "İrşad" nə istəyir? "İrşad"ın xahişi budurmu ki, müsəlmanlar da hökumət əleyhinə qiyam edib bomba, güllə istemal etsinlər! ...Xeyir, bizim qəsdimiz bu deyil. Bizim məsləkimizdə bomba, güllə yoxdur" (3).

Tədqiqatçı Mir Abbas Aslanovun yazdığı kimi: "Təqribən dörd aylıq fasilədən sonra noyabrın 17-də "İrşad"ın 116-cı nömrəsi çıxdı və qəzet nəşrini davam etdirdi. Ancaq indi "İrşad" daha həmin qəzet deyildi; ədəbi qüvvələri də, ideya məzmunu da dəyişmişdi" (10.səh.25). 1908-ci ildə baş redaktor kimi "İrşad"ın son 46-57-ci saylarını özünün müavini və məsul katibi Ü.Hacıbəyov ilə birgə nəşr etmiş M.Ə.Rəsulzadə, irticanın təzyiqi ilə bu demokratik nəşrin fəaliyyətini dayandırdıqdan sonra peşəkar siyasətə keçərək "Müsavat" partiyasını ərsəyə gətirməyə başladı.

Hələ 1904-cü ilin sonunda əqidə dostları M.H.Hacınski və Mirhəsən Mövsümovla RSDFP Bakı komitəsi nəzdində "Hümmət" müsəlman sosial-demokrat təşkilatını yaradan və eyni adlı qəzet nəşr edən M.Ə.Rəsulzadə bu ideyaları "İrşad"a gətirərək həmin dövrdə sosial fikirlərlə yanaşı, Ə.Hüseynzadənin yaratdığı türkçülük zəminində milli özünüdərketmə prinsiplərini də önə çəkdi.

Onun 5 dekabr 1908-ci ildə tamaşaya qoyulan, müstəqillik amallarına xidmət edən "Qaranlıqda işıqlar" pyesi milli dirçəliş ideyalarının istiqlal hərəkatına tətbiqini əks etdirirdi. Çarizm irticasına qarşı yönəlmiş sosial plakat janrında olan bu əsər müstəqillik mövzusunun ilk qaranquşu oldu. Həmin il müəllifin yazdığı "Nagəhan bəla" pyesi də melodrama janrında olub sosial problemləri əks etdirsə də, məğzində müstəqillik ideyası dayanırdı.

1908-1909-cu illərdə "İrşad" bağlandıqdan sonra Ə.Ağaoğlunun açdığı 7 sentyabr 1908-ci ildən etibarən iki il fəaliyyət göstərən "Tərəqqi" qəzetilə də əməkdaşlıq edən M.Ə.Rəsulzadə həbs təhlükəsi səbəbindən İrana üz tutur. Orada Səttarxan hərəkatının ideoloqlarından birinə çevrilən M.Ə.Rəsulzadə Avropa təhsili görmüş ziyalılarla birgə 1910-cu ilin sentyabrında İran Demokratik Partiyasının əsasını qoyur və "İrane-Nov", "İrane-ahat" kimi müasir tipli qəzetlərin baş redaktoru olur. 1914-cü ildə Səttar xan dünyasını dəyişdikdən sonra M.Ə.Rəsulzadə "İqbal" qəzetinin 10 noyabr 786-cı nömrəsində yazırdı: "Son zamanlar Səttar xan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi. Fəqət bir vaxt var idi ki, bu ism günün mövzusunu təşkil ediyordu. Avropa qəzetləri belə Səttar xan ismini Qarribaldi ilə bərabər tutuyorlardı. İştə bu vaxtilə İran Qaribaldisi olan zat ölmüşdür" (71.səh.423).

İran istibdadının təzyiqi ilə Türkiyəyə mühacirət edən M.Ə.Rəsulzadə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Yusif bəy Akçuraoğlu (1876-1935), Ziya Gök Alp (1876-1924) ilə birlikdə milli ideyaların daşıyıcısı sayılan "Türk ocağı" cəmiyyətində çalışmış, 1911-ci ilin noyabrından fəaliyyət göstərən "Türk yurdu" jurnalının fəal müəlliflərindən olmuşdu. Məhz Rəsulzadənin iradəsi və təkidi ilə 1911-ci ilin oktyabrından keçmiş hümmətçilər – Tağı Nağıyev və Abbasqulu Kazımov Bakıda "Müsavat"ın ilk özəyini yaradırlar. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyilə bağlı əfv fərmanından sonra vətənə qayıdan Rəsulzadə "Müsavat"ın rəhbərinə çevrilir. Fevral inqilabına qədər 6 illik gizli fəaliyyət göstərən "Müsavat" nəhayət, 15 aprel 1917-ci ildə Türk-Ədəmi mərkəziyyət partiyası ilə birləşərək güclü siyasi platforma təşkil edir.

16 sentyabr 1914-cü ildən şair-publisist Əliabbas Müznibin (1882-1938) redaktorluğu ilə nəşr olunan "Dirlik" jurnalında M.Ə.Rəsulzadənin istiqlal məqalələrində xalqı "türk", "tatar" deyil, məhz azərbaycanlı kimi təqdim etməsi sadəcə genetik kodlar üzərində yox, geopolitik azərbaycançılıq zəminində yaranacaq "Müsavat dövlətçiliyi"nin ideoloji təməli idi.

Y.V.Çəmənzəminli Cümhuriyyət dövründə qələmə aldığı "Biz kimik və istəyimiz nədir?" məqaləsində iqtidarda olan "Müsavat" partiyasının əsl məqsədini açıqlayır: "Rusların hakimiyyəti bizi dəxi də pis hallara gətirdi: ixtiyarımızı əlinə alıb bizi həm torpaqlarımızdan, həm də millətimizdən məhrum qılmaq istədi, vətənimizi rus köçərilərilə doldurdu. Böylə olan surətdə bizim üçün ən vacib məsələ Azərbaycanın hakimiyyətini öz əlimizə almaqdır. Bu isə istiqlal ilə olur. Odur ki, Azərbaycanın istiqlalı firqəmizə ələm olmuşdur. Türk ədəmi-mərkəziyyət firqəsi "Müsavat"ın əsl məqsədi də bundan ibarətdir. Ola bilsin ki, öz ixtiyarımız öz əlimizə düşdükdə ədalətsizlik baş versin. Ədalətsizliyi yox etmək üçün Azərbaycan hakimiyyəti gərək xalqın öz istədiyi adamların əlinə keçsin. Ta ki, milli idarə xalqın xahişi olub camaətin hər bir sinfinin ehtiyacını nəzərə alsın"

(16.səh.9). Göründüyü kimi, analitik düşüncə tərzinə malik Y.V.Çəmənzəminli yalnız demokratiya mühitinə müəssər olan hakimiyyətin ötəriliyini, dövlətçiliyin isə əbədiliyini önə çəkirdi.

Maarifçilik istiqamətində bərqərar olmağa başlamış ədəbi-bədii dili və ictimai-siyasi mətbuat orqanları ictimai fikir tariximizdə mühüm əhəmiyyət kəsb etməklə teatr sahəsində də bu işığın sönməsinə imkan vermirdilər. Məhz maarifçi mətbuatın yaratdığı ideyaların dövrün qlobal problemlərinə tətbiqi dramaturgiyamızda da bu mövzuların bədii həllinin tapılmasına təkan verdi.

1892-ci ildə Qoqolun "Müfəttiş" əsərini dilimizə tərcümə edib "Qorodniçi" rolunda səhnəyə çıxmış N.Nərimanovun (1870-1925) 1894-cü ildə yazdığı "Nadanlıq" adlı ilk əsərində "Güclə deyil ki, müəllimi bu ölkədə düşmən hesab edirlər" (64.səh.21) – deyən kənd müəllimi Məhəmməd ağanın dilindən səslənən: "İş adam olmaqdadır. Nə üçün bəs Amerika padşahlığında kənd adamları əllərində qəzet, cüt sürürlər" (64.səh.23). "Yeri elmə müvafiq şumlamaq və nə tövr kotanla əksən taxıl yaxşı çıxar – bunların hamısı kitablarda yazılıbdır" mətnləri digər ölkələrin əldə etdiyi mütərəqqi dəyərlərin tətbiqi kimi maarifçiliyi birbaşa təqdim edir. Əsərin finalında kənd ağsaqqalı Hacı Abdullanın savadlı oğlu Ömərin: "Məni nadanlıq, avamlıq, bimərifətlik güllələdi... Bunlar hamısı adamı heyvan edərmiş. Ah nadanlıq!" (64.səh.55) sözləri ideyası uğrunda canından keçən faciə qəhrəmanının üsyanıdır.

"Əliqələmli müsəlman ziyalıları haqqında bir neçə söz" məqaləsində N.Nərimanovun "Məqalələr kimin üçün və nə məqsədlə yazılır? Əgər iyirmi-otuz nəfər oxumuş müsəlmanlardan ötrü yazırlarsa, biz bu yazan cənabları inandıra bilərik ki, oxumuş müsəlmanlar müzakirə edilən bu məsələləri həmin məqalə sahibləri qədər yaxşı anlayırlar. Əgər möhtərəm müəlliflər haman sinfi nəzərdə tuturlar ki, bu məzmunda olan məqalələrin onlar üçün doğrudan da əhəmiyyəti vardır. Onda biz cəsarət edib bu zəhmətin tamamilə faydasız olduğunu təsdiq edə bilərik" (64.səh.239) fikirlərində məqsəd Azərbaycan adlı bir evin, dolayı yolla desək tavanının deyil, döşəməsini qaldırmaqdan ibarətdir. N.Nərimanovun məqalələrindən əlavə nəsr əsərlərində də publisistik vüsət olduqca güclüdür.

1900-cü ildə çap olunmuş, 1915-ci ildə müəllifin özü tərəfindən səhnələşdirilmiş "Bahadır və Sona" romanında qəhrəmanın dilindən səslənən: "...xristian aləmində ruhanilər elmlərə düşmən olublarsa da, fəqət padşahlar və dövlət ruhanilərlə müdam müharibədə bulunublar (...). Xristian aləmi müdam belə bir müharibədə olaraq özünü ruhanilərin zəncirindən yavaş-yavaş xilas edib. Müsəlman aləminə diqqət edərsəniz isə bu müharibəni görməzsiniz. Padşah həm ruhani-xəlifə olub, həm də dövlətin yol göstərəni" (61.səh.171) fikirləri tarixən maarifçiliyə əngəl olan qlobal problem kimi göstərilir.

“Bir kəndin sərgüzəşti” hekayəsində isə müəllif demokratiya yolunda əngələ çevrilən, feodal əxlaqına xas olan avtoritarlığa qarşı çıxır. Əsərdə məhəllə adları kimi təqdim olunan Naməlsəm və İnmirəni tərsinə oxuduqda söhbətin müsəlman və ermənidən getdiyi məlum olur. Qonşularından fərqli olaraq yalnız ağsaqqal sözü ilə durub-oturan müsəlmanların qarşılaşdığı probelmlər kəskin boyalarla göstərilir. İnzibati-amirliyin daşıyıcısı olan, var-dövləti başından aşan Əmini qonşular da “canı-dildən tərif edirdilər: “Siz xoşbəxtsiniz ki, Əmi kimi böyüyünüz var” deyirdilər. Naməlsəm camaəti də bu sözləri eşidib deyirdi ki: “Gör Əmi necə ağıllı, fərasətli adamdır ki, rəqiblər də onu böyük hesab edirlər” (...). Ortalığa ən mühüm bir məsələ gələndə Naməlsəm camaatı heç bir vaxt yığılıb onu müzakirə etməzdi və etməyə də ehtiyac yox idi; çünki yüz baş bir olsa idi, yenə əminin başı kimi olmazdı” (63.səh.249). Hekayədə gündən-günə həyasızlaşan qonşular arvad-uşağa belə sataşdıqda adamları sakitləşdirən Əmi qubernatorun yanına gedib məsələni həll edəcəyinə söz verir. “Doğrudan da sabahı gün Əmi şəhərə getdi. Alver edib kəndə qayıtdı. Qubernatoru nəinki görmədi, hətta qorxusundan qubernator olan küçədən də keçmədi...” cümlələri bütövlükdə “əmiçiliyə” qarşı ünvanlanaraq avtoritarlığın doğurduğu mifləşdirmənin reallıqla qarşılaşdırmada sabun köpüyü kimi əridiyini təsdiq edir.

Yüksək təfəkkür tərzinə malik, xalqına dərindən bağlı olan N.Nərimanovun şəxsi taleyi də dramatik oldu. 1906-cı ildə RSDFP proqramını dilimizə tərcümə etmiş, 1917-ci ildən bolşevik “Hümmət” təşkilat komitəsinin sədri, 1919-cu ildən RSFSR Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri və Milli işlər komissarının müavini, 1920-ci ildən Azərbaycan XKS sədri Nərimanovun maarifçi ideyalarının real həyata tətbiqi onun 19 mart 1925-ci ildəki müəmmalı ölümü ilə yarımçıq qaldı.

“Mən millətimi sevirəm, çünki anamı sevirəm” deyən, öz xalqına ürəkdən bağlı olub onu işıqlı gələcəyə yönəltmək istəyi ilə çırpınan Nərimanovun mütləqiyyətlə mübarizə yolunda inqilabi ideyalara üstünlük verməsi yetmiş illik zaman kəsiyində zahirən uğurlu görünsə də, əslində özünün əsl mahiyyətini bütün çılpaqlığı ilə göstərdi. Hələ yarandığı dövrdə inqilabi ideyaların maarifçilər tərəfindən rədd edilməsi tədqiqatçı O.Bayramlının müqayisəsində özünü göstərir: “Nərimanov azadlığa çıxmağın yolundan danışarkən “davasız vətən yüz illərlə bəslədiyi məqsədinə çatmayacaq” deyə xalqı rus inqilabçılarının silahlı mübarizə yoluna çağırırdısa, Ə.Hüseynzadə onu bu yoldan çəkindirərək “qılınc deyil, siyasət lazım, lisan deyil, əhli-maarif lazım” – deyə onları milli tərəqqi uğrunda mənəvi təkamül yoluna çəkirdi” (33.səh.31) – deməklə tədqiqatçı o dövrün iki ən görkəmli nümayəndəsinin əqidə fikrini müqayisə edərək ictimai fikir tariximizdə mövcud olmuş maarifçi ideyanın bəşəriliyini və humanizmini önə çəkir.

XX əsrin əvvəllərindən geniş vüsət alan, haqq-ədalətin bərpası yolunda qlobal fəaliyyət göstərən maarifçilik ideyaları siyasi və mədəni sahələrlə yanaşı, iqtisadi mövzuları da qabardırdı. Bu prosesdə romantizm ideyalarının müəllifləri hesab olunan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və Həsən bəy Zərdabinin kürəkəni Əlimərdan bəy Topçubaşovun 7 iyun 1905-ci ildə yaratdıqları "Həyat" qəzetilə maarifçilik sahəsində də göstərdikləri fəaliyyət cəsarətin timsalına çevrildi. Qəzetə senzura nəzarəti yerli məmurlardan Bakı Quberniya idarəsinin katibi A.Atamalıbəyova həvalə olunsa da, mövcud məhdudiyyətlər sərbəst fəaliyyətə imkan vermirdi. Qəzetin sahibi H.Z.Tağıyevin, redaktorları – Ə.Ağaoğlunun və Ə.Hüseynzadənin imzaları ilə Vorontsov-Daşkova göndərilən teleqramda ona "bütün Qafqazın rifahı naminə qüvvə və can sağlığı arzulanması" ziyalıların zahiri etiketi idi. Əslində isə müsəlmanlıq və türkçülüyə şərəflə xidmət edən "Həyat" qəzeti ictimai fikrin məhz bu istiqamətdə formalaşması üçün çalışırdı.

Bu dövrdə sənayedə əsaslı kapital qoyuluşu olmadığından yerli neft sənayeçilərinin emal müəssisələri açmağa gücləri çatmadığından, mədənləri gəlmə kapitalistlərə satdıqları səbəbindən istehsal tədricən xarici inhisarların əlində cəmləşirdi. "Həyat" qəzeti 14 avqust 1905-ci il 50-ci sayında: "Milyoner olmaq, xalqa gün ağlamaq əvəzinə çekan qızılından daha qiymətli olan neftin mədaxilini əcnəbilərin əlinə verib az pula qane olan yerli sahibkarlar" (13.səh.8) qınanır və qeyrət göstərməyə, öz əmlakımızı əllərə verməməyə çağırılırdı. Qəzet neftdən gələn gəlirin xalqa deyil, mərkəzi xəzinəyə də mənfəət gətirməsini açıq-aydın yazırdı. "Həyat" qəzeti 14 aprel 1906-cı il 80-ci sayında çar hökumətinin sərəncamları ilə Abşeron kəndlərinin torpaqlarının qanunsuz olaraq zəbt olunması və dövlətin əlinə keçirilməsi, "camaatın evlərinin viran edilib özlərinin dərbədər salınması", mənfəət naminə dövlətin vətəndaşa zülm etməsi cəsarətlə tənqid edilirdi. Qəzet 16 aprel 1906-cı il 82-ci nömrəsində yazırdı: "Əlli il bundan qabaq başlanan neft işləri gündən-günə tərəqqi edib hal-hazırda elə bir dərəcəyə yetişibdir ki, Avropa bazarlarında amerikalılar ilə rəqabət edir və Rusiya hökumətinə ildə yüz milyonlarla xeyir verir" (13.səh.7). Neft istehsalı ilə bağlı yüksək gəlir gətirən əsas vəsaitlər istehsal edən zavodların belə "Peterburqda oturub zəhmətsiz qazanc əldə edən" kapitalistlərin əlində cəmləşməsi ziyalıları narahat edirdi.

Neft sənayesinin kortəbii inkişafı xırda müəssisələrin inkişafına, on minlərlə fəhlənin işsiz qalmasına səbəb olur və bu qarışıqlıqdan istifadə edən gəlmə iş adamları asanlıqla həmin müəssisələrin aksiyalarına sahib olurdular. Tanrının iradəsiylə qismətinə düşmüş neftin gəlirinin hüquqi cəhətdən guya əsaslandırılmış, fırıqdaqlar yolu ilə zəhmətsiz gəlir götürmək istəyən əcnəbilərin əlinə keçməsi ziyalılarımızı olduqca narahat edirdi. Lakin buna baxmayaraq kapitalın təmərküzləşməsi sayəsində "Nobel qardaşları", "Şell" və "Oyl" kimi xarici inhisar

şirkətlər 1914-cü ildə neft sənayemizin aksioner kapitalının 86 faizini, istehsal edilən neftin 60 faizini öz nəzarətləri altında saxlayırdılar.

Neft və neft məhsullarının satış bazarının məhdudluğunun, sənayenin plansızlığının, sistemsizliyinin yaratdığı böhran cəmiyyətdəki qarşıdurma və ziddiyyətləri durmadan artırırdı. Neft sənayesinə kredit verilməməsi, əmək şəraitinin dözülməzliyi, avadanlıq və çənlərin çatışmazlığı, fontanların yaratdığı ekoloji fəlakətlər, əmək haqqının belə ödənilməsi üçün pul vəsaitinin çatışmazlığı, istehlak bazarındakı bahalığın yaratdığı kasıblıq inqilabi dəyişkənlik üçün zəmin sayılırdı.

9 mart 1912-ci il tarixli "Baku" qəzetinin 56-cı sayındakı "H.Z.Tağıyev" məqaləsində Parisdən qayıtmış Tağıyevin müsahibəsindəki səfər təəssüratında özünün fransız faytonçusu ilə münaqişəsinə münasibəti ibrətamizdir. Sağa burulmaq əvəzinə faytonu səhvən sola döndərən faytonçunun kürəyinə sərnişin "H.Z.Tağıyevin çətirin ucu ilə toxunmasına dözməyən sadə fransızın qəzəbi Hacıya anlaşılmaz görünür. Tərcüməçinin vasitəsilə hərəkətinin faytonçu tərəfindən təhqir kimi qəbul olunduğunu anlayan H.Z.Tağıyevin: "Oradakı sadə camaatın məğrurluğuna heyran qaldım və anladım ki, mən bizim adamların lap boynunu da vursam dönüb səcdə etmələri gerilikdir. Bax camaatımız oradakı səviyyəyə çatdıqdan sonra, bizdə də əsl azad həyat olacaqdır" (120) fikri bu insanın təbiətən maarifçi-demokrat olduğunu təsdiq edir.

Bununla belə sinfi barışmazlıq üzərində köklənmiş, kapital dünyasına və dinə qarşı barışmaz mövqe tutan ziyalılarımızla yanaşı, liberal düşüncəli Üzeyir bəy Hacıbəyovlar da var idi. Özünün peşəkar üslubu sayəsində satirik-publisistik məqalələrini əsasən sənədli personajlara qarşı yönəlmiş feleyton və ictimai quruluşu tənqid edən pamflet janrında yazan Üzeyir Hacıbəyov "Sosial məsuliyyəti unudub "Molla Nəsrəddin"ə təqlid ilə mollalara sataşmağı özünə qalxan edib qərəzi-şəxsisi olanlara ədəbsiz sözlər yazan", özünə ədib adı qoymuşlara hiddətini: "Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşüblər! Nifrət, nifrət olsun müqəddəs qələmi qərəzi-şəxsi aləti edənlərə nifrət!" (24.səh.233) – deyə kəskin şəkildə bildirməklə bərabər, "kafe-şantanlardakı azarlı matişkələrə pulu xəzəl kimi səpələyərək onlardan öz arvadlarına xəstəlik gətirən cavanlara" (24.səh.426) birbaşa və açıq şəkildə müraciət edərək tibbi-gigiyena maarifçiliyini də öz üzərinə götürürdü. Məhz bu vətənpərvərlik sayəsində H.Zərdabi, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ö.Nemanzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəsulzadə, Ü.Hacıbəyov kimi peşəkar jurnalist və naşirlər ictimi fikrə fəal təsir göstərərək mətbuatın dördüncü hakimiyyətə çevrilməsi prosesində yaxından iştirak edirdilər.

İki əsrin ayrıcından başlayaraq ictimai fikri arxasınca apara bilən "Şərqi-Rus", "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin", "Təzə həyat", "Tərəqqi",

"Təkamül", "Həqiqət", "Açıq söz" kimi onlarla mətbuat orqanları maarifçilik prinsiplərinin qəti müəyyən olunmasına münbit şərait yaratdılar.

Böyük Sabirin "Dindirir əsr bizi, - dinməyiriz" şeri milli maarifçiliyin pasportuna çevrildi:

*"Dindirir əsr bizi, dinməyiriz,*
*Atılan toplara diksinməyiriz;*
*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz;*
*Quş kimi göydə uçar yerdəkilər,*
*Bizi gömmüş yerə minbərdəkilər!"* (73.səh.275).

Maarifçiliyin parlaq nümunəsi olan bu kiçik şerdə xalqın əsrdən geri qaldığını yana-yana deyən müəllif "quş kimi göydə uçan" əcnəbilərin çatdığı texniki tərəqqiyə həsəd aparmaqla yanaşı, "bizi yerə gömən", geriliyimizin əsas səbəbkarlarını da dəqiqliklə göstərir.

Tərəqqiyə tələbat o həddə çatmışdı ki, milli romantizmin parlaq nümayəndəsi H.Cavidin "İblis" əsərində Vasifin dilindən yazdığı:

*"Turana qılıncdan daha kəskin, ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət"* (46.səh.211) sözləri də müəllifin maarifçi ideyalarını əks etdirirdi.

Maarifçiliyin tənəzzülündən sonra hiss və hissiyyat elementlərini önə çəkən sentimentalizm cərəyanı yarandı. Bu cərəyan sinfi qarşıdurmalarda fəal mövqe tutmadığından üçüncü təbəqə sayılan kəndlilərin aləminə zidd əxlaqa və idraka qarşı yönəlmişdir. İctimailiyi deyil, fərdiliyi önə çəkən sentimentalizmin parlaq nümayəndəsi olan Süleyman Sani Axundovun "Qonaqlıq" hekayəsində bol yeyib-içmiş bəy, tacir, alim, ruhani və zabitin hər biri məhz özünün dövlətin sütunu olduğunu israr edir. Qonaqlar eyvana çıxıb qəlyan, siqar çəkərkən bəhs təzələnir və onlar arabada taxıl kisələri gətirmiş qoca kəndliyə üz tuturlar. Bu mübahisəyə müdaxilə edən müəllif kəndlinin dilindən öz ictimai üslubunu təsdiq edir: "Ey ağalar düzünü axtarsanız hökumətin sütunu biz kəndlilərlə o qan-tər içində yük daşıyan fəhlələrdir. Biz əkməsək, biçməsək, onlar da işləməsə heç bir hökumət yaşaya bilməz" (8.səh.15) qənaəti sentimentalizmin təzahürünə çevrilir.

Milli dramaturgiya tarixində ötəriliyi ilə yadda qalmış sentimentalizmdən fərqli olaraq burada ictimai üslub kimi əsaslı şəkildə kök salmış romantizm və maarifçilik yeni şəkildəyişmələrdə təzahür edirdi.

XX əsrin əvvəllərindən bir sıra mütərəqqi dəyələr meydana çıxsa da, cəmiyyətdəki mövcud feodal düşüncə tərzi və əxlaqı ictimai fikrin formalaşması prosesini geriyə ataraq romantizmin maarifçiliklə sembioz ifadəsinə şərait yaratdı. Nəticədə iki ədəbi cərəyanın qovuşmasından romantizm daxilində maarifçi təmayül meydana çıxdı. Ədəbi prosesdə paralel olaraq mövcud olan tənqidi

realizmin nadanlığa, cəhalətə hədsiz nifrəti istər-istəməz romantizmə də təsir göstərdi. Tənqidi realizmi maarifçiliklə qovuşduran nöqtə isə məhz sakini vətəndaşa çevirmək istəyi, ideyası idi. Tənqidi realizm zaman həddini gözləmədən inqilabi sıçrayışlara üstünlük versə də, maarifçilik ictimai ətaləti nəzərə alıb təkamül yolunu üstün tuturdu. Deməli, tənqidi realizmin özündə də maarifçilik məqsədləri güdülür, izlənilirdi. Müqayisəli təhlil metodu isə dünyəvi kontekst baxımından gecikmiş maarifçiliyin real tarixi şəraitdə qarşıya çıxan vəzifələrə uyğun tənqidi realizmə uduzduğunu təsdiq edir. Maarifləndirməyin vacibliyi danılmaz olsa da, tarixi sıçrayışlar "öküzü buynuzlarından" tutmağı tələb edirdi. Milli mənəvi dəyərlərdən, etik əxlaqı normalardan doğan sosial məsuliyyətlə yanaşı, tarixi zərurətin yaratdığı məqamda ictimai mübarizə detallarını tətbiq etmək artıq dövrün tələbi idi. Məhz bu tələb ziddiyyətli bir dövrdə belə qurtuluş, azadlıq və istiqlal ideyalarının həyata davamlı olduğunu sübut etdi.

M.F.Axundovun təməlini qoyduğu maarifçi demokratiya Azərbaycanda azadlıq və istiqlal ideyalarının bərqərar olmasına şərait yaratdı. Bu ideyaların həyata keçirilərək reallığa tətbiq olunmasında müstəsna xidməti olanlardan biri də görkəmli ictimai-siyasi xadim Məhəmməd Həsən Hacınski olmuşdur.

## GƏNC MAARİFÇİ-DEMOKRAT

1972-ci ilin yazında Misirə ticari səfər edən cod xasiyyətli Bakılı tacir Cəfər Qulu Hacızadə Qahirə şəhərində görüb bəyəndiyi mülayim təbiətli ərəb qızı Fatimə ilə evlənib onu da özü ilə doğma şəhərə gətirir. Bir il sonra Zibeydə, 3 mart 1876-cı ildə isə Məhəmməd Həsən dünyaya gəlir. Mühafizəkar dindar olan Cəfərqulu kişi yeganə oğlunu dükanda işlədərək onun orta təhsil almasını belə istəmir, yalnız Quran oxumaqla kifayətlənməsini tövsiyyə edirdi. Lakin anasının təkidləri sayəsində, atasının iradəsinin əksinə olaraq 1887-ci ildə Bakı Realnı Məktəbinə daxil olan Məhəmməd Həsən dəqiq elmlər sahəsində fitri istedadı ilə fərqlənir. O, boş vaxtlarını bibisi Minabəyim xanımın evində yerləşən, 1 avqust 1894-cü ildə N.Nərimanovun açdığı kitabxananın qiraətxanasında keçirirdi. M.Hacınskinin bibisi oğlu, sonralar "Molla Nəsrəddin" jurnalının korrektoru olmuş Əli İsgəndər Cəfərov (1875-1941) isə bu qiraətxanaya rəhbərlik edirdi. Müxtəlif ölkələrin nəşriyyat və qəzet, jurnal redaktorlarına məktub yazan Nərimanov kitabxananın yaranması üçün kömək istəyirdi. Tezliklə dünyanın bir çox ölkələrindən qəzet və jurnallar kitabxanaya gəlməyə başladı. Tədqiqatçı M.Qazıyevin yazdığı kimi: "Nərimanovun dostu Ə.Cəfərzadə kitabxananın direktoru təyin olundu. Ancaq kitabxananın yaranması üçün N.Nərimanov elə fəal təsir göstərmişdi ki, ona "Nərimanov kitabxanası" adı verildi" (106.səh.12).

S.M.Qənizadənin xatirələrindən görünür ki, "Əli İsgəndər Cəfərzadənin Pozinovski (Engels) (İndi isə Cəfərov qardaşları adlanan) küçəsində yerləşən evindəki mənzilində yığışan mütərəqqi ziyalılar, müəllimlər sosial, siyasi, maarif, ədəbiyyat və sənət söhbətləri aparırdılar. Nərimanov isə öz əsərlərindən parçalar oxuyurdu" (162). Qeyd edək ki, N.Nərimanov o dövrdə Bakıda olarkən yaxın dostu Əli İsgəndər bəyin evində yaşayırdı. Əli İsgəndər bəy qiraətxanaya rəhbərlik etməklə yanaşı, paralel olaraq şəhər Mixaylovski məktəbini bitirib azərbaycan dili müəllimi ixtisasına da yiyələnmişdi. 1920-24-cü illərdə Xalq Maarif Komissarlığında nəşriyyat şöbəsinin müdiri olan Ə.İ.Cəfərov özünün "Əli bəy Hüseynzadə", "Həsən bəy Məlikov", "Tac-Mahal" məqalələrini çap etdirmiş, həmçinin M.Ə.Sabirin "Hophopnamə"sinin ilk nəşrinin tərtibatçısı olmuşdu. 1924-32-ci illərdə Azərnəşrdə uşaq ədəbiyyatı və istehsal şöbələrinin müdiri və texniki redaktoru kimi çalışmış Ə.İ.Cəfərov 1932-39-cu illərdə Azneftdə kadr şöbəsinin rəisi olmuşdu. Mart qırğınlarında "İsmailiyyə" binasının yandırılması ən qiymətli tarixi sənədlərin məhvinə səbəb olmuşdu ki, bu da ziyalılara olduqca ağır təsir göstərmişdir. Cümhuriyyət dövründə bu binanın yenidən bərpası işinə M.H.Hacınski rəhbərlik etmiş, Əli İsgəndər Cəfərovun qardaşı, inşaatçı-mühəndis Məmməd Cəfər Cəfərov isə iş icraçısı vəzifəsini yerinə yetirmişdi. Məmməd Cəfərin Ə.Müznib və Ə.Vahidlə yaxın dostluq əlaqələri də olub. Hətta dostu Məmməd Cəfəri Mişa deyə çağıran Ə.Vahid ona "Mişa piyandı, şapkası yandı" sözlərini də qoşubmuş.

28 aprel 1895-ci ildə Bakı Realnı Məktəbinin 7-ci sinif şagirdi Məhəmməd Həsən Cəfər Qulu Hacınskinin Rusiyada təhsilini davam etdirməsi üçün təqaüdçülər siyahısına salınması barədə xahişi Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılır (145). O, həmin ilin yayında Sankt-Peterburqa gedib I Nikolay adına Texnoloji İnstitutun tikinti mühəndisliyi fakultəsinə qəbul olunur. Sənədlərdən göründüyü kimi, əlavə olaraq kimya ixtisası üzrə dərslərdə iştirak etmək üçün icazə alan M.Hacınski tələbələrin ictimai həyatında da yaxından iştirak edir. 29 oktyabr 1900-cü il "Kaspi" qəzetinin 227-ci sayındakı: "27 oktyabr 1900-cü ildə Sankt Peterburqda təhsil alan imkansız Qafqazlı müsəlman tələbələrə kömək məqsədilə gecə keçirilir. Köməklik göstərmək istəyənlər maliyyə yardımını Texnoloji İnstitutun tələbəsi M.Hacınskinin ünvanına göndərə bilərlər" (129) elanı onun qazandığı nüfuz və etibardan xəbər verir.

Sankt-Peterburqda təhsil müddətində Məhəmməd Həsən qonşuluqdakı molla Talıbın nəvəsi, mükəmməl ev təhsili görmüş, 1885-ci il təvəllüdlü Səadət xanımla ara-sıra məktublaşır. Podaratçı kimi varlılar üçün mülklər tikdirən molla Talıbın oğlu Balakişi arvadı Balacaxanımın vaxtsız ölümündən sonra yeganə qızını babasının himayəsində qoyub daim tikinti materialları gətirmək üçün uzaq səfərlərə gedirdi. O, Sibirdən ağac materialları, İrandan, Türkiyədən mərmər,

İtaliyadan heykəltəraşlıq nümunələri, varlı ailələrin sifarişi ilə digər Şərq ölkələrindən ekzotik bitki, heyvan və quşlar da gətirərdi. Suraxanski (Ç.Mustafayev) küçəsindəki zəngin mənzildə müxtəlif cənnət quşları ilə əhatə olunmuş Səadət xanım məharətlə atasının onun üçün məxsusi İtaliya səfərlərinin birindən gətirdiyi qoşa gümüş şamdanlı fortepianoda ifa edirdi.

18 iyul 1902-ci ildə 1286 saylı diplomla təhsilini başa vuraraq Bakıya qayıdan Məhəmməd Həsən Səadət xanımla nişanlanır və qızın yaxın qohumlarının təkidi ilə kəbin kəsilərək bu məsələ rəsmiləşdirilir. Gümüş şamdanlı fortepianonu da cehiz kimi ər evinə gətirən Səadət xanım, "Pəncərədən daş gəlir" sevimli xalq mahnısını oxuyan Məhəmməd Həsəni şövqlə müşayiət edirdi. Bir neçə gündən sonra isə Məhəmməd Həsən bəy Moskvadan, milyonçu Şəmsi Əsədullayevin (1840-1913) işlər müdirindən aldığı dəvətə əsasən oraya gedib neftayırma zavodunun tikintisində çalışmağa başlayır. 1902-ci ilin yayında Məhəmməd Həsən bəyin təsirilə bibisi oğlu, 1885-ci il təvəllüdlü Məmməd Yusif Cəfərov uğurla imtahan verib Moskva hüquq fakultəsinə qəbul olur. Məmməd Yusifin atası Hacıbaba savadlı mirzə olsa da, oğlunun təhsil haqqını ödəyə bilmədiyindən ailənin gümanı yalnız tələbələrə toplanılan yardımlara qalır. Yardımlar isə sistemli şəkildə olmadığından doğma yurddan uzaqda təhsil alan tələbələr bir çox hallarda çətinliklərlə üzləşirdilər.

20 mart 1903-cü ildə Novruz bayramı münasibətilə doğma Bakıda olan gənc mühəndis M.Hacınski Avropa və Rusiyada təhsil alan kasıb müsəlman tələbələrə yardım kompaniyalarında da yaxından iştirak edir. 22 mart 1903-cü il "Kaspi" qəzetinin 57-ci sayındakı elanda: "Novruz bayramı münasibətilə tələbələrə H.Məlikov beş, M.Hacınski beş, Peterburq Dağ Mədən İnstitutunu bitirmiş Fərrux bəy Vəzirov isə iyirmi beş manat yardım etmişdir" (132) məlumatı artıq onun dostlarının Həsən bəy Zərdabi kimi xeyriyyəçinin tutduğu yolu davam etdirdiyinə işarədir.

Məhəmməd Həsən bəy Hacınskinin şəxsi arxivində saxlanılan min bir əziyyətlə sürgünlərdə belə qorunub bu günümüzə gəlib çıxmış bir məktub o dövrün dəqiq mənzərəsi ilə yanaşı, iki gəncin keçirdiyi psixoloji məqamları da bir əsrdən sonra bizlərə çatdırır:

*"Mənim mələyim, əziz Səadətim. İndi mən gecəni yatmayıb avtomaşınların bir çoxunu işə çıxartmışam və işçiləri də sübhədək işləməyə vadar etmişəm. Lakin narahatam, kiminsə yatması səbəbindən yanğın törəyə biləcəyindən, mən özüm də yatmayıb yuxulu-yuxulu gəzərək hamını nəzarətdə saxlayıram.*

*Burada dəhşətli dərəcədə soyuq olsa da, hələ də yay plaşında olduğumdan bərk soyuqlamışam. Lakin bunların hamısı müvəqqəti çətinlikdir. Mən bunlara məhəl qoymayıb səbirsizliklə sənin oğlumla birlikdə yanıma qayıdacağını gözləyirəm. Bax ha, mütləq oğlanla. Əgər qız olsa, hələ üstəlik sənə oxşasa onu*

*Bakıda qoy. Nədi yoxsa hirsləndin?... Eybi yoxdur, qız da olsa özünlə gətir, sənin doğacağın uşaq, istər oğlan olsun, istər qız, mənim üçün eyni dərəcədə sevimlidir... Heç özüm də bilmirəm qız istəyim yoxsa oğlan.*

*Səadətim, sən atanla məktublaşırsanmı? Əgər məktublaşırsansa, ona mütləq yaz ki, Məhəmməd Həsən məni burada qoyub Rusiyaya qaçıb. Qoy bir az hirslənsin. Yoxsa o çox xoşbəxt yaşayır.*

*Səadətim, heç bilmirəm, biz nə zaman görüşəcəyik. Mən çox istəyirəm ki, səni də buraya gətirim. Lakin sən hələ uşaqsan, həyatı tam anlamırsan... İndi də yəqin, Allah bilir fikrinə nələr gəldi...başqa cür düşünsən onda mənim barəmdə günaha batarsan. Mənim səndən başqa heç kimim yoxdur. Burada yad diyarda mən xəstələnsəm, heç kəs mənə bir içim su da verməz. Sən mənimlə olanda isə məni sevib qayğı göstərənin yanımda olmasından hədsiz qürur duyacağam.*

*Sən elə düşünürsən ki, həyatda dürüst adamlar çoxdur? Axı bir çox hallarda adamlar pula, zahiri gözəlliyə və daha nəyəsə görə evlənirlər. Mənsə sadəcə səni həmişəlik sevirəm və sevəcəyəm! Puluna və ya zahiri gözəlliyinəmi görə? Əsla yox. Heç bilirsənmi nə üçün yox? Çünki əvvəla sizdə olmayan puldan danışmağa dəyməz, üstəlik sənin elə bir zahiri gözəlliyin də yoxdur, əgər olsaydı belə beş-altı ildən sonra ondan əsər-əlamət qalmazdı. Və onda mən səni unutmalıydım.*

*Bəlkə sənin qohumlarına görə evlənirəm? Fəqət Sultan Əhməd, Molla Talıb və yaxud sənin atan hansı işə yaraya bilərlər? Bəs o zaman mən nəyə görə səni belə ürəkdən sevirəm? Hətta həyatımdan da çox sevirəm?... Sənin həssas qəlbinə, sənin dürüst tərbiyənə və mənə sədaqətinə inandığıma görə əzizim. Axı sən bu həyatda mənə doğma bacı kimi münasibət göstərirsən.*

*İndi isə keçək sənə. Mənim müşahidəmə görə sən də məni çox sevirsən. Lakin nəyə görə? Xarici görünüşüm o səviyyədə deyil, dövlətiməmi görə? İndi cibimdə cəmisi 17 rubl 33 qəpik pul var. Qohumlarıma görəmi? Vallahi ki, bilirsən ki, o da yoxdur. Buna baxmayaraq sən məni sadəcə sevirsən və sevməkdə davam edirsən. Çünki mən sənə ruhumu vermişəm. Bilirsən ki, yalnız mənim yanımda sakitlik və rahatlıq tapacaqsan.*

*Hansı ki, heç tanrı sənə doğma qardaş versəydi belə, bu güvənliyi əldə edə bilməzdin. İndi mən bu missiyanı daha yüksək səviyyədə həyata keçirirəm. Çünki sənin bu dünyaya gəlməmiş qardaşın bu hüququ mənə etibar etmişdir. Odur ki mən ölsəm də səni bu dünyada yalnız qoymaram. Mən sənə olmayan bacını da əvəz edərəm. Bax məhz bu dəyərlərə görə biz bir-birimizi sevirik. Bu elə bir əbədilikdir ki, daim dünyada qalır. Nə qədər ki, mən sağam və sən sağsan yox, bizdən sonra da bu əbədilik yaşayacaqdır. Əksinə zaman keçdikcə bu daimilik daha da güclənəcəkdir. Bunu daha yaxınlarda uşaqlarımız reallaşdıracaqdır.*

*Səadətim, sən bütün bunlar haqqında nə fikirləşirsən? Mən anlada bilirəmmi? Hər halda mən səmimiyyətimlə düşüncələrimi vərəqlərə köçürürəm. Səadətim, yəqin ki, Moskvada mənzil tutmaq bizə çətin olacaq. Yaxşı mənzil tutmaq imkanım azdır. Digər tərəfdən indi mənzil tutsam, onda bir neçə ayın pulunu boş yerə ödəməliyəm. Mən isə sənsiz orada yaşamayacamsa boş mənzilə görə ayda 60 rubl verməyə heyfim gəlir. Ancaq bu ay xərcim çox olduğundan indi çətinlikdə yaşasam da, sənin gəlişinədək müəyyən qədər pul toplamaq fikrindəyəm ki, yanında üzüm ağ olsun. Gecələr də çalışıram ki, maaşım 250 rubla çatsın və üstündən xərcləməyim. Əgər mən hər ay 250 rubl yığa bilsəm, sən gələnədək 750 rubl olar... Əgər sənə pul lazımdırsa yaz mən sənə göndərərəm...*

*Görürsən də məktub deyəsən uzun alındı. Bütün yazdıqlarımı bir səhər, bir axşam təkrar-təkrar oxu... Əllərindən öpürəm Səadətim, səni iki-üç ay görməyəcəyimi bilsəydim, heç olmasa fotoşəklini götürərdim.*

*Sənsiz çətin dözən Məhəmmədhəsən. 26 noyabr 1903-cü il" (163.1).*

1 yanvar 1903-cü ildən Moskvadakı işindən uzaqlaşan M.Hacınski Bakıya qayıdır. Bir neçə ay Ş.Əsədullayevin Bakıda və Volqaboyundakı neft anbarlarına nəzarət edən idarədə çalışır.

## VİCDANLI MƏMUR

26 aprel 1903-cü il "Kaspi" qəzetinin 91-ci sayındakı: ""Şəhər idarəsi səs çoxluğu ilə memarlıq üzrə iki boş vəzifəni tutmaq üçün verilən on bir iddiaçı arasından Hacınskini və Ter Qriqoryantsı seçmişdir" (133) elanından göründüyü kimi, M.Hacınski özünün peşəkar fəaliyyətində də müvəffəqiyyət qazanırdı. Az bir zamanda Bakı Şəhər İdarəsində tikinti şöbəsinin rəhbəri olan M.Hacınski şəhərin abadlaşdırılması və yenidən qurulması sahəsində mühüm işlər görür. Görülən işlər arasında şəhərin içməli su ilə təmin olunması məsələsi M.Hacınskini daha çox narahat edirdi. Hələ 1891-ci ildə Kürdən şəhərə su çəkilməsi məsələsi qoyulsa da, təmizləyici qurğuların bəsitliyi səbəbindən, həm də mənsəbindən digər şəhərlərin kanalizasiya sisteminə xidmət edildiyindən bu çaydan istifadə möminlərin qəti etirazına səbəb olmuşdu. Sonrakı dövrdə məxsusi dəvət olunmuş ingilis mütəxəssisi V.V.Lindley Böyük Qafqaz dağları ərazisindən şəhərə su çəkilməsinin daha münasib olduğunu rəsmi sənədlərlə Şəhər Dumasına təqdim etmişdi.

22 oktyabr 1903-cü ildə Bakı əhalisinin bir gün ərzində siyahıya alınması həyata keçirilərək su problemləri ilə bağlı digər sənədlərlə birgə Peterburqa göndərilir. Müsbət həllini tapan su kəmərinin tikintisinə cəmisi bir neçə ay sonra başlanılsa da, 1905-07-ci illər inqilabı bu işi də yarımçıq qoyur.

1903-cü ilin payızında Məhəmməd Həsən bəylə Səadət xanımın ailəsində dünyaya gələn ilk oğlan uşağının adı igid Qafqaz qartalının şərəfinə Şamil qoyulur. Artıq bu dövrdən gizli siyasi fəaliyyətlə də məşğul olan "M.Hacınski 1904-cü ilin sonunda əqidə dostları Mir Həsən Mövsümov (1882-1907), Məhəmməd Əmin Rəsulzadə (1884-1955) ilə birlikdə RSDFP Bakı komitəsi nəzdində "Hümmət" müsəlman sosial demokrat təşkilatını və bir il ərzində cəmisi altı sayı nəşr olunan eyni adlı qəzeti yaradır" (122). Həmin dövrdə yaranan sosial ideyalarla yanaşı, əsasən Əli bəy Hüseynzadənin yaratdığı, türkçülük zəminində milli özünüdərketmə prinsipləri də meydana çıxırdı. İstiqlal tarixçimiz Mirzə Bala Məmmədzadənin yazdığı kimi: "Hələ 1904-cü ildə Misirdə çıxan "Türk" qəzetində türk birliyi, hətta panturanizm ideyasını ortaya atan Əli bəy 1905-ci ildə Bakıda çıxardığı "Həyat"da çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?", "Bizə hansı elmlər lazımdır?", "Yazımız, dilimiz, birinci ilimiz" kimi məqalələrlə türklərin irq və lisan etibarilə bir millət olduğunu, bir vəhdət təşkil etdiyini, bu millətin müasir elmləri alaraq müasirləşmək məcburiyyətində bulunduğunu isbat edərək, "türkləşmək, islamlaşmaq və avropalaşmaq" kimi üçhədli düstur irəli sürürdü" (57.səh.22).

1905-ci ildən N.Nərimanov, S.M.Əfəndiyev, M.Əzizbəyov kimi inqilabçıların artıq üzv olduğu bu təşkilat 1906-cı ilin dekabrından "Təkamül" qəzetini çıxarmağa başlayır.

8 mart 1905-ci ildə beş min rubl əmək haqqı ilə dörd il müddətinə şəhər idarəçiliyinə üzv kimi Duma tərəfindən seçilən və 31 mart 1905-ci ildə qubernatorun 105 saylı əmri ilə vəzifəsinə təsdiq olunan Məhəmməd Həsən Hacınskinin peşəkarlığı rəsmi şəkildə dəyərləndirilir.

1906-cı ildə ailənin ilk övladı, üç yaşlı Şamilin miningit xəstəliyindən ölümü gənc valideynləri sarsıdır. Bir müddət sonra dünyaya gəlmiş Mehriban adlı qızları da çox yaşamır. O vaxtdan uzun müddət Hacınskilər ailəsində musiqi səsi eşidilmir.

## PEŞƏKAR MEMAR VƏ İCTİMAİ XADİM

8 iyun 1908-ci ildə doğulan uşağın adı yenidən Şamil qoyulur və bir il sonra Nuşirəvanın dünyaya gəlməsindən hədsiz sevincə qərq olmuş Hacınskilər ailəsinin çal-çağırlı günləri başlayır. 1913-cü il isə bu ailə üçün olduqca uğurlu olur. İlin əvvəlində - 24 yanvarda Muxtar, sonunda – 23 dekabrda isə Tofiq dünyaya gəlir.

7 aprel 1909-cu ildə şəhər rəisinin qərarı ilə ikinci dəfə dörd il müddətinə vəzifəsinə yenidən təyin olunan M.Hacınski ilk növbədə yenə şəhərin su ilə təchizatı məsələsini qaldırır. Quba qəzasının Xudat kəndinin Şollar ərazisindəki su mənbəyini şəhərə gətirmək məsələsi müzakirə olunur və 5 may 1909-cu ildə Rusiyada ən uzun sayılan su kəməri layihəsi təsdiq edilir. Tikintinin xərclərini

ödəmək məqsədi ilə iyirmi yeddi milyon manatlıq beş faizli şəhər istiqrazı dövriyyəyə buraxılsa da, maddi texniki çətinliklər ucbatından işə başlamaq mümkün olmur.

Paralel olaraq M.Hacınskinin təklifləri sayəsində Şəhər Duması həmişəyaşıl ağaclardan ibarət "Olimpiya" kinoteatrı, "Eldorado" restoranı və nəhayət, dəniz hamamı ilə kompleks təşkil edən dənizkənarı bulvarın tikintisinə 60.000 rubl ayırır. H.Z.Tağıyevin maliyyə yardımı ilə həyata keçirilən dənizkənarı bulvarın kompleks tikintisinə rəhbərlik etməsi M.H.Hacınskinin əmək haqqını ayda altı min rubla qədər yüksəldir və həmin layihələr iki il ərzində yerinə yetirilərək başa çatır. 9 aprel 1909-cu il tarixli "Kaspi" qəzetinin 77-ci sayında iki gün əvvəl Şəhər Dumasının iclasında Dənizkənarı bulvarın tikintisi ilə bağlı M.H.Hacınskinin məruzəsi şərh olunur. Bu şərhdən göründüyü kimi, məruzəçi "şəhər əhalisinin asudə vaxtını keçirməsi üçün şəhərdə yeganə olan Mixaylovski bağı azlıq edir və günün tələblərinə cavab vermir" deməklə yanaşı, yeni salınacaq "dənizkənarı bulvardakı çiçək və sərinləşdirici su köşklərinin icarəsinin şəhər büdcəsinə müntəzəm olaraq ayda 4-6 min rubl gətirəcəkdir" (134) fikri ilə bu layihənin iqtisadi sərfəliliyini də önə çəkir.

O dövrdə M.Hacınski Bakı Dumasının binasından xeyli yuxarıda, Çəmbərəkənd istiqamətində yerləşən, torpaq sürüşməsi ehtimalı olduğundan tikinti üçün əl verməyən bir sahədəki ərazidə, qayanın üzərində özünün layihəsi əsasında ailəsi üçün iki mərtəbəli mülk inşa etdirir. Həmin mülkün yanında cərgə ilə tikilən evlərdən yaranan küçə 1918-ci ilin mart qırğınlarının qurbanlarının dəfnindən sonra Məzarlıq (Mehdi Hüseyn) adlanır. 60-cı illərdən başlayaraq torpaq sürüşməsi nəticəsində hazırda Mehdi Hüseyn 1 ünvanında yerləşən teleradio şirkətinin binası ilə Hacınskinin tikdiyi 45 saylı ev arasındakı bütün mənzillər tədricən uçulduğundan oradakı sahədə bağ salınmışdı. M.H.Hacınskinin layihəsi ilə tikilən binaya isə heç nə olmamışdır.

5 noyabr 1910-cu ildə Təhsil Komissiyasına müraciət etmiş Xarkov Universitetinin tibb fakultəsinin tələbəsi Hüseyn Vəliyevin ərizəsindən göründüyü kimi o, Məhəmməd Həsən bəy Hacınskinin və Həbib bəy Mahmudbəyovun qayğısı sayəsində Bəşir bəy Aşurbəyovun ayırdığı təqaüdlə 1907-ci ildən iki il təhsil ala bilsə də, sonradan tutulub bir müddət sürgün olunması nəticəsində itirdiyi müavinətin bərpasını xahiş edir (144). Yeri gəlmişkən Bəşir bəy Aşurbəyov fevral inqilabından sonra yaranan milliyyətçi və sosial-ədalət siyasi təşkilatları arasında bu cərəyanları birləşdirən, 1917-ci ilin mayından fəaliyyətə başlamış, "Rusiyada müsəlmanlıq" partiyasını, 1917-ci ilin 22 oktyabrından isə onun "Müsəlmançılıq" qəzetini nəşr etdirir. Yeni formalaşan milliyyətçilik zəminində yaranmış "Müsavat"dan və gəlmə ideyaları əks etdirən sosial-demokrat məramlı "Hümmət"dən fərqli olaraq tarixən şərq siyasətində mühüm əhəmiyyət kəsb edən

ənənəvi islami dəyərləri önə çəkən bu partiya mühafizəkar düşüncəli əhali arasında populyar olsa da, onun rəhbərliyində Sultan Məcid Qənizadə kimi xurafata qarşı barışmaz mövqedə duran, ədib və pedaqoq Qarabəy Qarabəyov tək vətəndaş mövqeyi olan jurnalistin olması partiyanı istiqlal ideyaları istiqamətinə yönəldirdi. Təşkilatlanma işi ilə fəal məşğul olan "Rusiyada müsəlmanlıq" partiyası 20 oktyabr 1917-ci ildə 200 nəfərin iştirakı və 1918-ci ilin fevralında İrana mühacirət edəcək Bəşir bəy Aşurbəyovun rəhbərliyi ilə "Təzəpir" məscidində yığıncaq keçirir.

10 fevral 1911-ci ildə Bakı milyonçularının da şəhər büdcəsinə yardımı sayəsində Şolla su kəmərinin inşasına başlanılır.

1911-ci ildə Bakının yaşayışa yararlı olan və əlavə tikinti aparılacaq binaları da daxil olmaqla şəhərin şimal və şimali-şərq rayonlarının layihələşdirilməsini həyata keçirmiş M.Hacınskinin memarlıq peşəkarlığı haqqında professor F.S.Fətullayev yazır: "Memarlıq sahəsində şəhərin baş planını yaratmış memar Fon der Nonneyə (1832-1908) də məlum olmayan biliklərə mükəmməl yiyələnmiş M.Hacınski şəhərsalma mütəxəssisi kimi çox irəli getmişdi" (118.səh.54). 1912-ci ildə şəhər idarəsinin nəşr etdirdiyi kitabçada M.Hacınskinin abadlaşdırdığı şəhər küçələrindən söz açılır.

Qeyd edək ki, M.Hacınski peşəkar fəaliyyətlə yanaşı, həmin dövrdə mövcud olan xeyriyyə cəmiyyətlərinin, o cümlədən "Nicat"ın da işində yaxından iştirak edirdi. Belə ki, 1911-ci ilin dekabrında dahi dramaturq M.F.Axundovun yubiley tədbirinin keçirilməsi üçün bir sıra mühüm əhəmiyyətli təşkilati məsələlərin həll edilməsində M.Hacınskinin müstəsna rolu olmuşdur.

Professor Teymur Əhmədov özünün "Nəriman Nərimanovun yaradıcılıq yolu" kitabında yazır: "1911-ci ilin dekabrında Bakıda böyük mütəfəkkir, yazıçı M.F.Axundovun anadan olmasının yüz illiyi münasibətilə keçirilən təntənəli yubiley gecəsində N.Nərimanovun Həştərxandan öz həmkarları ilə göndərdiyi teleqram da oxunmuşdu. Nərimanov teleqramda M.F.Axundovu " birinci böyük Azərbaycan dramaturqu, psixoloqu, xalqın şərəfi və fəxri uğrunda dönməz mübariz" kimi səciyyələndirmişdir" (21.səh.282).

4 aprel 1912-ci ildə Lena çayı ətrafındakı Sibir qızıl mədənlərində sayı üç minə çatan fəhlə nümayişinin güllələbaranı bütün ölkədə əks-səda verərək ixtişaşlar yaratdı. Bakıdakı neft fəhlələrinin tətilləri əyalətlərə də sirayət etdi. 5 apreldən başlayaraq üç gün davam edən, İngiltərənin "Qriffis və K0" şirkəti ilə müqavilə əsasında Xaçmaz ərazisində Şollardan Bakıya su kəməri çəkən fəhlələrin əmək haqqının artması və iş gününün qısaldılması tələbi artıq tətillərin ümumi mərkəzdən idarə olunduğundan xəbər verirdi.

1913-cü ildə isə M.Hacınski çar üsul idarəsinin qoyduğu qadağaya baxmayaraq bir müddət şəhər idarəsinin rəisi vəzifəsini tutmuş yeganə azərbaycanlı olur. Jurnalist Xəlil İbrahimin 1917-ci ildə yazdığı kitabda göründüyü

kimi, o zamana qədər acınacaqlı vəziyyətdə olmuş Şirvanşahlar sarayının qorunması və bərpası da M.H.Hacınskinin adı ilə bağlıdır.

1914-cü ilin 19 iyununda Avstriya-Macarıstanın Serbiyaya hücumu ilə əhatə dairəsinə görə iri miqyaslı Birinci Dünya Müharibəsi başladığından Almaniya dövləti provaslav Serbiyanı müdafiə məqsədilə geniş səfərbərlik həyata keçirən Rusiya, onun Antanta üzrə müttəfiqləri Fransa və İngiltərə ilə müharibə vəziyyətinə girir. Almaniyanın Belçika ərazisindən Fransaya, Rusiyanın Şərqi Prussiyaya hücumunun külli insan tələfatına səbəb olmasından sonra Yaponiyanın Antanta, Türkiyənin isə Almaniya-Avstriya blokunda birləşməsi müharibəni daha da qloballaşdırdı. Sonrakı mərhələdə İtaliya və Rumıniyanın Üçlər İttifaqına, Amerika Birləşmiş Ştatlarının isə Antantaya qoşulması bütün yer kürəsini lərzəyə gətirdi. Əsrin əvvəllərindən intensiv şəkildə Almaniyanın əsas siyasi və hərbi müttəfiqinə çevrilmiş Türkiyənin hakim "İttihad və tərəqqi" partiyasının liderlərindən bir çoxunun bu ölkə ilə yaxın əlaqələri və xüsusən bir neçə il hərbi attaşe kimi Almaniyada çalışmış Ənvər paşanın II Vilhemlə şəxsi dostluğu münasibətlərə emosional çalar da verirdi. Həmin dövrdə Rusiyanın ərazisi sayılan Azərbaycan ictimai fikrində ölkənin müharibə apardığı düşmən tərəfə rəğbətin gündən-günə artması paradoksal vəziyyət yaradırdı. Mətbuatda gedən məqalələrdə Birinci Dünya Müharibəsində ərazilərin yenidən bölüşdürülməsi prosesində Azərbaycanın gələcək qazancları müzakirələrə çıxarılırdı.

Həmin ərəfədə Hacınskilər şəhərin yuxarı hissəsində dənizə baxan mülkü alır və burada şad-xürrəm həyat sürməyə başlayırlar. Bütün aparıcı dövlətlərin – Almaniya, İngiltərə, Fransa, Avstriya, Macarıstan və Rusiyanın cəlb olunduğu müharibədə güc yolu ilə dünyanın yenidən bölüşdürülməsi həyata keçirilirdi. Siyasətlərini güc üzərində quran İngiltərə və Rusiyanın hegemonluğu digər dövlətlərin sıxışdırılmasına səbəb olurdu. Onlara rəqib çıxan Almaniya dünyanın yenidən bölüşdürülməsi prosesini qabaqlayaraq müharibəni qızışdırırdı.

Müharibənin ilk illərindəki vəziyyət Osmanlı imperiyasının cənub-qərbdə itirdiyi ərazilərin əvəzini şimali-şərq istiqamətində çıxmaq ideyasını yaratdı. Həmin ərəfədə, Turançılığı önə çəkən, Azərbaycanın Türkiyəyə ilhaq planını gerçəkləşdirmək məqsədi güdən "İttihad və Tərəqqi"dən başqa Zaqafqaziyanın tarixi türk ərazisini özündə birləşdirəcək müstəqil Azərbaycan Respublikası yaratmaqla dövlətçilik ideyasına əsaslanan "Müsavat" da meydana çıxdı.

Rusiyanın Qafqazda dayağı olan ermənilərin Avropa ölkələrinin də mənafeyinə uyğun gələn "Ermənistan", "Xiçak" və "Daşnaksütyun" kimi partiyaları İran və xüsusən Türkiyə ərazisi hesabına "Böyük Ermənistan" yaratmağı öz proqramlarına daxil etmişdilər. 1890-cı ildə yaradılmış "Daşnaksütyun" qatı millətçi partiyası bu işin mümkünsüzlüyünü hiss edib 1904-

cü ildə proqram dəyişikliyi edərək “Qafqaz Ermənistanı” da yaratmağı da qarşıya məqsəd qoydu.

III Aleksandrın dostu və 1881-ci ildən şəxsi mühafizəsinin rəhbəri olmuş, dövlət strategiyasının diqtəsi ilə ermənipərəst Vorontsov-Daşkovun (1837-1916) Qafqaz canişini təyin edilməsi Rusiya siyasətinin iç üzünü açdı. Zaqafqaziyanın əlli dörd əyalətindən yalnız beşində İran və Türkiyədən köçürülmə nəticəsində əksəriyyət təşkil edən ermənilər 1905-ci il inqilabı ərəfəsində hələlik idarəçiliyi əlinə ala bilməmiş canişinin himayəsinə güvənərək dinc türk əhalisinə qarşı qırğınlar törətdilər. Qafqaz canişini 1906-cı ildə general Qoloşapovun cəza dəstələrini erməni qırğınına qarşı çıxan Azərbaycana göndərdi. 1905-15-ci illərdə qoca vaxtında on il canişinlik etmiş Vorontsov-Daşkovun Rusiya imperatoruna göndərdiyi məruzədə ermənilərin bu işğalçı siyasətini etiraf etməsi Mirzə Bala Məmmədzadənin istinad etdiyi gürcü sosialisti Krabinin 1921-ci ildə Tiflisdə çap olunmuş “Krasnaya kniqa” kitabının 49-cu səhifəsində də öz əksini tapır: “Məruzənin 12-ci və 13-cü səhifələrində yazılmışdır: “Daşnaksütun” firqəsinin bu hərəkatı sırf ermənilərlə məskun bir erməni ərazisi vücudə gətirmək qayəsini güdür. Bununla gələcək Ermənistanın muxtariyyəti üçün əlverişli bir zəmin hazırlamaq istəyir” (57.səh.38).

8 dekabr 1914-cü ildə yerlərdə müharibəyə (bu müharibədə Azərbaycandan S.Mehmandarov, Ə.Şıxlinski, H.Naxçıvanski kimi generallar, iki yüzə yaxın türk-müsəlman zabiti və “Vəhşi diviziya” iştirak etmişdi) kömək məqsədilə keçirilən IV müsəlman qurultayında Bakı, Yelizavetpol, İrəvan quberniyalarının müsəlman əhalisi adından Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin təmsilçisi kimi M.Y.Cəfərov iştirak etmişdi.

1907-ci ildə Moskva Universitetinin hüquq fakultəsini bitirib şəhər idarəsində çalışan M.Y.Cəfərov elə həmin il İçəri Şəhərdə yaşayıb Bakı mədənlərində mühəndis kimi çalışan Polşa yəhudisinin qızı Yekaterina Frankovka ilə ailə qurur. Qeyd edək ki, Yekaterina Frankovka Fətəli Xan Xoyskinin xanımı Yelizavetta Vasilyevnanın yaxın rəfiqəsi olmuşdu. Rusiyanı təmsil etməsinə baxmayaraq daim türklərin təəssübkeşliyini çəkən M.Y.Cəfərov 1915-ci ilin qışında cəbhə bölgəsində - Ərdahan ətrafında qarın içərisində kimsəsiz bir uşaq taparaq onu övladlığa götürür. Cümhuriyyət dövründə Mina, sonrakı illərdə Leyli və Rauf adlı övladları dünyaya gəlsə də, onun Sərvinaz adı verdiyi bu qız ailənin böyük uşağı sayılmış, 1937-ci ildə güllələnmiş dağıstanlı hərbiçi Əliağa Turqanovla da ailə qurmuşdu.

1 yanvar 1915-ci ildən başlayaraq Türkiyənin hərbi naziri Ənvər paşanın dayısı Xəlil bəyin rəhbərlik etdiyi Türk ekspedisiyası korpusunun İranın Təbriz, həmin ilin yazında isə Urmiya əyalətlərinə daxil olması şimallı və cənublu bütün

Azərbaycanda ruh yüksəkliyi ilə yanaşı, rus qoşunlarına qarşı mübarizə üçün də real şərait yaratdı.

Qafqaz türklərinin milli azadlıq ideyalarını məhv etmək qəsdi ilə on illik bədnam hakimiyyətinin sonunda, 1915-ci ilin baharında yetmiş səkkiz yaşlı canişin ermənipərəst Vorontsov-Daşkovun əmri ilə dinc acar əhalisinin rus ordusu tərəfindən güllələbaran edilməsi çarizmin əsl simasını ifşa etdi. Dövlət Dumasında müsəlman deputatların rəsmi bəyanatından sonra Vorontsov-Daşkovun yerinə böyük knyaz Nikolay Nikolayeviçin təyin edilməsi yerli müsəlmanları nisbətən sakitləşdirdi. Hətta Tiflisə gedərkən yolüstü Bakıda görüş keçirən Nikolay Nikolayeviçin güzəştləri sayəsində istiqlal ideyalarının formalaşmasında müstəsna rol oynamış M.Ə.Rəsulzadənin "Açıq söz" qəzetinin nəşrinə də icazə verildi.

2 oktyabr 1915-ci il "Açıq söz" qəzetinin birinci sayındakı "Müxtəlif partiya və təbəqələrin müharibəyə münasibəti" məqaləsində M.Ə.Rəsulzadə birinci dünya müharibəsində dünyanın yenidən bölüşdürülməsi davasından sonra "əzilən ölkələrin müstəqilliyini möhkəmləndirəcək və sülhlə bitəcək" müqavilə ilə müstəqilliyə nail olmanın imkanlarını "Ancaq dövlətçilik uğrunda öz mübarizəsində birləşmiş xalqlar istiqlaliyyət qazanacaqlar" (75) – deyə uzaqgörənliklə şərh edirdi. Bununla belə müəllif: "Bütün vətəndaşlarla birgə biz də hər şeydən əvvəl Rusiyaya uğurlar və qələbə diləməliyik" yazaraq hüquqi normalara riayət etməklə hadisələri tələsdirməməyə çağırır, eyni zamanda özünü və qəzeti sığortalayırdı.

1 yanvar 1917-ci ildə nəhayət, Şollar su kəmərinin tikintisi başa çatır. Şəhəri sutkada 3 milyon vedrə su ilə təmin edən bu kəmərin açılışı təntənəli bayram mərasimi ilə qeyd olunur.

## DİPLOMATİK FƏALİYYƏT

28 fevral 1917-ci il inqilabından sonra Cənubi Qafqazda yaranan mülki hakimiyyət üzvlərindən biri də M.Y.Cəfərov idi. 16 mart 1917-ci ildə Kazak dəstəsinin müşayiəti ilə qatarla Tiflisdən Bakıya gələn M.Y.Cəfərov Şəhər Dumasının üzvləri tərəfindən rəsmi protokol qaydada qarşılanır.

22 mart 1917-ci ildə Rusiya burjua-demokratik fevral inqilabından sonra müsəlman demokratik "Müsavat" partiyası ilə altı illik gizli fəaliyyətini açıq şəkildə davam etdirərək M.Hacınskini Müvəqqəti İcra Komitəsinin milli müsəlman şurasına sədr, Məhəmməd Əmin Rəsulzadəni isə onun müavini seçir. 1917-ci ilin aprelində Qafqaz müsəlmanlarının Bakıda, may ayında isə Rusiya müsəlmanlarının Moskvada keçirilən qurultayında qoyulan milli-məhəlli muxtariyyət və ya mədəni muxtariyyət barədə müzakirələrdə fəallıq göstərən M.Hacınski həmin il nəzərdə tutulan Rusiya parlamentinə Azərbaycandan vəkil seçilir.

1917-ci ilin fevral inqilabı M.Ə.Rəsulzadənin təbirincə desək: “Siniflərə hürriyyət, məhkum millətlərə muxtariyyət” imkanı kimi Azərbaycanın bütün zümrələrinin və xüsusən demokratik ziyalıların ürəyincə oldu. Bu ərəfədə yaradılan dini-milli təşkilatlar Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi, M.H.Hacınskinin icraiyyə komitəsinin sədri olduğu müsəlman ictimai cəmiyyətləri şurasında birləşdilər.

Rusiyada çarın hakimiyyətdən getməsi imperiya ərazisində böyük çaxnaşma yaratdı. İndi rəhbərsiz qalaraq hakimiyyət böhranı keçirən ölkənin daxilində xırda dövlətlər yarandı və öz əmlaklarını itirmək qorxusu keçirən zənginləşmiş sahibkarlar çaşqın vəziyyətə düşdülər. Yeni hakimiyyətin yaranmaması, əvvəlkinin iflic vəziyyətində olması idarəetmə mexanizmini arabanın beşinci təkərinə çevirmişdi. Bakının general qubernatoru hörmətlə yola salınsa da, Gürcüstandakı valisi aradan çıxmağa məcbur oldu. Orduda qarışıqlıq nəticəsində rus əsgərlərinin öz zabitlərini öldürməsi adi hala çevrildi.

15 aprel 1917-ci ildən beş gün davam edən Qafqaz müsəlmanlarının Bakı qurultayında ideyaca bir-birini tamamlayan “Türk-Ədəmi Mərkəziyyət” və “Müsavat” partiyalarının iradəsiylə milli muxtariyyət ideyasının açıq şəkildə qoyulması siyasi platformanın dəqiqliyinə dəlalət edirdi.

1 may 1917-ci ildə Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının qurultayında bütövləşərək ümumxalq partiyasına çevrilmiş “Müsavat”ın mərkəzi komitəsində M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Ş.Rüstəmov kimi siyasi liderlərlə yanaşı, M.H.Hacınski də təmsil olunurdu.

10 iyunda isə M.Hacınski dostlarının məsləhəti ilə rəsmi olaraq ərizə verib “Müsavat” partiyasına daxil olur.

14 iyul 1917-ci ildə Bakı Müsəlman İctimai-siyasi Təşkilatları İcraiyyə Komitəsinin iclasında yenidən yaradılan komitənin başçısı Ə.Topçubaşov, M.Hacınski və M.Rəsulzadə isə onun müavinləri seçilirlər.

Mirzə Cəlil “Molla Nəsrəddin” jurnalının 23 sentyabr 1917-ci il 25-ci sayındakı “Millətlər” felyetonunda Qafqazda istiqlalın qazanılması üçün yaranmış tarixi imkanın əldən veriləcəyi barədə narahatlığını gizlədə bilmir: “Axır vaxtlarda Qafqazda və Rusiyada çıxan qəzetlərdə bir məsələ danışılmaqdadır. Aya səbəb nədir ki, Finlandiya və Ukrayna müstəqil idarə sahibi olmaq yolunda çalışanda Qafqaz millətlərindən bu barədə bir səs çıxmadı. Bir surətdə ki, Qafqaz millətlərinin içində elə bir millət tapıla bilərdi ki, onun istiqlaliyyətə hazırlığı Ukraynadan artıq olsun. Məsələn, Gürcüstan. Aya bunun səbəbi nədir? Çoxları buna belə məna verirlər ki, doğrudur, Qafqaz millətlərinin də azad olmaq yolunda çalışmağa haqları ola bilərdi, amma onları bircə şey saxlayır, o da məhz insaniyyət və ədəblilik.

Açığı budur ki, guya Rusiya hökumətinin başının qarışıqlığı vaxtında Qafqaz millətləri istəmədilər hökumətə dəxi dərd-sər versinlər... Qafqaz millətlərinə yəqindir ki, hökumət də axır qanacaqsız deyil, əlbəttə, inşallah başı açılandan sonra ola bilməz ki, Qafqaz yoldaşlarını yada salmasın" (138). Özünəməxsus kinayə ilə siyasi vəziyyəti təhlil edən Mirzə Cəlil istiqlal imkanını görməklə yanaşı, "yatmış əjdahanın" oyanacağını da öncədən proqnozlaşdırırdı. Lakin insanı fəaliyyətdən qoya biləcək qlobal proqnozlaşdırmadan vaz keçərək "öküzü buynuzlaya bilən" milli-demokratik siyasətçilərin apardıqları məqsədyönlü fəaliyyət sayəsində oktyabr inqilabı ərəfəsindəki Bakı Sovetinə seçkilərdə səslərin qırx faizini toplayan "Müsavat" aparıcı mövqeyə malik siyasi təşkilata çevrildi.

31 oktyabr 1917-ci ildə Bakıda sovet hakimiyyəti elan edilsə də, hadisələrin sonrakı gedişi onun xalq kütlələri tərəfindən dəstəklənmədiyini göstərdi.

11 noyabr 1917-ci ildə Tiflisdə gürcü menşeviki E.Q.Qeqeçkorinin başçılığı ilə yaranan Zaqafqaziya Komissariatı müvəqqəti hökuməti Rusiyadakı Müəssislər Məclisinə seçkilərə qədər regionun idarəçiliyini öz üzərinə götürsə də Bakıdakı Xalq Komissarları Soveti onu tanımadı. 18 noyabr 1917-ci ildə fəaliyyətə başlayan hökumətdə nəqliyyat komissarı Xudadan Məlikaslanov, ticarət və sənaye komissarı Məhəmməd Cəfərovla birgə müsavatçı Xəlil Xasməmmədov da dövlət nəzarəti komissarı təyin edildi. Ticarət və sənaye komissarının müavini olan M.Hacınski heç bir həftə Tiflisdə yaşamamış 23 noyabrda Türkiyəyə rəsmi danışıqlara gedir.

24-26 noyabr 1917-ci ildə Müəssislər Məclisinə keçirilən seçkilərdə menşeviklər 661.934 səs toplamaqla 11, müsavatçılar isə 615.816 səslə 10 deputat yeri qazandılar. Daşnaklar istisna olmaqla seçkidə iştirak edən müsəlman sosialist bloku, eser, bolşevik, hümmət və ittihadçılar əsasən müsəlmanlardan ibarət olduğundan səslərin əksəriyyəti də onlara aid idi. Bununla belə xüsusən erməni kartından istifadə etməklə Rusiyanın Azərbaycana təzyiqi davam edirdi.

Mirzə Bala Məmmədzadənin yazdığı kimi: "Hələ 18 dekabr 1917-ci ildə Lenin Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin etmişdi. Bu komissarın vəzifələrini yaxşı təsəvvür etmək üçün XKS sədri Lenin və millətlər komissarı Stalin dekret imzalamışdılar. Qafqazın fəlakətində böyük payı olan "Dekret N13" adıyla məşhurlaşan bu sənədi aşağıda eynən veririk:

"Xalq Komissarları Soveti rus ordusu tərəfindən işğal edilmişdi. Türkiyə Ermənistanında erməni xalqının tam istiqlalını elan etmək dərəcəsinə qədər təyini-müqəddərat haqqında müdafiə edəcəyini bütün erməni xalqına elan etdi" (57.səh.90).

Birinci Dünya Müharibəsindən sonra ərazilərini itirən Osmanlılar inqilab nəticəsində Rusiyanın parçalanmasından istifadə edib ötən əsrdə Türkiyənin əlindən çıxmış yerləri qaytarmaq fikrinə düşdülər. Bu dövrdə çiçəklənən turanizmin romantik ideyalarından ruhlanan Ənvər paşa itirilməkdə olan səhralar

əvəzinə tarixi ərazilərin birləşdirilməsinin vaxtı gəldiyini dərk etdi. "İttihad və tərəqqi" komitəsinin Qafqaz şöbəsinin göndərişi ilə 1918-ci ilin martında məxfi tapşırıqla Bakıya gələn Həsən Ruşeni buradakı həmfikirlərinin köməyi ilə Şimali Qafqazda və Türküstanda turançılıq ideyasının tərəfdarları ilə əlaqə qurmuşdu. Turançılıq liderlərindən Ziya Göyalp türkçülüyün tarixi ərazilərdə yayılmasını zəruri sayır, panislamist Əhməd bəy Ağaoğlu Rusiya müsəlmanlarını türk milli hərəkatına çağırırdı. Qafqazı qədim türk yurdu adlandıran Əli bəy Hüseynzadə isə burada ya federativ, ya müstəqil müsəlman və gürcü dövlətləri yaradılmasına, ya da ki, türklər yaşayan ərazilərin Türkiyə ilə birləşdirilməsinə tərəfdar çıxırdı. Lakin həmin dövrdə daxili və xarici siyasətini tam müəyyənləşdirməmiş Osmanlı diplomatiyası Zaqafqaziyanın mütəqilliyi siyasətinə daha böyük maraq göstərirdi. Çünki iqtisadi cəhətdən zəif olan dövlət Türkiyənin, parçalansa da güclü resurslara malik Rusiya ilə bufer zonası yaratması keçid dövrü üçün strateji cəhətdən də maraqlı idi.

6 yanvar 1918-ci ildə Tiflisdəki hökumət dairələrinin tapşırığı ilə Tiflis-Bakı dəmir yolunun Şəmkir stansiyasında hərbi eşalonların qarşısını kəsib zirehli qatarlarla döyüş bölgələrindən Rusiyaya qayıdan ordunun tərksilah olunması və Qafqaz milli ordusunun bu silahlarla təmin edilməsi məsələsi qoyuldu. Digər tərəfdən isə bolşeviklərin əlinə düşə biləcək silahların dövlətçiliyə qarşı istifadəsi gözlənilirdi.

9 yanvar 1918-ci ildə Şəmkirdə doqquz eşalondan ibarət rusların tərksilah olunmasında iştirak etmiş, 30 oktyabr 1919-cu ildən xarici işlər naziri M.Hacınskinin müavini olmuş, 1920-ci ilin əvvəlindən isə Tehrana səfir təyin edilmiş Adil xan Ziyadxanov özünün "Azərbaycan" kitabında yazır: "Dördüncü eşalondan silahlarını təslim edənlərin birisi səsini qaldırıb "silahları verməyin, atəş açıb müsəlmanları qırın" qışqırması ilə fitnə saldı. Bu zaman top atəşi açıldı. Bu top gülləsindən sonra yerdə qalan səkkiz eşalon yolun o tərəf-bu tərəfində duran əhalinin üstünə od yağdıra-yağdıra vağzala doğru yönəldilir" (93.səh.85-86). "Şəmkir qırğını" kimi istiqlal tariximizə düşmüş bu əməliyyatda itki hesabına olsa da, əldə olunan sursat sayəsində Gəncə Milli Şurasının rəhbərliyi ilə bolşeviklərin Lənkəran və Şamaxı qarnizonlarına uğurlu hücumlar edildi.

14 yanvar 1918-ci ildə Vəhib paşanın nümayəndələrinin suverenliyini qəbul etdikləri Zaqafkomun M.Hacınskinin də aid edildiyi siyasi liderləri ilə formal sülh danışıqları apardığı ərəfədə Osmanlı ordusu Ərzincan və Ərzuruma daxil oldu.

7 fevral 1918-ci ildə N.Nərimanovun "Hümmət" qəzetində "Arı bəy" imzası ilə çap etdirdiyi "Kiçik felyeton"unda "Rus müəllifləri tam açıq halda Məhəmməd Əmin Rəsulzadəyə bildirirlər ki, cənab, sizin yeriniz fəhlə və əsgər deputatları şurası deyil; siz bəylərin və kapitalistlərin tərəfdarısınız. Ona görə də gedib milli komitədə çalışın. Düşünürük ki, belə müraciət cənab Rəsulzadəyə

böhtandır. Çünki Məhəmməd Əmin Rəsulzadə "Müsavat"ın lideridir. "Müsavat" isə yazılı surətdə qeydiyyatdan keçmiş və dərc olunmuş rəsmi proqramında açıq-aşkar torpağın kəndlilərə verilməsinin tərəfdarıdır. Bu halda torpağı kəndlilərə vermək istəyən cənab Rəsulzadə bəylərin və mülkədarların tərəfdarı ola bilərmi?" (111.səh.93) yazmaqla son dövrdə "Raboçiy" və "İzvestiya" qəzetlərinin rus müəlliflərinin M.Ə.Rəsulzadəni sancmalarına öz münasibətini göstərirdi.

10 fevral 1918-ci ildə Tiflisdə yaradılan, qanunverici orqan kimi səlahiyyətlərə malik olan Zaqafqaziya Seyminin Məhəmməd Əminin rəhbərlik etdiyi 44 azərbaycanlı deputatdan ibarət müsəlman fraksiyasında, İrəvan quberniyasının Kəmərli və Uluxanlı kəndlərində ermənilərin törətdikləri qırğını araşdıran xüsusi iclasda müsavatçı M.Hacınskinin məruzəsi ətrafında müzakirələr aparıldı. 17-21 fevralda Seymin Georqadzenin başçılıq etdiyi komissiyası yerində araşdırmalar aparmaqla müsəlman əhalinin vəhşicəsinə qırılması faktını təsdiq etdi.

Zaqafqaziya Seymində fəallıq göstərən müsəlman fraksiyasının deputatları; Məhəmməd Əmin Rəsulzadə hakimiyyətçilik, Fətəli Xan Xoyski hüquq, Nəsib bəy Yusifbəyov təhsil, M.Hacınski ştat strukturunun, xərclər smetasının tətbiqində yaxından iştirak edirdilər. M.Hacınski deputatların dietik qidalanması məsələsi ilə məşğul olan komissiyaya da rəhbərlik edirdi.

22 fevral 1918-ci ildə "Hümmət" qəzetində N.Nərimanov "Arı bəy" imzası ilə çap etdirdiyi növbəti "Kiçik felyeton"unda bir daha torpaq məsələsinə qayıdaraq problemin üzərində dayanır. Müəllif "Müsavat" proqramında bu işin yalnız sözdə olduğunu bildirərək onların məsələyə münasibətini belə şərh edir: ""Müsavat" rəhbərləri bu cür düşünürlər: burada nə var ki, proqramda yazarıq ki, torpaq kəndlilərə paylanmalıdır, amma çıxışlarımızda bu haqda heç nə danışmarıq. Çünki bu barədə danışsaq əsl türklər iki hissəyə bölünərlər: kəndlilərə və mülkədarlara. Beləliklə, bu iki əks sinif arasında münaqişə yaranar və "əsl türklərin" vətəni dağıla bilər. İndi isə məlum olmuşdur ki, Gəncə quberniyasında bu "vətən" artıq dağılmaq üzrədir: oranın kəndliləri "Müsavat"ın qəlbi sayılan Nəsib bəy Yusifbəyovun sözünə baxmayıb torpaqları zəbt etmiş, mülkədarları isə Gəncəyə qovmuşlar" (111.səh.105).

1 mart 1918-ci ildə Müsavatın parlament qrup nümayəndələrinin də iştirak etdiyi iclasda Nəsib bəy Yusifbəyovun bəyanatından göründüyü kimi, müsəlmanların türklərə qarşı vuruşmayacağı elan olunduqdan sonra müstəqil Zaqafqaziya federasiyası dövlətçiliyi siyasəti özünün real əhəmiyyətini itirdi. Təbrizdə, Bakıda və Gəncədə ideoloji kursundan məhrum olmuş rus ordusu məğlubiyyəti müsavatçıları şimallı-cənublu bütöv azərbaycançılıq ideyasını reallaşdırmağa sövq edirdi. Təbriz, Gəncə, Dərbənd və Bakıda bu ideyanın tərəfdarları gündən-günə artırdı. Siyasi və iqtisadi cəhətdən daha çox inkişaf etmiş

Azərbaycanın hər iki sahədə xeyli geridə qalmış Türkiyə ilə birləşməsi müsavatçılara arxaik görünürdü.

Bakıda daşnaklarla ittifaqa girən bolşeviklər Şaumyanın fitvası ilə 14 mart 1918-ci ildən passiv vətəndaş müharibəsi vəziyyəti yaratdılar. 24 martda isə "Evelina" gəmisindəki "Vəhşi diviziya" əsgərlərinin tərksilah olunması partlayışa təkan verdi. N.Nərimanov belə siyasi mübarizənin milli qırğına çevrilməsinə qarşı dura bilmədi.

Həmin hadisələrin şahidi Məhəmməd Əsəd bəyin "Qan seli" sənədli hekayəsində təsvir etdiyi kimi: "Qadınlar, uşaqlar və qocalar öz mənzillərində qətlə yetirildilər. Sakinlərin sığınacaq tapdıqları məscidlərdə qan su yerinə axdı. Kommunist və neft maqnatı Styopa Lalay bütün şəhərdə müsəlman uşaqlarını axtarıb tapır, onların qıçından yapışıb havada yellədir və başlarını yola döşəmiş çaylaq daşının üstündə əzirdi. Bu yolla o, yüzdən çox uşaq öldürür və hər qətldən sonra bağırırdı: "Ata-anamın qısası!" Ata-anasını on iki il qabaq müsəlmanlar xəncərlə öldürmüşdülər. Dava vur-tut altı saat çəkdi, müsəlmanlar yenildilər" (51.səh.67).

Süni şəkildə meydana çıxmış beynəlmiləl Bakı Sovetinin yaradılması Rusiyanın strateji maraqları ilə üst-üstə düşərək onun siyasi və iqtisadi maraqlarına uyğun gəlirdi. Beynəlmiləl tərkibli Bakı kommunası isə yerli əhalinin mənafeyinə xidmət edə bilmədiyindən əyalətlərə nüfuz etmədən yalnız şəhərdaxili fəaliyyətlə kifayətlənirdi. Baxı Xalq Komissarları Sovetinə S.Şaumyanın rəhbərlik etdiyi dövrdə 1918-ci ilin mart qırğınının genişlənməsi, daşnak-bolşevik dəstələrinin əhaliyə kütləvi divan tutması bu hakimiyyətin gələcək perspektivi üzərindən qara xətt çəkdi.

Kütləvi qırğınlara başlamazdan öncə akademik C.Quliyevin qeyd etdiyi kimi: "Daşnaklar Azərbaycanın erməni əhalisi arasında şovinist-millətçi təbliğatı ilə məşğul idilər. Bu məqsədlə qəzet və broşuralar da nəşr olunurdu. Açıq şəkildə olmasa da, onların bu fəaliyyəti tamamilə Ermənistanın daşnak siyasətinə uyğun idi" (101.səh.156).

30-31 mart və aprel 1918-ci ildə Bakıda gedən şiddətli vuruşmada bolşeviklərin altı min nəfərlik qızıl ordusu ilə birləşmiş erməni daşnaklarının dörd minlik quldur dəstəsi "Vəhşi diviziya" və "Müsavat" partiyasının yaratdığı özünümüdafiə döyüşçüləri ilə vuruşurdu. N.Nərimanovun 1925-ci ildə Moskvada çap edilmiş "Məqalə və məktublar" kitabında bu qırğınla bağlı qənaətləri belədir: "Müsəlman bolşevik olsaydı belə daşnaklar ona aman verməyərək kefləri istəyən adamı öldürər, evləri dağıdıb xaraba qoyardılar. Bolşevizm bayrağı altında müsəlmanlara qarşı hər cür vəhşilik törədən daşnaklar nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər" (65.səh.6). Mart qırğınının qismən də olsa qarşısının

alınmasında və obyektiv təhlilində müstəsna rol oynamış N.Nərimanovun tarixi xidməti danılmazdır.

On minlik dinc əhalinin qırğınına erməni daşnaklarının təhrikçi, gürcü menşeviklərinin müşahidəçi münasibətinə etiraz əlaməti olaraq, bu dövrdə Tiflisdə yaşayan Məhəmməd Həsən Hacınskinin də daxil olduğu müsəlman fraksiyası və onun nazirləri 3 aprel 1918-ci ildə Zaqafqaziya Seymindən çıxmaq məsələsini qaldırdılar. Beləliklə, müsəlman fraksiyasının təzyiqi ilə Zaqafqaziya hökumətinin istefası əldə olunduqdan sonra yaranması labüd olan Azərbaycan milli Şurasının Bakı hadisələrinə hərbi müdaxiləsi hüquqi cəhətdən təmin edildi.

Tadeuş Svyatoxovskinin "Rusiya Azərbaycanı. 1905-20-ci illər" əsərində yazdığı kimi seymdə sərt qalmaqallar baş verdiyi bir şəraitdə Zaqafqaziya nümayəndə heyəti arasındakı təfriqə get-gedə güclənirdi: "Türkiyəyə güzəştə gediləcək ərazi məsələsində Xasməmmədov istisna təşkil edirdi. Görünür onun Azərbaycan neft sənayesi ilə bağlı mənafeləri osmanlıpərəst duyğusundan daha güclü idi. Xasməmmədov Zaqafqaziyanın Bakıdan gələn neft kəmərinin son məntəqəsi olan Batumu özündə saxlaması təklifi ilə çıxış etdi" (82.səh.127). 13 aprel 1918-ci ildəki Seymin iclasında digər görkəmli müsavatçı Şəfi bəy Rüstəmbəyov tərəfindən də müdafiə edilən həmin məsələ ciddi şəkil aldı. Bu məsələlər osmanlılara qarşı qəzəb hissi yaratdıqda isə iclası aparan Seretelinin silahlı müqavimət təklifi müzakirə olundu. Bu məqamda isə Xəlil bəy Xasməmmədov, Şəfi bəy Rüstəmbəyov da daxil olmaqla bütün müsavatçıların məsələnin yalnız sülh yolu ilə həlli üzərində dayanmaları seymdə qarşıdurmanı gücləndirdi və ertəsi gün Trabzondakı sülh danışıqları aparan nümayəndələrin geriyə çağırılmasına səbəb oldu.

Tadeuş Svyatoxovskinin yazdığı kimi: "Bu da azərbaycanlı nümayəndələrin hiddətinə səbəb oldu. H.Hacınski həmin qərarı yenidən müharibə başlamaq məqsədilə sülhü pozmaq cəhdi kimi qiymətləndirir və bunu "beynəlxalq əlaqələr tarixində ölçüyəgəlməz bir təxribat adlandırdı." (82.səh.127). O, qəzəblə nümayəndə heyətindən ayrılaraq bildirdi ki, "zəruri sülhə nail olmaq üçün İstanbula gedib qəti tədbirlərə əl atmaq barəsində" öz partiyasından mandatı vardır. Təqdim olunan tarixi faktdan göründüyü kimi M.Hacınski ən ekstrimal şəraitdə belə daim xalqının mənafeyinə uyğun qərar çıxara bilən, "Müsavat"ın iradəsini yerinə yetirən yetkin bir siyasi lider idi.

15 aprel 1918-ci ildə rus imperializminin zülmündən təngə gəlmiş acar türklərinin iştirakı ilə Osmanlıların Zaqafkom ilə səkkiz günlük davası nəticəsində Acarıstan qırx ildən sonra yenidən Türkiyə ilə birləşdi. Həmin gün eyforiyada olan müsavatçıların Gəncədə keçirilən toplantılarının qətnamələrində silahlı dəstələrin yaradılması və türklərin köməyə çağırılması məsələsi öz əksini tapdı. Əhməd bəy Pepinovla Trabzonda danışıqlar aparan M.Hacınski burada Ənvər paşayla görüşdə

yeni sülh təşəbbüsü ilə çıxış etdi. M.H.Hacınskinin diplomatiya sahəsində mühüm rolunu xüsusi dəyərləndirən professor C.Həsənli yazır: "M.Hacınski gürcü-türk münasibətlərindəki düşmənçiliyi aradan qaldırmağın Batum məsələsindən asılı olduğunu bildirib bu şəhərin gürcülərdə qalmasına çalışsa da, lakin bunun əhəmiyyəti olmadı. Ənvər paşa Türkiyənin Batuma olan hüququnun Rusiya hökuməti tərəfindən tanındığını qeyd edib bildirdi ki, uğursuz erməni siyasətinə uyub türklərə qarşı düşmənçilik mövqeyində durmasalar, Türkiyə Gürcüstanın azad şəkildə mövcud olmasını arzulayır və onu etibarlı qonşusu hesab edir." (28.səh.66).

Həmin görüşdə M.Hacınskinin müstəqil Ermənistanın yaradılacağına türklərin hansı münasibət göstərəcəyinə Ənvər paşanın: "Əgər erməni xalqı ingilis-rus siyasəti naminə türklərə qarşı fitnə-fəsada son qoyarsa, Türkiyə müstəqil erməni dövlətinin yaradılmasının əleyhinə deyildir" (146) cavabı Osmanlı imperiyasının ermənilərə qarşı düşmən mövqedə olmadığına tutarlı sübutdur.

Həmin dövrdə də Batumun tutulmasından sonra Seym Vəhib paşanın sülh danışıqlarının bərpası təklifinə müsbət reaksiya verdi və federativ hökumətin yaradılması reallaşdı. M.Ə.Rəsulzadə müsavat partiyası adından Dağıstanla ittifaq və Bakının xarici casuslardan təmizlənməsi məsələsini qəti şəkildə qoydu.

20 aprel 1918-ci ildə on üç nazir vəzifəsindən beşini tutmuş azərbaycanlılar seymin ticarət və sənaye naziri N.B.Heydərovu Bakıya göndərməyə nail olsalar da, S.Şaumyanın onu həbs etməsi və üstəlik bolşeviklərin rəhbərlik etdiyi daşnakların Quba, Səlyan və Kürdəmir istiqamətində hücuma keçərək yeni qırğınlar törətmələri vəziyyəti qızışdırdı.

31 aprel 1918-ci ildə Almaniyanın İrandakı sabiq konsulu professor Q.Şreyder öz hökuməti ilə Azərbaycan arasında vasitəçi olmağa razılıq verdikdən sonra M.Hacınski Trapezund sülhməramlı nümayəndə heyəti tərkibində Ənvər paşa ilə danışıqlar aparır. Bu ərəfədə özləri üçün təhlükəni cənubdan görən gürcü menşeviklərindən və erməni daşnaklarından fərqli olaraq, azərbaycanlı müsavatçılar Rusiyaya bel bağlamaqdan çəkinirdi. Məhz bu fikir ayrılığı strateji məqsədlərin həyata keçirilməsi üçün taktiki gedişlər tələb edirdi.

1 may 1918-ci ildə Təzəpir məscidində çıxış edən Nəriman Nərimanovun camaata müraciətlə dediyi: "Hələ beş ay əvvəl mən sizə nəsihət etdim ki, Şura hökumətinə yardım edin. Qırmızı Ordu və qvardiyaya yazılıb öz şəxsi mənafelərini üstün tutan partiyalara inanmayın!" (125) sözləri cəmiyyətdəki qarşıdurmanın dərəcəsindən xəbər verirdi.

8 may 1918-ci ildə N.Nərimanov "Hümmət" qəzetində çap etdirdiyi "Nargin adası və ya ölüm adası" məqaləsində orada saxlanılan türk əsirlərinin dözülməz vəziyyətini araşdırır. Komendantların iştirakı ilə aclıq nəticəsində yaranmış müxtəlif xəstəliklərdən qırılan əsgərlərlə görüşmüş N.Nərimanov

gördüklərini və müşahidə etdiklərini qələmə almışdır. Zabitlərin əsgərlərdən ayrı yaşamalarına mənfi münasibət bəsləyən müəllif kommunist düşüncəli şəxs kimi bunun səbəbini belə açıqlayır: "Cənab türk zabitləri başqa ruhda tərbiyələniblər; onlar özlərindən "aşağılara" nifrət etməli, bu cür insanlarla heç bir yaxın dostluq və qardaşlıq əlaqələrində olmamalıdırlar." (111.səh.140).

11 may 1918-ci ildə Osmanlıların nəzarət etdiyi Batumdakı sülh danışıqlarında iştirak edən qırx beş nəfər Zaqafqaziya nümayəndəsindən M.Ə.Rəsulzadə və M.H.Hacınski də daxil olmaqla yalnız altısı həlledici səsə malik idi.

13 may 1918-ci ildə müsəlman fraksiyasının iclasının qərarı ilə M.Rəsulzadə və M.Hacınski Ottoman imperiyasının Batumidəki nümayəndələri ilə danışıqlara girdikdən sonra Türkiyə ilə birləşib güclü səltənət yaratmaq kimi ilhaqçılıq ideyasının absurd olduğunu dərk edən Məhəmməd Əmin 25 may 1918-ci ildə Zaqaqfqaziya Seyminin müsəlman fraksiyasının iclasında hələ 26 oktyabr 1917-ci ildə "Müsavat" partiyasının ilk qurultayında irəli sürülən siyasi platforma əsasında Şah İsmayıl Xətaidən sonra iflasa uğramış tarixi dövlətçilik şansını əldə etmək üçün həlledici addım atdı. Lakin Avropa dövlətlərinin Azərbaycan xalqının qanı bahasına hasil olunan neftə göz dikmələri dövlətçiliyimizə mane olan amillərdən idi. Gərgin beynəlxalq siyasi şəraitdə Almaniyanın öz müttəfiqi Türkiyə ilə belə ikili standartlar üzrə siyasətlər aparması diplomatik aləmdə sağlam münasibətlərə kölgə salan gözlənilməz gedişlərə şərait yaradırdı. Mirzə Bala Məmmədzadənin yazdığı kimi: "Almaniya Bakı nefti haqqında bolşeviklərlə sövdələşməyə girişdi. Bakının bitməz-tükənməz nefti ilə Türküstanın pambığına göz dikən Almaniya Qafqazın, xüsusilə Azərbaycanın Türkiyə nüfuzuna keçməsinə mane olmaq istədi. Bu məqsədlə o, Gürcüstanı və Ermənistanı istifadə edirdi. Elə bu oyunun təsiri ilə Gürcüstan Qafqaz birliyindən çıxaraq Almaniyaya verdiyi iqtisadi imtiyazlar əvəzində Türkiyəyə qarşı torpaq bütövlüyünü qorumaq məqsədilə Almaniya himayəsinə girməyi qərara aldı. Almaniya müvəkkili general Fon Losov 25 may 1918-ci ildə Zaqafqaziya sülh heyətinin rəisi Çxenkeliyə yazdığı məktubunda "Zaqafqaziya konfederasiyasının parçalanmaq üzrə olduğunu" bildirirdi" (57.səh.88).

26 may 1918-ci ildə Seymdən çıxan gürcü deputatların respublika elan etməsindən və Türkiyə cəbhəsindəki hərbi vəziyyətdən sonra yaranan yeni siyasi müstəvi hadisələri daha da tələsdirdi.

Transqafqaz Seyminin buraxılması ilə əlaqədar yaranmış böhranlı siyasi vəziyyəti müzakirə etmək üçün Seym fraksiyaya daxil olan Azərbaycan nümayəndələrinin mayın 27-də fövqəladə iclasını keçirib yaranmış vəziyyətin ciddiliyini nəzərə alaraq yekdilliklə Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürməyi qərara aldı və özünü Azərbaycan Müvəqqəti Milli Şurası elan

etdi. “İttihad”dan başqa bütün partiyaların dəstəyilə M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi.

28 may 1918-ci ildə saat on doqquz onda Azərbaycan Milli Şurasında birləşmiş müsəlman nümayəndələri tərəfindən elan olunan İstiqlal Bəyannaməsi ilə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması bildirildi. Qafqaz türkləri – tatarları kimi tanınan millətin azərbaycanlı adlandırılması, coğrafi məfhum sayılan Azərbaycanın dünyada ilk müsəlman respublikasına çevrilməsi iyul ayında osmanlıların Təbriz vilayətini yenidən işğal etməsindən təşvişə düşən rəsmi İranın etirazına səbəb oldu. Məhz bu səbəbdən də milli respublika xaricə göndərilən sənədlərdə “Qafqaz Azərbaycanı” terminindən istifadə etməli oldu.

## CÜMHURİYYƏT DÖVRÜ

28 may 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması xalqın şərəfli dövlətçilik təməlinin qoyulmasında həlledici mərhələ yaratdı. Hadisələrin keyfiyyət sıçrayışları ilə dəyişdiyi bu tarixi məqamda Rusiyada baş verən sosialist inqilabından sonra imperiyanın dağılması işğal altında olan xalqlara müvəqqəti azadlıq verməklə onlara öz müqəddəratını həll etmək imkanı da yaratmışdı. Bu məqamdan istifadə edə bilməyib müstəqil dövlət qurmayan zəif xalqın özündən güclülərdən asılı qalması təbii idi. Məhz müsavatçılar dövlət yaratmaqla Azərbaycan ərazisini yenidən Rusiyanın ucqar əyalətində qalmaqdan və yaxud, Ermənistanla Gürcüstan arasında bölüşdürülməsindən xilas etdilər.

Azərbaycan Demokratik Cümhuriyyətinin Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumətinin Fətəli xan Xoyskinin (1875-1920) yaratdığı ilk kabinetində M.Hacınski xarici işlər naziri, M.Y.Cəfərov isə sənaye və ticarət naziri vəzifəsinə təyin olunurlar. Azərbaycan Respublikasının müvəqqəti paytaxtı olan Gəncədən və Tiflisdən bir neçə xarici dövlətlərə göndərilən rəsmi teleqramlarla hökumət öz işinə başladı. Bu zaman Batumda rəsmi danışıqlar aparmaqla məşğul olan xarici işlər naziri M.Hacınski İstanbul radiosu vasitəsilə Azərbaycanın istiqlalını əks etdirən mətnin müxtəlif dillərdə dünya ölkələrinə yayılması kimi vacib tapşırığın da öhdəsindən gəlmişdi. Qeyd etmək lazımdır ki, Azərbaycanın müstəqilliyinin dünyaya tanıdılması və beynəlxalq əlaqələrin formalaşmasında qardaş Türkiyənin – o dövrdə Osmanlı dövlətinin informasiya və diplomatik kanallarının rolu əvəzsiz olmuşdur.

2 iyun 1918-ci ildə Nuru paşanın təlimatına əsasən “müstəqil Azərbaycan islam dövlətinin xahişinə uyğun olaraq” müsəlmanların bolşeviklərdən xilası üçün hərbi əməliyyata başlamaq nəzərdə tutulsa da, bir sıra müsavatçıları ümumi düşməndən gözləyən təhlükə qarşısında Nuru paşanın dost ölkənin siyasi işlərinə qarışmağına dözümlülük göstərə bilməməsi məsələni uzadırdı.

Həmin dövrdə Tiflisin Maçabeli küçəsində yaşayan Hacınskilər ailəsində on yaşlı Şamil, doqquz yaşlı Nuşirəvan, səkkiz yaşlı Minurə və beş yaşlı əkizlər Tofiqlə Muxtar böyüyür, Səadət xanım isə artıq altıncı uşağa hamilə idi.

Hacınskinin iştirakı ilə Batumda sülh danışıqları aparan nümayəndə heyətinin "Osmanlı hərbi yardımı" əldə etməsi Dağlıq Qarabağda və Bakıda əmin-amanlıq yaranacağına təminat verirdi. Azərbaycanın müstəqil dövlət olması Ənvər paşanın Zaqafqaziyada panturanizm siyasəti ilə üst-üstə düşməsə də, mayın sonunda onun ana bir, ata ayrı qardaşı Nuru paşa komandanlıq etdiyi "İslam ordusu" qərargahını yaratmaq üçün Gəncəyə gəlir. Osmanlıların birinci piyada diviziyası əsasında təşkil edilmiş bu orduda general Şıxlinskinin müsəlman milli korpusu, "Vəhşi diviziya" hissələri və hərbi hazırlıq keçməyən nizamsız xalq dəstələri birləşərək on altı-on səkkiz minlik real qüvvəyə çevrilmişdilər.

Bakı əhalisinin siyasətdən uzaq hissəsi Rusiyadan Kommunaya real kömək gəlmədiyini görüb 1918-ci ilin fevralından İranın şimalında Osmanlı hərbi qüvvələrini nəzarətdə saxlayan və Gilan əyalətinin millətçi lideri Mirzə Kiçik xana qarşı əməliyyatlarda iştirak edən general Layonel Denstervilin komandanlığı altında Britaniya ekspedisiya Qüvvələrini Bakıya dəvət etməklə aclıq çəkən şəhərdə əmin-amanlığın bərpasına çalışırdı. Tadeuş Svyatoxovskinin yazdığı kimi: "İyunun axırlarında Denstervil Xəzər dənizindəki Ənzəli limanını işğal etdi, həmin dövrdə bu liman bolşevik Əsgər Sovetinin əlində idi; general buradan Bakıya hərəkət etməyə hazırlaşırdı" (82.səh.134).

4 iyun 1918-ci ildə Osmanlı hökuməti tərəfindən ədliyyə naziri Xəlil Menteş, Qafqaz cəbhəsinin üçüncü türk ordusunun komandanı Mehmed Vehib paşa, Azərbaycan Respublikasından Milli Şuranın sədri M.Ə.Rəsulzadə, xarici işlər naziri M.H.Hacınskinin iştirakı ilə imzalanmış beynəlxalq müqavilə bu iki ölkənin dostluğuna hüquqi status verdi.

4 iyun 1918-ci ildə Türkiyənin Ermənistan, Gürcüstan və Azərbaycanla bağladığı müqaviləyə əsasən isə Qars, Ərdahan, Batum vilayətlərinin Türkiyəyə verilməsi nəzərdə tutulurdu. Erməni hökumətinin bu hərəkətini xalqa xəyanət sayan Andronik rəsmi İrəvana qarşı çıxaraq Qafqazda türk-müsəlman əhalisinin geniş miqyasda qırğınına başlayır.

Məhz bu status əsasında Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski Azərbaycana hərbi yardım barədə rəsmi müqavilə imzalayırlar.

7 iyun 1918-ci ildə müqaviləyə və Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın əmrinə əsasən beşinci Qafqaz diviziyasına aid olan doqquzuncu Qafqaz alayı ilə ikinci süvari alayı Qazax istiqamətindən Azərbaycan ərazisinə daxil oldu. 10 iyun 1918-ci ildə Bakıda Şaumyanın başçılıq etdiyi Xalq

Komissarları Sovetinin Gəncə üzərinə hücum barədə qərarı Nuru paşanı qabaqlamaq məqsədini güdürdü.

12 iyun 1918-ci ildə Rusiyadan hərbi kömək almış Bakı Sovetinin Gəncəyə hücum planından təşvişə düşən M.H.Hacınski Batumdakı Türkiyə nümayəndə heyətinin sədri Xəlil bəyə göndərdiyi məktubunda Osmanlı qoşunlarının öz qüvvələrini bu istiqamətdə səfərbər etməsinin vacibliyini sübut etməyə çalışırdı: "Rus inqilabı nəticəsində Azərbaycan Respublikasının hökuməti ölkənin daxilində böyük çətinliklərə məruz qalır, Azərbaycanın çox hissəsində üsyan qaldırmış bolşeviklər Bakını ələ keçirmişlər. Bununla əlaqədar ölkədə hərc-mərclik bizi rahat buraxmır" (147).

15 iyun 1918-ci ildə artıq Gəncə ətrafında olan Qafqaz İslam Ordusu qüvvələri geniş miqyaslı döyüşlərə hazırlaşmağa başladılar. Birinci Dünya Müharibəsi illərində Şimali Afrikanın Liviya cəbhəsində komandir olmuş minbaşı Nuru paşanın ana bir, ata ayrı qardaşı olan Ənvər paşanın hərbi nazir olması ona hərbi manevrlərlə yanaşı, siyasi gedişlər etməyə də şərait yaradırdı. Məhz Osmanlı Türkiyəsinin daxili və xarici siyasətini tənzimləyən "İttihad və tərəqqi" partiyasının strateji maraqlarını önə çəkən Nuru paşa panislamizmin banisi Əhməd bəy Ağaoğlu və xüsusən Gəncəbasarda böyük nüfuzu olan "İttihad" firqəsinin başçısı doktor Qarabəy Qarabəyovu özünə müşavir təyin etmişdi.

17 iyun 1918-ci ildə F.X.Xoyskinin başçılığı ilə yaradılan ilk kabinetdə hərbi nazirlik olmasa da, M.H.Hacınskinin xarici və dövlət nəzarəti naziri, B.X.Cavanşirin daxili işlər naziri təyin olunması səmərəli nəticə verdi. Həmin gün Nuru paşanın müşavirləri Əhməd bəy Ağaoğlunun və Qarabəy Qarabəyovun təzyiqi ilə Milli Şura öz səlahiyyətini Fətəli xan Xoyskinin yeni təşkil etdiyi Müsəlman sosialist blokunun Heydərov və Şeyxülislamov kimi nümayəndələrinin də təmsil olunduğu ikinci yeni kabinetə təhvil verdi. Bu kabinetdə bir vaxtlar Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə "Difai" təşkilatını yaradanlardan M.Hacınski xarici işlər naziri kimi təsdiq olundu, Behbud bəy Cavanşir isə daxili işlər naziri təyin edildi. Milli Şuranın həmin gün keçirilən sayca yeddinci, Gəncədə isə ilk iclasında tədqiqatçı Nəsiman Yaqublunun yazdığı kimi: "Türk qoşunlarının Azərbaycana dəvət olunmasında müxtəlif mövqelər meydana çıxdı. Bəziləri çıxış edib göstərirdilər ki, Nuru paşa heç də Azərbaycanın müstəqilliyini tanımaq istəmir."... Xarici işlər naziri M.Hacınskinin: "Biz fikrimizi müəyyənləşdirmişik. Onlar yalnız müstəqil Azərbaycan hökumətinin qurulmağını istəyirlər. Onlar bizim işlərimizə qarışmaq fikrində deyillər." (88.səh.82) sözlərindən sonra real vəziyyətin qarşılıqlı anlaşma şəraitində və stabil olması barədə yəqinlik hasil olur. Haqqında söhbət gedən problemə M.B.Məmmədzadənin də münasibəti maraqlıdır: "Bu xüsusda Milli Şura rəisi M.Ə.Rəsulzadə, baş nazir Fətəli xan və xarici işlər naziri Məhəmməd Həsən bəydən ibarət bir heyət Qafqaz İslam ordusu komandanı

Nuru paşa ilə görüşüb anlaşmaq istəsə də, paşa özünün ancaq əsgər olduğunu, siyasətdən baş çıxarmadığını, bu barədə "siyasi müşaviri" Əhməd bəy Ağaoğlu ilə danışmaq lazım gəldiyini söylədiyi üçün heyət onunla görüşmüşdür. Əhməd bəyin fikri isə belə aşkar olmuşdur: xalq sizi istəmir(?). Komandanlıq da sizin işinizə qarışmaq istəmir. Öz qüvvənizə güvənirsinizsə, məclisinizi açın, hökumətinizi qurun, xalq sizə qarşı üsyan etsə, türk əsgəri qarışmaz, çünki əsgər buraya qardaşlarını düşməndən qurtarmaq üçün gəlib, əhaliyə güllə atmaq üçün yox. Müvəkkillər Əhməd bəydən soruşmuşlar ki, komandanlıq hansı şərtlərlə Azərbaycan hökumətinə yardım edə bilər? Cavab almışlar: Milli Şura özünü ləğv etsin." (57.səh.99). Lakin xarici işlər naziri M.Hacınskinin söylədiyi kimi hakimiyyətdə kimlərin olmasından asılı olmayaraq əslində rəsmi Türkiyənin hər zaman Azərbaycanın mənafeyini qoruması tarixi həqiqətdir. İstisna halları isə yalnız onun siyasi vəziyyətinin olduqca gərgin olduğu məqamlara aiddir.

19 iyun 1918-ci ildə bolşevik qoşunları ilə vuruşan Qafqaz İslam ordusunun tərkibinə daxil olmuş altı yüz nəfər yerli könüllülərə Zəyəm və Dəllərdən iki yüzə yaxın kömək gəldi. 23 iyunda hökumətin ölkədə yaratdığı hərbi vəziyyətə əsasən elan edilən səfərbərlik hesabına könüllülərin sayı durmadan artırdı.

RSFSR hökumətinə rəhbərlik edən Leninin mərkəzi hakimiyyətdən qopmuş Qafqazı yenidən işğal etməyə hərbi imkanı hələlik kifayət etmədiyindən o, öz məqsədinə siyasi-diplomatik yolla nail olmaq istəyirdi. Türkiyədən Brest müqaviləsinə əsasən Qafqaz İslam Ordusunun Bakıya hücumunun dayandırılmasını tələb edən Lenin paralel olaraq 1918-ci ilin iyun ayından Almaniya ilə Bakıdan alacağı nefti bölmək haqqında öz səfiri vasitəsilə yarım rəsmi danışıqlar aparırdı.

7 iyul 1918-ci ildə Lenin Saritsında olan Stalinə göndərdiyi teleqramda bildirirdi ki, almanların neftin müqabilində Türkiyə qoşunlarının Bakıya hücumunun qarşısını almağa təminat verdikləri barədə Almaniya hökumətinin Berlindəki rus səfirinə təklifindən Şaumyanı xəbərdar etsin. Stalin isə öz növbəsində məktubunda bu informasiyanı Şaumyana çatdırmaqla bərabər, Zaqafqaziya məsələsində almanları Gürcüstan, Ermənistan və Azərbaycanın Rusiyanın daxili işi kimi rəsmi olaraq tanımağa məcbur etmək barədə də bildirirdi. Almaniya və Türkiyə danışıqlarında gerçəkləşən bu məsələ həmin ərəfədə İstanbulda diplomatik nümayəndə heyətinin başçısı kimi təmsil olunan xarici işlər naziri M.H.Hacınskiyə M.Ə.Rəsulzadənin iqtisadi güzəştlər haqqındakı məktubunda da öz əksini tapırdı. Bu məktub artıq Azərbaycanın özünün müstəqil subyekt kimi rəsmi və qeyri-rəsmi beynəlxalq danışıqlarda iştirakının qanuniləşdiyini təsdiq edir. "Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin tapın. Bu zəmin Bakı nefti haqqında iqtisadi razılaşmadan ibarətdir. Burada güzəştlərə getmək olar". (148) sözləri Türkiyə ilə

belə münasibətlərin emosional deyil, beynəlxalq hüquq normaları əsasında həyata keçirildiyinin ifadəsidir.

14 iyul 1918-ci ildə "Naxçıvan qəzası haqqında" 1N-li əmr verildi. Əmrdə deyilirdi: "1. Dəstəsilə birlikdə Rusiya Respublikası Mərkəzi hökumətinin tabeçiliyinə keçdiyini rəsmi olaraq bildirən daşnak quldur dəstələrinin təşkilatçısı bədnam general Andronik Uzunyan Naxçıvanı zorla Ermənistana birləşdirmək ideyasını həyata keçirməyə başladı."

1918-ci ildə bütün keçmiş Rusiya imperiyasında yaranan kiçik dövlətlər arasında Azərbaycan bolşeviklərin at oynatdıqları bir məkan idi. Mart hadisələrini özlərinin qələbəsi sayan bolşeviklər həmin ilin yayında artıq Sovet Rusiyasının diqtəsi ilə bütün ölkəni ələ almaq niyyətini həyata keçirməyə başladılar.

Qızıl Ordunun on üç minlik birinci Qafqaz korpusunun silahlı ermənilərin hesabına güclənmiş qoşununun hücumu 27 iyundan 1 iyula qədər Göyçay yaxınlığında dörd gün davam edən döyüşdə dayandırıldı. Düşməni qovaraq iyulun axırlarında siyasi böhrandan və maddi çətinlikdən dəhşətli əziyyət çəkərək Bakı şəhəri ətrafına çıxan Nuru paşanın ordusu müvəffəqiyyət qazanır.

2 avqust 1918-ci ildə Cümhuriyyətin ən gərgin günlərinin birində Hacınskilər ailəsinin yeddinci uşağı Murad dünyaya gəlir.

4 avqust 1918-ci ildə İranda yerləşən ingilis qüvvələrinin bir hissəsinin Bakının müdafiəsinə cəlb olunması əslində simvolik xarakter daşıyırdı. Çünki bu qüvvələr artıq Nuru paşanın rəhbərliyi altında birləşərək səfərbər olub Bakıya üz tutmuş türk-azəri qoşununun qarşısını almaq iqtidarında deyildilər.

7 avqust 1918-ci ildə İstanbuldakı Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə müharibədə Almaniya-Türkiyə blokunun məğlubiyyətinə görə siyasi vəziyyətin dəyişməsindən narahat olaraq M.H.Hacınskiyə göndərdiyi məktubda Bakının azad olunmasının sürətləndirilməsi barədə yazır: "Nəyin bahasına olursa olsun Bakı tezliklə tutulmalıdır. Əks təqdirdə biz baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalırıq. Bakıya doğru hərəkət yalnız Azərbaycanın adından olmalıdır. Onu Azərbaycan hökuməti tutmalıdır. Ayrı cür olarsa çətinliklər yarana bilər." (149).

1 sentyabr 1918-ci ildə artıq Gürcüstanın müstəqilliyini tanıyan bolşevik Rusiyasının almanlara vəd etdikləri Bakı neftinin müəyyən hissəsi müqabilində onları bu ərazilərə sahib olmaq iddiaları ilə barışmağa razı saldığından xəbər tutan M.Ə.Rəsulzadə: "Necə olursa-olsun Bakını almaq, almaq lazımdır" cümləsində "almaq" sözünü təkrar etməklə onun əhəmiyyətini bildirirdi. (150).

Professor Cəmil Həsənovun yazdığı kimi: "Sentyabr ayının əvvəllərində yaranmış vəziyyəti təhlil edərək M.Ə.Rəsulzadə bildirirdi ki, son anlarda almanlarda yorğunluq hiss edilir, İstanbulda günbəgün ingilis meyli güclənir. Ona görə ingilislərin Bakıda olması vəziyyəti xeyli çətinləşdirirdi" (28.səh.123).

Ə.Rəsulzadənin M.Hacınskiyə yazdığı məktubundakı: "Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida Azərbaycan." (149) sözləri yaratdığı bağın məhsulunu dərə bilməməkdən nigaran qalan bağbanın həyəcanını əks etdirir.

4 sentyabr 1918-ci ildə yalnız şəhərdaxili asayiş keşiyində duran ingilis hərbi qüvvələri Nuru paşanın tələbi ilə gəmilərə minib təcili Bakını tərk edirlər. Nuru paşanın rəhbərliyi altında olan türk-azəri qoşunları Bakını mühasirəyə aldıqda hələ mart qırğınlarında əksəriyyəti uşaqlardan və qocalardan ibarət otuz min günahsız insanı qətlə yetirmiş erməni-rus fəhlə diktaturasının hərbi dəstələri onları gözləyən intiqam cəzasından qorxub təşviş keçirərək qaçmaq üçün yol axtarırdı. Əslində Bakının alınması milli azadlıq inqilabının tərkib hissəsi olsa da, digər tərəfdən bu məsələ Birinci dünya Müharibəsində qarşılaşmış böyük dövlətlərin döyüşü idi. Alman-türk mənafeyi ilə üzləşən ingilis-rus cəbhəsi hələlik bu ərazidə gücsüzlük nümayiş etdirirdi. Almanların Qafqazdakı hərbi qüvvələrinin ali baş komandanı Kress fon Kressenştayna Tiflisdəki iqamətgahından müttəfiqi və dostu Nuru paşanın qələbə əzmini maraqla izləyirdi.

1918-ci ilin martında törədilən qan selindən sonra Azərbaycanda hakimiyyəti erməni daşnak və rus bolşevikləri ələ keçirirlər. 1907-1908-ci illərdə Stalinin iştirakı ilə bütün Qafqazı terrora məruz qoyan, sonradan 26-lar kimi məşhurlaşan kommuna dəstəsinin üzvlərindən yalnız təsadüf nəticəsində salamat qalmış, Ermənistanın diktatoru və Qafqaz "ÇK"-sının rəhbəri olmuş Mikoyanı Məhəmməd Əsəd bəy həmin hadisələrin "həyatda qalmış, bəlkə də, yeganə tərəfsiz adamı kimi" "Qaçqınlıq" sənədli hekayəsində təsvir edərək komissarların yığıncaqlarını belə xatırlayır: "Hərdən inqilabda əməyi olan gənc kommunistlərə də söz verirdilər. Sonuncuların sırasında insanın tükünü ürpədən gicliklərі danışmağa xüsusi qabiliyyət sahibi on doqquz yaşlı bir erməni gədəsi daha çox nəzərə çarpırdı, o vaxt hələ arıq, sadə və səfeh idi, yalnız sonralar İttifaqın daxili işlər naziri və ikinci qüdrətli kişisi olanda o, Stalinin şəxsi katibi yoldaş Mikoyan ağıllandı və piyləndi. Bir yığın şübhəli insan o vaxt komunist oldu." (51.səh.78).

15 sentyabr 1918-ci ildə beynəlxalq institutları qıcıqlandırmamaq üçün hələ şəhərə girmək istəməyib ermənilərin gəmi ilə Ənzəliyə və Həştərxana qaçmasına şərait yaradan türklər tərəfindən nəhayət Bakının alınması turançılığın gerçəkləşməsində həlledici addım kimi qəbul edildi. Məhəmməd Əsəd bəyin "26-ların hekayəti"ndə yazdığı kimi: "Alman-türk qoşunları Azərbaycana girəndə vur-tut 100.000 fəhlənin gücünə söykənən kommunist hökuməti Bakıda gizləndi. Cənubi Qafqazın aktivistləri, Stalinlə Leninin ən yaxın dostları və məsləkdaşları özlərinin pis fəhlə rəhbərləri olduqlarını biruzə verdilər. Lenin "Bakı proletariatına" çağırışının, Moskva hökumətinin "Şərqin ilk Soveti"nə göndərdiyi salamların xeyri olmadı, fəhlələr "Şərqin xilaskarları"ndan (rəsmi sənədlərdə 26-lara verilən ad belə idi) üz döndərdilər. Bakı alman-türk qoşunları tərəfindən əhatə

ediləndə mühasirədəki şəhərin ortasında həmkarların kommunistlərə qarşı üsyanı başladı. Mühasirədən qorxuya düşən 26 rəhbər öz təəssübkeşlərini darda qoyub onları Rusiyaya aparmalı olan bir gəmiyə qaçdı. İndi rəsmən belə deyilir ki, dünya proletariatının naminə onlar özlərini təhlükəsizliyə qovuşdurmaq istəyiblər, gündəlik danışıqda bunu o vaxt fərarilik adlandırırdılar. İçində kommunist hökumətinin olduğu gəmi yoxa çıxdı, 26-lar "İnternasional"ı oxuyub matroslara əmr etdilər ki, Volqanın mənsəbinə kurs götürsünlər. Sovet hökumətinin özəyini təşkil edən qırmızı matroslar isə hökumətin əmrinə tabe olmaqdan qəflətən boyun qaçırdılar. Onlar şimala, böyük sovet məmləkətinə qayıtmaq istəmirdilər. Qan sızan, acından ölən, qətllər törədən Volqa sovetlərinə öz yardımlarını təklif etmək istəyirdilər." (51.səh.89).

O ərəfədə "Türkmən" gəmisində Həştərxana qaçmaq istəyən iyirmi altı komissarlar Krasnovodska aparılıb ingilislərdən yardım alan eserlər tərəfindən səhrada məhv edildilər. Məhəmməd Əsəd bəyin qeyd etdiyi kimi: "26-ların ölümü ilə əlaqəsi olanların hamısı, hətta gəminin matrosları da ölülər cərgəsinə qatılıblar. Eləcə də onların qardaşları. Kuzenləri və dostları. Onların hamısı inqilab azarından öldü. Sonralar şimaldan axıb gəlmiş qızıl ordunun güllələrindən onlar da 26-lar kimi qumda uyuyurlar." (51.səh.93).

Bakını azad etdikdən sonra Qafqaz İslam Ordusu hissələri ilə Qarabağa göndərilən və qərargahını Ağdamda yerləşdirən Nuru paşa Azərbaycan milli ordu qüvvələrinə bu gözəl diyarın erməni çetelərindən azad edilməsində yardım göstərdi.

30 sentyabr 1918-ci ildə Bolqarıstanın ititrilməsindən sonra Rusiya ilə Türkiyə arasında bufer rolu oynayacaq bir dövlətin yaranması iflas etməkdə olan Osmanlı imperiyasının taktiki marağına cavab verirdi. 9 oktyabr 1918-ci ildə on il ərzində Türkiyəni idarə edən "İttihad və tərəqqi" komitəsinin hökuməti süqut etdi. Əhməd İzzətin bağladığı məcburi sülh sazişində osmanlı ordusunun Zaqafqaziyadan çıxması və oranın dəmiryolunu nəzarət altında saxlayacaq müttəfiqlərin Bakını işğal etməsi də nəzərdə tutulurdu.

30 oktyabr 1918-ci ildə Türkiyənin Mudros barışıq müqaviləsinə imza atmağa məcbur olması Azərbaycanın da beynəlxalq vəziyyətini ağırlaşdırdı.

17 oktyabr 1918-ci ildə Azərbaycan paytaxtına ingilis qoşununun yeridilməsi xəbərinin yaratdığı gərginlik barədə Adil xan Ziyadxanov yazır: "...böyük bir əhvalat vaqe oldu. Böylə ki, həmin bu gündə bizim paytaxtımıza müttəfiq ingilis, Amerika və Fransa ordusu başda general Tomson komandan olmaqla varid oldu. Məlum olduğu üzrə Ənzəlidəki müttəfiq ordu nümayəndələri Bakıdakı türk komandasına Türkiyə ilə bağlanan əhdnaməyə görə türklərin Bakıdan çəkilib getmələri olduqları barəsində bir teleqram göndərmişlərdi. Bu əhvalat məlum olduqdan sonra Azərbaycan hökuməti tərəfindən general Tomson ilə zəbanən danışıqdan ötrü məşhur ədib mühərrir Əhməd bəy Ağaoğlu, hazırki

rəisi – vükəla Nəsib bəy Yusifbəyli, məclisi-məbusan əzasından Musa bəy Rəfiyevdən ibarət bir heyət Ənzəliyə göndərildi. Danışıq əsnasında Azərbaycan nümayəndələri müttəfiq nümayəndələrinə Azərbaycandakı idarə və bütün işləri Azərbaycan əlində olduğu, eyni zamanda bu hökumətin müttəfiqlər tərəfindən tanımalarını və aradan yanlış və ixtilaf çıxarmaq üçün onlara lazımi əhvalı bildirmişlərdi.” (93.səh.91.).

17 noyabr 1918-ci ildə Türk-Alman blokunun Birinci Dünya Müharibəsində məğlubiyyətinin nəticəsi kimi Bakıya ingilis qoşunları yeridildikdən sonra Nuru paşanın başçılığı ilə Qafqaz İslam Ordusu hissələri Azərbaycanı tərk etməli oldular. Nuru paşanın yazdığı xatirələrindən göründüyü kimi, Azərbaycanı tərk edib Batuma – Qars yolu ilə Trabzona çatdıqdan sonra o, buradan gəmi ilə İstanbula yola düşmüş və mənzil başında gəmidən çıxarkən Hərbiyyə Nəzarətinin polisləri tərəfindən tutulub ingilislərə təslim edilmişdir. İngilislərin edam etməyə hazırlaşdıqları Nuru paşanın xatirələrini oxuyuruq: “İngilislər məni Batuma götürərək beş ay Ərdəhan qalasında, bir ay da Ağsuapovka birliyində saxladılar. Bu arada məni qaçırmaq istəyən azərbaycanlılarla batumluların sözləşməsi nəticəsində bir xassə qaçdım.” (79.səh.141).

1918-ci ilin sonunda sərhəd mübahisəsi zəminində Gürcüstan ilə Ermənistan arasındakı müharibənin Qafqazdakı geostrateji vəziyyəti daha da gərginləşdirdiyi məqamda Azərbaycan hökuməti məsələnin Versal sülh konfransında həllinə tərəfdar olduğunu bildirdi. Halbuki Qafqazdan gedən türklərlə onları əvəz edən ingilislər arasında bağlanmış müqaviləyə baxmayaraq Ermənistandan gəlmiş çete dəstələrinin Qarabağda törətdikləri qırğınlarda günahsız müsəlmanlara – türklərə divan tutulurdu.

15 yanvar 1919-cu ildə Xosrov bəy Sultanovun Gəncə qubernatorluğunun tabeliyindən çıxarılıb Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzalarını birləşdirən Qarabağın general-qubernatoru təyin olunması bölgədə rəsmi İrəvanın dəstəklədiyi erməni separatçılığının qarşısının alınması üçün yeni mərhələ oldu. Erməni çete dəstələrinin yerli müsəlman əhalisinə qarşı törətdikləri zorakılığın baş alıb getdiyi bir şəraitdə ittihadçı Xosrov bəy Sultanovun qətiyyəti haqq-ədalətin bərpasında əvəzsiz tol oynadı.

18 yanvar 1919-cu ildən 1920-ci il yanvarın 21-dək Parisdəki Versal sarayında fasilələrlə keçiriləcək sülh konfransında müxtəlif dövlətlərin Denikin işğalı təhlükəsi ilə üzləşmiş Azərbaycanı tanıması üçün əlverişli məqam olduğunu hiss edən hökumət bu məsələnin həlli üçün öz diplomatik nümayəndələrini oraya göndərməyə çalışırdı. Nümayəndə heyətinin rəhbərliyinə respublikada ən yüksək rəsmi mövqe tutan parlament sədri, ictimai xadim Ə.Topçubaşov təyin olunur. Lakin onun respublikadan kənarda – İstanbulda olması səbəbindən nümayəndəliyə müvəqqəti sədrliyi həvalə olunmuş müsavatçı deputat, dövlət müfəttişi

M.Hacınskiyə 150 min manat verilir. İki milyon manat vəsait isə Amerika və Avropada açılması üçün nəzərdə tutulmuş nümayəndəliklərin hesabına keçirilir. Müqayisə üçün qeyd etmək gərəkdir ki, pulun kapital dünyasında oynadığı rolu bilən ermənilər özləriylə on, gürcülər isə beş milyon manat götürmüşdülər. Millət vəkili, görkəmli jurnalist Əhməd bəy Ağaoğlu və “Azərbaycan”qəzetinin baş redaktoru Ceyhun bəy Hacıbəyli (1892-1962), “Hümmət” firqəsinin rəisi Əkbər ağa Şeyxülislamov (1891-1961), sosialist Məmməd bəy Məhərrəmov, ittihadçı Mir Yaqub Mir Mehdiyevdən (1891-1952) ibarət nümayəndə heyətinin İstanbulda ləngiməsi Fransaya daxil olmaq üçün icazə uzadıldığından üç ay çəkdi. Üstəlik Əhməd bəy Ağaoğlunun ingilislər tərəfindən həbs olunaraq yaxın olduğu “İttihad və tərəqqi” komitəsi üzvlərilə birlikdə Malta adasına sürgün edilməsi anlaşılmazlıq yaratdı. Avropa ölkələrinin, xüsusən Fransa dövlətinin təhriki ilə çoxsaylı maneələrlə rastlaşan nümayəndəliyin çıxılmaz vəziyyəti barədə professor C.Həsənlinin “Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920” kitabında tutarlı faktları yerinə düşür: “Bütün sənədlərdən aydın olur ki, ermənilərin təsiri altına düşmüş Fransa siyasi dairələrinin süründürməçilikdə məqsədi nümayəndə heyətinin başçısı, görkəmli Azərbaycan siyasi xadimi Ə.M.Topçubaşovu Parisə buraxmamaq idi. M.H.Hacınski mart ayının 30-da Tiflisdəki Azərbaycan daimi nümayəndəsi M.Y.Cəfərova yazırdı ki, əvvəllər Ə.Ağaoğluna qarşı kompaniya qaldırmışdılar, indi də Topçubaşovu ləkələmək istəyirlər, açıq surətdə bildirirlər ki, o, Parisə buraxılmamalıdır.” (28.səh.186).

24 fevralda Şuranın 35 kilometrliyində 200 nəfərlik ingilis qoşunu bölməsi tərəfindən Qarabağ kəndlərini talan edən, müsəlman əhalisinə qarşı kütləvi qırğınlar törədən Andronikin silahlı quldur dəstəsinin qarşısının alınması tarixi hadisə oldu. Vəziyyətin ciddiliyini görərək Andronikin silahlı dəstəsinin mahaldan çıxarılmasını israr edən müttəfiq qoşunları komandanlığının 3 aprel bəyanatı ilə Xosrov bəy Sultanovun səlahiyyətlərini qəbul etməsi bölgədə əmin-amanlığın bərpasını sürətləndirdi.

12 aprel 1919-cu ildə franszılar yalnız M.H.Hacınski, M.Məhərrəm, C.Hacıbəyliyə Parisə getməyə icazə verirlər. 17 aprel Azərbaycan hökuməti M.H.Hacınskinin nümayəndə heyətinə rəhbərliyini təcili olaraq rəsmi təsdiq edir. Tadeuş Svyatoxovskinin yazdığına görə: “Azərbaycanlılar Parisə yalnız aprelin sonu 1919-cu ildə çatdılar. Bu isə zəruri işləri görmək və konfrans nümayəndələrini yola gətirmək üçün gec idi. Qonşularından fərqli onlara heç bir kömək göstərilmədi. Qərbdəki ermənipərəstlik hərəkatı, yaxud gürcü menşeviklərinin beynəlxalq sosializm ilə əlaqələri fonunda azərbaycanlıların mövqeyi zəif idi.” (82.səh.143). Lakin gec də olsa Fransaya getməyə nail olub Versal sülh konfransı çərçivəsində nümayəndə heyətinə rəhbərliyini həyata keçirən Ə.Topçubaşov həlli vacib işlər gördü. Professor C.Həsənovun yazdığı kimi: “May

1919-cu il xarici işlər naziri Xan Xoyski general Tomsonla görüşdükdə, müttəfiqlərin baş komandanlığı tərəfindən Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq Ermənistan hökumətinə verilməsinə öz kəskin etirazını bildirmiş və Naxçıvan, Ordubad, Şərur-Dərələyəzin qədim Azərbaycan torpaqları olduğunu bildirmişdi. İndi silah gücünə öz hakimiyyətini qura bilməyən Ermənistan hökuməti, Amerika layihəsi üzrə bu ərazilərdə neytral zona yaradılmasına çalışırdı. Şübhəsiz ki, Amerika nümayəndəsinin idarə edəcəyi Naxçıvan, Şərur-Dərələyəz qubernatorluğu gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaratmalı idi." (28.səh.263). Paris sülh konfransında siyasi-diplomatik fəaliyyətini bərpa edən Azərbaycan nümayəndə heyəti Ermənistan və İranın torpaq iddiası cəhdlərinə qarşı əsaslı müddəalarla müqavimət göstərdi.

Sülh konfransında ev sahibi kimi nüfuzu olan Fransa Rusiyanın bölünməzliyinə tərəfdarlıq naminə bu ərazidə yaranmış respublikaların müstəqilliyini tanımaq istəməsə də, 1919-cu ilin iyununda milliyyətcə erməni olan İvan Loriks-Melikovun rəhbərliyi ilə nümayəndələrini Qafqaza göndərdi. Onun əmisi qraf Loris-Melikov Ermənistan Respublikasının Parisdəki nümayəndəsi olsa da, vaxtilə Ə.M.Topçubaşovla bir gimnaziyada oxumuş, sonradan Fransa vətəndaşlığını qəbul etmiş İvanın Fransanın baş naziri Corc Klemanso ilə yaxınlığı da məlum idi. Professor C.Həsənlinin yazdığı kimi: "Qafqaza yola düşməzdən əvvəl o, iki dəfə Ə.M.Topçubaşovun yanında olmuş, bir dəfə də Əli Mərdan bəy M.H.Hacınski ilə birlikdə onun görüşünə getmişdi. Danışıqlar zamanı aydın olmuşdir ki, Loriks-Melikovu Qafqaza göndərməkdə Fransa hökumətinin əsas məqsədi bütün Qafqaz xalqlarının daxil olacağı Federativ Respublikanın yaranmasının mümkün olub-olmaması baxımından Qafqazın siyasi vəziyyətini öyrənməkdir. (28.səh.246).

1 may 1919-cu ildə keçirilən nümayişdə bolşeviklər "Yaşasın Sovet Rusiyası" şüarı ilə siyasi "səngərdən çıxaraq" alovlu çıxışlarla özlərinin əsl mövqelərini göstərdilər. Həmin gün Bakı fəhlə komitəsinin rəhbərliyi 6 mayda tətil keçirəcəkləri barədə elan verir. Lakin yerli müsəlman sosilaist partiyalarının dəstəyini qazanmayan tətil cəmi üç gün davam edir. A. Mikoyan başda olmaqla qırx üç nəfər rəhbərin həbs edilməsi nəticəsində isə 13 mayda tətil uğursuz halda başa çatır. Həmin ərəfədə Azərbaycan üçün qırmızı bolşevik Rusiyasının qızışdırdığı tətillər daxildən, ağqvardiyaçı general Denikinin bölünməz Rusiya uğrunda vuruşan ordusu isə xaricdən ciddi təhlükə törədirdi. Milli deyil, sosial olub bolşevik qurğusu hesab edildiyindən ingilislərin dəstək vermədikləri Dağıstan Denikin üçün asan əldə edilən qurbana çevrildi.

2 iyun 1919-cu il "Azərbaycan" qəzetinin 193-cü sayındakı "Şimalımızın halı" məqaləsində Üzeyir bəy Hacıbəyov yazırdı: "O Dağıstan ki, onu fəth etmək üçün qoşunun qüvvəsilə Avropanı qorxudan rus çarlığı otuz beş il vuruşub

çalışmışdı. O Dağıstanı Denikinin dərədən-təpədən yığılmış başı pozuqları bir gündə fəth etdilər! Və bu fəth sayəsində Qafqaz cümhuriyyətlərindən biri bir az zaman içində gözümüz önündə məhv olub getdi." (24.səh.98). Şimalda ərazi baxımından bufer rolunu oynayan Dağıstan Respublikasının süqutu nəticəsində kiçik də olsa, neftlə zəngin Azərbaycan hələlik ingilislərdən dəstək alan və gözünü bu neftə dikmiş Denikinin simasında, işğalçı niyyətli böyük Rusiya ilə üz-üzə qaldı. Dağıstan ərazisindəki qədim Azərbaycan şəhəri Dərbəndin tutulması bu gərginliyi daha da artırdı. M.H.Hacınskinin əli ilə Paris sülh konfransına təzyiq, dövlətin ingilis komandanlığına göndərdiyi rəsmi nota, 29 mayda F.X.Xoyskinin Tiflisdə keçirilən konfransda Cənubi Qafqaz respublikaları ilə bağladığı həmrəylik müqaviləsi müdafiənin ümummilli məsələ olduğunu təsdiqləyirdi.

14 iyun 1919-cu ildə ölkədə hərbi vəziyyət elan edildikdən sonra Cənubi Qafqaz respublikaları ilə bağlanmış birgə müdafiə müqaviləsinin 27 iyunda parlamentdə təcili müzakirəsi ilə ingilis əsgərlərinin ölkədən çıxması məsələsi gündəmə gəldi. Özünü kənara çəkən daşnak Ermənistanı son anda Rusiya əleyhinə müdafiə blokuna girməyib yenə də ikili oyun oynadı.

1919-cu ilin 10 iyulunda Həştərxan vilayət şöbəsinin müdiri seçilən N.Nərimanov həmin ilin aprelində Leninin təhrikiylə ümum Qafqaz rəhbər partiya orqanı olan Qafqaz bürosunun tərkibinə daxil edilir.

16 iyul 1919-cu ildə N.Nərimanov "Müsavat" respublikasının rəhbəri Nəsib bəy Yusifbəyova ünvanladığı məktubunda Azərbaycanın gələcək taleyindən narahat olduğunu önə çəkir. İlk öncə Nəsib bəy və onun silahdaşlarına münasibətini açıqlayan müəllif yazır: "Həmfikirlərinizlə birgə siyasi düşmənlərim olsanız da mən sizə çox ehtiyatla yanaşmışam. Millət və din mövqeyində durduğunuz zaman sizə geridə qalmış insanlar kimi baxmışam. Lakin eyni zamanda anlamışam ki, hamını birdən internasionalist etmək olmaz.

Mən həmişə türklərin Qafqaza dəvət edilmələrini istəyənlərə qarşı çıxmışam" (111.səh.202). "Müsavat" hakimiyyətinin Denikinə müharibə elan etməsinin əsas səbəbini İngiltərədən fərqli olaraq onun bu dövləti rahat qoymayacağına əminlikdə görən N.Nərimanov yazır: "Lakin heç şübhəniz olmasın ki, Denikini siz yox, Gürcüstanla birlikdə Sovet Rusiyası dağıdacaq. Kolçaq artıq məhv edilmişdir. İndi isə sıra Denikinindir. Sovet Rusiyasının güclü əlləri daha da açılacaqdır: əgər siz əvvəlki tək kar və kor olub Versal sülhündən sonra dünya miqyasında baş verənləri nə görüb nə də eşidirsinizsə, onda Sovet Rusiyası sizin üçün bir o qədər də təhlükəli deyil." (111.səh.204). Məktubunda Qızıl Ordunun möcüzələr yaratdığı bir dövrdə müsavatçıları bütöv bir xalqın və dövlətin taleyilə cinayətkarcasına zarafat etməkdə günahlandıran müəllif deyir: "Qonşularınız sizə gülürlər. Götürək elə Ermənistanı. Daim İngiltərə, indi isə Denikinlə əlaqə saxlayıb paralel olaraq Moskvaya öz casuslarını göndərərək sovet səmtini qəbul etdiyini

bildirir. Əgər Denikin tezliklə dağıdılsa və Ermənistan öz səmtini elan etsə (bu elə belə də olacaq) taleyinizi təsəvvür edirsinizmi?" (111.səh.205). Məktubunun sonunda "Qoy bu sözlərim tarixi sənəd olsun." (111.səh.206) yazan N.Nərimanov qəlbinin Azərbaycanın gələcəyi naminə döyündüyünü yazılı surətdə göstərirdi.

5 avqust 1919-cu ildə Ə.M.Topçubaşovun sədrliyi, gürcü və dağlı nümayəndələrinin də iştirakı ilə birgə müzakirədə kənardan siyasi, həmçinin hərbi yardım olmadan müstəqilliyin təhlükəyə düşəcəyi yəqinləşdi. "Müzakirələrin gedişində bir sıra təkliflər irəli sürüldü. Əvvəlcə göstərildi ki, Azərbaycan və Gürcüstan nümayəndələri Millətlər Cəmiyyətinə müraciət etsin, mandatı qəbul edən ölkə Millətlər Cəmiyyəti tərəfindən qəbul edilsin. Sonra M.H.Hacınski belə bir təklif verdi ki, Azərbaycanın mandatının götürülməsi İngiltərədən xahiş edilsin. O, iclasdakı çıxışında göstərdi ki, İngiltərədən başqa bizim heç bir oriyentasiyamız yoxdur." (28.səh.255).

6 avqust 1919-cu ildə Versal konfransında İngiltərədən başqa heç bir beynəlxalq dayağı olmayan Azərbaycan dövlət mandatını götürməyi məhz bu ölkədən xahiş etsə də, digər böyük dövlətlər məsələnin baş tutmasına mane oldular. Ölkədən çıxan ingilislər əllərində olan silah-sursatı və hərbi gəmiləri qoyub getdilər. Azərbaycanda olduqları müddətdə vaxtlarını xristian ailələrilə, yəni erməni, gürcü və ruslarla tanışlığa sərf edən ingilislər onlar üçün türk boyunduruğundan xilaskarlar kimi görünürdülər. Bu isə xristian qızlarla ingilis zabitləri arasında sonsuz sayda kəbinlərə gətirib çıxartsa da, son nəticədə onların ölkəni tərk etmələrini M.Əsəd bəy belə təsvir edir: "Zabit korpusu üçün bir yataq qatarı tutuldu ki, onun da son iki qatarı gənc zabit arvadları üçün nəzərdə tutulmuşdu. Əmrə müvafiq olaraq kişilər subay zabitlərlə ön vaqonda getməliydilər. Yola düşülən gün arvadların bütün qohum-əqrəbası perrona yığışmışdı. Göz yaşları və vida diləkləri ilə yola salınan qadınlar yataq qatarının son iki vaqonuna, ərləri isə ön vaqonlara mindilər. General vida nitqi söylədi. Fit çalındı, qatar hərəkətə gəldi. Bununla böyük şaşqınlıq da gəldi. Bütün qatar, bütün vaqonlar Avropaya üz tutdu, yalnız o iki vaqondan başqa. Bunlar relsə mıxlanıb qaldılar, çünki cənab zabitlərin gizli əmrinə əsasən onlar qatara qoşulmamışdılar. Biçarə arvadlar qaldıqları yerdən tərpənmədilər, camaat tərəfindən lağa qoyuldular, abır və hirslərindən neyləyəcəklərini bilmədilər." (51.səh.185).

İngilis ordusunun Rusiya ərazilərini, o cümlədən Qafqazı tərk etməsi rəsmiləşdirildikdən sonra sülh konfransı çərçivəsində görüşlər keçirən nümayəndələrimiz İtaliya hökumətinin bölgəyə qoşun göndərməsi məsələsinin müzakirəsinə qoşuldular. Lakin bu dövrdə bolşeviklərin güclənməsi Denikinin vəziyyətini ağırlaşdırmışdı.

Yusif Vəzir Çəmənzəminlinin həmin dövrdə yazdığı "Xarici siyasətimiz" məqaləsinin "İngiltərə ilə dostluq" bölməsində göstərdiyi kimi: "Bu gün ingilislər

Qafqazdan çəkilib yerinə italyanlar da gəlsə, yenə İngiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində həmişə böyük rollar oynayıb və oynayacaqdır. Millətlər hüququna riayət etmədə, onların istirahətini təmin etmədə, millətləri tərəqqi yoluna gətirmədə Avropada birincilik qazanıbdır.” (16.səh.33). Göründüyü kimi, peşəkar diplomat Yusif Vəzir Çəmənzəminli hələ o zaman siyasi aləmdə ingilis amilinə yüksək qiymət verirdi. O dövrün vəziyyətini təhlil edən professor C.Həsənli də həmin amili dəstəkləyərək yazır: “İtaliyanın Azərbaycana güclü iqtisadi marağı var idi. Lakin o, mandatlığa götürmək istədiyi əraziləri xarici təcavüzdən qorumaq imkanına malik deyildi. Gələcəkdə Rusiya və Türkiyə ilə qarşılaşmaq qorxusu İtaliyanı belə bir addımdan çəkindirdi. Azərbaycan Respublikası üçün İtaliya mandatlığı sərfəli deyildi. Avropalı müttəfiqləri Qafqazda marağı olan ABŞ-ın burada mövqe tutması ilə barışa bilməzdi. Bu dövrdə Böyük Britaniya yeganə ölkə idi ki, Qafqaz, o cümlədən Azərbaycan mandatını götürməyə hər cür imkanı var idi. Böyük Britaniyanın regiondakı güclü hərbi qüvvələri xarici təcavüzdən müdafiə olunmaqda, onun qüdrətli iqtisadi potensialı, bütün dünyadakı siyasi nüfuzu Azərbaycanın tərəqqisində və taleyində əhəmiyyətli rol oynaya bilərdi.” (28.səh.284).

1919-cu ilin yayında ərazisinin bir qismi işğal altında olan Türkiyənin digər hissəsi Müttəfiqlərə arxalanan Sultan VI Mehmedlə başda Mustafa Kamal olmaqla gənc türklərin müqavimət hərəkatı arasında sanki bölünmüşdü. Vəziyyətin gərginliyi nəticəsində Mudros sülh sazişindən sonra hərbi kadr hazırlığı ilə məşğul olan müəllim heyəti istisna olmaqla Osmanlı qoşunları Azərbaycandan çıxmalı oldu. Mustafa Kamalın Müttəfiqlərə qarşı apardığı müharibənin uğurları isə Azərbaycanda da rəğbətlə qarşılanırdı.

1919-cu ilin əvvəlində ingilislər Batumu tutaraq Dağıstanda Denikinə qarşı vuruşan qüvvələrə qoşulmuşdular. Dağlılar Respublikasının süqutundan sonra öz məğlub ordusu ilə Bakıya qayıdan Nuru paşa isə sentyabr ayında burada yarı rəsmi nümayəndəlik quraraq artıq kamalçılar hərəkatının Bakının da maliyyə yardımı ilə təmin olunmasına çalışırdı. Lakin Azərbaycan hökumətini real şəkildə dəstəkləyən ingilislərin Kamalçılar hərəkatına və Sovet Rusiyasına mənfi münasibəti nəticəsində populyar olan Nuru paşadan vaz keçilib Fuad Sabitin vasitəçiliyi hesabına Bakı hümmətçilərinin köməkliyi sayəsində gizli bolşevik təşkilatıyla əlaqələr yaradıldı.

11 sentyabr 1919-cu ildə Nərimanov özünün Şimali Qafqazın və Dağıstanın imamı elan etmiş Şeyx Hacı Nəcməddin Qotsinskiyə göndərdiyi məktubunda onun “türklərin gəlişini gözləyirik, sonra hamımız bir nəfər kimi çara qarşı qalxacağıq” sözlərini xatırladaraq yazırdı: “O zaman mən sizə kobud və tünd ləzgilərin dini rəhbəri kimi baxırdım. Panislamizm ideyası sizi idarə edirdi və çara qarşı çıxıb Türkiyə ilə birləşmək istəyiniz mənə aydın idi. Lakin belə oldu ki, siz deyil, məhz

rus fəhlələri çara qarşı çıxaraq sizi də onun zülmündən xilas etdilər.” (111.səh.217). Dini rəhbər kimi Nəcməddin Əfəndidən xüsusi siyasi bilik və ağıl gözləməyən N.Nərimanov “Yaxşı yadımdadır: söhbətlərimizin birində “Çar zülmündən xilas olduqdan sonra fəaliyyətinizi necə düşünürsünüz?” sualıma “Bizim Quran və qılıncımız var” cavabını verdiniz. Bəs indi hanı sizin Quran və qılıncınız?” (111.səh.219) yazmaqla onların daim istinad etdikləri fikir və ideyalarının verdikləri vədlər kimi boşa çıxdığını bildirirdi. Müəllifin “Dövlət dini işlərə qarışmamalıdır. Bolşeviklər deyirlər: hər bir xalq öz taleyini müəyyən etməkdə müstəqildir. Sizə bundan artıq nə lazımdır?” sözləri isə qaranlıqdan çıxış yolunu yalnız Sovet Rusiyasında görən və öz fikirlərində yanılmadığına əmin olan bir şəxsin əks mövqedəkiləri də buna inandırmaq istəyini göstərirdi.

27 oktyabr 1919-cu ildə Parisi tərk edən M.Hacınski oradakı diplomatik çətinliklər barədə neçə illər sonra həbsxanada verdiyi izahatda yazırdı: “Paris konfransının gedişinə fəal müdaxilə edən ABŞ siyasəti aparıcı mövqedə dururdu. Amerika prezidenti Vilsonun göndərdiyi on dörd maddədən ibarət tələbnamədən göründüyü kimi, o, yer kürəsinin xırda parçalara bölünməsini istəmirdi. Görünür ki, beynəlxalq iqtisadiyyatı ələ almaq istəyən Amerikanın xarici ticarət siyasətinə belə özünün gömrükləri olan çoxsaylı xırda dövlətlər sərf eləmirdi. Xüsusən Avropa ilə Asiya arasındakı Zaqafqaziya ölkələri Amerikanın bu siyasəti qarşısında əsas maneəyə çevrilmişdi.” (160).

Leninin “Bütün ölkələrin proletarları birləşin!” çağırışını həyata keçirən Rusiya bolşeviklərinin vətəndaş müharibəsindəki uğurlarından narahat olan Avropa ölkələri əks tədbirlər görmək zorunda qaldılar.

22 dekabr 1919-cu il tarixli parlamentin yüz doqquzuncu iclasında: “Hökumət elə olmalıdır ki, bütün millətin etimadını qazansın, çətin vaxtda bütün millət onun arxasında olsun.” (11.səh.631) – deyən “İttihad”çı Q.Qarabəyov müxalif firqəsinin nəhayət, yeni hökumətin məsuliyyətinə şərik olduğunu bildirərək: “Hökumətin çox parası çalınmışdır. Bir çox işlər görülmüşdür, təcavüzlər, sui-istemalar olmuşdur...” deyərək günahkarların sərt cəzalandırılmasını tələb edirdi. Ölkədəki bahalığın səbəbini ixracatın olmamasında görən, çörəyin qiymətinin 9-dan 28-30 manata qədər qalxdığını söyləyən natiq fəhlə və məmurların tələb etdikləri kimi maaşların artırılmasının onların dərdinə çarə olmayacağını bildirirdi.

24 dekabr 1919-cu ildə Qarabəyovun təklifi ilə daxili işlər naziri vəzifəsində də özü çalışan N.Yusifbəylinin hökumət kabinetində M.H.Hacınskinin daxili işlər naziri təyin olunması parlamentdə çoxlarının mənafeyinə toxundu.

28 dekabr 1919-cu ildə parlamentdə “Müsavat”ın və bitərəflər qrupunun liderlərindən olan on iki nəfərin F.Xoyskinin kabinetində keçirilən müşavirəsində daxili və xarici siyasətin gərginliyi şəratində daxili işlər naziri M.H.Hacınskinin və digər sosialist nazirlərin yerinə kommunistlərə qarşı barışmaz olan şəxslərin təyin

edilməsi barədə təklif verilir. Bu toplantıda ölkədəki gərginliyi nəzərə alaraq vəziyyətdən çıxmaq naminə müvəqqəti də olsa parlamenti buraxıb hakimiyyəti bir əldə cəmləmək və yalnız altı aydan sonra yeni seçkilər keçirmək məsələləri də müzakirə olunur.

Akademik Cəmil Quliyev ADR dövründə siyasi mənzərəni belə təsvir edir: ""Müsavat"ın hakimiyyətdə olduğu müddətdə Azərbaycanda çoxsaylı partiyalar, siyasi qruplar və cərəyanlar, müxtəlif ictimai təşkilatlar, birliklər və cəmiyyətlər fəaliyyət göstərirdi. Onlar müxtəlif dillərdə qəzet və jurnallar da nəşr etdirirdilər." (101.səh.119).

15 yanvar 1920-ci ildə Paris sülh konfransının hərbi ekspert şurası Böyük Britaniyanın hərbi naziri U.Çörçillin başçılıq etdiyi silahlı qüvvə komandanlığının da iştirakı ilə Azərbaycana və Gürcüstana hərbi yardımın göstərilməsi məsələsini müzakirə edir.

19 yanvar 1920-ci ildə hökumət başçılarının iştirakı ilə və nəhayət, Azərbaycan nümayəndələrinin tam heyətlə təmsil olunduqları bir şəraitdə Paris sülh konfransının Ali Şurasının ADR-i diplomatik aləmdə tanıması uğurlu addım idi.

Dolaşıq daxili və xarici amillər sayəsində müstəqil siyasət yürüdə bilməyən ADR Rusiyanın güclənməkdə olan Sovet rejimi ilə neytral münasibət qurmağı bacarmırdı. Sovet Rusiyasına ixracına ingilislər tərəfindən embarqo qoyulan neftin Xəzər dənizi vasitəsilə Həştərxana qanunsuz daşınmasına qarşı Azərbaycan hökuməti heç bir tədbir görə bilmirdi. Çünki gəlirdən məhrum olmaq təhlükəsi ilə üzləşən sahibkarlarla bərabər, onların mənafeyinə xidmət edən millət vəkilləri və bolşeviklərin qızışdırdığı tətilçilərlə mübarizə aparmaq olduqca çətin idi.

Birinci Dünya Müharibəsindən sonra artıq real dayaqlardan məhrum olmuş turançılıq ideyasının həyata keçirilməsi üçün döyüşən Nuru paşa və Ənvər paşanın Türkiyəyə yeni qələbələr qazandırmaq istəkləri romantik görünürdü. Bu ərəfədə Nuru paşanın qısa müddətli sülh sazişinə görə Osmanlı qoşunlarını şimaldan təcavüz gözləyən Azərbaycanın ixtiyarına verməyə çalışması isə qərb imperializminə qarşı mübarizə aparan gənc türklərin Sovet Rusiyası ilə əməkdaşlığı fonunda perspektivsiz sayılırdı. 1919-cu ilin iyul-avqust aylarında Ərzurumda keçirilən Şərq Əyalətlərinin Hüquqlarını Müdafiə İttifaqının iclasında Mustafa Kamalın bolşevizmi milli hərəkatın ideologiyası hesab etməsə də, bu ideya altında rusların xarici müdaxiləçilərə qarşı döyüşlərini qəhrəmanlıq adlandırması, yeni Türkiyənin qorunması naminə hələ beynəlxalq aləmdə tanınmayan Azərbaycan Respublikasının mənafeyinin az əhəmiyyətli görünməsinin məntiqi mənzərəsini yaradırdı. Üstəlik Sovet Rusiyasının Türkiyəyə hərbi köməyinin Azərbaycan Cümhuriyyətinin ərazisi vasitəsilə həyata keçirilməsi fikri bu gənc respublikanın gələcək taleyini indidən sual altına qoyurdu. Yenicə

qurulmuş Azərbaycan dövlətinin başı üzərində domokl qılıncı kimi asılmış Rusiyanın işğalçılıq siyasəti müstəqillik hüququnun tam bərqərar olmasına imkan vermirdi. Hələlik Qızıl Ordu qüvvələrinin digər regionda vuruşması bir sıra vacib əhəmiyyətli məsələlərin həllinə şərait yaratsa da, bütövlükdə müstəqillik tam hüquqi həllini tapmamışdı. Özünün tarixi milli torpaqlarına sahib durmaq istəyən respublikanın 113,9 min kv.km ərazisinin 16,5 min kv.km-nin mübahisəli vəziyyətə gətirilməsi Rusiyanın Qafqaz strategiyasına uyğun siyasi alət kimi bütün həlledici məqamlarda istifadə olunurdu. Onu da qeyd edək ki, ərazimizin sonrakı illərdə tədricən zəbt olunaraq 86,6 min kvadrat kilometrə qədər azalması və növbəti müstəqillik illərində təcavüzə məruz qalaraq yenidən işğal olunması bədnam tarixin təkrarlanması, həmçinin işğalçı siyasətin davamı kimi anlaşılmalıdır.

1919-cu ilin dekabrında "Müsavat"ın təklifi ilə parlamentin sağ qanadı "İttihad" partiyasının nəhayət beşinci hökumətin tərkibinə daxil olması iqtidarla müxalifət arasında yeni münasibətlər sistemi yaratdı. "İttihad"ın təhriki ilə korrupsiya və rüşvətə qarşı barışmaz olan M.H.Hacınskinin daxili işlər naziri təyin olunması güc strukturu vasitəsilə ölkədə qanun-qayda yaratmaq məqsədi güdürdü. Bu istiqamətdə fəaliyyəti gücləndirmək istəyən "İttihad"çıların dövlət nəzarətini də əllərinə almaqla özlərinə müsbət imic qazanıb gələcəkdə seçki yolu ilə hakimiyyətə gəlmək istəkləri əslində sağlam siyasi marketinqin təzahürü idi. Hələlik isə Daxili İşlər və Dövlət Nəzarəti Nazirliklərinin birgə səyi nəticəsində Q.Qarabəyovun parlamentdəki çıxışlarında əsas tənqid hədəflərindən olan ticarət və sənaye naziri Y.A.Əliyevin vəzifədən istefası idi. Onun çıxışlarında dövlətin pul məsrəflərinin müsavatın partiya mənafeyinə xərclənməsi isə siyasi arenada partiyalar, parlamentdə isə fraksiyalar arası ziddiyyətləri kəskinləşdirirdi.

M.H.Hacınskinin vətəndaşlıq mövqeyini itirmiş korrupsiyaya qurşanmış rüşvətxor məmurlarla mübarizəsi dövlətçiliyin sağlam istiqamətə yönəlməsinə xidmət edirdi. Məmur özbaşınalığına qarşı barışmaz mövqeyini ittihadçılar və kommunistlərlə yaxınlaşmaq kimi dəyərləndirən müsavat və bitərəflər fraksiyası onu bolşevizmə meyldə günahlandırırdılar. Bütün bunlara məhəl qoymayan M.H.Hacınskinin "İttihad" partiyasının lideri Q.Qarabəyovun rəsmi məlumatına əsasən gömrüklə bağlı özbaşınalıqlarda günahlandırılan xarici işlər naziri, bitərəf F.X.Xoyskinin yaxın qohumu, Qazaxın general-qubernatoru Aslan-Xoyskini işdən azad etməsi parlamentdə şok vəziyyəti yaratdı. Tezliklə daxili işlər naziri vəzifəsindən uzaqlaşdırılan M.H.Hacınski parlamentdəki "Müsavat" partiyasının daxilində yaranan radikal sol qanadın liderinə çevrilir.

Azərbaycan cəmiyyətindəki sabitliyə ciddi təsir edən amillərdən biri də "Müsavat"da formalaşaraq partiya daxilində, parlamentdə və cəmiyyətdə stabilliyin pozulmasına şərait yaradan sol qanad idi. Parlamentdə sağlam müxalifət

olan Q.Qarabəyovun rəhbərlik etdiyi "İttihad"a qoşularaq ziddiyyəti artıran sol qanadın əsas lideri M.H.Hacınskiyə nüfuz sahibi olan bitərəflər qrupunun rəhbəri B.X.Cavanşirin də qatılması ciddi platforma yaradırdı. Bir vaxtlar Əhməd Ağaoğluyla birgə "Difai"ni yaratmış Qarabəy Qarabəyov, Məhəmməd Həsən Hacınski, Behbud Xan Cavanşirin Sovet Rusiyası ilə diplomatik münasibətlər qurmaq tələbini təftiş edən bəzi tədqiqatçıların onları bu məqsədə görə günahlandırmaq iddiaları yəqin ki, əsassızdır.

11 yanvar 1920-ci ildə müttəfiq dövlətlər tərəfindən Gürcüstanla birgə Azərbaycanın da müstəqilliyinin de-fakto tanınması Versal konfransındakı diplomatik uğurların nəticəsi olsa da, yanvarın ikinci yarısından Ermənistanın ADR-ə qarşı amansız təcavüzü müstəqilliyimizin üzərinə qara kölgə saldı. Dövlətlər arası sərhədlər tam dəqiqləşdirilməsə də, müttəfiqlərdən özlərinin ərazi iddialarına dəstək almayan erməni millətçilərinin Azərbaycana hücumu gözlənilməz oldu.

23 yanvar 1923-cü ildə döyüşlərdə Qızıl Ordu Denikinin başçılıq etdiyi könüllülərə üstün gəlir. Bununla da artıq vətəndaş müharibəsini tamamlamaq üzrə olan bolşevik Rusiyasının xarici işlər naziri Q.V.Çiçerinin notalar verməklə müstəqilliyini tanımadığını bildirən Azərbaycanla hərbi ittifaq bağlamaq yolu ilə onu münaqişəyə cəlb etmək niyyəti qara sapla tikilmiş ağ paltar kimi məsələnin əsl mahiyyətini açırdı. Azərbaycanın xarici işlər naziri Fətəli Xan Xoyski və onun radikal həmfikirləri vətəndaş müharibəsində əldən düşüb zəifləmiş Rusiyanın siyasi, iqtisadi və hərbi təzyiqinə qarşı kommunist fikirli adamları ölkədən qovmaq, digər Qafqaz ölkələri ilə danışığa girib güclü ordu yaratmaq və kütləvi silahlanma yolu ilə müstəqilliyi qorumaq tərəfdarı idilər. Lakin ölkə daxilindəki stabilliyin zəifləməsi radikallığın ideoloji təminatını yaratmaqda çətinlik çəkirdi. Dövlətin get-gedə zəifləməsi vətəndaş həmrəyliyinin yaranması qarşısında əngəl törədirdi.

18 fevral 1920-ci ildə F.Xoyskinin və həmfikirlərinin təsiri ilə həmin ölkə ilə siyasi manevrlər və loyal münasibətlər tərəfdarı olan M.H.Hacısnki daxili işlər naziri vəzifəsindən uzaqlaşdırılsa da, ticarət, sənaye və ərzaq naziri kimi kabinetin tərkibində qaldı. Bununla belə "İttihad" partiyasının rəhbəri Q.Qarabəyovun "Müsavat"la hökumət koalisiyası barədə anlaşmanı ləğv etməsi bolşeviklərin xeyrinə işləyən siyasi oyun təsiri bağışladı. Daxili işlər naziri vəzifəsinə yeni təyin olunmuş ən gənc hökumət üzvü, müsavatçı M.Vəkilovun dövlətçiliyin bərpası yolunda bolşevik fəallarının həbslərini həyata keçirməsi və onların mətbuat orqanlarını bağlaması demokratiyaya zidd hərəkət kimi qələmə verilərək ölkədaxili vəziyyəti daha da ciddiləşdirdi.

Azərbaycanı idarə edən müxtəlif partiya və qrup liderlərinin siyasi təcrübəsinin yoxluğu onların dövlətçilik naminə eyni məxrəcə gəlməsinə mane olurdu. Üstəlik Nərimanov kimi nüfuzlu bir ictimai-siyasi liderin bolşevikləri

dəstəkləməsi ölkə daxilində Şura hökuməti sayəsində daha müstəqil dövlət qurulacağı xülyasını yaratmaqla kommunist təcavüzünü yaxınlaşdırırdı.

1920-ci ilin əvvəllərində Rusiyanın və onun qərb müttəfiqlərinin marağına qarşı çıxaraq Sevr müqaviləsini rədd edib daşnak qüvvələrini yerində oturdan Türkiyənin Ermənistanı Aleksandropol sazişi imzalamağa məcbur etməsi, bu iki dövlətin sərhəd münasibətlərinin tənzimləməsinə şərait yaratdı.

15 mart 1920-ci ildə Rusiyadakı vətəndaş müharibəsi zamanı, mart ayında bolşeviklərin denikinçiləri məğlub etməsi Azərbaycan Cümhuriyyətini bir təcavüzdən xilas edib yenisi ilə baş-başa qoydu.

19 mart 1920-ci ildə bolşeviklərin təhriki ilə baş qaldıran erməni daşnak millətçiləri iki azərbaycanlı əsgəri qətlə yetirməklə Qarabağ problemini yenidən qabardaraq Azərbaycanın müstəqilliyinə növbəti bir təhlükə yaratdılar.

22 mart 1922-ci ildə gecə yarı iri dəstələrlə erməni çeteləri Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtər üzərinə hücuma keçdilər. Milli ordu təcavüzünün qarşısını almaq məqsədilə baş qərargah rəisi general-mayor H.Səlimovun rəhbərliyi altında olan bütün qüvvələrini bu istiqamətə səfərbər etdi. 26 martda Ağdamda yerləşən qərargahın gizli iclasında ermənilərin əsas iqamətgahı yerləşən Əsgəran istiqamətində kəşfiyyat aparılması qət edildikdən üç gün sonra geniş miqyaslı hücum başlandı. Qarqar çayının hər iki tərəfindən, Şelli və Xıdırlıdan başlanan döyüşdə orduya parlament mühafizəsi dəstəsi ilə yanaşı, yerli könüllülər də qoşuldu.

3 aprel 1920-ci ildə Zaqatala, Şirvan piyada və Tərtər süvari alaylarının da ruh yüksəkliyi ilə döyüşə girməsi cəmi üç gün ərzində qələbəni təmin edərək Qarabağı düşməndən təmizlədi. Aprelin sonunda sərhədlərimizdə pusquda durmuş XI Qızıl Ordu ilə əlaqələr quran Ermənistan hökumətinin və Qarabağ İnqilab Komitəsinin təşkil etdiyi yeni ixtişaşlar Azərbaycanın işğal olunması işində müdhiş rol oynadı. Qarabağı erməni-daşnak təhlükəsindən xilas etmək üçün vuruşan milli ordunun şimaldan gələn təcavüzün qarşısını almaq imkanı olmadı.

Qızıl Ordu Dağıstanı işğal etdikdən sonra iflic vəziyyətinə düşən Yusifbəyov kabinetinin fəaliyyətsizliyi, partiyalararası konfransda rus oriyentasiyasına keçmək tələbini irəli sürən, bununla da yeni hakimiyyət təşkil etmək hüququ qazanan Hacınskinin yarımməxfi danışıqlarda silahlı müdaxiləyə və daxili qiyama hazır olan bolşevikləri koalisiyalı hökumətdə iştirak etməyə çağırması müsavatçıların dövlət strategiyasının tərkib hissəsi idi. Parlamentdə Hacınskiyə Xoyskinin və digərlərinin müqaviməti isə bəlkə də bu prosesə gerçəklik çalarları vermək məqsədi daşıyırdı.

Şübhəsiz ki, növbəti məqamlarda kabinet yaratmağı ləngitməklə dövləti hökumətsiz qoyaraq əhalini ümidsizliyə düçar edən baş nazir Hacınskinin 22 aprel

1920-ci ildə parlamentdə hakimiyyət təşkil edə bilmədiyini elan etməsi hadisələri yeni məcraya yönəldir.

Tədqiqatçı M.Süleymanov yazır ki: "1920-ci il aprelin 27-də bolşevik qüvvələrinin Azərbaycan sərhədlərini pozması xəbəri alınan kimi hərbi nazir S.Mehmandarov 1-ci piyada diviziyasının komandiri, general-mayor Ə.Şıxlinskiyə teleqram göndərib şimal sərhəddinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: "Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarını artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqrafla bildirin. Biz taborları sabah gözləyirik." S.Mehmandarov bu əmrilə şimalın müdafiəsi üçün köməyi Qarabağdan deyil, Gəncə və Qazaxdan göndərməyi tələb edirdi. Vəziyyətin reallıqla qiymətləndirilməsi göstərir ki, Qarabağda olan qüvvələrin şimala gətirilməsilə çox böyük zərbə qüvvəsinə malik olan XI Ordunun qarşısını almaq elə də asan olmazdı." (80.səh.355).

27 aprel 1920-ci ildə Stalin Leninə göndərdiyi məktubda "Bakının zəbt edilməsi faktını Azərbaycanın müstəqilliyi kimi təqdim etmək" məsləhətini vermişdi. 2 mayda Q.K.Orconikidze ilə S.M.Kirovun V.İ.Leninə göndərdikləri teleqramda isə Azərbaycana ünvanlanmış təbrikdə ümumi şəkildə "müstəqilliyin" tanınmasına işarə edilməsini və Qafqazın idarəçiliyi üçün özlərinə təcili olaraq radio vasitəsilə Xalq Komissarları Soveti səlahiyyəti almaqla yanaşı, Nərimanovu neytrallaşdırmağı da məsləhət görürdülər. Elə həmin gündə N.Nərimanov Azərbaycan Müvəqqəti Hərbi İnqilabi Komitəsinin sədri seçilir.

Moskvadan Nəriman Nərimanovun Azərbaycan hökumət başçılarına "haqq-hesab çəkmək zamanı yaxınlaşır" xəbərdarlığı, hakimiyyət böhranını daha da kəskinləşdirmişdi.

"Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 27 aprel 1920-ci il tarixli 145 saylı sonuncu iclasında gözlənilmədən iki nəfər silahlı ilə salona daxil olan çərkəzi geyimli, tapancalı, xəncərli Həmid Sultanovun gətirdiyi "Azərbaycan İnqilab Komitəsi parlamanı buraxıb Müsavat hökumətinin dərhal inqilabi komitəyə təslim olmasını tələb edir" yazılı ultimatumu çaşqınlıq yaradır.

M.Ə.Rəsulzadənin: "Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə Parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək" (11.səh.972) sözləri vəziyyətin nə qədər gərgin olması barədə təsəvvür yaradır. Səs çoxluğu ilə iclasın açıq keçirilməsi qərara alındıqdan sonra digər partiyalarla müzakirə aparan komissiyanın sədri kimi

parlamentə izahat verən Məhəmməd Həsən Hacınskinin artıq hamının məzmununu bildiyi "Azərbaycan kommunist"lərindən gələn rusca məktubu təkrarən oxuması və tərcümə etməsi vəziyyəti dəqiqləşdirir. "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onlaın şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya gəlməyəcək və Qızıl Ordunun Bakıya gəlməsi üçün onlar əllərindən gələni edəcəklər. Onlar deyirlər ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qızıl Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilməlidir. Nə kimi məmurlar varsa, hamı öz yerlərində qalacaqlar. Yalnız hökumət başında olanlar kənar edilib yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada kimsə yoxdur. Altıncı şərtləri budur: əgər bu gecə bu məsələ həll olunsa, onlar bir deklarasiya çıxarırlar ki, Azərbaycan Parlamentinə daxil olan siyasi firqələr musavi (bərabər) və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar. Sonra gələn Qızıl Ordunun məqsədləri məzlum millətə yardım etməkdir. Bir tərəfdən də bir neçə təklif verildi. Lakin onlar qəbul etmədilər. Onlar bir şeyi də söylədilər ki, hərgah onların təklifi qəbul olunmasa gələcəkdə məsuliyyət parlament üzvlərinin üzərinə düşəcək. Onların təklifi onlarla birlikdə müzakirədən sonra, komissiya üzvləri tərəfindən də müzakirə olundu. Biz də qərara gəldik ki, o şərtlər ki, onlar qoyur və deklarasiyanın özü komissiya tərəfindən qəbul edilə bilər. Biz onlara etiraz edən deyilik və bizim də məqsədimiz budur. O ki qaldı dedikləri sözlərin doğru olub-olmamasına, bunu onların görəcəyi iş göstərir və bunun məsuliyyəti də həmin təklifi verən firqənin üzərinə düşür. Əgər bu gün onlar millətimizin və kəndlilərimizin lazım olduğu qədər hazır olmadıqlarından dolayı, müşkül bir müdafiə vəziyyətində qalarlarsa, biz öz məsuliyyətimizdən heç vaxt boyun qaçırmayacağıq.

Zənn edirəm ki, başqa firqələr də millətin müqəddəratını bizlə bərabər həll etməlidirlər və bunu onlar da inkar etməzlər. Boynumuza almalıyıq ki, bu gün sərhəddə lazımi qədər düşmənə qarşı mütəşəkkil müdafiəyə hazır deyilik. Hökumətin laqeydliyi nəticəsində Qarabağ dağlarından Yalamayadək sərhəd açıq buraxılmışdır. Bununla belə ictimaiyyətin fikrilə də razılaşmalıyıq ki, Şimaldan heç bir qorxu yoxdur və orada yaşayanlar da Azərbaycan kəndliləri kimi kəndlilərdir və azərbaycanlı kəndlilərinin razılığı və istəyi olmasa, heç kəs Azərbaycana soxula bilməz.

Cənablar, bu firqə münaqişələri sonu görünməyən mübahisələrə çevrilib. Lakin deyirlər ki, belə bir fikirlərlə xalqımızın əksəriyyətinin etimadını qazanmaq olar və onların vəzifələri Azərbaycandan keçib Türkiyəni zalım imperialistlərdən xilas etməkdir. Əgər məqsəd budursa, şimaldan gələn qüvvələrin təzyiqi altında

hökuməti təslim etməyə nə ehtiyac var? Bir halda ki, türklərin imperializm əsarətindən azad olmasına hamı və o cümlədən, biz də sevinirik.

Bu fikrə qarşı cümhuriyyət daxilində zidd çıxan olmaz. Əslində Türkiyəyə və Zəngəzura kömək etmək istəyirlərsə ictimaiyyət arasında elə bir fikir yaratmalıdırlar ki, bu qüvvələr Azərbaycana yalnız onun ərazisindən keçib Türkiyəyə getmək üçün daxil olurlar.

Fəqət, millətin müqəddəratını bir firqəyə, hətta təzyiq altında belə vermək olmaz. Zira, hər kəs, o cümlədən, kommunist firqəsi də tamamilə əmin ola bilər ki, parlament vasitəsilə yaxud başqa bir mütəşəkkil vasitə ilə öz fikirlərini deyə bilər və qəbuluna da nail ola bilərlər.

Əgər bu həyata keçirilərsə, Azərbaycan özünü azad hesab edə bilər.” (11.səh.972, 973,974).

M.Ə.Rəsulzadə: “Bizim fraksiyamız təslim olmağın əleyhinədir. Fəqət, firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızı arasına daxili müharibə salmamaq üçün, bundan əlavə, bugünkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq.” (11.səh.976).

Artıq işğalçı qoşunun təzyiqilə vəziyyətə nəzarət edə bilməyən parlamentdə sonuncu çıxışçılardan olan M.Hacınski tribunaya qalxaraq bolşeviklərlə danışıqlarda onların inqilabi hökumətinin parlamentlə birgə çalışmaq fikri olmadığı barədə: “Məsələ orasındadır ki, parlament öz ixtiyarını həmin inqilab komitəsinə verir.” sözləri ilə vəziyyəti aydınlaşdırır. Beləliklə də, proletar hakimiyyətinin üzvləri əsasən varlılardan ibarət olan parlamentlə sinfi ziddiyyətini bir daha açıqlamış olur. Bu ziddiyyət isə artıq özünün bütün eybəcərliyi ilə parlament salonuna daxil olmuşdu.

Əliheydər Qarayevin “proletar inqilabının əleyhinə gedənlərin güllləbaran ediləcəyi” barədə xəbərdarlığından sonra bir çox deputat salonu tərk etsə də, qarışıqlıq şəraitində belə fraksiyaların fəaliyyəti davam edir. Gecə yarıya qədər uzanan bu fövqəladə iclasda Əliheydər Qarayevin artıq işğalçılıq missiyasını yerinə yetirməyə başlamış Qırmızı Ordunu “dünya proletariatının xilaskarı” adlandırması Məhəmməd Əmin Rəsulzadəyə xoş gəlmir. Ona qəti cavab verən Məhəmməd Əminin “ilanın ağına da lənət qarasına da” - deyə hansı rəngə boyanmasından asılı olmayaraq rus ordusunun ağ və ya qırmızısının yalnız xalqları əsarətdə saxlayan işğalçılar olduğunu söyləməsi Əliheydər Qarayevi hiddətləndirir.

“Güllləbaran edərəm, gözlərini çıxardaram” - deyə ona hücum çəkən Əliheydər Qarayevə təmkinini pozmayan M.Rəsulzadə olduqca tutarlı cavab verir: “Siz millətin gözünü çıxarmısınız Qarayev Əliheydər, tovarişlər səni güllləbaran

edəndə məni və bu günü yada salarsan!.” Onun bu sözlərinə tədqiqatçı Manaf Süleymanovun reaksiyası maraqlıdır: “Bu kəlam əsl peyğəmbərlik idi. İllərin arxasından hadisəni görmək əsl peyğəmbərlikdir. Möcüzə!” (81.səh.160).

27 aprel 1920-ci ildə Ə.Topçubaşov Bakıda olmadığından parlament sədri vəzifəsini icra edən Məmməd Yusif Cəfərov hakimiyyətin müqavimət göstərilmədən bolşeviklərə təhvil verilməsi aktına imza atanlardan biri olur.

Özünün “Qaçqınlıq” hekayətində ADR parlamentinin son iclası haqqında Məhəmməd Əsəd bəy yazır: “Tamam çaşıb-qalmış parlamentdə həmin gecə nələrin baş verdiyini təsəvvür etmək çətin deyil. Hərbi nazir general Mehmandarov bildirdi ki, müqavimət haqqında düşünməyə belə dəyməz. Parlament kommunistlərin şərtlərini qəbul etməyə məcbur oldu. Tələm-tələsik təslimçilik aktı tərtib olundu ki, burada kommunistlər heç bir naziri, heç bir parlament üzvünü, yaxud neft maqnatını şəhərin zəbtindən sonra hansı yollasa qısnamayacaqlarını, əksinə, onlara ölkədən sərbəst çıxış imkanı verəcəklərini aydınca öhdələrinə götürdülər. Rusların verdikləri sözə necə əməl etmələri belə bir faktdan aydın olur ki, çevrilişdən artıq bir ay sonra Bakıda bir nəfər də olsun nazir sağ qalmamışdı, parlament üzvləri və neft maqnatlarından yalnız o şəxslər “ÇK”-nın zindanlarına düşmədilər ki, onlar neft mütəxəssisi kimi əvəzsiz idilər. Üst-üstə öncəki iki qan selindən daha çox insan həyatı bahasına başa gəlmiş qırmızı çevriliş belə baş verdi.” (51.səh.188).

27 aprel gecəsindən gizli fəaliyyətə başlayan “Müsavat”ın gördüyü əsaslı tədbirlərdən biri də Azərbaycanın gələcək taleyini idarə edəcək şəxslər arasında öz adamlarını yerləşdirmək idi ki, hadisələrin sonrakı gedişindən aydın olduğu kimi bu missiya M.Hacınskinin üzərinə düşdü. N.Yaqublunun yazdığı kimi: “Gizli müsavat”ın demək olar ki, bütün təşkilatlarda adamları vardı. “Gizli müsavat” “İstiqlal” adlı bir qəzet də çıxarırdı. 1923-cü ilin ortalarına qədər çıxan bu qəzetin 19 nömrəsi çapdan çıxmışdı. “Gizli müsavat” xalqın tarixi ilə bağlı önəmli günlərdə müxtəlif bəyannamələr çap edib yayırdı. (88.səh.153).

## KEÇMƏKEŞLİ SOVET DÖVRÜ

28 aprel 1920-ci ildə rus əsgərləri ilə dolu zirehli qatarların Yalamadan Azərbaycan sərhəddini keçib ölkənin içərilərinə daxil olması heç bir ciddi maneəyə rast gəlmədi. Tam sakitlik içində olan şəhərə doluşan ordu əsgərləri elə ilk andan qarətlə məşğul oldular. N.Nərimanov Bakıya gəlib çıxanadək Mikoyanın fitvası ilə Qızıl Ordunun törətdiyi talanlar barədə Məhəmməd Əsəd bəy belə yazır: “Evə girir, evin altını-üstünə çevirir və sadəcə olaraq, götürməli olan hər şeyi alıb gedirdilər. Aparmadıqları yalnız ev sahiblərinin əyin-başlarında olanlar, daha doğrusu üst və alt paltarları idi.... Oyadılmış proletarlar müsəlman evlərinin ən

müqəddəs guşəsinə, hərəmxanalara soxuldular. Müsəlman qadınlar soyunduruldu, üst-başları axtarıldı, yorğan və baş örtükləri götürüldü. Ən pisini bütün var-yoxları ucuz, lakin talançılara bahalı görünən, ipək yorğan-döşəkdən ibarət kasıb müsəlman ailələri öz üzərlərində hiss etməli oldular. Bütün ailə bu yorğan-döşəkdə yatır. O, bir növ evliliyin və qadın namusunun simvolu sayılır. İndi o, proletariat tərəfindən dünya inqilabının məqsədləri üçün oğurlandı." (51.səh.191).

29 aprel 1920-ci ildən Əliheydər Qarayevin başçılıq etdiyi Bakı İnqilab Komitəsi Azərbaycan Respublikası adından RSFSR-ə müraciət edib ittifaq bağlamağı təklif edir. Bakı İnqilab Komitəsi nəzdindəki şəhər və qəza şöbələri digər sahələr kimi neft sənayesi müəssisələrinin də ümumxalq mülkiyyəti elan edildi. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi Rusiyaya tabe olub tamamilə muxtar qurum kimi fəaliyyət göstərən, Moskvadan göndərilmiş Serebrovskinin rəhbərlik etdiyi "Azneftkom" idarəsinə həvalə olunur.

8 may 1920-ci ildə Birinci Azərbaycan Sovetlər qurultayında artıq özünün kənarda qaldığını hiss edən N.Nərimanov hakimiyyəti zorakılıqla ələ keçirən bolşeviklərin sui-istifadə halları barədə susa bilmirdi.

1920-ci ilin mayında Azərbaycan Müvəqqəti Hərbi İnqilab Komitəsinin sədri təyin edilən N.Nərimanov ziyalıların repressiyadan xilası naminə cəhdlər göstərsə də, Bakı Partiya Komitəsindəki Mikoyanlar, Sarkisyanlar, Mirzoyanlar addımbaşı ona bu işdə mane olurdular.

9 may 1920-ci ildə Leninin teleqramı RSFSR-in Azərbaycanı rəsmi olaraq tanınması kimi qəbul olunub həmin gün təmtəraqla bayram elan edilsə də, respublikanın müstəqilliyinin şərtiliyi elə ilk günlərdən özünü biruzə verdi. Sonrakı həftə ərzində Naxçıvan istisna olmaqla bütün Azərbaycan ərazisində zorakılıqla sovet hakimiyyəti quruldu.

Məhz bu zorakılıq nəticəsində ADR-in qaçıb canlarını qurtara bilməmiş hakimiyyət üzvləri ilə yanaşı, siyasi, iqtisadi, mədəni liderlərin əksəriyyəti, müxtəlif partiyaların rəhbər və sıravi üzvləri, milli ordunun zabitləri kütləvi həbs olunub Nargin adasında güllələndilər, bir qismi isə Rusiyanın şimalındakı həbs düşərgələrinə göndərildi.

Ertəsi gündən başlayaraq parlament və hökumət üzvlərindən bir çoxu qatarla Tiflisə, gəmi ilə Ənzəliyə yola düşsələr də, Hacınskinin ərizə yazıb bolşevik partiyasına daxil olması bir çoxlarını hiddətləndirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra İrana, Türkiyəyə və Avropaya üz tutan siyasi mühacirlər xırda qruplar halında cəmləşsələr də, onları idarə edəcək siyasi mərkəzdən məhrum idilər.

Azərbaycan Demokratik Respublikasının ilk əks kəşfiyyat idarəsinin rəisi Məhəmməd Bağır bəy Şeyxzamanlını (1880-1920) bu vəzifədə əvəz etmiş onun kiçik qardaşı Nağı bəy Şeyxzamanlı-Keykurunun (1883-1967) "Azərbaycan

istiqlal mücadiləsi xatirələri" kitabındakı Azərbaycan Cümhuriyyətinin süqutunun səbəbləri bölməsində oxuyuruq: "Hökumətimizin daxilində çox məşum rol oynamış Məhəmməd Həsən Hacınski gizli olaraq Moskva agentləriylə sözləşmiş, hökumətimizin və xalqımızın əleyhinə çalışmışdır. Moskvanın göstərişi ilə hərəkət etmişdir. Əsl xəyanətkar olan bu bədbəxt xainin hərəkəti pula tamahı olmayıb alçaqlığından irəli gəlmişdir." (83.səh.100). Əks kəşfiyyat idarəsinin rəisi kimi ciddi bir vəzifə tutmuş şəxs tərəfindən, istiqlal tariximizdə müstəsna rol oynamış Məhəmməd Həsən Hacınskiyə qarşı irəli sürülən bu ağır ittihamın əsas səbəbi yalnız Nağı bəyin informasiyasızlığı olmuşdur.

Onun kitabında hörmətlə adı çəkilən, "Qafqaz general-qubernatorunun icazəsi ilə Bakıda qəzet çıxaran, xalqın xüsusi ilə də, ziyalıların sevgisini qazanmış və milli Azərbaycan işləri ilə məşğul olan Ağaoğlu Əhməd bəy Ağayev"in Gəncəyə gəlişi, məscidə toplaşan xalq qarşısında çıxışı təfərrüatı ilə xatırlanır. "Türklərlə ermənilər arasında baş verən qırğından mütəəssir olan Əhməd bəyin: "Nə müsəlmanlıq, nə də insanlıq bu vəhşi hərəkətlə razı olmaz. Bu hadisə niyə baş verdi, nə üçün oldu, səbəbkarı kimdir deyə tədqiqat və münaqişəyə başlasaq, heç bir nəticə əldə etməyəcəyik. Türklər və ermənilər olub keçənləri unutmalıdırlar. Bilməlidirlər ki, yer üzündə Allahın yaratdığı yırtıcı heyvan varsa başqa heyvanları parçalayarlar, ancaq həmcinslərinə əsla toxunmazlar. Çox acıdır ki, vəhşi heyvanların etmədiklərini insanlar edirlər, bir-birlərinə atılırlar. Unutmamalıyıq ki, rus idarəsindən əsrlərcə əvvəl Qafqazda türklərlə ermənilər dost və yaxşı qonşu olaraq yaşamışlar. Tarixdə bu xoşagəlməz hadisəyə bənzər heç bir hadisə baş verməmişdir." (82.səh.19) sözləri görkəmli ziyalımızın humanist dünyagörüşünü nümayiş etdirir. Cümhuriyyət dövrü demokratiyasının yaratdığı informasiya şəffaflığı, milli romantizm cərəyanının nəzəri əsasını qoymuş ədəbiyyatşünas, filosof Əhməd bəy Ağaoğlunun digər xidmətlərini də təsdiq edir. Nağı bəyin xatirələrindəki "Difai firqəsinin doğum səbəbləri" bölməsində hələ 1905-ci ildə Ə.Ağaoğlunun milli qırğına qarşı yaratdığı "Difai" təşkilatının gördüyü işlərdən ətratlı söhbət açılsa da, müəllifin onun rəhbərləri barədə müfəssəl məlumatı olmadığı üzə çıxır.

Əslində həmin dövrdə ölkəyə soxulmuş bolşeviklərin öz hakimiyyətlərini bərqərar etməsinə mane olan amillərdən biri cəza mexanizmini həyata keçirən "ÇK" adlanan fövqəladə komissiyanın tam gücü ilə işləyə bilməməsi, Moskva ilə müntəzəm əlaqənin olmaması və nəhayət, yerli kommunistlərin çaşqınlığıyla bağlı idi. Belə bir vəziyyətdə zorakı bolşevik hakimiyyətindən azad olmaq imkanı olduğundan ölkənin bütün iri yaşayış məntəqələrində üsyanlar tüğyan edirdi. Yalnız Bakı, Gəncə və Qarabağdakı ayrı-ayrı erməni qruplaşmaları yeni iqtidar sahibləri ilə canla-başla əməkdaşlıq edərək torpaq iddialarıyla bağlı mənfur niyyətlərini həyata keçirmək üçün əlverişli məqam gözləyirdilər. Əyalətlə əlaqəsi

kəsilmiş Bakıda tezliklə aclıq hökm sürməyə başladı. Cır-cındır içində olan Qızıl Ordu əsgərləri tərəfindən silinib süpürülmüş dükan-bazarlar boş qaldığından cüzi miqdarda belə qida məhsulu almaq mümkünsüz olmuşdu. Bir tərəfdən işğalçı əsgərlərin qurduğu postlar şəhərə ərzaq məhsullarının gətirilməsinə mane olur, digər tərəfdən isə kənd əhalisi naməlum vəziyyətə düşmüş şəhərə məhsul gətirməkdən imtina edirdi.

Əhali arasında kütləvi repressiyalar baş alıb gedirdi. Məhəmməd Əsəd bəy “Qaçqınlıq” sənədli hekayəsinin “Çevriliş” bölməsində yazır: “Əsirləri xırda gəmilərdə açıq dənizdə aparırdılar ki, burada da qayalı xırda Nargin adasına rəsmi “ÇK” yerləşdirilmişdi. Həqiqətdə isə əsirləri adaya çatmamış gəmidə güllələyirdilər və boğazlarına yük bağlayıb göyərtədən qırağa atırdılar. Nə yaxınlarının, nə də bir başqasının onların taleyindən xəbər tutmağa ixtiyarı yox idi. Hətta Azərbaycan Sovet hökumətinin də, çox vaxt tutulanlardan kimin başının əkildiyindən xəbəri olmurdu. Minlərlə insan bu yolla həyatlarını kayb etdilər. Özünün planlı qəddarlığında və dövlətüst gücündə “ÇK”-nın əməlləri mənə müqəddəs inkvizisiya haqqında oxuduqlarımı xatırladırdı. İnsanlar izsiz-tozsuz yoxa çıxırdılar, hətta ən yaxın qohumları da, onların taleyindən soraq tutmağa cürət etmirdi. Amma kim buna çalışırdısa, ona dustaqla Nargində görüş vəd edilirdi; onu gəmiyə mindirirdilər və o, ömürlük itkin düşürdü, yəni adaya çatar-çatmaz göyərtədən qırağa atılırdı.” (51.səh.189).

“ÇK”-nın gecə-gündüz fəaliyyət göstərdiyi bir dövrdə Rusiyada, eləcə də əyalətlərdə dəhşətli aclıq və ehtiyac hissi hakim kəsilmişdi. Minlərlə insan həbs edilərək güllələnirdi. Stalin haqqında yazdığı kitabında Məhəmməd Əsəd bəy qeyd edir: “Həmin dövrdə “İzvestiya” qəzetində Lenin qısa qeydlə çıxış edir: “Hər gün mənə və həyat yoldaşıma əfv haqqında kütləvi xahişlər gəlir. Bunların hamısı faydasızdır.” (108.səh.280). “ÇK”-nın amansız siyasəti nəticəsində aclıqdan müxtəlif tullantılar, hətta insan cəsədlərilə qidalanan yüzlərlə ailə Türküstan və Sibirə üz tutur.

Şura hökumətinə qarşı Azərbaycanın bütün əyalətlərində meydana çıxan müqavimət hərəkatı sistemli olmadığından səmərəli nəticə vermirdi. May ayında bütöv Qarabağı bürüyən üsyanlar Nuru paşanın qayıdışı ilə daha da güclənmişdi. Tədqiqatçı Xaləddin İbrahimlinin göstərdiyi kimi: “İyunun 3-dən 4-ə keçən gecə Nuru paşa öz hərbi birlikləri ilə Şuşaya girərək inqilabi komitənin üzvlərini və fəal kommunistləri həbsə alıb özünü “Qarabağın hakimi” elan etmişdi.” (37.səh.44). Görünməmiş amansızlıqla yaşayış məntəqələrini təyyarələrdən də bombalayan Qırmızı Ordu 10-14 iyunda Bərdəni, Tərtəri və Ağdamı yenidən ələ keçirdi.

15 iyun 1920-ci ildə XI ordu Şuşanı tutduqdan sonra min iki yüz əsgərlə İrana keçən Nuru paşanın dəstəsinin sonrakı taleyi barədə tədqiqatçı Xaləddin İbrahimli yazır: “İrana keçən əsgərlər heç kimdən və heç yerdən kömək

görmədiyindən, əllərindəki silahı sataraq Türkiyəyə keçib M.Kamal Paşanın müzəffər ordularına qoşuldu. Əsgərlərin bir hissəsinin yollarda tifdən qırılmaları barədə də məlumatlar mövcuddur.” (37.səh.46).

Bolşevik qırmızı terroru hakimiyyətdə olmuş müsavat rəhbərlərinin Türk-ədəmi mərkəziyyət partiyasından gələn milli şüura malik, savadlı bəy-xan zümrəsini erməni daşnaklarının əlilə hədəfə götürürdü. 19 iyun 1920-ci ildə Tiflisdə Azərbaycan dövlətçiliyinin ən humanist, həmçinin, bütün qanun pozuntularını yalnız məhkəmə yolu ilə həll edilməsini vacib sayan liderlərindən Fətəli Xan Xoyski ilə Xəlil bəy Xasməmmədov erməni terrorçularının hücumuna məruz qalırlar. F.Xoyski həlak olsa da, X.Xasməmmədov boynundakı gülləni 1946-cı ilə qədər gəzdirir. Fətəli xanın ölümündən bir ay sonra Həsən bəy Ağayev daşnakların qurbanı olur. Məslək dostlarının gəldikləri ümumi qərara əsasən hər iki demokratiya qurbanı - Həsən bəylə Fətəli xan onların ideya rəhbəri M.F.Axundovun məzarının ayaq hissəsində dəfn edilirlər. Sonrakı mərhələdə Nəsib bəy Yusifbəyov Ceyrançöldəki Quruçay dərəsində öldürülür. Hökumət üzvlərindən İ.Ziyadxanov, X.Rəfibəyov və görkəmli pedaqoq F.Köçərli daşnak terrorçularının hədəfinə tuş gəlirlər.

11 iyul 1920-ci ildə Naxçıvana hücum edən, təpədən dırnağa qədər silahlanmış erməni qoşunları may ayından bu ərazinin müdafiəsinə cəlb olunmuş general Veysəl bəy Nüvarın rəhbərlik etdiyi azsaylı Türkiyə hərbi hissələri ilə üz-üzə gəlib pərən-pərən düşdülər. Əsas hədəfdən yayındırılan erməni daşnak ordusu Dərələyəz və Zəngəzur bölgələrinin əhalisini qırıb kəndləri viranəyə çevirərək Naxçıvanın Azərbaycanla əlaqəsini kəsməyə cəhd göstərirdi.

Gəncə qiyamının iştirakçısı olmuş Məhəmməd Əsəd bəy “Qaçqınlıq” sənədli hekayəsinin “Gəncədə” bölməsində yazır: “Bütün bəyanatlar sona çatandan sonra biz şərq arxayınçılığı ilə Bakı yürüşünə hazırlaşmağa başladıq. Ordumuz bir neçə yüz atlıdan və pis silahlanmış kəndlilərdən ibarət idi. Bununla belə paytaxtın tutulması bizə mümkünsüz görünmürdü. Amma yürüş başlayana qədər xəbər tutduq ki, iyirmi minlik bolşevik ordusu Gəncəyə yaxınlaşır. Şəhər və bütün Gəncəbasar ruslar tərəfindən mühasirəyə alınmış və ölkədən təcrid edilmişdi. Mühasirə saatbasaat daralırdı və buradan qıraqda baş verənlər bizə bəlli deyildi. Yalnız sonralar öyrəndik ki, hər yanda buna bənzər qiyamlar qalxıb, lakin qırmızıların mühasirə sistemi sayəsində, bu da hər halda yüz min adam tələb edirdi, bir-birindən təcrid edilmiş şəkildə saxlanılıb boğulmuşdur. Demək olar, hər şəhərdə qiyam qalxmışdı. Bütün ölkə od tutub yanırdı, fəqət, bütün bunların hamısı ümumazərbaycan qırğını ilə başa çatdı ki, “ÇK” da bu yolla öz qələbəsini bayram etdi.” (51.səh.196).

4 iyul 1921-ci ildə RK(b)PMK Qafqaz bürosunun plenumunda Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi həll olunsa da, cəmisi iki nəfərlə

azlıqda qalan N.Nərimanov həmin gecə Leninlə əlaqə saxlayaraq bu işin yolverilməzliyini tutarlı dəlillərlə sübut etməklə məsələni müsbət həll edə bilir.

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra bir müddət eyforiyyada olsa da, yeni ideologiyanın iç üzünü tədricən dərk edən Nəriman Nərimanovun V.İ.Leninə çoxsaylı teleqramları və nəhayət, 1920-ci ilin yayında yazdığı məktubu onun daxilində gedən təbəddülatlardan xəbər verirdi.

Bolşevizmin rəhbərinə "Əziz Vladimir İliç!" deyə müraciət edən Nərimanov, bir daha vəziyyətin dəhşətli olduğunu önə çəkərək mərkəzin Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini daşnakların təhriki ilə Ermənistana verməsinə qarşı çıxaraq, bu məsələni "düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhv" adlandırır. Azərbaycanın müstəqilliyinin əldən getdiyinə acı təəssüf hissi keçirərək rəhbərin unudulmaqda olan sözlərini ona xatırladır: "Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" fikri Sizin dilinizdən çıxmamışdırmı? Axı məhz buna əsaslanaraq biz "Müsavat"ın qurduğu fitnəkarlığı məhv edə bildik... İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də, Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir." (66.səh.62). Real vəziyyəti rəhbərə çatdırdıqdan sonra arxasında bolşevizm ideyasına inamını itirməkdə olan, ictimai şüuru formalaşmağa başlayan yerli əhalinin dayandığı Nərimanov ona vəziyyətin ciddiliyi barədə xəbərdarlıq etməyi də lazım bilir: "Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs bütün Azərbaycanın kəndliləri? Mən qəti surətdə bildirirəm: əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə Mərkəz qarşısında məsələ qaldıraq!" (66.səh.62-63). Əslində Nərimanovun Leninə ünvanladığı bu qəti xəbərdarlıq, hərbi-siyasi uğurlarından başgicəllənməsi keçirən bolşevizmin öz ideyalarını Şərqə tətbiq etmək niyyətinin xülya olmasını kəskin şəkildə qoyaraq artıq bu əraziyə üz tutmağın mənasızlığını "Belə olan halda Şərqə necə gedəcəyik? Yeganə ümidimiz, inqilabımızı Şərqdə siyasətlə müdafiə etmək istəyimiz də alt-üst oldu. Və bütün bunların müqəssiri kimdir? Birinci Mərkəzin xəbərsizliyi və ikinci Mərkəzdə oturmuş erməni daşnak-kommunistlərinin iyrənc işi." (66.səh.63) - deyə önə çəkirdi. Məktubun sonunda bolşevizmin Şərq siyasətinin iflasa uğradığını: "Əgər qısa bir müddətdə Mərkəz daşnak-kommunistlərin bütün bu murdar hərəkətlərinə son qoymaq iqtidarında olmasa, bütün müsəlman Şərqi bizdən üz döndərəcəkdir. Mən bu barədə Sizə ciddi surətdə bildirirəm və əgər Şərq məzlumlarının mənafeyi həqiqətən bizə əzizdirsə, Sizin də

bu məsələyə ciddi yanaşmağınızı xahiş edirəm. (66.səh.63) sözləri ilə göstərən Nərimanovda özünü batmış gəmidə hiss edən sərnişin əhvali-ruhiyyəsi duyulur. (66. səh.63).

1 avqust 1920-ci ildə N.Nərimanov Leninə göndərdiyi məktubda Mehmandarov və Şıxlinski kimi məşhur generalları xilas etməyə çalışırdı. O, bu generalların hərbi mütəxəssis kimi əvəzsiz olduqlarını qeyd edərək onların baş qərargahda işlə təmin olunmalarını tövsiyyə edir, Şıxlinskinin Nikolay ordusunda "artilleriya allahı" adlandırıldığını xatırladırdı. Polşa cəbhəsi sakitləşənə qədər Nərimanov onların Moskvada qalmalarını, sonradan geriyə dönərək hərbi qüvvələrin yaradılmasında iştiraklarını zəruri sayaraq sonda generalların siyasi fikirlərini: "Onlar müsavatçılara nifrət edirlər, əmindirlər ki, Azərbaycan Sovet Rusiyasız mövcud ola bilməz, İngiltərəyə nifrət edir, Rusiyanı sevirlər." (111.səh.31) sözlərilə izah edərək məktubu kommunist salamı ilə bitirirdi.

Tədqiqatçı M.Süleymanov isə hər iki generalın heç zaman sovet rejiminə loyal münasibətdə olmadıqlarını qeyd edərək S.Mehmandarov haqqında yazır: "Səməd bəy qalan bütün ömrü boyu çox böyük sınaqlarla rastlaşsa da, əqidəcə heç vaxt kommunist olmamış və kommunist ideyalarına da meyl göstərməmişdi. Zabit bütövlüyü, insani prinsipiallığı onun ən başlıca əqidəsi idi." (80.səh.362).

19 oktyabr 1921-ci ildə Leninə göndərdiyi məktubda N.Nərimanov Şollar su kəmərinin yerli əhalinin işlək su tələbatının ödənilməsində deyil, neft sənayesində müstəsna əhəmiyyətini vurğulayaraq rəhbərdən nasos və digər avadanlıqların alınması üçün icazə istəyir. 17 noyabr 1921-ci ildə isə Leninə ünvanladığı məktubda Nərimanov hələ çar hakimiyyəti dövründə yüksək vəzifə tutmuş, sonradan bolşeviklərin təchizat sistemilə məşğul olmuş L.B.Krasinin teleqramına əsasən rəhbərdən Bakı su kəməri üçün üç dizel-nasosun alınmasından ötrü otuz min qızıl manatın Berlinə köçürülməsini xahiş edir. Sonda isə müəllif "Bu maşın və hissələr olmadan Bakının su təchizatı təmin edilə bilməyəcək və beləliklə, neft çıxarma işi dayanacaq." (111.səh.42) yazmaqla məktubunu bitirirdi. Bu avadanlıqlar ilin sonunda Bakıya gəlib çıxdı və onların tətbiqi işinə Hacınski rəhbərlik etməyə başladı.

1 sentyabr 1920-ci ildən Bakıdakı Dövlət Opera Teatrı binasında V.İ.Leninin təşəbbüsü ilə keçirilən Şərq xalqlarının birinci qurultayında otuz yeddi millətin min səkkiz yüz nümayəndəsi və o cümlədən, Türkiyədən Mustafa Sübhi, İrandan Heydərxan Əmiroğlu, İngiltərədən Harri Kvelç, Macarıstandan Bela Kun, ABŞ-dan Con Rid kimi beynəlxalq miqyasda tanınmış inqilabçılar da iştirak edirdi. Türkiyədən nümayəndə kimi gəlmiş Əli bəy Hüseynzadə də bu qurultayda idi. Tədbiri açan N.Nərimanov burada iştirak edən 38 xalqın 2000-dən artıq nümayəndəsini salamlayır.

8 sentyabr 1920-ci ildə Şərq xalqlarının birinci qurultayının son iclasında N.Nərimanovun inqilabi fəaliyyətlərindən və faciəli ölümlərindən söz açdığı 26 Bakı komissarının cəsədlərinin artıq Ağcaqum səhrasından Bakıya gələcəklərini, sabah Petrovski meydanında dəfn olunacaqlarını və onlara abidə qoyulacağını bildirməsi yeni ideologiyanın növbəti karnavalı idi.

30 sentyabr 1920-ci ildə N.Nərimanov bölgələrə 15 günlük səfər edərək yerlərdə yeni hakimiyyətin siyasətinin təbliğinə başlayır. Həmin ilin 29 noyabrında isə Ermənistanda sovet hökuməti qurulduqdan dərhal sonra mərkəzi hakimiyyətə və Bakıda əhatə olunduğu bolşevik cildinə girmiş daşnaklara təsir mexanizmindən məhrum olan N.Nərimanov Zəngəzur kimi tarixi ərazimizin itirilməsinə qarşı çıxa bilmir. 2 dekabr 1920-ci ildə imzaladığı bəyannamədə "Sovet Azərbaycanı öz hədsiz sərvətlərindən: neft və Sovet Azərbaycanının başqa məhsullarından istifadə etmək üçün öz qapılarını Sovet Ermənistanının üzünə geniş açır." (164.səh.85) sözlərini deyən N.Nərimanovun vəziyyətlə barışmaqdan başqa çarəsi qalmır. Beləliklə, Zəngəzurun Ermənistana birləşdirilməsilə Azərbaycan Naxçıvanla birbaşa əlaqəsini itirir.

5 fevral 1921-ci ildə Nərimanovun MK AKP-nin plenum iclasındakı çıxışı zamanı Qarayevin Qarabağda vəziyyətin gərginləşməsilə bağlı göndərdiyi teleqrama əsasən söylədiyi "Yoldaşlar, gördüyünüz kimi orada vəziyyətimiz bir o qədər də yaxşı deyil. Bütün inqilabi komitələr demək olar ki, məhv edilmişdir, 1200 erməni kommunisti isə bizim onlara verdiyimiz tüfəng və patronlarla birgə daşnakların tərəfinə keçmişdir. Yalnız 150 nəfər qalır ki, onlara da ümid çox azdır" (111.səh.427) sözləri əsl məqsədlərini həyata keçirməyə çalışan daşnakların yalançı bolşevizmini ifşa edirdi.

26 may 1921-ci ildə keçirilən birinci Ümumazərbaycan sovetlər qurultayının qərarına əsasən N.Nərimanovun V.İ.Leninə göndərdiyi sovetləşmə dövründə RSFSR-ə sürgün edilən həbs düşərgələrində və həbsxanalardakı bütün azərbaycanlıların azad olunaraq geriyə qaytarılması haqqında məktubu heç bir səmərəli nəticə vermədi.

1921-ci ildə Rusiyanı bürüyən aclıq Azərbaycana da sirayət etdikdə N.Nərimanov kəndlilər arasında "Çanaq" ərzaq toplantısını həyata keçirdi.

1922-ci ilin dekabrında təşkil olunmuş SSRİ MİK-nın dörd sədrindən biri seçilən Nərimanov hakimiyyət pilləsində yüksəyə qalxsa da, ruhən ona yad insanların əhatəsində qaldı.

28 yanvar 1925-ci ildə artıq Moskvada həyatının son dövrünü yaşayan N.Nərimanovun atasının adını qoyduğu 6 yaşlı oğlu Nəcəfə ünvanladığı bitməmiş məktubu onun daxili sarsıntıları ilə yanaşı, həyat mövqeyini və mənəvi idealını da təqdim edir. Bütün varlığı ilə istismarın və köləliyin əleyhinə olan N.Nərimanovun: "Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə kölələlikdən azad

olması yollarını axtarırdım. Mən sosial-demokrat idim, lakin bu təşkilat getdikcə daha çox idealdan uzaqlaşır.

Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın; dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm.” (111.səh.66) fikirləri daxilən azad olan maarifçi-demokratın səmimi etirafıdır. O, artıq həmin dövrdə əldə etdiyi hakimiyyəti möhkəmlətməklə məşğul olan Stalini nəzərdə tutaraq “Hakimiyyət çoxlarını korlayır. Belə də oldu; hakimiyyət bir çox görkəmli işçiləri korladı. Onlar nəhəng bir dövlətin müqəddəratını öz əllərinə almaq və diktator olmaq qərarına gəldilər...” deməklə mühitdə cərəyan edən hadisələrin dəqiq diaqnozunu qoyur. N.Nərimanova doğru uzanan qara əllərin və ətrafında yaranaraq ona qarşı yönələn zorakılıq həlqəsinin gündən-günə daraldığını məktubun bu məqamı daha qabarıq ifadə edir: “İndi mən bu sətirləri sənə yazarkən iş o yerə çatıb ki, Lenindən sonra özlərini onun qanuni varisləri adlandıranların dövləti idarə etməyi bacarmamaları nəticəsində əmələ gəlmiş böyük nöqsanlarımız barədə kommunistlər öz aralarında belə danışa bilmirlər.” (111.səh.66).

Şübhəsiz ki, ADR-in iflasında rolu az olmayan xarici faktorların bir neçəsi də, Türkiyənin vəziyyəti ilə bağlı idi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq təsərrüfatı sahəsində çalışan M.Hacınski 1922-ci ildə çap olunmuş “Hophopnamə”də verilmiş fotodan göründüyü kimi Mirzə Ələkbər Sabirin abidəsinin tikintisinə də rəhbərlik etmişdir.

1923-ci ildə Zaqafqaziya Dövlət Plan komitəsi sədrinin birinci müavini təyin olunan M.Hacınski Azərbaycanda sənaye şəhərlərinin salınması barədə layihələrin müəllifi olmaqla yanaşı, öz məqalə və çıxışlarında xüsusən Daşkəsənin iqtisadi inkişafını önə çəkirdi.

18 fevral 1922-ci ildə mərkəzi idarəçiliyi tələb edən Leninin bir neçə ay əvvəl etdiyi təklif ilə Zaqafqaziya partiya təşkilatlarının I qurultayı Zaqfederasiyanın yaradılması məsələsini qəbul edib Q.K.Orconikidzeni yeni yaradılmış Ölkə Komitəsinin sədri  seçdi.

12 mart 1922-ci ildə təşkil olunan Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı Şurasının rəyasət heyətində N.Nərimanovun A.A.Bekzadyan və P.K.Mdivani ilə birlikdə ittifaq şurası sədrləri seçilmələri uzun sürmədi.

8 may 1922-ci ildə Bakıdakı Aşağı Məzarlıq küçəsindəki mənzilindən yalnız oyma naxışlı, gümüş şamdanlı fortopianonu götürüb Tiflisə köçən M.Hacınskilər ailəsi orada Maçabeli küçəsində məskunlaşırlar. 1 noyabr 1924-cü ilədək Zaqafqaziya Xalq Komissarlığının Xarici ticarət komissarının, 10 oktyabr 1927-ci ildən Dövlət Plan komissarının həbs olunduğu tarixə - 12 noyabr 1930-cu ilədək təchizat və ticarət komissarlarının müavini vəzifəsində çalışmış M.Hacınski

daim Azərbaycanın mənafeyini önə çəkmişdi. Zaqafqaziyada iri sənaye şəhərlərinin salınması barədə layihələrin müəllifi olan M.Hacınski öz məqalə və çıxışlarında, xüsusən dövlət plan komissarının müavini olarkən iqtisadi birlik çərçivəsində nəzərdə tutulan Rustavi Metal kombinatını filizlə təchiz edəcək Daşkəsənin iqtisadi inkişafını daim diqqət mərkəzində saxlayırdı.

Tiflisdə Piroqov küçəsindəki səkkiz saylı binanın ikinci mərtəbəsində Hacınskilər ailəsi, üçüncüdə isə Zaqafqaziya Diyar Partiya Komitəsinin birinci katibi olan Lavrentiy Beriya (1899-1953) və 1902-05-ci illərdə Bakıda "Nina" bolşevik mətbəəsində çalışmış Vano ləqəbli İvan Fyodroviç Sturua yaşayırdı.

Uşaqların Vano dayı çağırdığı komissar Sturua ilə köhnə münasibəti olan Məhəmməd Həsən Hacınski "Necə tale məni bu yaramazla bir evə salmışdır" deyə dəfələrlə qonşusu Lavrentiy Beriyaya gizli nifrətini bildirirmiş.

Onların evində Vəzirov, Camal Hacınski, doktor Cəfər Rüstəmbəyov kimi insanlar tez-tez qonaq olurdular.

1923-cü il iyulun 7-də Azərbaycanın müxtəlif bölgələrində baş qaldıran müqavimət hərəkatlarının yatırılmasında xüsusi amansızlığı ilə seçilən Ə.Qarayevin partiya komitələri sədrlərinin işirakı ilə keçirilən komissiyada Qarabağın düzən hissəsində hakimiyyət orqanlarının quruluşu haqqında məruzəsindən sonra Dağlıq və Düzən Qarabağ bir-birindən ayrılaraq Düzən Qarabağda qalan qəzalardan mərkəzi Ağdam olmaqla vilayət idarəsi yaradılması qərara alınır.

Tədqiqatçı Rafael Hüseynov "Millətin zərrəsi" kitabının "Qırmızı şeytanın mavi nökəri" bölməsində yazır: "Qorbaçovun aşkarlığı başlananda - yasaq əsərlər asta-asta üzə çıxdığı vaxtlarda Əsəd bəyin "Stalin" kitabının surəti, xüsusən həmin kitabın Anastas Oblikoyanı elə rusca mətndə "qef taran" deyə nişan verən bir səhifəsi əl-əl dolaşdı. NKVD-nin rəhbərlərindən olmuş general Atakişiyev də el sözüylə desək "ondan" idi. Və bu "mələkmənzə" Əliheydər Qarayev də. Çoxdurlar, hamısını sadalayıb yazımı onların iyrənc adları ilə bulaşdırmaq istəmirəm. Bu mətləbi istəməyə-istəməyə ona görə yazıram ki, belə cinsi naməlumlar yalnız bədənlərinin məlum hissəsilə deyil, əqidələrilə, vicdanları ilə, əməllərilə millətə və həmvətənlərinə münasibətlərilə şərti olublar. Utancaq qələmlərin yazıya gətirmədiyi bir əhvalat da söylənilir. 1921-ci ildə bolşevik-erməni separatçıların züyünə qoşulan Ə.Qarayev canfəşanlıqla Dağlıq Qarabağın Ermənistana qatılmasına tərəfdar olduğunu təkid edəndə N.Nərimanov qəzəblə ona çımxırıbmış: "Qarabağ sənin filan yerin deyil ki, onu asanca hər yetənə verəsən." (Mən filan yazıram, Nərimanov adı ilə deyib.)" (31.səh.244).

30 dekabr 1922-ci ildə Sovet dövləti yarandıqdan bir neçə gün sonra SSRİ MİK- sədrlərindən biri seçilən N.Nərimanov ailəsi ilə birlikdə Moskvaya köçüb 28 yanvar 1925-ci ildəki müəmmalı ölümünə qədər Vozdvijenka küçəsindəki 47

nömrəli evin 29-cu mənzilində yaşadı. Professor Teymur Əhmədovun "Nəriman Nərimanov" monoqrafiyasında yazdığı kimi: "SSRİ MİK Rəyasət Heyəti iclaslarının protokolları, dövri mətbuat və arxiv sənədləri sübut edir ki, N.Nərimanov ən mühüm dekret, qərar və müraciətnamələrin işlənib hazırlanmasında, xarici siyasət tədbirlərində, onların həyata keçirilməsində fəal çalışmışdır. SSRİ MİK Rəyasət Heyəti Komissiyası, istərsə də, SSRİ Sovetlər qurultayının rəhbərlik üzrə komissiyası tərkibində bir sıra ciddi dövləti əhəmiyyəti olan əsasnamənin, qayda və təlimatların və konstitusiyanın işlənib hazırlanmasında da, N.Nərimanov böyük qayğı, səbr və müdriklik göstərirdi." (21.səh.287).

7 iyul 1923-cü ildə L.Mirzoyanın hazırladığı zəmin və Stalinlə Orconikidzenin razılığı əsasında daşnakların çoxdan arzuladıqları Dağlıq Qarabağ Muxtar vilayəti elan edildi. Tədqiqatçı F.Əhmədova özünün "Nəriman Nərimanov - ideal və gerçəklik" kitabında yazır: "Nərimanovun bu prosesdə mövqeyi tarixi sənədlərdə təsbit olunsa da, şəxsi münasibətini belə ifadə etmişdi: "Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında muxtar vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyilə zəmin hazırladı... Daha sonra Gəncənin dağlıq hissəsi gəlir və i.a. Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir." Mirzoyanın hazırladığı güclü zəmin isə "arxasında Stalinin dayandığı, o zaman güclü olan Serqonun apardığı siyasətə söykənirdi." (19.səh.118).

Şübhəsiz ki, 1924-cü il yanvarın 23-də Leninin ölümündən sonra N.Nərimanov üçün idarə etdiyi klan naminə düşməni soyuqqanlılıqla məhv etməyi bacaran, bundan əlavə, erməni daşnaklarının təsir dairəsində olan Stalinlə işləmək olduqca ağır idi. Tədqiqatçı V.Məmmədovun "Nəriman Nərimanov" kitabında yazdığı, Leninin ölümü ilə bağlı Nərimanovun dilindən səslənən: "Dünyanın ən böyük psixoloqu, müsəlman xalqlarının ən həqiqi müdafiəçisi aramızdan getdi" (56.səh.123) fikirləri əslində yeni rəhbər fonunda köhnənin ilahiləşdirilməsi idi.

1924-cü ildə Finlandiyaya qaça bilmiş M.Ə.Rəsulzadə Almaniyadan İstanbula gəldikdən sonra parçalanmış milli və siyasi qrupları öz ətrafında birləşdirərək Azərbaycan Milli Mərkəzini yarada bildi. Peşəkar diplomat Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi AMM-in Paris bölməsi isə Azərbaycanda gizli fəaliyyət göstərən AMM-in beynəlxalq əlaqələrinin tənzimlənməsində mühüm rol oynadı. Rusiyadan üz çevirib neft sənayesində əsas müttəfiq kimi nəzərdə tutduğu İngiltərəyə arxalanmağa üstünlük verən AMM-in gizli sənədlərində Nazirlər Şurasının sədri vəzifəsi M.Hacınskiyə həvalə olunmalı idi. 1927-ci ildə SSRİ-nin təzyiqi ilə Türkiyə hökumətinin bu təşkilat üçün ayırdığı

cüzi yardıma da son qoyulduqdan sonra AMM təşkilatının Azərbaycan bölməsinin beynəlxalq aləmlə əlaqəsi kəsildi.

1924-cü ilin yayında Hacınskilər ailəsi Kislovodskiyə dincəlməyə gedirlər. Həmin vaxt Səadət xanımın dayısı Soltan Əhmədin qızı, Novxanı kəndində yaşayan Xanımana xanım da onlarla birgə istirahət edir. Sonralar Xanımana xanım danışarmış ki, Məhəmməd Həsən bəy o qədər abırlı insan idi ki, birgə istirahət müddətində bir dəfə də olsun başını qaldırıb onun üzünə baxmazmış. 1927-ci ildə Xanımana xanım Çingiz İldırımın böyük qardaşı, Tiflis hərbi məktəbinin məzunu Şəmil bəylə ailə həyatı qurur.

1927-ci ilin yayında Almaniyaya təhsil almağa gedən M.Hacınskinin oğlanlarından Şamil atasının yolunu tutaraq Darmştat Universitetinin inşaat fakultəsinə daxil olur, 1932-ci ildə oranı bitirib Tiflisə qayıdır. Nuşirəvan isə Almaniyanın Kotsput Universitetinin tekstil mühəndisliyi fakultəsinə qəbul olur, 1932-ci ildə təhsilini başa vurur.

3 dekabr 1930-cu ildə gecə yaşadığı Maçabeli (keçmiş Serqievski) küçəsindəki 15 saylı evindəki mənzilində axtarış olunduqdan sonra həbs edilən M.Hacınski diş tozu, şotka, sabun, dəsmal və Səadət xanımın qızların cehizindən çıxardığı qatı açılmamış mələfəni kiçik çemodanına qoyub həmişəlik gedir. Dövlət Təhlükəsizlik Nazirliyinin arxivindəki P.S.75525 saylı qovluqdakı 233 nömrəli orderi EKO rəisi Tatyan imzalamış, AKQPU-nun sədr müavini L.Beriya isə təsdiq etmişdir.

28 dekabr 1930-cu ildə Səadət xanım Moskvaya gedərək 1907-ci ildən Bakıdan inqilabi fəaliyyətinə görə sürgün olunan, 1909-cu ildə yenidən buraya qayıdan və M.Hacınski ilə yaxın münasibətdə olmuş Sov.KP.MK-nın siyasi bürosunun üzvü Serqo Orconikidzenin Kremldəki mənzilində onunla görüşür. M.Hacınskiyə dair istintaq materiallarının otuzuncu tomunun dördüncü səhifəsindəki Səadət xanımın Alma-Atanın Tastak rayonu, Komsomol küçəsi 31-dən dövlət başçısı N.S.Xruşşova ünvanladığı, 26 fevral 1957-ci ildə qeydiyyatdan keçmiş məktubundan göründüyü kimi, zadəgan keçmişi olan Serqo Orconikidze Səadət xanımı hörmətlə qarşılayıb: “Bəzi yoldaşlar məni onun günahkar olmağına inandırmaq istəsələr də, mən inanmıram. Siz evinizə qayıdın. Araşdırarıq. Əminəm ki, o, evinə qayıdacaq!” sözləri ilə Səadət xanıma ümid vermişdi.” (165).

Həbsxanada tək adamlıq kamerada saxlanılan M.Hacınskinin göndərdiyi, ailənin mədəni səviyyəsi sayəsində günümüzə qədər gəlib çıxmış xırda məktublar əvəzsiz sənəd kimi bir sıra qaranlıq məqamlara işıq salır. Bu məktublarda kasıb ailəsinin ara-sıra ona yemək göndərməsindən əzab çəkən ata, “qutabı ətlə deyil daha ucuz olan balqabaqla” bişirilməsini, evdə qoyub gəldiyi “köhnə qaloşlarının” ona çatdırılmasını, işlənmiş mələfənin yuyulub, kraxmallanıb geriyə

göndərilməsini xahiş edir. Göndərilən pendiri belə yeməyə qıymayıb, yenidən uşaqlarına qaytarır.

M.Hacınskiyə qarşı əsas ittiham mühəndis Ələskər bəy Bəylərbəyovun verdiyi ifadə idi. Bu ifadəyə görə təxminən 1928-ci ilin payızında Bakıya gəlmiş M.Hacınski dövlət plan komitəsi sədrinin kabinetində İngiltərə və Fransanın Bakıya olan marağının Əlimərdan bəy Topçubaşovla bağlanmış gizli müqavilədə əksini tapması xəbərini gətirmişdi. Fasiləsiz dindirmələrdən üzülən Məhəmməd Həsən bəy ailəsinin ərzaq və siqaretlə bərabər ona göndərdiyi məktubları cavablandırmağa da, vaxt tapırdı. Məktublarının birindəki: "Mənim yazıq yetimlərim, ananızı incitməyin, ona qulluq edin. Mənə heç nə göndərməyin, burada hamısı var. Pianonu satın, ac qalmayın." sözləri 8 fevral 1931-ci ildə, mələfədən doğrayıb hazırladığı kəndirlə həbsxanada özünü asaraq intihar etmiş M.Hacınskinin, maddi sıxıntı içərisində yaşayan ailəsinin gələcək taleyinə yanan atanın ruhi vəziyyətini əks etdirir. Ölümündən bir gün qabaq yazdığı son məktubunda ailəsi ilə vidalaşan M.Hacınski onu qınamamağı xahiş edir və özünün təmiz adam olduğunu bildirən ata "Mən sizə heç bir dövlət qoymuram, çünki yoxumdur. Mənim dövlətim elə sizsiniz. Qardaşınız bacınız, bacınız qardaşınız üçün dövlətdir" (163.2) deyə uşaqlara bir-birlərindən muğayat olmağı vəsiyyət edir.

9 fevral 1931-ci ildə ZQPU-nun həkimi Vantsyanın imzası ilə 11886 saylı istintaq işinə tikilmiş sənəddən göründüyü kimi, M.Hacınski mələfədən hazırladığı kəndirlə kamerada özünü asır. İstintaq işinin 383-cü səhifəsində M.Hacınskinin 1907-ci ildən mehriban münasibətdə olduğu Serqo Orconikidzeyə və Ş.Eliavaya ünvanladığı məktubunda: "Tabutdan da sizə yalvarıram ki, mənim əməllərimə işıq tutub heç olmazsa bu biabırçılıqların azalmasına yardım edəsiniz. Ölüm anında bildirmək istəyirəm ki, mən həqiqətən sizin quruluşa düşmən olsam da, bu hakimiyyət barədə ağzıma gələni danışsam da, əslində açıq və qəti fəaliyyət üçün hər zaman tərəddüd etmişəm. Odur ki, mənim Sovet hökumətinə qarşı törətdiyim hər hansı bir ziyanlıqdan söhbət gedə bilməz."

Məhəmməd Həsən bəyin ölümü həmin gün oğlu Şamillə həbsxanaya baş çəkməyə gəlmiş Səadət xanıma bildirilir. Ərinin cəsədinin qaytarılmayacağını öyrənən Səadət xanım S.Orconikidzeyə teleqram vurub vida görüşü almağa yardımçı olmasını xahiş edir. Evə gəlib halva çalan Səadət xanım uşaqlarını başına yığıb mərhumun şərəfinə dualar oxuyur. Və sonra onun xahişi ilə Minurə Məhəmməd Həsən bəyin Moskvadan Səadət xanıma göndərmiş olduğu məktubu ilk dəfə hamı üçün oxuyur. Uşaqlarına ağlamağı qadağan edən ana zəif səslə "Pəncərədən daş gəlir"i züm-zümə edir. Xorla ona qoşulan uşaqlar bu mahnını faciə ilə üzləşmiş ailənin himninə çevirirlər.

Ertəsi gün Serqo Orconikidzenin göstərişi ilə əri və atası ilə vidalaşan Səadət xanımla Şamil yasin əvəzinə “Pəncərədən daş gəlir” oxuduqdan sonra mərhumun şəxsi əşyası kimi onlara təqdim olunan xırda çemodanı da götürüb evə qayıdırlar. Onun içərisindən çıxan mələfədən doğranıb hazırlanmış kəndir qızların vay-şivəninə səbəb olur. Həmin gecə oğlanları kəndiri aparıb xəlvətcə vaxtilə F.Xoyskinin və H.Ağayevin də dəfn edildikləri Mirzə Fətəli Axundovun məzarının ayaq tərəfində basdırırlar.

Serqo Orconikidzenin tapşırığı ilə Hacınskilərə kəsilmiş cüzi təqaüd 1940-cı ilə qədər verilsə də, ailə üzvlərinin təqib olunması nəticəsində uşaqlar məktəbdən xaric olunur və iş yerlərini itirirlər.

Məhəmməd Həsən Hacınskinin faciəli ölümündən sonra Səadət xanım o zaman Almaniyada olan Şamil və Nuşirəvana məktub yazıb onların vətənə qayıtmalarını xahiş edir. Şamil vətənə qayıtsa da, atasının taleyini yaşamaq istəməyən Nuşirəvan ömürlük qürbətdə qalmağı üstün tutur.

Rusiya hökuməti tərəfindən İranda da təqib olunan mühacirlərin sonrakı taleyi barədə 20 avqust 1931-ci ildə İstanbulda çıxan “Bildiriş” qəzetində dərc olunmuş M.B.Məmmədzadənin “Azərbaycan mühacirləri” məqaləsinə və həmin qəzetin 3 sentyabr 1931-ci ildəki məlumatına istinad edən X.C.İbrahimli yazır: “Mövcüd qərarın icrası ilə bağlı bir fakta diqqət yetirək: “30 iyul İranda olan mühacirlərin ümumi fəlakət günüdür. Bu tarixdə İran hökuməti azərbaycanlı, gürcü, erməni və rus mühacirlərini çıxarmağa başlamışdı. Onların ölkədən çıxarılması 24 saat ərzində polis tərəfindən icra edildiyindən dəhşətli bir mənzərə alınmışdır. Mühacirləri evdə, küçədə, bazarda ələ keçirib maşınlara dolduraraq dəmir yol stansiyalarına gətirir, oradan da naməlum tərəfə aparırdılar. Təkcə o gün həbsdə olan 65 azəri də qatılmaqla 800 nəfər mühacir tutuldu. Şahidlərin bildirdiyinə görə RSFSR-in İrandakı konsulu Təbriz stansiyasında oturub prosesə özü nəzarət edirdi.” (37.səh.55).

25 sentyabr 1931-ci ildə AMM-in əlli üç üzvünü ittiham edən Az QPU məhkəməsi əvvəlcə on nəfərin güllələnməsinə qərar verir. 2 fevral 1932-ci ildə işə yenidən baxan Zak QPU-nun kollegiyası Əhməd bəy Pepinov başda olmaqla altı nəfərə on il, Ələskər bəy Bəylərbəyov da daxil olmaqla on doqquz nəfərə beş il həbs cəzası kəssə də, M.Hacınskinin ölüm faktını nəzərə alaraq ona qarşı yürüdülən ittihama xitam verir. İttiham olunan “53-lər”dən bəziləri müəyyən müddət sonra xalq düşməni damğası ilə azadlığa çıxa bilsələr də, 1937-ci ildə yenidən həbs olunub yox edildilər.

Otuzuncu illərin ikinci yarısından ziyalılarımıza qarşı davam edən repressiyalar daha kəskin şəkil almışdı. Çarizmin müstəmləkə siyasətini yürüdən bolşevizm, milli və islami dəyərlərə qarşı barışmaz mövqedə duran stalinizm ən yaxşı ziyalılarımızı həmin prinsipləri önə çəkdikləri üçün cismani məhv edirdi.

Müxtəlif tarixi mərhələlərdə təkcə şair-publisist, ədəbiyyatşünas-alim Əliabbas Müznibin (Əhmədov) başına gətirilənləri nəzərdən keçirməklə düşünən ziyalılara qarşı cəza mexanizminin dəyişmədiyini göstərmək mümkündür. Professor İ.Ağayevin göstərdiyi kimi: "Ə.Müznib həyatı boyu öz ictimai ideallarına görə üç dəfə müxtəlif vaxtlarda cəzaya məhkum olunmuşdur. Birinci dəfə 1912-ci ildə çar hökuməti onu xalq milli-azadlıq qiyamına çağıranlar sırasında Sibirə ömürlük sürgün etmişdir. O, 1913-cü ildə Romanovlar sülaləsinin üç yüz illik yubileyi münasibətilə əfvi-ümumiyəyə düşmüşdür. İkinci dəfə Ə.Müznib 1914-cü ildə dini-fanatizmi tənqid etməsi üstündə Bakı ruhanilərindən şeyx Qəninin ölüm fitvasına məruz qalmışdır. Ə.Müznib üçüncü ağır cəza hökmünə 1937-ci ildə düçar olmuşdur." (4.səh.4). Əliabbas Müznibə qarşı 1936-cı ilin dekabrından 25 iyul 1937-ci ilə qədər davam edən istintaq işini təhlil etmiş tədqiqatçı C.Qasımovun yazdığı kimi: "İttihamnamədə göstərilirdi ki, Əliabbas Əhmədov burjua-millətçi qəzet və jurnallarda panislamist ideyalar təbliğ etmiş və bolşevizm əleyhinə iş aparmışdır. Öz əsərlərində və şerlərində 26 Bakı komissarlarına, xüsusilə də, yoldaş Şaumyana böhtan atmış, türk-Osmanlı qoşunlarının Bakıya soxulmasını, oranı zəbt etməsini tərifləmiş və onları Azərbaycan xalqının xilaskarı adlandırılmışdır." (45.səh.169). 1918-ci ildə Ə.Müznib "Hürriyyət qəhrəmanı, Ədirnə fatehi və Dardanel müdafei" epiqrafı ilə yazdığı "Qazi Ənvər paşa" şerində, Bakını daşnak-bolşevik qırğınına məruz qoymuş Şaumyanı qaçmağa məcbur etmiş "türk elinin qüvvəti", xilaskar ordu komandanı şərəfinə söylədiyi: "Türkün qolu, türkün gücü, türkün qılıncısan, Binlər yaşa bu şan ilə, ey sevgili Ənvər." sözlərinə görə cəzalandırılır. Cəlal Qasımov özünün "Repressiyadan deportasiyaya doğru" kitabında yazır: "Bu əsərinə görə Ə.Müznibi istintaq zamanı çox sorğu-sual etmişdilər və burada təəccüb doğura biləcək bir şey yoxdur. Həmin illərdə "türk qoxuyan" hər şeyə görə cavab verməli idin. Burada məqsəd türk anlayışını və türklə bağlı olan hər şeyi unutdurmaq idi. Heç təsadüfi deyildir ki, azərbaycanlıların yaddaşından milliyyətcə türk olduqlarını da silməyə çalışmışdılar. Ona görə də 30-cu illərdə "türk" və "islam" qorxusu gələn hər bir əsər məhv edilirdi." (45.səh.176).

Marksizm-leninizmin sənət ekvivalenti kimi yaranmış sosrealizm cərəyanının əmək fəaliyyətini insani münasibətlərdən üstün tutması 20-30-cu illərin ədəbiyyat və sənətində əks olunurdu. Kobud, fiziki əməyin mədh olunması, etalonlaşdırılması bu dövr üçün xarakterikdir. Əmək prosesində adamların real problemləri heç vaxt göstərilmir, əksinə, onlar çox qayğısız və gümrah təsvir olunurdular. Sanki yorulmayan bu insanlar dəmir yolu çəkir, körpülər salır, neft çıxarır, su elektrik stansiyaları tikir, nəhəng sosialist obyektləri yaradırdılar. Real həyatda şəxsi mənafeyə, fərdi təsərrüfata yer olmadığından bədii əsərlərdə özləri deyil, cəmiyyət üçün çalışan bu adamlar zəhməti toy-bayram kimi qəbul edirdilər.

Və onların şəxsi mənafeyi ümumiliyin, kütlənin mənafeyinə qurban verilirdi. Ağır zəhmətin müqabilində adamlara təqdim olunan mükafatlar hər hansı bir qiymətli bəzək əşyası və yaxud pul deyil, keçici qırmızı bayraqlar, orden və medallardan ibarət olurdu. Siyasi ideologiyanı, iqtisadi münasibətləri əks etdirən sosrealizm cərəyanı özündən əvvəlki ədəbiyyatı və sənəti burjua-feodal damğası altında rədd edərək, hər hansı bir mənəvi müxalifət alternativinə yer qoymurdu. Tədqiqatçı E.Dobrenkonun qeyd etdiyi kimi: "Bədii obraz artıq gərək deyildi, (...) qəhrəmanlar funksiya yerinə yetirirdilər, (...) sosial gerçəklikdən qoparılmış müəllif sözü ritorikaya yuvarlanaraq daha bədii söz ola bilmirdi, obraz ifadəlilikdən çıxırdı" (102.səh.71). Göründüyü kimi sosrealizmin reallığı ilə bədiilik arasındakı dərin uçurum müasir rus ədəbi tənqidinin də nəzərindən qaçmır.

ÜİK(b)P-nın 1927-ci ilin dekabrında keçirilmiş XV qurultayı birinci beşillik və "Kənddə iş haqqında" qərar qəbul etmişdi. Kənddə sosial-siyasi inkişafın çox geridə qaldığı qeyd olunaraq, Leninin kooperasiya planı əsasında kolxozların yaradılması partiya qarşısında vacib vəzifə kimi qoyulmuşdu. Varlı kəndlilərin, qolçomaqların bir sinif kimi ləğv edilməsi kolxoz-kollektivləşmə xəttinin mühüm tərkib hissəsi olduğundan bu insanların kütləvi şəkildə, sinif kimi ləğv olunması dövlət miqyasında rəsmi şəkildə həyata keçirilirdi. Partiyanın mərkəzi və yerlərdəki qəzetləri bu işdə yaxından iştirak edirdilər. "Qolçomaqları bir sinif kimi ləğv etmək günün vacib məsələsidir!" kimi başlıqlar iri hərflərlə birinci səhifələrdə çap olunurdu. Həmin başlıqlardan ruhlanan inqilabçı bolşeviklər həvəslə yerlərdə qolçomaqlarla mübarizə aparırdılar. Bu illər ərzində saysız-hesabsız ziyalılar, ruhanilər və digər intellektual qüvvələr qolçomaq damğası ilə məhv edilmişdi. Kolxozların yaradılması prosesində dözülməz zorakılıq halları baş alıb gedirdi. 20 mart 1930-cu il AKBP-nın plenumunun materiallarında bu prosesi izləmək mümkündür. 21 aprel 1931-ci il 110-cu nömrəsində "Vışka" qəzeti yazırdı: "Dairələrdən aldığımız məlumata görə, baş kolxoz idarəmiz yerlərə tapşırıq göndərərək kəndlərdə nə varsa - xoruz, toyuq, arıların belə ictimailəşdirilməsi və kollektivləşdirilməsini təklif etmişdir. Yerlərdə, hətta stəkan-nəlbəkilər də kollektivləşdirilir." (139). Partiyanın ifratçı qanun və qərarlarının eybəcər halda həyata keçirilməsi göz qabağında idi. Yaratdığı reallıqla həyat hadisələrini öz arxasınca çəkib apara bilməyən ədəbiyyat və sənət təbliğat kompaniyasına cəlb olunmuşdu.

20-30-cu illərin sovet dramaturgiyasında hələ ki, konkret insandan, onun psixoloji problemlərindən, adamların bir-birilə və cəmiyyətlə münasibətlərindən söhbət açılmırdı. Sosializm dövrü insan münasibətləri baxımından ibtidai icma quruluşuna yaxın olduğundan mövcud siyasət və qanunlara xidmət edən sənət şəxsiyyətlərin deyil, icmanın, kolxozun, briqadanın mənafeyini qoruyurdu. Konkret adam yox idi, kütlə var idi. Hər bir adam isə sadəcə olaraq bu kütlənin

zərrəciyi idi. "Zərrəcik"lərin fəaliyyəti isə daimi nəzarət altında saxlanılırdı. Normal insani münasibətlər – şəxsi mənafe, şəxsi dostluq, şəxsi sevgi: pozğunluq, əcaiblik patoloji hal sayılırdı. Kütlənin bir zərrəciyi olan hər kəs şəxsiyyət, insan kimi yox, zərrəciklərin arasından seçilmiş nəzarətçi-robot kimi təqdim olunurdu. Nəzarətçi robot qolçomaqların fiziki cəhətdən məhv olunmasında fəal iştirak edir və şəxsiyyət – fərd olmadığı üçün heç bir insani, etik-əxlaqi, başlıcası isə hüquqi məsuliyyət daşımırdı. O, öz fəaliyyətilə həyata, yüksək amallara deyil, ölümə, şər qüvvələrə xidmət edirdi. Faciəvilik burasındadır ki, o, kütlənin, ictimaiyyətin mənafeyini qoruyan qəhrəmana çevrilir, ədəbiyyat və sənət isə onu tərənnüm edirdi.

Sosializm dövrünün diqtəsi ilə marksist-leninçi ideologiyanın formalaşdırdığı sosrealizm cərəyanı, XI Qızıl Ordunun Azərbaycanı zəbt etməsini əks etdirən od püskürən zirehli qatar kommunist ideologiyasının rəmzi kimi təqdim olunurdu. İnsanlara kommunizm cənnəti vəd edən peyğəmbərlər - siyasi rəhbər personajları ədəbiyyata və sənətə ayaq açmışdı. Müsbət qəhrəman obrazında təqdim olunan şəxslərin siyasi yetkinliyi əsas göstərici sayılırdı. Bu qəhrəmanların həyat tərzləri, geyim-keçimləri, hərəkətləri, baxışları bir-birlərinə bənzədiyindən onlar real həyat adamlarından uzaq olurdular. Bu beynəlmiləl tərkibli obrazların konkret milliyyəti olmadığından onların milli mənsubiyyətindən söhbət gedə bilməzdi. Dramaturji modellər əsasən kişi obrazları üzərində qurulduğundan qadın, uşaq obrazlarına nadir halda rast gəlinirdi. Az sayda yaradılmış belə obrazlar isə sxematik şəkildə siyasi missiyanı yerinə yetirirdilər. Dramaturji inkişafın daşıyıcılarının kişi xronotipindən ibarət olması intuitiv şəkildə firavan gələcəkdən deyil, ölümə, məhvə doğru üz tutduğundan xəbər verirdi. Metofizik təhlil prinsipi kommunizmin canlı aləmin sükunətli sonu olduğunu isbat etsə də, sosrealizm ədəbiyyatının digər sahələri kimi dramaturgiyanın da bədii məhsullarında canlı təkamül inkar edilərək durğunluq vəsf olunurdu. Sosialist cəmiyyəti uğrunda məmnuniyyətlə ölümə gedən, sevgisiz, qadınsız, uşaqsız, ailəsiz sxematik kişilərin finalda zirehli qatarların dəmir vaqonları kimi rəmziləşdirilməsi realizmin inkarı, gerçəkliyin sonudur. Millilikdən, həyatilikdən uzaq olan bu dramaturji model uzun illər sosializm-realizm adı altında marksizm-leninizmin bədii təcəssümü kimi fəaliyyət göstərmişdi. Real həyat hadisələrini bədii şəkildə sənətə gətirmək əvəzinə gerçəklikdən uzaq həyatın sxematik modeli yaradılırdı. Sosializm-realizm metodunda ədəbiyyat və sənət tarixin bərpası və gerçəkliyin əks olunmasında ikinci dərəcəli hadisələri qabardaraq, ilkinlikdən uzaq ikinci reallıq yaradırdı. Bu ədəbiyyatın və sənətin bədii dili hay-küylü olduğundan pıçıltılarla yaranan əsl sənətin ölçülərinə uyğun gəlmirdi. Artıq özünü tam şəkildə təsdiq etmiş sosializm-realizm cərəyanı yaranışından bəri monologik idi və qətiyyən ünsiyyətə meyilli

deyildi. Yaranmış sənət əsərlərində insanların real həyatı əks olunmurdu, əksinə bu əsərlərdə ciddi-cəhdlə insanlara yaşamaq qaydaları öyrədilirdi.

Burada təsvir olunan həyat gerçəkliyin deyil, arzu olunan ideallarin sxemləşdirilmiş modeli idi. Real həyatda kütlə içərisindən seçilmiş tək bir nəfər ayrılaraq qəhrəmanlaşdırılır və bu qəhrəman sənət prizmasından keçərək, yeni-yeni qəhrəmanların becərilməsi üçün etalona çevrilirdi. Qəribə burasıdır ki, sənət aləmində olduğu kimi real həyatda da, artıq bu qəhrəmanların şəxsi həyatı ola bilmirdi, onlar rəmzə çevrilərək fetişləşirdilər. Qəhrəmanların mənfi-müsbət qütblərə bölünməsi sənətdə kəskin şəkildə özünü göstərirdi. Şəxsi prinsiplərlə yaşayanlar nifrət hədəfinə çevrilirdilər, onların hər bir hərəkəti müsbət qəhrəmanlar tərəfindən izlənir və tənbeh olunurdu. Sosializm-realizm ictimai üslubu insani münasibətləri əks etdirən əsərləri belə dövrün tələbilə sxematik və mexaniki bir struktura çevirirdi. Odur ki, sosrealizmi ədəbiyyatımızın sükunət dövrü hesab etmək olar. Sükunətin dialektik xüsusiyyəti barədə görkəmli ədəbiyyatşünas M.Baxtin yazır: “Sakitlikdə heç nə səslənmir, sükunətdə heç kim danışmır. Sükut ancaq insanlar aləmində (və ancaq insanlar üçün) mümkündür. Əlbəttə, həm sakitlik, həm sükut həmişə şərtidir.” (98.səh.357).

Məhəmməd Həsən Hacınski isə milli azadlıq ideyalarını reallaşdıran və artıq beynəlxalq siyasi dairələrdə nüfuz qazanmış demokratik cümhuriyyətçilərin arxalanmaq istədikləri real qüvvə idi ki, öz ölümü ilə belə vətən düşmənlərinə meydan oxuya bildi və bu səbəbdən də, bütün nəsil-nəcabəti repressiyalara məruz qaldı.

1939-cu ildə Hacınskilər ailəsinin oğlanları Tofiq və Murad hərbi xidmətə çağırıldıqdan sonra maddi və mənəvi çətinliklər meydana çıxır. Həmin il Tiflisdəki mənzillərinin əllərindən alınması səbəbindən məcbur olub Bakıya dönən Hacınskilər ailəsi yalvar-yaxardan sonra öz mənzillərindəki atalarının iş otağında kirayənişin kimi yaşamağa başlayırlar.

1939-cu ildə Xanımana xanımın oğlu Cahangir bəy Hacınskilərin mülkünə gəlir. O gündən tez-tez bu mənzildə olan Cahangir bəyə 1933-cü ildə şahmat üzrə Azərbaycan çempionu olmuş Fatma xanım bu idman növündən dərslər deyərmiş.

Məzarlıq küçəsi artıq Arsen Əmiryanın adına verilmiş, Hacınskilərin buradakı mənzilləri isə Minasyan və Karamurza kimi iki erməni ailəsi tərəfindən tutulmuşdu. “Xalq düşmənləri”- deyə Hacınskiləri sıxışdıran erməni qonşuları isə onları gözüm-çıxdıya salırdılar. Professor dul Karamurza özünü bir az təmkinli aparsa da, onun oğlu opera müğənnisi Artur səsinin gur yerinə salıb qışqırır, övladları olmayan Minasyanlar isə hər vəchlə onları evdən qovmağa çalışırdılar. Sonralar məlum olduğu kimi onlar haqqında lazımi yerlərə gizli məktubları məhz Karamurza yazırmış.

Əli İsgəndər və Məmməd Yusif Cəfərov qardaşları iflic vəziyyətində yataq xəstəsi olsalar da, onlar müxtəlif təqiblərə və əzablara məruz qalan Hacınskilər ailəsinin hüquqi vəziyyətlərinin bərpa olunması üçün lazımi dairələrə məktublarla müraciət edirdilər. Qeyd edək ki, 17 iyunda hökumət istefa verdikdən sonra Gürcüstanda diplomatik nümayəndə vəzifəsini icra edən, daha sonra 14 mart 1919-cu ildən 22 mart 1919-cu ilə qədər fəaliyyət göstərən N.Yusifbəyovun dördüncü kabinəsində xarici işlər naziri təyin edilən, Sovet dövründə isə aqrar sektorda şərabçılıq və pambıqçılıq trestlərində hüquqşünas kimi çalışan M.Y.Cəfərov 15 may 1938-ci ildə dünyasını dəyişərək Şağan kəndində dəfn olunur.

Tofiq və Murad Hacınskilər hərbi xidməti başa vurub evə qayıtmaq ərəfəsində olanda müharibə başlayır. İki illik pedaqoji kurs bitirərək təyinatla Qubada ibtidai siniflərə dərs deyən Minurə xanım məktəbin dil-ədəbiyyat müəllimi, "xalq düşməni"nin qızı ilə evlənməyə cəsarət etmiş Əziz adlı bakılı oğlanla yenicə ailə qurmuşdu. Ailə həyatının üç ayı tamam olmamış davaya yollanan Əzizdən bir daha xəbər-ətər olmamışdı. Minurə Qubada rus dili müəllimi kimi çalışdığı ərəfədə anasının təkidi ilə təcili şəhərə gələrək sürgün olunan ailəsinə qoşulmuşdur. Sonradan orada qalsaydı bəlkə də, həyatının bir başqa cür alınacağını düşünən Minurə ömrü boyu anasını günahlandırmaya bilmədi. O, dörd il yeraltı şaxtada çalışdıqdan sonra nəhayət, kontorda işləməyinə icazə verilmiş, Alma-Atada Pedaqoji İnstitutu bitirmiş, bir müddət müəllim kimi orada çalışmışdır. Anasının yanında qalan Fatma (1915) Bakı Sənaye Texnikumunda, Leyla isə 189 saylı orta məktəbin 9-cu sinfində oxuyurdu.

1 oktyabr 1941-ci ildə Hacınskilər ailəsinin sürgün olunması barədə qərar çıxarıldıqda artıq cəbhəyə getməyə hazırlaşan, saçlarını da dibindən qırxdırmış Muxtar (1913) 1941-ci ildə anası və bacıları ilə sürgün olunur. Ağır sürgün həyatının izlərini daim özündə yaşadan Muxtar ali təhsilli maliyyəçi, Ukraynadan sürgün edilmiş, türk əsilli Koçubəylər nəslindən olan Anna xanımla evlənir. Onların hər ikisi maliyyə idarəsində çalışmış, Anna xanım maliyyə şöbəsinə rəhbərlik etmiş, Muxtar isə baş mühasib kimi çalışmışdı. Lakin ailənin xoşbəxtliyi uzun sürmür. Muxtar işdə dolaşdırılaraq həbs olunduqdan sonra mənəvi sarsıntı keçirən Anna həyatını ömürlük Alma-Atadakı monastıra bağlayıb rahibə olur. Həbsxana həyatından sonra ciyər xəstəliyi qazanmış Muxtar isə ömrünün son günlərini Bakıda, bacıları Minurə və Leylanın yanında yaşamışdır.

3 oktyabr 1941-ci ildə gəmi ilə Krasnovodska gətirilən Hacınskinin xanımı, üç qızı və kiçik oğlu Tofiq burada dadına baxmağa imkan verilmədiyi qovun-qarpız bolluğuna sevinsələr də, onları içərisində yalnız saman olan yük vaqonunda Şimali Qazaxıstana göndərirlər. Yolda onlar Ə.Hüseynzadənin qardaşı, Səlyanda gimnaziya direktoru işləmiş İsmayıl bəylə tanış olurlar. Bütün eşalondakılar onu özlərinə qeyri-rəsmi rəhbər seçirlər. O da vaqonda olan cüzi ərzağı hər kəs arasında

bölüşdürür, nəzarətçilərlə danışıqlara girirdi. Dəmir yolu ilə bir ay çəkən üzüntülü səfər bitdikdən sonra bir neçə gün arabalarla tanrının nəzər diqqətindən uzaq düşmüş yerlərə çatan Hacınskilərin danışmağa belə taqətləri yox imiş.

Qazaxıstanın Sima-Palalatinsk vilayətinin Jarmin rayonundakı Balacar qızıl şaxtasının ərazisində məskunlaşan ailə şimal iqliminin sərt qışı ilə üzləşir. Hava o qədər şaxtalı olurmuş ki, quyudan götürülən suyun evə çatınca donması, səhər qonşuların köməyi olmadan gecə yağan qarın yığılıb örtdüyü qapının açılmasının mümkünsüzlüyü ailəni heyrətləndirir.

Qonşuluqda M.Rəsulzadənin ilk övladı Lətifənin kiçik qızı Evşənlə birlikdə gecə soyuqdan donması və bu dərdə dözməyən böyük qızı Firuzənin acı göz yaşları içində hayqırması hamını sarsıdır. Əliheydər Qarayevin də soyuqdan donub orada rəhmətə gedən qardaşına yas tutan anasının və bacısının ruhi vəziyyətləri ömürlük yaddaşlarına həkk olunur.

Qazaxıstanda Milki adlı inək alaraq onun südü hesabına bir çox ailələrə, o cümlədən Hacınskilərə də əvəzsiz yardım göstərən İsmayıl bəyin özü isə 1942-ci ildə aclıqdan dünyasını dəyişir. Onun oğlu, Cümhuriyyət dövründə xaricə təhsil almağa göndərilən yüz tələbədən biri olmuş Bəhram bəyin Almaniyada ailə həyatı qurduğu Luiza xanımı 1937-ci ildə geriyə, öz vətəninə qovurlar. Luiza xanım Almaniyada açdığı mağazaya Luiza Hacınski adını verir. Bəhram bəyin bu xanımdan olan qızı Roya Ebruza on iki yaşından sürgündə Hacınskilərin övladları ilə birgə şaxtadan çıxan qızılı yumağa başlayır. Onun atası isə ömürlük həbs cəzasına məhkum edilir. İsmayıl bəyin digər oğlu Şəmsəddinin həyat yoldaşı, atası Bayılda şokolad dükanı açmış Anna Çernışova elə sürgündə olarkən yatalaq xəstəliyindən dünyasını dəyişir.

Ən ağır anlarda bir-birlərinə dayaq olmaq barədə ata vəsiyyəti Hacınskilər ailəsinin gözəl-göyçək qızlarının bütün əzablara sinə gərməsinə yardım edərək onların karına gəlir. Gündüzlər qardaşları Muxtarla şaxtada işləyən Minurə (1910) və Fatma (1915) gecələr əllərinə keçən kitabları oxumaqla məşğul olurlar. Sonbeşik Leyla (1922) sexdə əlcək, corab, şərf toxuyaraq cəbhəyə göndərməklə hamının rəğbətini qazanır. Ətrafda sürgün həyatı yaşayan azərbaycanlı gənclər olsa da, məşhur xalq düşməninin qızları ilə ailə qurmaq olduqca təhlükəli idi.

Həmin illərdə İsmayıl bəy tez-tez cavanları öz ətrafına toplayaraq repressiyadan qorxaraq gizlətdiyi Ə.Hüseynzadənin F.Köprülüzadə ilə birgə şəklini onlara göstərməklə yanaşı, qardaşının 1911-ci ildə Türkiyədə yazdığı "Hali vətən" şerini də əzbərlədərmiş: "Ucundadır dilimin həqiqətin böyüyü, Nə qoydular deyəyim, nə kəsdilər dilimi."

Almaniyada təhsil almış, bir neçə xarici dil bilən Şamil Hacınski uzun yoxlamalardan sonra kəşfiyyatçılar qrupuna qəbul olunaraq, İran Sənaye Nazirliyinin texniki nümayəndəsi kimi Berlində çalışmağa göndərilir. 9 noyabr

1942-ci ildə təcili geriyə çağırılan Şamil Hacınski Binə hava limanında bir təyyarədən digərinə keçirilərək Moskvaya göndərilir. Altı ay Lefortova həbsxanasında saxlanıldıqdan sonra Kuybışev (Samara) şəhərindəki islah əmək düşərgəsinə göndərilir. Sonrakı illərdə peşəkar təhsili, dili mükəmməl bilməsi nəzərə alınaraq alman əsirlərinin çalışdığı tikintiyə göndərilir və orada rəhbər vəzifəyə qədər yüksəlir. Suriyyə adlı azərbaycanlı qızla gec də olsa ailə qurmuş Ş.Hacınski yeganə oğluna atasının adını qoyur. On yaşlı Məhəmməd Həsənin müəmmalı ölümünə dözməyən Şamil Hacınski bir neçə il yataq xəstəsi kimi yaşasa da, 9 iyun 1969-cu ildə dünyasını dəyişir. Otuz beş yaşından dul qalmış Suriyyə xanım hal-hazırda tənha yaşayır.

Bir vaxtlar atasının faciəsindən sonra vətənə qayıtmaqdan imtina etmiş Nuşirəvan, 1945-ci ildə Berlinin müdafiəsi uğrunda həlak olur. Lakin Hacınskilər ailəsi bu barədə məlumatı hələ uzun illərdən sonra əldə edə bilir.

Murad Hacınski Tiflisdə avtonəqliyyat texnikumunu bitirdikdən sonra 1939-cu ildən Fin müharibəsində, 1941-ci ildən isə Böyük Vətən Müharibəsində iştirak edir. Müharibədə Ukrayna cəbhəsində tank komandiri kimi vuruşmuş, 1944-cü ildə Kiyev uğrundakı döyüşlərdə ağır yaralanmış Murad uzun müddət müxtəlif hospitallarda müalicə olunduqdan sonra Bakıya göndərilir. Onun xahişi ilə evlərinə göndərdiyi adamların ailələrinin sürgün xəbərini gətirməsi Murada olduqca ağır təsir göstərir. 15 may 1942-ci ildə bir günlük Bakıya gəlmiş Murad Hacınskini doğma mənzillərində yad adamlar qarşıladıqdan sonra o, artıq ailə başçıları həyatda olmayan Cəfərovların mənzilinə üz tutaraq burada doğmaları haqqında müfəssəl məlumat toplayır. Ailəsinin ünvanını öyrənən M.Hacınski Bakıdan yenidən cəbhəyə yollanarkən yolüstü onlara belə bir məktub yazır: *"Salam mənim əzizlərim! Srağa gün teleqramınızı aldıqdan sonra sevincimin həddi-hüdudu olmadı. Uzun müddət sizdən soraq almadığımdan hədsiz narahat idim. Cəbhədən Bakıya yazdığım məktublar geriyə göndərildikcə ağlıma min cür fikir gəlirdi. Hələ indiyə qədər burada nələrin haş verdiyini anlaya bilmirəm. Sizdən xəbər tutub bir az özümə gəldim. Anamdan çox nigaranam, yazın görüm necədir?.. Nəyə görə heç olmasa məktubda bir-iki sətir də o, yazmayıb. Heç nəyi gizlətmədən məndən sonra nələrin baş verdiyini ətraflı yazın. Axı mən müharibədəyəm. Sizi həyəcanlandırmaq istəməsəm də, cəhhədə hər gün ölümlə üzləşdiyimi təsəvvür edin. Elə həyəcanlar keçirmişəm ki, artıq məni heç nə heyrətləndirə bilməz. Bizim yerimiz tez-tez dəyişir. Hal-hazırda deyəsən Nevinamsa stansiyasındayam. Bir daha təkrarlayıram ki, məndən nigaran qalmayın. Yazın görüm Şəmil haradadır? Ondan bir xəbər varmı? Bakıda olanda Cəfərovlara da baş çəkdim. Təyin olunmuş məkana çatan kimi sizə ünvanımı yazacağam. Qara dəniz istiqamətində yola düşürük." (163. 3).*

Yeddi illik müharibədən sonra ailəsi ilə sürgün həyatı yaşamış Murad əllinci illərin ortalarından Moskvaya gedərək Avtonəqliyyat İnstitutuna daxil olsa da,

təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. O, şəhərlərarası avtonəqliyyat bölməsinin rəhbəri olmuş, 2000-ci ildə dünyasını dəyişmişdir.

23 dekabr 1913-cü ildə anadan olmuş ailənin dördüncü uşağı Tofiq 1940-cı ildə Moskvada Avtomobil Yolları İnstitutunu bitirmişdir. Böyük Vətən Müharibəsində Dövlət Təhlükəsizlik Nazirliyinin xüsusi qoşununda Leninqradın müdafiəsində vuruşmuş Tofiq donmuş Ladoqa gölü üzərindəki "həyat yolu" ilə mühasirədə qalmış şəhərə avtomobil karvanlarının hərəkətini təmin edən dəstənin komandiri olmuşdur. Döyüş yolu Berlinə qədər gedib çıxmış Tofiq atəş səngiyən kimi bir vaxtlar Nuşirəvanın yaşadığı küçəyə gəlmiş, bombardmandan uçub xarabaya dönmüş evi görüb şoka düşmüşdü. Bir neçə gündən sonra yenidən buraya gələrək qonşuluqdakı alman qadından yaralı Nuşirəvanın xanımı və iki oğluyla Hamburqa üz tutduğunu öyrənə bilmişdi. Qələbədən sonra Moskvada qulluğunu davam etdirən Tofiq Hacınski daim anasının, bacı və qardaşlarının axtarışı ilə məşğul olur. Nəhayət o, uzun axtarışlardan sonra ünvanı müəyyənləşdirərək Qazaxıstanda sürgün taleyi yaşayan doğmalarının yanına gəldikdə yaxınlarının ağır həyat şəraitini görüb ikinci zərbəni alır. Məhz Tofiqin bu gəlişinin nəticəsi olaraq ailənin sərbəst şəkildə bir kənddən digərinə getməsinə icazə verilmiş, bir müddət sonra, 1946-cı ilin sonunda isə onların Alma-Ataya köçməsinə imkan yaranmışdı. 1949-cu ildə atasının kimliyini gizlətdiyinə görə Tofiq podpolkovnik rütbəsi əlindən alınaraq təhlükəsizlik orqanlarından və partiya sıralarından xaric edilir. Beləliklə, Tofiq Hacınski həyatda üçüncü ən böyük zərbəni alır. Qırxıncı illərin sonlarından o, Moskva şəhər təsərrüfatı idarəsində çalışmışdır. Yetmişinci illərin sonlarında isə partiyaçı olmasa da, öz qabiliyyətinə görə Moskvanın ən böyük rayonlarının birində abadlaşdırma və yol idarəsinin rəisi olmuşdur. 1981-ci ildə dünyasını dəyişmişdir.

Alma-Atada təhsilini davam etdirmək şansı qazanan ailənin qızları; Minurə rus dili və ədəbiyyatı, Fatma fizika-riyaziyyat fakultələrini bitirərək ali təhsil alsalar da, orta məktəbi başa vura bilməyən kiçik bacı Leylaya ali məktəbdə oxumaq qismət olmur.

Digər millətlərdən olan oğlanlar məmnuniyyətlə bu gözəl-göyçək bacılarla ailə qurmaq istəsələr də, mühafizəkar dünyagörüşlü Səadət xanım qızlarını yalnız öz millətinin oğluna qismət olacağını söyləyib heç əsl türk olan qazax gənclərini belə yaxına buraxmadı.

5 mart 1953-cü ildə Stalinin ölümündən iki həftə sonra, Novruz bayramı ərəfəsində Səadət xanım ailənin sonbeşiyi, 1920-ci il təvəllüdlü Leylanı özüylə götürərək Bakıya gəlmək imkanı qazanır. Günahsızlığına tam əmin olduğu əri Məhəmməd Həsən Hacınskiyə bəraət almaq üçün var qüvvəsi ilə çalışan Səadət xanım uzun əzab-əziyyətdən sonra nəhayət, Zaqafqaziya Hərbi tribunalının 29 may 1958-ci il tarixli qərarı ilə buna nail olur.

1957-ci ildə Alma-Atada Qazaxıstan yazıçılar birliyinin sədri Muxtar Auezovun rəhbərliyilə tərcüməçilərin ümumittifaq tədbiri keçirilir. Burada 1954-cü ildə Moskva Dövlət Universitetinin jurnalistika fakultəsini bitirmiş, Azərnəşrdə redaktor kimi çalışan Cahangir İldırımzadə və Şamil Hacınskinin yaxın dostu, Azərnəşrin direktoru Adil Əfəndiyev də iştirak edirdilər. Uzun illərdən sonra qohumları ilə görüşən Cahangir İldırımzadənin gəlişi Hacınskinin ailəsində iki qat toy-bayram yaratdı. Çünki həmin gün doğulmuş Şamilin oğluna babası Məhəmməd Həsənin adı verilmişdi. Bu görüşdə Cahangir bəylə Fatma xanım şahmat oynamağı da unutmamışdılar.

9 fevral 1959-cu ildə, M.Hacınskinin ölüm günündə Tiflisə yollanan Səadət xanım Axundovun məzarının ayaq tərəfinə bir dəstə gül qoyub həmin gün də geriyə qayıdır. 1960-cı ildə Bakıya köçən Səadət xanım qızları Minurə və Leyla ilə Süleyman Rüstəm küçəsindəki mənzildə yerləşir və 9 yanvar 1972-ci ildə dünyasını dəyişir.

Bakıda Sənaye Texnikumunu, Alma-Atada İnstitutun fizika-riyaziyyat fakultəsini bitirərək orada qalıb ali məktəbdə fizika müəllimi işləmiş Fatma xanım 2000-ci ildə dünyasını dəyişmişdir.

Sürgündən qayıtdıqdan sonra Məhəmməd Həsən Hacınski şəxsiyyətinə dərin rəğbəti olan Neft Kimya İnstitutunun prorektoru professor Rasim Məmmədovun qayğısı sayəsində "Rus dili və ədəbiyyatı" kafedrasına müəllim kimi işə düzələrək 26 il pedaqoji fəaliyyət göstərmiş Minurə xanım 2004-cü ildə dünyasını dəyişmişdir.

Orta təhsilli, sürgün dövründə toxuculuq peşəsinə yiyələnmiş Leyla 40 il Bakıda Nərimanov adına toxuculuq fabrikində çalışmışdı. Ailənin son və yeganə sağ qalan övladı Leyla xanım xəstədir, hazırda Süleyman Rüstəm küçəsindəki mənzildə tənha yaşayır.

## "DİFAİ"

Çarizmin fitvası ilə geniş vüsət alan ermənilərin törətdikləri milli qırğına qarşı Avropada filoloji təhsil görmüş ilk mütəxəssis Əhməd bəy Ağaoğlunun (1869-1939) yaratdığı "iki qılınc və bir aypara nişanlı" möhürlü "Difai" gizli təşkilatının ən fəallarından olan Məhəmməd Həsən Hacınskinin mühüm vəzifə tutması millətsevərlər üçün olduqca vacib idi.

1905-ci ildən milli qırğına qarşı fəaliyyət göstərən "Difai" təşkilatının rəhbərlərinin kimliyi 1920-ci ildə çap olunmuş hələ 28 avqust 1907-ci ildə Cavanşir uyezdinin rəisinin Daxili İşlər Nazirliyinə yazdığı gizli raportunda açıqlanır: "Xeyriyyə cəmiyyəti pərdəsi altında gizli fəaliyyət göstərən "Difai" antidövlət komitəsinin rəhbərləri Əhməd bəy Ağayev, Qarabəy Qarabəyov,

Məhəmməd Həsən Hacınski, İsa bəy Aşurbəyov, Behbud bəy Cavanşirski və Niftalı bəy Behbudovdur.” (103.səh.25). “Difai”nin orqanı olan “İrşad” qəzetinin 13 oktyabr 1906-cı il 241-ci sayında çap olunmuş Ə.Ağaoğlu və Q.Qarabəyovun tərtib etdiyi partiyanın proqramında deyildiyi kimi: “Hər hansı bir xalqın hüququna toxunmadan xalqın erməni-müsəlman qarşıdurmasından xilas edilməsi, müsəlmanların geriliyinə səbəb olan qüsurlu cəhətlərin aradan qaldırılması” (126) əsas məqsədə çevrildi. 1907-ci ildə 1000-dən artıq üzvü olan bu qurum ən nüfuzlu partiyaya dönür.

**Əhməd bəy Ağaoğlu:** 1869-cu ildə Qarabağda, keçmiş Qarabağ xanlığının mərkəzi Şuşa şəhərində zadəgan ailəsində doğulub. İlk təhsilini mollaxanada alsa da, sonradan anası və dayısının təkidilə rus gimnaziyasına verilir. Oranı müvəffəqiyyətlə bitirən Əhməd bəy Peterburqa gedib Texnologiya İnstitutuna imtahan verir, lakin sonuncu fəndən - triqonometriyadan lazımi bal toplaya bilmədiyindən Peterburqdan Parisə yollanmaq qərarına gəlir. Fransa həyatı onun fikri inkişafına dərin təsir göstərmişdi. 1888-ci ildə Paris hüquq məktəbinin tələbəsi olur, eyni zamanda Praktik Ali Tədqiqatlar məktəbində “Avesta”nın məşhur tədqiqatçısı C.Darmstaterin “Şərq xalqlarının tarixi”nə dair mühazirələrini dinləyir. Parisdə olarkən o, həmçinin, türk inqilabçılar ilə yaxınlaşır, siyasi həyatda hələ ilk addımlarını atan “İttihad və tərəqqi” partiyasının gələcək liderlərilə tanış olur. 1894-cü ildə atasının ölümü ilə əlaqədar vətənə dönən Ə.Ağaoğlu həmyerliləri arasında “Firəng Əhməd” ləqəbi qazanır. 1881-ci ildən “Kaspi” qəzetində, 1905-ci ildən isə Ə.Hüseynzadə ilə birlikdə “Həyat”da çalışmağa başlayır. 1905-07-ci illərdə Rusiya müsəlmanlarının Nijni-Novqorodda, həmçinin Peterburqda keçirilən birinci və üçüncü qurultaylarının fəal iştirakçısı kimi onun imperiyanın türk-islam toplumunun mənafelərini müdafiə edən qərarların qəbul edilməsində mühüm xidmətləri olmuşdu.

1905-ci ilin sonlarına qədər daha çox “söz adamı” kimi tanınan Ə.Ağaoğlu ermənilərin öz cinayətkar əməllərindən əl çəkməmələri səbəbindən xalqı zülmə, irticaya qarşı silahlandırmağı zəruri şərtlərdən hesab edir. Bu məqsədlə o, 1906-cı ildə “Difai” (Müdafiə) partiyasının təşkilinə başlayır. Özünü “Qafqaz ümummüsəlman müdafiə komitəsi” adlandıran “Difai” proqramında xalqı düşdüyü ağır vəziyyətdən qurtarmağın yolunu maariflənmək və qüvvətlənməkdə olduğunu göstərirdi. Xalqı silaha əl atmağa çağırarkən Əhməd Ağaoğlu qətiyyən günahsız insanların qanının tökülməsi və total terrorun tərəfdarı kimi çıxış etmirdi. Bu partiyanın proqramında da göstərilirdi ki, təşkilat heç vaxt Qafqazdakı digər xalqların azadlığına və milli ləyaqətinə qarşı çıxmayacaq, onun şüarı Qafqaz xalqlarının birliyi olacaq.

1905-07-ci illərdə etnik konfliktlər zamanı sülhsevər missiyanın başında dayanmasına baxmayaraq Ə.Ağaoğlu mürtəce erməni və erməni-rus mətbuatı

tərəfindən bir nömrəli düşmən elan edilmişdi. 20 fevral 1906-cı ildə Qafqaz canişini Vorontsov-Daşkovun Tiflisdəki Humayun sarayının Yaşıl zalında təşkil etdiyi erməni-müsəlman sülh məclisində milli qırğını törədən səbəblər araşdırılırdı. Qafqaz canişinindən əlavə, onun müavinləri, Tiflis, İrəvan, Gəncə qubernatorları, Krım Soltanı Gəray, general Malama, general Şirnikin hökumət tərəfindən məclisə nəzarət edirdi. İslam nümayəndələri arasında əsas söz sahibləri Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Qarabəy Qarabəyov, erməni vəkilləri arasında isə "Müşak" qəzetinin sahibi Kalantar idi.

25 fevral 1906-cı ildəki beşinci məclisdə Kalantarın münaqişə səbəbini aradan qaldırmaq üçün guya toqquşmaların əsas səbəbkarları olan köçərilərin yaylağa gediş-gəlişinin qadağan edilməsi təklifi və: "Köçərilik öz-özündə insanın çox alçaq və səfil dərəcədə olmağına dəlalət edər. Ancaq qeyri-mədəni tayfalar köçəri olurlar. Və müsəlmanların köçəri olması bütün Qafqaz əhalisinə zərərdir. Gərək çalışaq ki, onlar bu tövr dirilikdən əl çəksinlər və oturaq olub kənd təsərrüfatı və sənətlə məşğul olsunlar. Hal-hazırda müsəlmanların özlərində bu işə meyl görünür, bəzi yerlərdə ki, pambıq və düyü əkirlər, əhali yavaş-yavaş oturaq olur, çox yerlər də ancaq adətə görə köçməkdədirlər. Bir halətdə ki, köçməyə ehtiyac əsla qalmayıbdır, lazımdır ki, dövlət və hökumət öz tərəflərindən kömək və binagüzarlıqlar edib köçəriləri oturaq etsinlər. Əks təqdirdə Qafqazın mədəniyyətcə tərəqqi etməsi müşküldür. Bu ilə gəldikdə labüdən hökumət köç etməyi qadağan etsin. Lazımdır ki, düşmənçilik edən bu iki milləti ayırıb arasında maneə olmaq ki, bir qədər bir-birilərini görməyib bu ədavəti yaddan çıxartsınlar. Yoxsa ki, toqquşma olar. Biz bu sözləri ermənilərin xatirəsi üçün söyləməyib müsəlmanların da xeyrinə danışırıq. Xırda uşaqları ilə, mallarla köç edən camaat dağlarda naçar və məəttəl qalırlar. Hərgah, bir iş düşsə, heç bir şey əllərindən gəlməz. Biz, erməni vəkilləri sülhün xatirəsi üçün təvəqqe edirik təcili olaraq bu il köç məsələsi dayandırılsın." (69.səh.107,108) fikirləri Əhməd bəy Ağaoğlu tərəfindən hiddətlə qarşılanır. M.S.Ordubadinin "Qanlı illər" kitabında "Tiflis sülh danışıqları" başlığı altında təqdim etdiyi bu sənədlərdən göründüyü kimi, xitabət kürsüsünə çıxan Əhməd bəy Ağaoğlunun cənab Kalantara cavabı xalq adından danışmaq hüququ qazanmış hər kəs üçün əvəzsiz tədris nümunəsidir: "Cənab Kalantarın buyurduqları camaata dair elmin ki, ibarət olsun ictimai və millət tərəqqisi elmlərindən təlim etdiyi həqiqətlərə tamamilə ziddir. Dünyada bütün insanlar öz tərəqqilərində üç mərhələdən keçirlər: əvvəlinci mərhələ ov mərhələsidir ki, insanlar ov ilə məişət edirlər. İkinci mərhələ köçərilik və mal bəsləmək dərəcəsidir. Üçüncü mərhələ mədənilik, yəni şəhərdə sakin olub sənət və əkinçiliklə güzəran keçirməkdir. Bu üç mərhələni keçmək bütün tayfalar üçün çarəsizdir.

Heç bir iş, heç bir fərman ilə insanları bu mərhələlərin birisindən o birisinə birdən-birə aparmaq olmaz. Gərək zaman keçdikcə və zəmanənin tələbi ilə özləri bu mərhələləri təbdil etsinlər. Bu ümumi və təbii bir qaydadır. Əks halda, hökumətin və dövlətin köçəriləri mədəni və ya mədəniləri köçəri etmək ona bənzər ki, hökumət və dövlət şimaldan əsən küləyi qərbə döndərmək fikrinə düşə...

Milyonlarca adam süd, pendir və ət ilə yun və bu kimi heyvan məhsulatlarıyla dolanırdılar. Bunlara birdən-birə "köç etmədən əl çək" buyuran cənab Kalantar bunlar nə yeyib dolansınlar məsələsini əsla düşünmür. Gör və gör ki, cənab Kalantar bu qədər müsəlmanı bir neçə dağ ermənisinin xatirinə acından öldürməyə hazırdır.

Köç olmasın demək asandır, yol məişət göstərmək çətindir. Heç cənab Kalantar bu köçərilərin arasında olubmu? O, görübdürmü ki, yay fəsli olanda bütün canlı heyvanlar, insanlar, inək və qoyunlar, hamını ağızlarını dağ səmtinə tutub mələyirlər?! Hamını qəribə bir vəziyyət alıb şüursuz olaraq dağ tərəfinə aparır.

Bu cəhalətin önünü almaq insanın qüvvət və gücündən yuxarı bir şeydir. Qışlaqlar cəhənnəmə dönür, sular, çaylar quruyur, ot kökündən kəsilir, milyonlarca həşərat baş qaldırıb hər yerdə bir qanlı şey görürsə ilan kimi çalırlar. Malyariya adlanan qızdırma mallara və insanlara təfavüt etmədən sirayət edib, canlarını alır. Cənab Kalantar köçəriləri bu bəlalara düçarmı etmək istəyir? Belə isə əcəb rəhimdir! Əcəb insaniyyətpərvərlikdir." (69.səh.109).

Məhəmməd Səid Ordubadinin qeyd etdiyi kimi çıxışdan sonra əhvalı xarab olan Əhməd bəy Ağaoğlu halətsiz olub sarayın otaqlarından birinə aparıldıqda xitabət kürsüsünə çıxan Q.Qarabəyovun "Köçərilik qadağan edilərsə erməni-müsəlman məsələsi alovlanıb Qafqazı odlayacaqdır!" (69.səh.110) xəbərdarlığı savadına güvənən bu şəxsiyyətlərin mənəvi güclərini də nümayiş etdirir. Məhz xalqın belə qeyrətli övladlarının iradəsi tarixən heyvandarlıqla məşğul olub Aran-Yaylaq həyatı sürən əhalinin minilliklər ərzində formalaşmış həyat tərzinin çarizmin müstəmləkə siyasəti məngənəsində məhv edilməsinə qarşı çıxa bilirdi.

Sosializmin ilkin mərhələsində vaxtilə Kalantarın təklif etdiyi, heyvandarlıq üçün yararlı olan çöllərimizdə pambığın becərilməsi flora və faunada fəlakətlər törədərək xüsusən qoyunçuluğun inkişafı nəticəsində təbii şəkildə gübrələnən torpağın xumus qatının məhvinə, saysız-hesabsız meşələrin, çoxillik bitkilərin, vəhşi heyvan və quşların kökünün kəsilməsinə səbəb olurdu. Gədəbəy ərazisindəki mis mədənlərində odunun yanacaq kimi istifadə edilməsi isə meşəli yamacların çılpaq qayalıqlara çevrilməsini daha da sürətləndirdi. Digər tərəfdən Aran-Yaylaq ərazisinə öyrənmiş əhalinin qızmar günəş altında qul əməyi ilə məşğul olması onlara kökü min illərə gedib çıxan çöl mədəniyyətinin folklor poetikasını və adət-ənənələrini tədricən unutdururdu. "Kitabi Dədə-Qorqud" kimi dünya mədəniyyətinin incisini yaratmış xalqın kütləvi halda manqurtlaşması siyasəti

həyata keçirildi. Əsrin ortalarında ölkədə pambıqçılığın inkişaf etdirilməsi pərdəsi altında A.Mikoyanın təhrikilə Ermənistanın dağlıq ərazilərindən zorla köçürülən azəri-türk əhalisi malyariyanın tüğyan etdiyi Aranda yerləşdirilərək ölüm-dirim seçimi qarşısında qaldı. Əsrin sonunda isə qloballaşan erməni-daşnak terroru nəticəsində Azərbaycan əhalisi kütləvi qırğınla üzləşdi. Ərazisinin iyirmi faizi işğal olundu. Və milyondan artıq qaçqın yurd-yuvasını itirdi. Səbəb isə bütöv bir tarixi mərhələdə vətən, torpaq, xalq deyən ziyalılarımızın məhv edilməsi, təqibə məruz qalması idi.

Sonradan Nəsib bəy Yusifbəyovun Azərbaycandan kənarda mükəmməl təhsil almış, əsasən bəy, xan zümrəsindən olan ziyalılardan ibarət “Türk ədəmi mərkəziyyət firqəsi”nə çevrilən “Difai”ni yaratdığına görə günahlandırılan Əhməd bəy Ağaoğlu Türkiyədə ingilislər tərəfindən həbs olunaraq 1919-cu ilin mayında Malta adasına sürgün olunmuş və burada bir gözünü itirmişdi.

1921-ci ildə sürgündən qayıtdıqdan sonra Türkiyədə fəaliyyətini davam etdirən Ə.Ağaoğlu 1930-cu ildə böyük bir siyasi oyuna qoşulur. Türkiyənin hakim Cümhuriyyət Xalq Partiyasına rəqib olan Sərbəst firqənin ən öncül liderlərindən birinə çevrilir. Lakin firqə oyunlarından dərin sarsıntı keçirmiş Əhməd bəy həyatının son illərində bədbinlik və ruh düşkünlüyünə qapılır. O, 1939-cu ildə may ayının 19-da İstanbulda dünya ilə vidalaşır.

**Qarabəy Qarabəyov:** Qarabəy Qarabəyov 13 yanvar 1874-cü ildə o zamanlar Yelizavetpol qəzasının Zəyəm sahəsinə tabe olan Yuxarı Ayıblı kəndində İsmayıl bəyin və Şeyda xanımın ailəsində doğulmuşdur. İlk təhsilini Anninoda (Şəmkir) alman-rus litseyində aldıqdan sonra on iki yaşında Tiflis klassik gimnaziyasına qəbul olur və oranı əla qiymətlərlə bitirərək Bakıya - anasının, qardaşları Əli və Cəfərin, bacısı Gövhərin yaşadığı Malakan (Xəqani) küçəsi, bir saylı evə gəlir. H.Z.Tağıyevin hesabına Moskva Universitetində dörd il təhsil aldıqdan sonra 1896-cı ildə inqilabi fəaliyyətinə görə bir il həbs cəzasına məhkum edilir. Həbsdən azad olunduqdan sonra təhsilini Dert (Tartu) Yuriyev Universitetinin tibb fakultəsində davam etdirir və 1899-cu ildə oranı bitirib alman dilinə mükəmməl yiyələnmiş halda əczaçı diplomu alır, iki il Moskvada işləyir, 1901-ci ildə isə Bakıya qayıdaraq müstəqil həkim kimi fəaliyyətə başlayır.

1901-ci ildə Qarabəy, Nabat xanım Qoca bəy qızı Aşurbəyovanın qızı Gülbəstədən olan nəvəsi İsa bəy Aşurbəyovun əmisi, millioner Hacı Rzaqulu bəy Aşurbəyovun ikinci qızı Məsumə xanımla evlənir və yeni qohumlarının köməyilə Malakan bağının yanındakı binada şəhərdə ilk dəfə olaraq venerolooji xəstəliklər üzrə kabinet açır.

XIX əsrin sonlarından Türkiyədə mütərəqqi fikirli yeni osmanlıların davamçıları olan “yeni türklər” hərəkatı 1889-cu ildə “İttihad və tərəqqi” təşkilatını yaratdı. Tədricən ölkənin ictimai həyatında mühüm yer tutan bu təşkilat 1908-ci

ildə sultan Əbdülhəmidi konstitusiyanı bərpa etməyə və parlament çağırmağa vadar etdi. Əslində 1908-18-ci illərdə Türkiyədə real hakimiyyəti idarə edən “İttihad və tərəqqi” partiyası tədricən qonşu ölkələrə də nüfuz edir.

Azərbaycanda “İttihadi-islam” kimi mütərəqqi fəlsəfi-siyasi təlimi təkmilləşdirərək cəmiyyətə tətbiq edənlərdən biri hələ Parisdə Sarbon Universitetində oxuyarkən Şeyx Cəmaləddin Əl-Əfqaninin yaxın dostu və tələbəsi olmuş, ondan dərs almış Əhməd bəy Ağaoğlu idi. Bu qlobal işi həyata keçirməkdə Əhməd bəyin ən yaxın ideya və məslək dostları Əli bəy Hüseynzadə və Qarabəy Qarabəyov idi. “İttihadi-islam” təlimində həmin dövrdə artıq təhrifə məruz qalmış İslamın tənzimlənməsi, onun təlqin etdiyi qanun-qaydaların, həyat tərzinin açıqlanması və bərpa olunması məsələsi vacib sayılırdı. Qarabəyov “Kaspi” qəzetinin 21 aprel 1900-cü il 87-ci sayında panislamizmin mahiyyətini açmaq üçün yazırdı: “Panislamizm özünün daxili məzmununa görə geriyə dönməkdir. Köhnəliyə qayıtmaq yox, daha inamla, daha qüvvətlə irəliyə.” (41).

Rusiya müsəlmanlarının müxtəlif bölgələrdən gələn nümayəndələrinin iştirakı ilə 1905-ci ilin avqustunda Nijni-Novqorodda “Qustav Struve” gəmisində gizli keçirilən ilk təsis iclasında sonradan partiyaya çevrilən “İttifaqi-müsəlman” təşkilatının yaranması və beş maddədən ibarət qərarla milli azadlıq ideyasının formalaşması məsələsi həyata keçirildi. Ə.Topçubaşovun rəhbərliyi ilə yaranan “İttifaqul-müslimin” firqəsi Azərbaycanın ictimai-siyasi həyatında mühüm bir mərhələ idi. Həmin dövrdə “İttihadi-islama” əsaslanan və “Daşnaksütun” firqəsinə alternativ olan “Difai” kimi nüfuzlu təşkilatın yaranması da labüd idi.

1905-ci ildə çarizmin fitvası və Bakının qubernatoru Nakaşidzenin təhrikilə alovlanan milli münaqişədə ermənilər qardaşı Cəfəri evinin qarşısında öldürdükdən sonra intiqam hissi ilə alovlanan Qarabəy bu qlobal terrorun qarşısını almağı özünün əsas amalına çevirir. Məsləkdaşları ilə birlikdə şərə qarşı üsyan edən Qarabəy Qarabəyov islam, türklük, müasirlik ideyasının və o dövrdə geniş yayılmış ictimai cərəyan olan romantizmin banisi Əhməd bəy Ağaoğlunun yaxın silahdaşına çevrilir. Xeyriyyə cəmiyyəti kimi qeydiyyatdan keçən “Difai” (Müdafiə) vahid milli təşkilatı xalqı qırğından qorumaq üçün müqavimət hərəkatına çevrilərək qısa müddətdə öz ətrafına mindən artıq qeyrətli vətəndaş toplayır. Xalq arasında geniş nüfuza malik olan “Difai”nin fəaliyyəti nəticəsində erməni terroru ilə üz-üzə gələn saysız-hesabsız günahsız vətəndaşlar ölüm təhlükəsindən xilas olur. Bu təşkilatın məzlum xalqı qoruyan xilaskar missiyasını ləkələmək istəyənlərə qarşı öz daxili etirazını kağız üzərinə köçürərək çap etdirən Qarabəy Qarabəyov o vaxtdan etibarən həkimliklə yanaşı, publisist kimi də fəaliyyət göstərməyə başlayır.

1906-cı ildə İranda inqilabi fəaliyyətini davam etdirən Qarabəyov Rəşt tutulduqdan sonra Mirzə Abdulla Xan adı altında Berlinə qaçır. 1908-ci ilə qədər

Avropanın mərkəzi şəhərlərində yaşadıqdan sonra 1908-ci ildə İstanbula gələn Qarabəyov "İttihad" partiyasının əsas özəklərindən biri olan "Səadət" təşkilatını yaradır. Həmin il hakimiyyəti ələ alan "Gənc türklər" Qarabəyova vəzifə təklif etsələr də, o bundan imtina edir.

1911-ci ildə Bakıya qayıdan kürəkəni Qarabəyovun ailəsi üçün Hacı Rzaqulu bəy Aşurbəyov Vorontsov (indiki Əzizbəyov) küçəsindəki 17 saylı (Məhəmməd Əmin Rəsulzadə isə qonşuluqdakı 15 saylı evdə yaşayırdı) bir mərtəbəli mülkü alır. Qarabəyin həyat yoldaşı Məsumə xanımın dayısı - inşaatçı mühəndis, şəhər dumasının üzvü, Bakı millionerlər dumasının sədri Abbasqulu Rzayevin podaratçılığı ilə mülkə iki mərtəbə də əlavə olaraq tikilir. Ailə üçmərtəbəli mülkün üçüncü mərtəbəsində məskunlaşır, ikinci mərtəbə kirayə verilir, birinci mərtəbə isə müalicəxanaya çevrilir və qəzet elanlarından göründüyü kimi burada doktor Qarabəyov hazırladığı dərmanlarla xəstələri müalicə etməklə yanaşı, rentgen, mədən suları və təbii otların imkanlarından da geniş istifadə edir.

"Haqq yolu" adlı qəzet nəşr etmək fikrinə düşən Qarabəyovun 27 oktyabr 1911-ci ildə Bakı bələdiyyə rəisinə ünvanladığı xahişnaməsindən (158) göründüyü kimi həftədə bir dəfə azərbaycan dilində çıxacağı və 12 şöbədən ibarət olacağı nəzərdə tutulan qəzet sırf maarifçi funksiya daşıyacaqdı. Lakin sonradan Qarabəyov fikrini dəyişib qəzet deyil, "Molla Nəsrəddin" ənənələrinə sadiq olan bir jurnal nəşr etdirməyə qərar verir. Həmin dövrdə "Nicat" cəmiyyətinin təsis etdiyi, M.F.Axundovun yüz illik yubiley komissiyasının sədri seçilən Qarabəyov klassik dramaturgiyamızın banisinin ədəbi irsinin çapı və yerlərdə təbliği üçün əməli tədbirlər görməyə başlayır.

4 dekabr 1911-ci il "Kaspi" qəzetinin 273-cü sayında yubiley tədbiri barədə oxuyuruq: "Təntənəli mərasimi açan yubiley komitəsinin sədri doktor Qarabəyov məzmunlu nitq söylədi. "Bu gün biz xalqın qəlbində layiqli yer tutmuş bir insanın xatirəsini yad edirik. O, müsəlman aləminin qüsur və eybəcərliklərini göstərmiş bir sənətkar olmaqla yanaşı, hər bir personajı öz dilində danışmağa məcbur etmişdi. Axundovun nəzəri və praktiki fəaliyyətindəki bu qətiyyət və inam şərq despotizminin təzyiqinə məruz qalmış xalqın idrak və mənəviyyatında nadir hadisədir ki, bizlər ondan nümunə götürməliyik. Anlamalıyıq ki, əqidə olmadan ictimai fikri ələ almaq və cəmiyyət üçün faydalı olmaq qeyri-mümkündür. Təəssüf ki, bizim aramızda Axundov kimilərə nadir hallarda rast gəlinir. Qara kütləyə rəhbərlik iddiasında olan biz ziyalılar əslində öz mənafeyimizə və şişirdilmiş ad-sanımıza xidmət edirik. Biz güc sərf etmədən ön cərgədə olmaq arzusunda və həsrətindəyik. Mədəni xalqlarda belə hallar çoxdan keçmişdə qaldığından onlar gələcəyə doğru inkişaf edə bilmişdilər, biz isə yerimizdə donub qalmaqdayıq. Hələ ki, biz yüksək ideyalar uğrunda çarpışmırıq, hələ ki, Axundovlar doğulmur bu məsələ həll olunmamış qalacaqdır. Bizim geriliyimizin bütün günahkarları öz

marağını güdərək xalqın şürunu çaşdıran bizlər özümüzük. Biz özümüzü tərbiyə edəndən sonra kütlə ilə məşğul ola bilərik. Görkəmli ədib, eyni zamanda əsl vətəndaş olan Axundov həyatı boyu ürəyində bəslədiyi ideyaya sadiq qalmaqla kifayətlənməmiş, bütün çətinliklərə və maneələrə baxmayaraq bu ideyanı həyata keçirməyi bacarmışdır. Məhz bu xüsusiyyəti onu son dərəcə nadir və yüksək şəxsiyyət kimi tanıtmışdır. Əsl ziyalı vətəndaş elə şəxsə deyilir ki, o, yalnız yüksək ideyaya yox, həm də bu ideyanı həyata keçirmək iqtidarına və əzminə malik olsun." Sonra onun Qurandan misallar göstərməklə maarifçinin əhəmiyyətini vurğulaması alqışlarla qarşılanır. Yubiley komissiyasının sədr müavini yazıçı-dramaturq Ə.Haqverdiyev "Mirzə Fətəli Axundov və onun əsərləri" mövzusunda məruzə edir. "Hacı Qara" komediyasından 2-ci akt göstərilir, sonra isə M.F.Axundovun şərəfinə nitqlər söylənilir." (135).

1911-ci il dekabr ayının 14-də həftəlik, siyasi, ədəbi, iqtisadi jurnal olan "Haqq yolu"nun ilk nömrəsi çapdan çıxdı. 1911-1912-ci illərdə fəaliyyət göstərən nəşrin birinci nömrəsində Q.Qarabəyovun 1911-ci il dekabr ayının 2-də Tağıyevin teatrında keçirilən mərasimdəki nitqi tam halda dərc olunmuşdur. Qəzetdə siyasi, ictimai, iqtisadi mövzularla yanaşı, maarifçi funksiya daşıyan xronika materialları, dünya ədəbiyyatından tərcümələr də verilirdi.

1911-12-ci illərdə aparılan İtaliya-Türkiyə müharibəsində iştirak etmək üçün gənclərimiz könüllü olaraq döyüş bölgələrinə getməyə can atırdılar. Türkiyəni qorumaq naminə olsa da, problemlər yaradan bu kortəbii axının qarşısını almaq məqsədilə "Haqq yolu" qəzetinin 24 oktyabr 1912-ci il 19-cu sayında Qarabəyov "Könüllülər lazımdırmı?" məqaləsi ilə çıxış edir. Məqalənin mətni dövrün mənzərəsini aydın şəkildə göstərir: "Ehtimal ki, bizim cavanlarımız arasında gedib müharibə meydanında qan tökmək istəyənlər olsun. Bu barədə öz mülahizəmi bəyan etməyi lazım bilirəm. Biz müsəlmanların vəzifəsi mücahidə edən qardaşlarımıza kömək etməkdir. Nəinki onlara ziyan vermək. Əgər burdan hər kişi 40 manat bulub bununla yola qoyularsa, gedib orada İstanbul aclarının miqdarını artırmaqdan, osmanlıların boğazına sarılıb əkmək istəməkdən başqa heç bir xidmət edəməzlər. Ac adam orada daha çoxdur. Əlli manat yola sərf edilən pulu bu adamlar getməyib ianə etsələr çox məqluanə (məqsədə uyğun) hərəkət etmiş olurlar. Bizim adamlarımız gedib orada əsgərlik edəməzlər. Yaralılara baxmaq vəzifəsini ifa edəməzlər. Çünkü yaralıya baxmaq üçün yüz minlərlə əcəmi adamlar vardır. Deməli, bu adamları geri göndərmək üçün belə osmanlılar gərək ciblərindən pul versinlər, elə isə bu hümmiyyət olmayıb müzərrət olur. Oraya gedən adam ya əsgər olmalıdır ki, qayda üzrə gözəl müharibə edə bilsin. Ya doktor olmalıdır onda da öz pullarıyla, öz dərmanlarıyla, öz xərciylə ki, həqiqətən müavinət edə bilsin. Yoxsa gedib orada aclığı artırmaq cinayətdir. Xristian könüllüləri bizlərə nisbətən qəbul edərlər, çünki onların əksəri ya əsgərlik görmüş adamlardır, ya zəngin

adamlardır gedirlər orada öz pullarıyla acları da saxlamağa yaxud, bunlar öz hesablarına doktor dəstəsi ya dərman göndərirlər. Əgər Bakı istəsə beş dənə doktor dəstəsi göndərər və öz hesabına müharibə meydanında böyük bir xəstəxana açıb saxlaya bilər, bu xüsusi düşünülməlidir.” (42).

Qeyd edək ki, “Haqq yolu” qəzeti Osmanlı imperiyasının İtaliya müharibəsində Avropa və Afrikadakı ərazilərini itirməsini, 1912-13-cü illərdə genişlənən Balkan müharibəsində bu imperiyanın iflasa uğramasını, “İttihad və tərəqqi” partiyası sayəsində osmanizmi panislamizm və pantürkizm ideyalarının əvəz etməsini izləyərək oxucularına çatdırırdı.

1914-cü ildə Qarabəy Qarabəyov həkim kimi Bakı milyonçularının və müsəlman ruhanilərinin təşkil etdiyi xüsusi diviziyanın tərkibində Səlib Əhmər (qırmızı xaç) cəmiyyətinin xətti ilə cəbhəyə getməyə hazırlaşır. Müsəlmanlardan ibarət “Vəhşi diviziya” adlı qoşun birləşməsinin baş həkimi olmuş Qarabəyov həmin ərəfədə mənəvi və fiziki düşkünlükdən müalicə edib ayaq üstə qoyduğu şair Məhəmməd Hadini də onunla cəbhəyə yollanmağa təhrik edir. Ərəb, fars və rus dillərini bilən böyük romantik şairimiz, əvvəl Həştərxanda, 1910-cu ildə isə İstanbulda jurnalistik fəaliyyəti ilə məşğul olmuş, Türkiyənin “Tənin”, “Rübab”, “Şahübal”, “Mahitab” və “Hilal” qəzetlərində şer və məqalələri ilə çap olunmuşdu. Məhəmməd Hadi burada yüksək rütbəli bir məmuru təhqir etmək üstündə həbs edilir. “Minlərlə binəva quru yerlərdə can verir, Beş-on ləin naili doryayi nemətin..” deyə sosial ədalət axtaran şair mənəvi sarsıntı içərisində vətənə dönür və ən yaxın dostu, sirdaşı doktor Qarabəyovun təhriki ilə bir müddət onun xəstəxanasında ruh düşgünlüyündən müalicə olunur. Gəncliyinin nakam məhəbbətindən sonra ömrü boyu tənha yaşayan Məhəmməd Hadi Qarabəyovlar ailəsinin ən doğma adamı idi.

Doktor Qarabəyov cəbhədə olarkən, yeganə oğlu Müzəffərin yeddi yaşında “sibir xorası” xəstəliyindən dünyadan getməsi peşəkar həkim kimi asanlıqla bu xəstəliyi müalicə edə bilən Qarabəyə olduqca ağır təsir edir. Bir müddət ictimai fəaliyyətdən belə kənarlaşan Q.Qarabəyov Rusca-Azərbaycanca lüğət tərtibinə başlayır.

Q.Qarabəyov 1918-ci ilin sonunadək cəmisi beş nömrəsi çapdan çıxan “Yeni həyat” adlı gündəlik siyasi-ictimai və ədəbi qəzetə redaktorluq edir. Həmin ilin mart hadisələrində daşnak-bolşevik qurumunun təqibindən yaxa qurtaran Qarabəyov altı ay Dağıstanın dağ zirvələrindəki aullarda yaşadıqdan sonra artıq Türk-azərbaycan ordusu tərəfindən azad olunmuş Bakıya qayıdır.

“İttihadi-islam” firqəsinin orqanı olan, 1917-ci il dekabrın 4-dən 31-dək Azərbaycan dilində nəşr olunan “İttihad” qəzetinin Ceyhun bəy Hacıbəyovdan sonra 1919-il fevralın 21-dən 1920-ci il aprelin 23-dək rus dilində çıxan saylarının redaktoru məhz Q.Qarabəyov olmuşdu.

“İttihadi-islam” təliminin istiqlaliyyət və inkişaf konsepsiyası mütərəqqi dəyərlərə arxalandığı üçün Avropa dövlətlərində qismən də olsa anlaşılsa da, Rusiyada düşmənçiliklə qarşılanırdı. Digər xalqlarla münasibətdə humanizmi önə çəkən “İttihadi-islam” təlimini geniş kütlə üçün açıqlayan Qarabəy Qarabəyov rus dilində çıxan “İttixad” qəzetinin 7 mart 1919-ci il 2-ci sayında yazırdı: “Rus xalqı ilə hərtərəfli əməkdaşlıq vacibdir. Heç kim, heç vaxt millətimizin başına gələn müsibətlərə görə rus xalqını günahkar saymayıb. Rus imperiyası rus xalqı demək deyildir. (43).

Azərbaycanda Sovet imperiyası qurulduqdan sonra Şura hökuməti əleyhinə yerlərdə güclənən müqavimət hərəkatı və üsyanlar partiyalara qarşı təqibləri gücləndirdi. Nəhayət, 1921-ci ildə “Müsavat”, “İttihad”, “Əhər” partiyalarının fəaliyyətləri qadağan olundu və bundan sonra müalicəxanasını hökumətə təhvil verib özü müdir vəzifəsində qalmış Q.Qarabəyov başda olmaqla partiyanın 155 nəfər üzvü həbs olundu. Azərbaycan Fövqəladə Komissarlığında çalışan Beriya və Bağırovun qərarı ilə Q.Qarabəyovun əmlakı müsadirə edilir və o, Arxanqelsk vilayətindəki məşhur Solovkiyə sürgün edilsə də, burada da həkimlik fəaliyyətini davam etdirir. Nəhayət, Bakıya qayıtmış Nərimanovun səyi ilə 1923-cü ilin mayında Q.Qarabəyov sürgündən azad edilir. Nərimanovun rəsmi göndərişi və Rusiya Fövqəladə Komissarlığının icazəsi ilə 1923-cü ildə Moskvaya köçən Q.Qarabəyov həmin idarədə həkim kimi fəaliyyətə başlayır. Bolşaya Bronnaya küçəsində 24 saylı evin 4-cü mərtəbəsində mənzil alır və burada nüfuzlu bir həkim kimi Tibb İnstitutunda pataloji anatomiyadan dərs deyir, paralel olaraq Kreml xəstəxanasında da fəaliyyət göstərir.

1922-ci ilin dekabrında SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri seçilən N.Nərimanov tapdığı ürək ağrıları barədə daim Q.Qarabəyova müraciət edirdi. Tarix elmləri doktoru A.Hüseynovun 7 avqust 1991-ci il “Kommunist” qəzetində dərc olunmuş “Əqidəcə fərqlənsələr də” məqaləsində yazdığı: “Bir neçə il əvvəl Moskvada Dövlət Arxivində işləyərkən rus dilində makinada yazılmış, rəngi saralmış mətnlə rastlaşdım. Səhifənin başlığında yazılmışdı: Nərimanovun rəyi. Doktor Qarabəyovun türkcə-rusca lüğətinin nəşri haqqında. Mətn üzərində N.Nərimanov öz əliylə düzəlişlər etmişdi. Bu üç səhifəlik yazı Nərimanovla Qarabəyovun əlaqələri və Qarabəyovun lüğəti barədə məlumat verir. Əlyazmasında tarix göstərilməyib. Əlaqədar materiallarla tanışlıq mətnin 1924-cü ilin martında yazıldığını müəyyənləşdirməyə imkan verdi.” (29) sözləri Nərimanovla Qarabəyov arasındakı isti münasibətlərin təsdiqinə çevrilə bilər. Qeyd edək ki, Qarabəyovun Moskvada yaşadığı müddətdə iki dəfə nəşr etdirdiyi rusca-türkcə lüğətini daha da genişləndirməsi sənədlərdən məlum olur. Lüğətin çapı ilə bağlı yazışmalar isə uzun müddət davam etmişdi. A.Hüseynovun həmin məqaləsində göstərdiyi kimi: “Azərbaycan Xalq Maarif Komissarının müvəkkili,

əvvəllər “İttihad” partiyasının üzvü olmuş İsa Aşurbəyli 1923-cü ilin aprelində Moskvada olarkən ittifaq üzrə türk (azərbaycan - A.Hüseynov) dilində buraxılan bütün ədəbiyyatın Bakıda mərkəzləşməsi barədə məsələ qaldırdı. N.Nərimanov həmin təklifi rəğbətlə qarşılamış, Mərkəzi Şərq nəşriyyatına göndərilən məruzənin üzərində “Bu sənəd Moskvada Mərkəzi Dövlət Arxivində saxlanılır” yazmışdı: “Azərbaycan SSR Xalq Maarif Komissarının müvəkkili, nəşriyyat işində təcrübəli olan Aşurbəyli yoldaş həqiqi vəziyyətlə əlaqədar işgüzar təklif irəli sürür. Məruzənin gələcək perspektivlər haqqında mülahizələrilə tamamilə razıyam. Çox xahiş edirəm sürətləndirəsiz.” Lüğətin nəşri Azərbaycan Dövlət Nəşriyyatına təklif edilmiş, lakin tərtibçi keçmişdə ittihadçı olduğuna görə rədd edilmişdi. Belə olduqda Mərkəzi Şərq nəşriyyatının təqdimatına əsasən 1924-cü ilin fevralında N.Nərimanovun təklifilə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyyəti Q.Qarabəyovun “Rusca-Türkcə lüğət”inin nəşri haqqında xüsusi qərar qəbul etdi. Bu məqsədlə, hətta 26 min manat məbləğində vəsait ayrıldı. Məqalədə tədqiqatçı A.Hüseynov lüğətin işıq üzü görməməsinin əsl səbəbkarının 1928-29-cu illərdə çap olunan iki cildli lüğətin müəllifi Ruhulla Axundovun olmasını hesab edir.

Bir neçə dili mükəmməl bilən Qarabəyov 1925-ci ildə ona verilmiş şəhadətnamədən məlum olduğu kimi Xalq Komissarları Şurasının İşlər İdarəsində tərcüməçi kimi də çalışır. Lakin Xanlarov soyadlı bir nəfərin göndərdiyi şikayət məktubu əsasında uzun müddətli yoxlamalar başlanır. Son nəticədə günahsızlığını sübuta yetirsə də, çək-çevirlərdən zinhara gəlmiş Qarabəyov paytaxtın soyuq iqliminə və gərgin siyasi mühitinə dözə bilməyib ailəsi ilə bərabər 1929-cu ilin avqustunda Qırğızıstana köçür. Burada geniş tibbi fəaliyyətə başlayaraq 80 nəfərlik akuşer kursu yaradır və az vaxtda dinləyicilərin sayını 400 nəfərə çatdıraraq oranı tibb texnikumuna çevirməklə yanaşı, özü də histalogiya, dəri-zöhrəvi və uroloji xəstəliklər fənnlərindən mühazirələr oxuyur. 1932-ci ildə isə o dövr üçün müasir olan rentgenoloji kabinet təşkil edir. Burada təhsil alanların yarıdan çoxunun yerli əhalidən ibarət olması ucqarlarda tibbi problemlərin aradan qaldırılmasına təkan verir.

1933-cü ildə Qarabəyov Özbəkistanın qədim Səmərqənd şəhərinə köçüb xəstəxanada çalışaraq baş həkimin müavini vəzifəsinə qədər yüksəlir.

1934-cü ildə gizli olaraq Bakıya gələn Q.Qarabəyov İstiqlal prospektində indiki İqtisad Universiteti ilə üzbəüz bərbərxanada vaxtilə müştərisi olduğu usta Ağasəfərə başını qırxdırmaq istəyir. Onu tanıyan erməni bərbər Vartan guya təsadüfən Q.Qarabəyovun masanın üstündəki qaragül papağını vurub yerə salır. Buna dözməyən Qarabəyov ayağa qalxıb Vartana bir şapalaq ilişdirir. Milislər gəlincə yerindən qalxmayan Vartan Qarabəyovu hökumət adamlarına təhvil verir. Bir müddət həbsxanada qalan Qarabəy yenidən Səmərqəndə qaytarılır.

1 fevral 1936-cı ildən Səmərqənddəki "Namazqa" vərəm sanatoriyasının baş həkimi işləsə də, 1937-ci ildə Abdullayev soyadlı bir həkimin şikayət məktubu əsasında Nərimanovun silahdaşı olan pantürkist kimi həbs edilir və 10 il müddətinə Kolımaya sürgün olunur. Həkimlik peşəsi burada da Qarabəyovun karına gəlir.

1947-ci ildə sürgündən Azərbaycana qayıdan Qara bəy Şəmkir şəhərinin Roza Lüksemburq küçəsindəki 25 saylı mənzildə yaşayır. Burada iş problemi ilə üzləşdiyindən 3 oktyabrda Bakıya gəlsə də, qeydiyyat problemini həll edə bilmədiyindən yenidən Səmərqəndə qayıdır və ömrünün sonuna - 27 sentyabr 1953-cü ilə qədər orada yaşayır.

**Behbud bəy Cavanşir:** Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi Azad xanın oğlu Behbud bəy Cavanşir 1977-ci ildə Qarabağın Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində dünyaya gəlmişdir.

1890-cı ildə Alman dili təmayüllü Tiflis Realnı məktəbinə daxil olmuş və Tiflis mağazalarından birinin xidmətçisinin oğlu Stepan Şaumyanla səkkiz il bir sinifdə oxumuş Behbud bəy Cavanşir oradakı təhsilini müvəffəqiyyətlə başa vurur. 23 iyun 1898-ci ildə Tiflis Realnı məktəbinin buraxılış mərasimində Qafqaz Təhsil Dairəsinin hamisi Yanovski, "Qafqaz" qəzetinin redaktoru Veliçko və digər rəsmi qonaqlar da iştirak edirdi.

1902-ci ildə Almaniyaya gedib Frayberq Dağ-Mədən Akademiyasına qəbul olan Behbud bəy burada mükəmməl təhsil alır. Akademiyanı fərqlənmə ilə bitirib mühəndis ixtisası ilə yanaşı, almancaya da mükəmməl yiyələnmiş Behbud bəy ingilis dilini öyrənmək üçün Londona gedib bir il orada staj keçdikdən sonra 1907-ci ildə vətənə qayıdıb Şibayevin neft sənayesində çalışmağa başlayır.

1908-ci ildə Bakıda "Daşnaksütun" partiyasını möhkəmləndirmək məqsədi güdən Stepan Şaumyan Behbud bəyin sayəsində Xalq Evinin müdiri təyin olunsa da, bir müddət sonra şəhər rəisinin qərarı ilə bu vəzifədən uzaqlaşdırılır. Dostuna arxa duran Behbud bəy onu Şibayevin Balaxanıdakı neft kəmərləri idarəsinə müdir təyin etdirir. 1909-cu ilin mayında siyasi fəaliyyətinə görə həbs edilən Şaumyanı yenə Behbud bəy yeddi yüz manat cərimə ödəməklə azad etdirir.

1918-ci ilin mart qırğınında Behbud bəyin evinə silahlı basqın edən daşnakların lideri keçmiş yaxşılıqların əvəzini çıxaraq dostunu ailəsi ilə birgə öz mənzilinə köçürür.

17 iyun 1918-ci ildə Gəncədə Fətəli xan Xoyskinin yaratdığı hökumət kabinəsində daxili işlər naziri vəzifəsini tutan Behbud bəy Cavanşir həmin ilin 6 oktyabrından sənaye və ticarət nazirini də əvəz edir. Sonradan vəzifədən uzaqlaşdırılsa da, parlamentdə iştirak etməklə yanaşı, 18 iyul 1919-cu ildən "Dəyanət" kommersiya şirkəti açıb xarici ticarətlə məşğul olan Behbud bəy bu sahədə görünməmiş müvəffəqiyyət qazanır.

1921-ci ilin yanvarında Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun tapşırığı ilə neft-mədən avadanlığı almaq üçün bir müddət Almaniyada yaşayan Behbud bəy Cavanşir həmin ilin yayında milliyyətcə rus olan həyat yoldaşı Tamara xanım, eləcə də qardaşları Surxay və Cümşüdlə birlikdə İstanbulda Əhməd bəy Ağaoğlunun qonağı olurlar.

8 iyul 1921-ci ildə saat on bir radələrində "Pere Palas" mehmanxanasının önündə arxadan güllə səsini duyan kimi kəskin surətdə geri dönüb qatilin üstünə atılaraq qolundan tutmağa nail olan Cavanşir xan caninin onun qarnına tuşladığı revolverdən açılmış iki atəşlə ölümcül yaralanır. Cinayət zamanı yanında olan həyat yoldaşı və qardaşları onu xəstəxanaya çatdırsalar da, sonda "Cənablar, pəncərəni açın, hava çatışmır, mən ağırlaşıram!" - deyən, böyük rus inqilabı və hərcmərclik illərində dəfələrlə sui-qəsdlərə məruz qalsa da, öz həyatını soyuqqanlıqla qorumağı bacaran Behbud xan Cavanşiri bu dəfə xilas etmək mümkün olmur. O, erməni terrorçusu Misak Terlakyanın açdığı güllədən dünyasını dəyişir.

Əhməd bəy Ağaoğlunun qızı Sürəyya xanım xatirələrində yazır: "Atam Maltadan qayıtdıqdan sonra erməni dostlarından bir professor bizə gələrək atamın ermənilərin qara siyahısında olduğunu, atamı sevən dost kimi onu xəbərdar etməyi özünə vəzifə bildiyini və buna görə də hərəkət etmək lazım gəldiyini söylədi.... Azərbaycan daxili işlər naziri Behbud xan Cavanşirin də ermənilərin qara siyahısında olması xəbərini almışdıq. O arada Cavanşir xanımı və iki qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə başındakı evimizdə beş gün gizli yaşadı. Ancaq rus əsilli xanımı bu həbs həyatına dözə bilməyəcəyini söylədiyindən evimizi tərk edib "Pere Palas" mehmanxanasına yerləşdilər. Ertəsi gün səhər tezdən anama Behbud xanın axşam "Pere Palas" mehmanxanasına gələrkən bir erməni tərəfindən vurulduğu xəbərini gətirdilər." (47.səh.153).

Cavanşir xanın qatili erməni Terlakyanın məhkəmə işini Sürəyya xanım belə xatırlayır: "Kiçik, zəif adam olan qatil tir-tir titrəyirdi. Prokuror onun üçün ölüm cəzası istədi. Tələb bizi də heyrətləndirdi. Bu gənc zabitdən belə cəsarəti gözləmirdik. Lakin həmin prokuror 24 saatın içərisində Türkiyədən uzaqlaşmağa məcbur edildi. Yerinə gələn yeni prokuror isə müttəhimin bəraətini istədi. Təbii, qatilə bəraət verildi və həmin gecə buradakı ermənilər tərəfindən vəkili ilə birlikdə Amerikaya qaçırıldı. (47.səh.154).

**Lütfəli bəy Behbudov:** Pənahəli xan İran şahı ilə ziddiyyətə girib Qarabağa çəkildikdən sonra oğlu Behbudəli xan İranda şah sarayında əsir qalır. Dəfələrlə oğlunu əsirlikdən xilas etmək yolları axtaran Pənahəli xan sonda ona bihuş verərək yatırdıb ölmüş olduğunu göstərmək fikrinə düşür. İran şahına oğlunu öz torpağında basdırmaq istəyini bildirdikdə isə Behbudəli xanı ölmüş bilən İran tərəfi

çürüməməsi üçün meyidi eventerasiya edərək Qarabağa göndərir. Bundan sonra Qarabağ xanlığını yaradan Pənahəli xan ömürlük İran şahı ilə düşmən münasibətində qalır. Lütfəli bəy Behbudov da həmin Behbud xanın nəslindən olub onun nəvəsi Rəhim bəyin oğludur. Rəhim bəyin daimi iqamətgahı Qarabağın üç oğlan kəndində olsa da, onun Şuşada Cıdır Düzündə gözəl malikanəsi də var idi. Mirzəli, Lütfəli, Əli oğlanları, Səltənət, Sürəyya, Nəstərən və Həmidə isə qızları idi. Uşaqlıqdan Qarabağ ləhçəsinə uyğun Niftalı çağırılan Lütfəli bəy 1877-ci ildə Şuşada anadan olmuş, elə ilk təhsilini də orada almışdı. Ali təhsilini Peterburq Texnologiya İnstitutunun dəmiryol mühəndisi fakultəsində alan Lütfəli bəy oranı bitirdikdən sonra Kazanda əmək fəaliyyətinə başlayır və burada tatar xanlarının nəslindən olan Leyla xanımla ailə qurur. Yoldaşı ona üç qız övladı bəxş edir. 1905-ci ildə Qarabağda vəziyyətin gərginləşdiyi bir dövrdə L.Behbudov vətənə dönür və 1906-cı ildə Əhməd bəy Ağaoğlu ilə birgə "Difai" özünümüdafiə təşkilatının yaradılmasında iştirak edir.

Vaxtı ilə H.Z.Tağıyevin yanında işlər müdiri kimi çalışan mühəndis Lütfəli bəy Behbudovla onun arasında baş vermiş məişət münaqişəsinin məhz erməni sahibkarlarının təhriki ilə 1912-ci ilin mart ayında gedən məhkəməyə çıxması mətbuatda belə söz-söhbətə səbəb olmuşdu. 18 mart 1912-ci il tarixli "Baku" qəzetinin 64-cü sayından göründüyü kimi, öz mənafeyini qorumaq üçün H.Z.Tağıyevin Peterburqdan dəvət etdiyi məşhur vəkil Duma üzvü V.İ.Maklakovun: "Bu iş H.Z.Tağıyevin əleyhinə məxsusi hazırlanmış qalmaqaldır. Tanınmış ictimai xadim, xeyirxah adam olan Tağıyevin şərəfi müdafiə olunmalıdır. Prosesdə şahidlərin, o cümlədən Lütfəli bəy Behbudovun dostları da Tağıyev barəsində hörmətlə çıxış etdilər." (119) sözləri məhkəmədə haqqında söhbət gedən ziddiyyətin bir o qədər də dərin olmadığını bəlli edir.

N.Nərimanov 1909-cu ildə Həştərxanda olarkən "Astraxanskiy kray" qəzetində dedi-qodu deyil, sinfi ziddiyyət üstündə araları dəymiş H.Z.Tağıyevlə Bakı mühəndisi Behbudovun məhkəmə işində Tağıyevi müdafiə edən Azərbaycan ziyalılarına "Özünüzü biabır etdiniz bəsdirin" məqaləsində yazırdı: "Xeyirxah əməllərinə görə qolçomaq olan ictimai xadimin ehtiramını saxlamaq, şirniklik məqsədilə onu tərifləmək zəruridir. Lakin yalnış görüşü olan qolçomağa müəyyən bir millətin bütün taleyini bağışlamaq ən azı axmaqlıqdır." (109. səh.24).

Xalq yazıçısı Qılman İlkin isə özünün "Sən köhnə Bakını tanıyırsanmı?" kitabındakı "Tağıyev nəyin üstündə məhkəməyə verildi?" məqaləsində 1912-ci ildə baş vermiş münaqişədən söhbət açaraq yazır: "Behbudov Hacının yanında mühəndis işləmişdi və tez-tez Hacının yanına gedib-gələn adamdı. Hacı ilə onun arasında münaqişə guya qısqanclıq üstündə olub. Behbudov döyülməyinə döyüldü. Lakin kimin tərəfindən döyüldüyü məlum deyildi. Bu əhvalatdan bir neçə ay keçəndən sonra Behbudov döyüldüyü barədə məhkəmədə iş qaldırdı. Behbudovun

məhkəməyə müraciət etməsi onu qızışdıran ermənilərin sayəsində olmuşdu. Şəhərdə müxtəlif şaiyələrin yayılmasında da ermənilərin barmağı vardı.” (39.səh.33) 1913-cü il martın 6-dan 12-dək gedən məhkəmənin qərarı ilə H.Z.Tağıyev iki il yarımlıq həbsə məhkum edilsə də, Ə.Topçubaşovun rəhbərliyilə Peterburqa, imperatorun yanına gedən xüsusi heyət onun bağışlanmasına nail olur. H.Tağıyevin xanımı ilə yaşamağa davam etməsi isə bu qısqanclığın əsassız olduğu qənaətini yaradır.

Həmin hadisədən sonra ailəsilə birlikdə bir müddət Parisdəki əmisi oğlu Səlim bəy Behbudovun yanında yaşayan Lütfəli bəy daha sonra Türkiyəyə köçür. 1918-ci ildə isə Əsgərana gələn L.Behbudov ermənilərlə danışıqlara girir və hətta könüllü olaraq ailəsilə birlikdə erməni məhəllələrinin birinə köçərək orada girov kimi qalmasına da razı olur. Lakin növbəti danışıqlarda əynində türk zabitlərinə xas mundir olan Lütfəli bəy erməni snayperinin gülləsinə tuş gəlir. Həyat yoldaşının ölümündən sonra Leyla xanım qızları Dilarə, Lalə və Pərilə birlikdə Bakıya köçür.

Lütfəli bəyin qardaşı 1870-ci il təvəllüdlü Əli bəy Behbudov 1928-ci ildə Şuşadan Qazaxa sürgün olunub seçki hüququndan məhrum edilərək 1937-ci ildə güllələnmişdi. Onun digər qardaşı Mirzəli bəy Behbudov isə erməni leytenantı Qaraxanovun atdığı gülllədən həlak olmuşdu.

**İsa bəy Aşurbəyli:** Yaxın Şərq tarixində məşhur olan 1736-cı ildə hakimiyyətə gələrək Səfəvi imperiyasını qısa bir müddətə bərpa etmiş Nadir şahın (1688-1747) mənsub olduğu Əfşar türk tayfasından, Aşur xanın nəslindən olan İsa bəy Aşurbəyli Bakının zəngin və tərəqqipərvər neft milyonçularından olmuşdu. O, 1878-ci ildə Bakının Sabunçu kəndində uzun illər övladsızlıqdan əziyyət çəkən, varlı mülkədar Hacı Mehdiqulu bəy Aşurbəyovun ailəsində doğulmuşdu. Əsrin sonlarında, 1890-cı ildə Mehdiqulu bəyin torpaq sahəsindəki 27 metrlik quyudan fontan vuran neft onu böyük dövlət sahibinə çevirir. Ərazisində gündən-günə sayları artan neft quyularını Mehdiqulu bəy “Nobel” şirkətinə icarəyə verir. Yeganə oğlu İsa dünyaya gəldikdən sonra isə M. Aşurbəyli ona övlad bəxş etmiş tanrının yolunda var-dövlətinin əksər hissəsini yetimlərə paylayır. Məhz bu uşaqsevərliyinə görə o, H.Z.Tağıyevlə birlikdə Bakı quberniyasının fəxri üzvü seçilmişdi. Peterburqda ikinci Nikolayın tac qoyma mərasimində çara qiymətli xəncər hədiyyə etmiş Mehdiqulu bəy Müqəddəs Stanislav ordenini də qazanmışdı.

Ailədə yeganə övlad olduğu üçün İsa bəyin yüksək təhsil almasına xüsusi qayğı ilə yanaşılırdı. İlk təhsilə Bakıda mollaxanada başlayan İsa bəy altı sinifli şəhər məktəbini bitirir. Atası bircə oğlunu gözündən kənar buraxmaq istəmədiyindən onun ali təhsil alması üçün tanınmış din və elm xadimlərini evinə dəvət edir. Oğlunun xaricdə təhsil almaq istəyinə qarşı çıxdıqda isə onlar arasında ilk konflikt yaranır.

1902-ci ildə İ.Aşurbəyli əmisi Rzaqulu bəy Aşurbəyovun qızı Balacaxanımla ailə qurur. Onların 1903-cü ildə Süleyman, 1904-cü ildə isə Davud adlı oğlanları dünyaya gəlir. Balacaxanımın bacısı Məsumə xanım doktor Qarabəyovun həyat yoldaşı olduğundan İ.Aşurbəyli ilə Q.Qarabəyov bacanaq sayılırdılar. N.Nərimanov isə Rzaqulu bəyin kiçik qızı, özündən iyirmi yaş cavan Sona xanıma vurulmuşdu. O, həm də vərəm xəstəliyindən əziyyət çəkən bu gənc qızın müalicəsilə məşğul olmuşdu. 1909-cu ilin martında həbsə alınaraq yeddi ay Metex qalasında saxlanıldıqdan sonra Həştərxana sürgün edilən N.Nərimanov yalnız 1913-cü ildə Bakıya qayıdaraq 9-cu pulsuz şəhər xəstəxanasında müdirlik etməyə başlayır. Elə həmin ildə də Sona xanımla ailə qurmaq istəyir. N.Nərimanov Sona xanımın qardaşı Nəsrulla bəyin həyat yoldaşı Xavər xanımla qohum olsa da, o və Rzaqulu bəyin digər oğlu Əhmədağa bəy bu izdivaca icazə vermirlər. Buna baxmayaraq həmin məsələ Q.Qarabəyov, İ.Aşurbəyli və N.Nərimanov münasibətlərində heç bir soyuqluq yaratmır. Bir qədər sonra bacısını xəstəlikdən şəfa tapması üçün İsveçrəyə aparan Əhmədağa bəy Aşurbəyli orada onunla birlikdə iki il yaşayır. Geri döndükdə Qoqolun "Müfəttiş" əsərini tərcümə etmiş diş həkimi Məmmədəli bəy Səlimbəyova ərə gedən Sona xanım müalicəsini davam etdirmək üçün bu dəfə Səmərqəndə yollanaraq orada bir neçə il doktor Q.Qarabəyovun başçılıq etdiyi vərəm sanatoriyasında qalır. Bakıda yaşamaq hüququndan məhrum olan Əhmədağa bəy də 1935-ci ildə bacısı ilə birlikdə Səmərqəndə gedir və ömrünün sonunadək orada yaşayır. Sona xanımın digər qardaşı Nəsrulla bəy isə N.Nərimanovun köməkliyilə Türkiyəyə qaçırılaraq 20-ci illərin sonunadək Nağı bəy Şeyxzamanlı ilə birgə "Müsavat"ın Trapizon bölgəsindəki bölməsində çalışır. Sona xanımın özü isə övlad sahibi ola bilməsə də, 60-cı illərə qədər ömür sürür.

1905-ci il hadisələrindən sonra bir sıra ziyalılar kimi İsa bəy də çarizmin müstəmləkə zülmünə qarşı mübarizə aparan sosialistlərə yaxınlaşaraq sosial-demokrat "Hümmət" partiyasına üzv olur. Və Murtuz Muxtarovun neft avadanlıqları işçiləri arasında sosial-demokrat ideyaların təbliğinə başlayan İsa bəyin atası yeganə övladının bu hərəkətini ərköyünlük hesab edib onu bağışlayır.

İ.Aşurbəyli 1905-ci ildə nəşr edilən Ə.Ağaoğlunun "İrşad"ında naşirlik fəaliyyətinə başlayır və 1906-cı ildə sosial-demokrat qəzeti "Dəvət"in redaktor naşiri olur.

1910-cu ildə dörd il müddətinə şəhər dumasının üzvü seçilən İsa bəy müsəlmanların "Nicat" maarif təşkilatının, Bakı quberniyası əhalisinin savadsızlığının ləğvi üçün yaradılmış, H.Z.Tağıyevin başçılıq etdiyi "Nəşri-maarif"in, "Səadət" ruhani və kimsəsiz körpələri xilas edən "Bir damla süd" cəmiyyətlərinin işində fəal iştirak edir.

"Nicat" 1906-17-ci illərdə fəaliyyət göstərmiş mədəni-maarif cəmiyyəti idi. Müsəlmanları maarifləndirməklə yanaşı, ehtiyacı olan tələbələrə maddi yardım

göstərir, azərbaycan dili, ədəbiyyatı və teatr sənətinin inkişafına kömək edirdi. “Nicat” Bakıda və onun ətraflarında kitabxana-qiraətxanalar, məktəblər, savadsızlığı ləğv etmək üçün axşam kursları açır, xeyriyyə məqsədilə konsert-gecələr, ictimai-siyasi, elmi mövzularda mühazirələr və məruzələr təşkil edirdi. “Nicat”da teatr, ədəbiyyat və pedaqoji şöbələr fəaliyyət göstərirdi. 1909-cu ildə İ.Aşurbəyli “Nicat”ın teatr bölməsinin sədri, sonra isə cəmiyyətin sədri, M.H.Hacınski isə onun müavini seçilir. Qeyd edək ki, cəmiyyətin teatr bölməsində görkəmli aktyorlar H.Ərəblinski, H.Sarabski, C.Zeynalov və digərlərinin iştirakı ilə Ə.Haqverdiyevin, N.Vəzirovun, Ü.Hacıbəyovun, V.Şekspirin, F.Şillerin və s. əsərləri tamaşaya qoyulurdu. C.Hacıbəyli seçilmiş əsərlərindəki “İlk Azərbaycan operası necə yarandı?” məqaləsində yazırdı: “Bizim Azərbaycan səhnəsinə opera gətirməyimiz “Nicat” xeyriyyə cəmiyyətinin üzvləri sayılan mütərəqqi ziyalıların böyük marağına səbəb olmuşdu. Onlar həvəslə tale yüklü bu işin ərsəyə gəlməsində yaxından iştirak edirdilər. Xüsusən bu işlərdə zəngin ailənin nümayəndəsi olan İ.Aşurbəyov fəallıq göstərirdi. Bu həmin Aşurbəyov idi ki, məşhur azərbaycan-türk publisisti Ə.Ağayevin redaktoru olduğu “İrşad” qəzetini də maliyyələşdirirdi. Qardaşım Üzeyir bəylə mən də jurnalistik fəaliyyətimizə burada başlamışdıq. Naşir İsa bəylə dostluq münasibətimiz olduğundan o, qarşılaşdığımız bütün çətinliklərdə bizə kömək edirdi.” (100.səh.126-127).

16 sentyabr 1910-cu ildə şəhər rəisi Martınovun imzası ilə “Nicat” cəmiyyətinə verilən sənəddən görünür ki, “Bakı sahibkarı, Şəhər Dumasının qlasnısı İsa bəy Aşurbəyovun “Nicat” adlı ictimai-siyasi qəzet çıxarmasına icazə verilir. Qəzetin ilk nömrəsi 14 noyabrda işıq üzü görür.” (156). Bu mətbu orqan İ.Aşurbəylinin vəsaitilə “Kaspi” mətbəəsində nəşr edilirdi. “Nicat” qəzetinin proqramında baş məqalələrin, Peterburq və yerli teleqraf agentliklərinin teleqramlarının, ictimai-siyasi məsələlərlə bağlı məqalələrin, felyetonların, müsəlmanların həyatı və mətbuatı barədə məqalələrin, teatr-musiqi, neft şöbələrinin fəaliyyəti nəzərdə tutulurdu. Qəzetin sonuncu nömrəsi 1912-ci il iyunun 30-da çapdan çıxır.

1906-17-ci illərdə “Nicat” və “Nəşri-maarif” cəmiyyətləri tərəfindən bir və iki sinifli ibtidai məktəblər yaradılır. “Nicat” xeyriyyə cəmiyyəti uşaqların da təhsilinin qayğısına qalırdı. 26 aprel 1909-cu il “Baku” qəzetinin yazdığı kimi: “24 apreldə Keşlə stansiyasında “Nicat” cəmiyyətinin filialı açıldı. Təntənəli açılışda İ.Aşurbəyovun başçılığı ilə şəhərdən gəlmiş idarə heyətinin üzvləri də iştirak edirdilər.” (121).

17 oktyabr 1909-cu ildən “Nicat” cəmiyyətinin nəznində əhalinin savadsızlığının aradan qaldırılması məqsədilə axşam məktəbləri fəaliyyətə başlayır. İsa bəy şəhər idarəsinə müraciət edərək bu kurslarda təhsilin davam etdirilməsi üçün xərcin yarısının büdcədən ödənilməsini xahiş edir. Şəhər Dumasının 4 noyabr

1909-cu il qərarı ilə bu məsələ öz həllini tapır. Qərarda bildirilirdi ki, " "Nicat" maarif cəmiyyətinin nəznindəki müsəlmanlar üçün axşam kurslarına tələb olunan pul məsrəfləri ayrıldı." (152) Bu kurslara 20-50 yaş arasındakı fəhlələr, xırda tacirlər və s. təbəqədən olan 240-a qədər dinləyici toplaşmışdı.

Azərbaycanda fəaliyyət göstərən mədəni-maarif cəmiyyətlərindən biri də 1 avqust 1906-cı ildə yaranan "Nəşri maarif" idi. Cəmiyyət yeni ibtidai məktəblər, qiraətxanalar açır, yetimlərin və yoxsul uşaqların təhsil xərclərini ödəyirdi. 1906-17-ci illərdə fəaliyyət göstərən "Nəşri maarif"in katibi işləmiş Əli İsgəndər Cəfərov yazırdı: "Müsəlman uşaqları rus-tatar məktəblərinə həvəssiz getdiklərindən, xüsusən burada dini ayinlərin həyata keçirilməsi üçün vaxt olmadığından və məscidlərin nəznindəki məktəblər mükəmməl savad vermədiklərindən "Nəşri maarif" uşaqların təhsili ilə məşğul oldu." (153). Bu cəmiyyətdə pulsuz olaraq 330-dan artıq şagird təhsil alırdı. Təkcə Abşeron kəndlərində 11 məktəb fəaliyyət göstərirdi. "Nəşri maarif"ə müəllim kadrları hazırlamaq üçün 1907-ci ildə "Darül müəllim" pedaqoji məktəbi açılır ki, 1911-ci ildə buranın 15 nəfər məzunu olur. Bundan əlavə "Bakı islam məktəbi"nin nəznində də pedaqoji kurslar açılır. "Burada İ.Aşurbəyli və Q.Qarabəyov komissiyanın sədrləri kimi şəhadətnamələrə imza ataraq müəllimləri cəmiyyətin məktəblərinə göndərirdilər." (154).

Əsrin əvvəllərində Azərbaycanda yaranan xeyriyyə cəmiyyətlərinin fəaliyyətlərinin əhəmiyyəti barədə M.Ə.Rəsulzadə yazırdı: "Dövlət xəzinəsinin maddi müavinəti və "Nəşri-maarif" ilə "Səfa" cəmiyyətləri kimi milli müəssisələrin maddi və mənəvi himməti sayəsində nuri-maarif çox illərdən bəri cəhl və avamlıq zülməti altında örtülü qalan kəndlərimizə də giriyor, ora həyatını parlatmaq, şənlətmək istiyor." (71.səh.322).

1907-ci ildə isə Bakıda "Səadət" müsəlman xeyriyyə cəmiyyəti fəaliyyətə başlayır. Cəmiyyət əsasən köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulması, həmçinin, yeni məktəblərin açılması ilə məşğul idi. Təşkilatın nəznində "Səadət" məktəbi də fəaliyyət göstərirdi. Axund molla Ələkbər Abbasquluzadənin başçılıq etdiyi "Səadət" ruhani cəmiyyətinin katibliyini isə N.Vəzirovla birlikdə İ.Aşurbəyov aparırdı." (104.səh.67).

İ.Aşurbəyli türk əsirlərinə kömək məqsədilə yaradılmış, qeyri-qanuni fəaliyyət göstərən "Qırmızı xaç" cəmiyyətinin işinə də yaxından köməklik edirdi. Bakıda güclü Xəzri küləyi əsən zaman Nargin adasında əsirlərə nəzarət edən gözətçilər öz postlarını tərk edirdilər. Xalq yazıçısı Qılman İlkin özünün "Sən köhnə Bakını tanıyırsanmı?" kitabında yazır: "1983-cü ildə böyük rus dramaturqu A.İ.Ostrovski Bakıda olub. O da gündəliyində Bakının Xəzrisindən gileylənirdi: "Külək elə əsirdi ki, ayaq üstə durmaq mümkün deyildi. Bu məşhur Bakı Xəzrisi idi. Şəhərin bu başından girib o başından çıxır və dəhşətli tozanaq qoparırdı. Üz-

gözünü nə qədər gizlətsən də, ondan yaxa qurtara bilmirsən. Deyilənlərə görə burada Xəzri, hətta ağzı bağlı konserv qutusuna da daxil olur." (39.səh.11). Məhz Xəzri əsən zaman İ.Aşurbəyli yaxın qohumu Əjdər bəy Aşurbəyliylə birgə şəhərdəki avara və sərxoşları qayığa mindirib Narginə aparırdı. Həmin insanların oradakı türk zabitləri ilə geyimlərini dəyişdirib bu yolla əsirlərin həyatlarını xilas edərək müxtəlif vasitələrlə onları öz vətənlərinə göndərirdi.

Arxiv sənədlərindən də göründüyü kimi: "31 dekabr 1915-ci ildə jandarmeriya rəisi podpolkovnik Lukyanovun Nargin adasındakı türk əsirlərinin qaçırılması ilə bağlı agentura məlumatı və tacir Əsriyanın şahidliyi ilə apardığı cinayət işinə kifayət qədər dəlil olmaması səbəbindən xitam verilir." (155).

Milli maarifçilik işini həyata keçirən İsa bəy 1913-14-cü illərdə müəllimlər üçün nəzərdə tutulmuş rus və azərbaycan dillərində həftəlik "Şəlalə" jurnalını, şagirdlər üçünsə "Məktəb" və onun əlavəsi sayılan "Baraban" dərgisini çap etdirərək onları pulsuz paylatdırırdı.

1912-ci ildə İ.Aşurbəyli əmisi oğlu Bala bəy Aşurbəyovun yardımı ilə Bakıda "Kaspi" mətbəəsini icarəyə götürərək keçmişdə Staraya Poçtovaya və Fars, Sovet dövründə Ostrovski -Poluxin, indi isə S.Tağızadə və M.Muxtarov küçələrinin kəsişdiyi yerdəki evinin zirzəmisində yerləşdirir. Həmin mətbəədə xərclərin əlli faizini İsa bəy öz üzərinə götürməklə Sabirin, Hadinin, Ə.Haqverdiyevin və s. əsərlərini çap etdirir. Evinin zirzəmisində mətbəəni yerləşdirən İsa bəyin mənzilinin ikinci mərtəbəsindəki salonda isə daim dövrün ziyalıları yığışardılar. 1913-ci ildə İ.Aşurbəylinin "Kaspi" qəzetində çalışmağa başlaması artıq valideynləri tərəfindən ərköyünlük hesab edilməyərək onlar arasında növbəti konflikti yaradır və İsa bəy öz ailəsindən ayrılmalı olur.

1918-ci il mart qırğınları dövründə türk qoşunlarının Bakıya gətirilməsində İsa bəy müstəsna rol oynamışdı. O, həmçinin, 15 sentyabr 1918-ci ildə Mərkəzi Xəzər diktaturasının ləğv olunmasında iştirak edən türk qoşunlarının tərkibində, Mürsəl paşanın dəstəsində vuruşmuşdu. Onun Azərbaycanın istiqlalı mövzusunda yazdığı, türk, islam və müasirlik idealının bədii ekvivalenti, tarixi keçmişin tərənnümü ilə romantizm cərəyanına məxsus "Azər-Baycan" pyesinin 24 oktyabr 1919-cu ildə, dövlət teatrının açılışında nümayişi, o dövrdə bu ictimai üsluba mənəvi tələbatın təsdiqinə çevrildi. Milli dövlətçilik ideyasından yoğrulmuş bu əsərdə iki gəncin - Azərlə Baycanın sevgi münasibəti istiqlal və ordunun hərbi uğurları fonunda cərəyan edərək ictimai motivi gücləndirir və bununla klassisizmi də meydana çıxarırdı. Həmin illərdə İ.Aşurbəyli pyeslərdən əlavə müxtəlif şer və hekayələr də yazırdı.

ADR dövründə İ.Aşurbəyli önəmli mütəxəssis kimi Xalq Maarif Nazirliyinin tabeliyində olan nəşriyyata müdir təyin edilir. Lakin Sovet hakimiyyəti qurulduqdan sonra işindən uzaqlaşdırılmaqla yanaşı, mülkiyyəti də

əlindən alınan İsa bəyə ailəsilə birlikdə yaşaması üçün cəmisi iki otaqlı mənzil verilir. Hipertoniya xəstəliyindən əziyyət çəkdiyi üçün İ.Aşurbəyli Buzovnadakı bağ evinə köçsə də, tezliklə o da əlindən alınır.

Tədqiqatçı Ağarəfi Zeynalzadə 31 oktyabr 2001-ci il "525-ci qəzet"in 227-ci sayındakı "İrşad" qəzetinin naşiri məqaləsində yazır: "Rus-sovet qoşunlarının işğalı nəticəsində qurulmuş Azərbaycan Sovet Respublikası hakimiyyətinin ilk illərində, ümumiyyətlə, bütün respublikalarda olduğu kimi burada da köhnə ziyalılara ehtiyac olduğundan İsa bəy də maarif komissarlığında işə qəbul olunur. Lakin o, əvvəlki adını, atasının adını və familiyasını dəyişməli olur. İndi o, İsa Mehdi oğlu Aşurludur." (89).

1920-ci ildən N.Nərimanovun təklifilə yenidən nəşriyyat şöbəsinə müdir seçilən İ.Aşurbəyli Xalq Maarif Komissarının 9 yanvar 1921-ci il tarixli əmrilə sosial tərbiyə şöbəsinin müdir müavini vəzifəsində saxlanılmaqla, türk dilində dərslik tərtib edən kollegiyaya üzv təyin olunur. 1925-ci ildə N.Nərimanovun ölümündən sonra işindən uzaqlaşdırılan İ.Aşurbəyov dostlarının köməyilə Səhiyyə Nazirliyinin dərman bitkiləri şöbəsinə işə düzəlir və uzun müddət Naxçıvanda ezamiyyətdə olur. Burada onun Türkiyəyə köçmək imkanı olsa da, vətəndən kənarda yaşamağa vərdiş etməyən İ.Aşurbəyli yenidən Bakıya qayıdır. AEA-nın rəhbəri Ruhulla Axundovun tapşırığı ilə müxtəlif fəlsəfi ərəb-fars mənbələrindən tərcümələr edən İ.Aşurbəyli bu yolla ailəsini dolandırmağa çalışır. Buna baxmayaraq repressiyadan yaxa qurtara bilməyən İsa bəy 1937-ci il dekabrın 31-də həbs edilir və 1938-ci ilin oktyabrında millətçi kimi güllələnir.

# NƏTİCƏ

Yetmiş ildən artıq bir dövr ərzində Azərbaycan güclü təbliğat aparatı sayəsində öz hökmranlığını qoruyan Sovet imperiyasının tərkib hissəsi kimi onun müstəmləkə siyasətinin məngənəsində yaşamağa məcbur olmuşdu. Ədəbiyyat və sənətə nüfuz edən təbliğat funksiyası tarixi fakt və sənədlərdən də yan keçməmişdi. Bir çox əsaslı təhriflərə uğrayan tarixi hadisələr kimi Azərbaycanın Qızıl Ordu tərəfindən işğalı da inqilab adlandırılaraq Cümhuriyyət Respublikası və onun siyasi rəhbərləri tarixin qara ləkəsi kimi qələmə verilirdi. Beləliklə, uzun illər ərzində sovet dövrü tədqiqatlarında rejimlə barışmaz mübarizədə olan şəxslər xalq düşməni kimi damğalanırdılar. Məhz M.H.Hacınski də totalitarlıqla barışmaz mövqedə durub öz faciəli ölümü ilə belə ideyalarından dönməzliyini sübut etdiyi üçün daim sovet tədqiqatçılarının hədəfinə çevrilmişdi. Yalnız Azərbaycan müstəqillik qazandıqdan sonra tarixi hadisələrə də yeni baxış yarandı. Vaxtilə ictimai-siyasi xadimlərin dövlət qarşısındakı xidmətləri tamamilə əks prizmadan işıqlandırılırdısa, indi artıq demokratiyanın yaratdığı sağlam mühit hesabına həqiqətlər olduğu kimi araşdırılmağa başlandı. Yazılmış bir çox yeni əsərlərdə köhnə mənbələrin olduqca güclü təsiri hiss olunsa da, onların arasında faktlara obyektiv yanaşılması nöqteyi-nəzərindən dəyərli sayıla biləcək tədqiqatlar da yox deyil. M.H.Hacınskinin həyatı və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş bu monoqrafiyada da tarixi sənədlər yerbəyer edilərək onun əsl kimliyi tutarlı əsaslarla ortaya çıxarılmışdır.

Tədqiqat işinin "Azərbaycan maarifçi-demokratik hərəkatı" adlı birinci fəslində Azərbaycanda M.F.Axundovun və Həsən bəy Zərdabinin yaratdığı maarifçilik məktəbi, onun özündən sonrakı tarixi mərhələlərə təsiri və əhəmiyyəti işıqlandırılır. XIX əsrdən Azərbaycanda dövrü mətbuatın, mətbəələrin, məktəblərin, qiraətxanaların yaranması Rusiyada başlanan maarifçilik hərəkatının ucqarlara da təsiri kimi qiymətləndirilir. Bundan başqa, M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Vəzirov, Ö.F.Nemanzadə, N.Nərimanov, Ü.Hacıbəyov kimi ziyalıların maarifçiliyin müxtəlif sahələrinin inkişaf etdirilməsində müstəsna xidmətləri vurğulanır.

"Gənc maarifçi-demokrat" adlı ikinci fəsildə M.Hacınskinin ailəsi, orta və ali təhsil illəri haqqında məlumat verilməklə yanaşı, onun həyat yoldaşı Səadət xanımla keçirdikləri müəyyən psixoloji məqamlar da açıqlanır.

M.Hacınskinin az bir zamanda müxtəlif rəhbər vəzifələrə təyin olunması, ona şəhərin yenidən abadlaşdırılması, içməli su ilə təmin edilməsi və s. bu kimi məsuliyyətli işlərin həvalə edilməsi, ümumiyyətlə, peşəkar fəaliyyəti haqqında "Vicdanlı məmur" fəslində danışılır.

“Peşəkar memar və ictimai xadim” fəslində M.Hacınskinin siyasi fəaliyyətdə ilk addımları işıqlandırılmaqla yanaşı, həmin dövrdə “Müsavat” partiyasının altı illik gizli işini açıq şəkildə davam etdirməyə başlaması, 1917-ci ilin fevral inqilabı, 24-26 noyabr 1917-ci ildə Müəssislər Məclisinə keçirilən seçkilər, 28 may 1918-ci ildə Azərbaycan Milli Şurasında birləşmiş müsəlman nümayəndələri tərəfindən elan olunan İstiqlal Bəyannaməsi ilə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması və digər tarixi hadisələr barədə ətraflı məlumat verilir.

Tədqiqat işinin “Cümhuriyyət dövrü” fəslində Azərbaycanda Demokratik Cümhuriyyətin qurulmasından onun süqutuna qədər baş verən bütün tarixi-siyasi hadisələr və bu proseslərdə M.Hacınskinin ictimai-siyasi xadim kimi müstəsna xidmətləri dəqiq faktlara istinad edilərək öz əksini tapmışdır.

Monoqrafiyanın “Keçməkeşli sovet dövrü” hissəsində 1920-ci ildə XI Qızıl Ordunun Azərbaycana soxularaq hakimiyyəti ələ almasından sonra Mikoyanın fitvası ilə törədilən talanlar, həmçinin ictimai xadimlərə, ziyalılara qarşı başlanan repressiyalar dəqiq faktlara əsaslanaraq işıqlandırılır. Siyasi mövqeyinə görə bu təqiblərin qurbanına çevrilən M.Hacınski və ailəsinin həyatlarının ən dramatik anları, nəhayət, özünün faciəli ölümü əks olunur.

“Difai” adlanan sonuncu fəsildə 1905-ci ildə Ə.Ağaoğlunun milli qırğına qarşı mübarizə üçün yaratdığı “Difai” təşkilatı haqqında məlumat verilməklə yanaşı, onun ən fəal üzvləri: Q.Qarabəyov, B.Cavanşir, L.Behbudov, İ.Aşurbəylinin həyat və ictimai-siyasi fəaliyyətləri də araşdırılmışdır.

Azərbaycan xalqının demokratik dəyərlər üzərində qurulacaq gələcəyinə inanan M.F.Axundov azadlıq, vətənpərvərlik, xalqlar dostluğu ideyalarını bərqərar etdi. Bu ideyaların həyata keçməsi uğrunda canından keçən M.Hacınski kimi vətən oğulları isə öz əməllərilə xalqın xatirəsində əbədi yer tutdular.

Dünyanın düzələcəyi məqamda bəlkə də bu mövzuya yenidən qayıdıb yazdığım kitab əsasında tammetrajlı film çəkə bildim.

## Ədəbiyyat siyahısı

1. Ağaoğlu Ə. Kaspi q. 30 mart 1905-ci il, № 57.
2. Ağaoğlu Ə. Kaspi q. 1 aprel 1905-ci il, № 59.
3. Ağaoğlu Ə. İrşad q. 29 aprel 1907-ci il, № 79.
4. Ağayev İ. Əliabbas Müznib. Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. B., 2003.
5. Axundov M.F. Əsərləri. III cild, B., 1988.
6. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. B., 1987.
7. Axundov N.F. Sənədlərin dili ilə. B., 1980.
8. Axundov S.S. Seçilmiş əsərləri. II cild, B., 1968.
9. Axundzadə T.Ə.A. İslamın təfriqə səbəbləri. B., 1993.
10. Aslanov M.S. Üzeyir Hacıbəyov – jurnalist. B., 1985.
11. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar) I-II cild. B., 1998.
12. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., 1992.
13. Bəydəmirova B.S. İmperializm dövründə Azərbaycan mətbuatında iqtisadi fikrin inikası. B., 1981.
14. Bünyadov Z. Qırmızı terror. B., 1993.
15. Çəmənzəminli Y.V. Əsərləri. III cild, B., 1977.
16. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. B., 1993.
17. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə. B., 1994.
18. Düma A. Qafqaz səfəri. B., 1985.
19. Əhmədova F. Nəriman Nərimanov – ideal və gerçəklik. B., 1998.
20. Əhədov A.F. Azərbaycanda islamın modernləşdirilməsi. B., 1995.
21. Əhmədov T. Nəriman Nərimanov. B., 1982.
22. Əhmədov T. Nəriman Nərimanovun yaradıcılıq yolu. B., 1991.
23. Göyüşov A.R. Azərbaycanda İttihadçılıq. B., 1997.
24. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri. B., 1985.
25. Hacıbəyov Ü.Ə. Fitnələr qarşısında. B., 1995.
26. Hacıbəyov Ü.Ə. Aazərbaycan q. 2 iyun 1919-cu il, № 193.
27. Haqverdiyev Ə. Seçilmiş əsərləri. B., 1971
28. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. B., 1993.
29. Hüseynov A. Kommunist q. 7 avqust 1991.
30. Hüseynov R. Rəfibəylilər. B., 1996.
31. Hüseynov R. Millətin zərrəsi. B., 2001.
32. Hüseynov Ş. Müstəqilliyin çətin yolu. B., 1996.
33. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir. B., 1997.
34. Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. B., 1996.
35. Hüseynzadə Ə. Həyat q. 27 aprel 1906-cı il, № 91.
36. Xoyski F. Həyat və fəaliyyəti (sənəd və materiallar) B., 1996.
37. İbrahimli X.C. Azərbaycan siyasi mühacirəti. B., 1996.
38. İbrahimov M.Ə. Böyük demokrat. B., 1957.
39. İlkin Q. Sən köhnə Bakını tanıyırsanmı? B., 1997.

40. Kəngərli A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. B., 2002.
41. Qarabəyov Q. Kaspi q. 21 aprel 1900-cü il, № 87.
42. Qarabəyov Q. Haqq yolu q. 14 oktyabr 1912-ci il, № 19.
43. Qarabəyov Q. İttixad q. 7 mart 1919-cu il, № 2.
44. Qasımov C. Əksinqilab ilə mübarizə təşkilatı və siyasi repressiya. B., 1997.
45. Qasımov C. Resressiyadan deportasiyaya doğru. B., 1998.
46. Qasımzadə F. M.F.Axundovun həyat və yaradıcılığı. B., 1962.
47. Quliyev V. Ağaoğlular. B., 1998.
48. Qurbanov Ş. Ömrün fikir dünyası. B., 1991.
49. Qurbanov Ş. Nəriman Nərimanov dünyası. B., 2001.
50. Mehdizadə M. Beynəlxalq siyasətdə petrol. B., 1994.
51. Məhəmməd Əsəd bəy. Şərqdə neft və qan. B., 2003.
52. Məmmədquluzadə C. Əsərləri. I cild. B., 1966.
53. Məmmədquluzadə C. Əsərləri. II cild. B., 1984.
54. Məmmədquluzadə C. Əsərləri. VI cild. B., 1985.
55. Məmmədli Q. Molla Nəsrəddin. B., 1984.
56. Məmmədov V. N.Nərimanov. B., 1957.
57. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. B., 1992.
58. Mir Cəfər Bağırovun məhkəməsi. B., 1993.
59. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. B., 1980.
60. Mirzə R. Türkçülüyün babası. B., 2000.
61. Rasim Mirzə. Türkçülüyün babası. B., 2000.
62. Nemanzadə Ö.F. Seçilmiş əsərləri. B., 1982.
63. Nərimanov N. Əsərləri. B., 1956.
64. Nərimanov N. Seçilmiş əsərləri. B., 1973.
65. Nərimanov N.N. Məqalə və məktubları. M., 1925.
66. Nərimanov N.N. Ucqarlarda inqilabımızın tarixinə dair. B., 1992.
67. Nəzərli Ş. Cümhuriyyət generalları. B., 1995.
68. Novruzov Ş.H. Şərqi-Rusun çağırışı. B., 1988.
69. Ordubadi M.S. "Qanlı illər" B., 1991.
70. Rəsulzadə M.Ə. Əsərləri. B., 1992.
71. Rəsulzadə M.Ə. Seçilmiş əsərləri. II cild. B., 2001.
72. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. B., 1991.
73. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. B., 1991.
74. Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. B., 1990.
75. Rəsulzadə M.Ə. Açıq söz q. 02.10.1915. № 1
76. Sabir M.Ə. Hophopnamə. B., 1980.
77. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. B., 1998.
78. Süleymanov M.F. Eşitdiklərim, oxuduqlarım, gördüklərim… B., 1989.
79. Süleymanov M. Nuru paşa. B., 1999.
80. Süleymanov M. Mehmandarov. B., 2000.
81. Süleymanov M. Müsəlman dünyasında ilk Xalq Cümhuriyyəti. B., 1999.

82. Svyatoxovski T. Rusiya Azərbaycanı. 1905-20-ci illər. Azərbaycan j. 11-1989.
83. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. B., 1997.
84. Topçubaşov Ə. Kaspi q. 9 iyul 1905-ci il, № 132.
85. Topçubaşov Ə. Kaspi q. 1 dekabr 1905-ci il, № 233.
86. Vəzirov H. Kefim gələndə. B., 2001.
87. Vəzirov N.F. Əsərləri. B., 1977.
88. Yaqublu N.Q. Məhəmməd Əmin Rəsulzadə. B., 1991.
89. Zeynalov A. 525-ci qəzet, 31 oktyabr 2001-ci il, № 227.
90. Zərdabi H. Əkinçi. B., 1979.
91. Zərdabi H. Seçilmiş əsərləri. B., 1960.
92. Zərdabi H. Şəxsi arxivi. İnv. 5671.
93. Ziyadxanov A. Azərbaycan. B., 1999.
94. Ziyadxanov A. Azərbaycan. B., 1999.

**Rus dilində**

95. Багирова И.С. "Политические партии и организации Азербайджана в начале XX века" 1900-1917) Б., 1997
96. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 г. Б.,1998.
97. Балаев А. Азербайджанское национальное движение: От "Мусават" до народного фронта. Б. 1992.
98. Бахтин М.М. Эстетика словесного творчества. М., 1986.
99. Величко В.Л. Кавказ. Б., 1995.
100. Гаджибейли Дж. Избранные. Б., 1993.
101. Гулийев Дж.Б. Борьба коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане. Б., 1970.
102. Добренко Е. Падал. Вопросы летературы. № 8-1980.
103. Документы по Русской политики в Закавказии. Б., 1920.
104. Ежегодник Баку и его районы. Б., 1911.
105. Исмаилзаде Д.И. Русское крестьянство в Закавказье. М., 1928.
106. Казыев М.А. Нариман Нариманов. Б., 1970.
107. Минасазов Г. Избранные произведения. Б., 1982.
108. М. Асад-бек. Сталин. Карьера фанатика. Б., 2003.
109. Нариманов Н. Статьи и письма. М., 1925.
110. Нариманов Н. Избранные произведения. Том - 1, Б., 1988
111. Нариманов Н. Избранные произведения. Том - 2. Б., 1989.
112. Олъгденбург С.С. Царствование императора Николая II. М.,1992
113. Сейидзаде Д.Б. "Азербайджанские депутаты в Государственной Думе России" Б., 1991.
114. Топчубашов А.М. "Меморандум" Б., 1993.
115. Топчубашов А.М. "Дипломатические беседы" Б., 1994
116. Топчубашов А.М. "Письма из Парижа" Б., 1998.
117. Толстой Л.Н. Сочение. XVIII том. М, 1984.

118. Фатуллаев Ш.С. Градостроительство и Архитектура Азербайджана IX-начала XX века. Б., 1986.

**Qəzetlər**

119. Baku, 18.03.1912. № 64.
120. Baku, 09.09.1912. № 56.
121. Baku, 26.04.1909.
122. Bak raboçiy, 18.03.1923. № 60.
123. Dəvət-Qoç, 19.07.1906. № 19.
124. Həyat, 27.04.1906. № 91.
125. Hümmət, 03.05.1918.
126. İrşad, 13.10.1906. № 241.
127. Kavkaz, 1868-ci il, № 5.
128. Kaspi, 06.07.1893. № 144
129. Kaspi, 29.10.1900. № 227.
130. Kaspi, 07.10.1901. № 218
131. Kaspi, 09.10.1901. № 219
132. Kaspi, 22.03.1903. № 57
133. Kaspi, 26.04.1903. № 91
134. Kaspi, 09.04.1909. № 77.
135. Kaspi, 12.04.1911. № 273.
136. Kavkaz, 1868-ci il, № 5.
137. Kavkaz, 1896-cı il, № 262.
138. Molla Nəsrəddin, 23.09.1917. № 25
139. Vışka, 21.04.1931. № 110
140. Zakavkazye, 17.07.1909. № 107.
141. Zakavkazski vestnik, 01.06.1851.
142. Ziyayi-Qafqaziyyə. 06.05.1879. № 14.

**Arxiv materialları və ensiklopedik mənbələr**

143. A.R.D.A. f. 389, siyahı 8, iş 121, v.64
144. A.R.D.A. f. 389, siyahı 6, iş 443.
145. A.R.D.A. f. 389, siyahı 6, iş 37, v.154.
146. A.R.D.A. f. 970, siyahı 1, iş 32, 33.
147. A.R.D.A. f. 970, siyahı 1, iş 1, v.47.
148. A.R.D.A. f. 970, siyahı 1, iş 7, v.45
149. A.R.D.A. f. 894, siyahı 10, iş 154, v.31.
150. A.R.D.A. f. 970, siyahı 1, iş 16, v.2.
151. A.R.D.A. f. 894, siyahı 10, iş 154, v.16.
152. A.R.D.A. f. 389, siyahı 6, iş 447, v.9,10.
153. A.R.D.A. f. 312, siyahı 1, iş 138, v. 17.

154. A.R.D.A. f. 312,  siyahı 1, iş 7, v.23.
155. A.R.D.A. f. 46, siyahı 1, iş 346, v.18.
156. A.R.D.A. f. 46, siyahı 4, iş 66, v.3-4.
157. ADTN-nın arxivi, M.H. Hacınskinin cinayət işi. T. 330.
158. AR. MDTA. f. 46, op.4. sax. va. 82, v.1.
159. AR. MDTA. f.389, siyahı 6, iş 37. v.23.
160. AR. MTİ-nin arxivi, PS. 7525 saylı iş.
161. Gürcüstan MDTA f.422 iş 546
162. MEA-nın Azərbaycan tarixi muzeyi, ən yeni tarix dövrü. İnv. № 443.
163. Hacınskilərin ailə arxivi.
164. ASE. IV cild. B., 1980
165. ADTN-nın arxivi, t.330, s. 4.

**Mündəricat**

Müəllifdən
Azərbaycan maarifçi-demokratik hərəkatı
Gənc maarifçi-demokrat
Vicdanlı məmur
Peşəkar memar və ictimai xadim
Diplomatik fəaliyyət
Cümhuriyyət dövrü
Keşməkeşli sovet dövrü
“Difai”
Nəticə
İstifadə olunmuş ədəbiyyat

*Redaktor:* **Günel ƏLİYEVA**
*Bədii tərtibatçı:* **Xaqani HÜSEYNZADƏ**
*Texniki redaktor:* **Cəsarət QASIMOV**
*Korrektor:* **Kəmalə XANMƏMMƏDOVA**
*Operator:* **Günay ƏSƏDOVA**

**Aydın Ərşad oğlu Dadaşov**

**MƏHƏMMƏD**
**HƏSƏN HACINSKİ**

Yığılmağa verilib 10.06.2004
Çapa imzalanıb 19.07.1004
Kağız formatı 60x84 $^{1}/_{16}$
Şərti çap vəqəqi 15, 5.
Tirajı 1000. Sifariş № 199

**CBC** polygraphic
production
Tel/Fax: 47 75 04. Tel.: 47 75 25
mətbəəsində çap olunub



*A. Yermolov*



*H.Z.Tağıyev*



İ.Qaspralı H.Zərdabi Ə.Topçubaşov



*N.Vəzirov*



Ə.Haqverdiyev



Əli bəy Hüseynzadə



*Xurşudbanu Natavan oğlu Mehdiqulu, qızı Vəfa ilə*



Molla Nəsrəddinçilər



Məhəmməd Əmin Rəsulzadə



Üzeyir Hacıbəyov



*Bağır xan və Səttar xan*



*Məhəmməd Həsən Hacınski*



*Səadət xanım valideynlərilə*



Səadət xanım



*Bakı Şəhər dumasının üzvləri Xaçmaz ərazisində şollar su su kəmərinin açılışında. aprel 1913.*
*Soldan: M.Əzizbəyev, A.Aşurov, M.H.Hacınski və A.Quliev*



M.H.Hacınskinin mülkü

Memar
M.H. Hacınskinin
"Yelpik" layihəsi
1908





*Xarici işlər naziri M.H.Hacınski*



N.Nərimanov XI Ordu komandirlərilə



*Əliağa Şıxlinski*



*Səməd bəy Mehmandarov*



*N.Nərimanov oğlu Nəcəflə*



*Gülzüm xanım və Nəcəf N.Nərimanovun məzarı önündə*



M.Ə.Sabirin heykəlinin qoyulması



*Sağdan: Tofiq, Murad Şəmil, Nuşirəvan.*
*Arxada: M.C.Bağırovun oğlu Volodiya və Muxtar*



*Hacınskinin və Bağırovun ailəsi*



*Soldan: Ə.Pepinov və M.Hacınski*




*M.H.Hacınski həbsdə*



*Səadət xanım uşaqları ilə*



Əliabbas Muznib



Əli İsgəndər Cəfərov



*Məmməd Yusif Cəfərov*



*Sağdan: Fatma Hacınski şahmat yarışında*



*İsmayıl bəy Hüseynzadə*



Şamil Hacınski



*Ənuşirəvan Hacızadə alman xanımı ilə*



*Murad Hacınski*



*Muxtar Hacınski*



Tofiq Hacınski



*Minurə Hacınski*



Leyla Hacınski



*Səadət xanım*



*Əhməd bəy Ağayev*



*Qarabəy Qarabəyov*



*Behbud bəy Cavanşir*



*Lütfəli bəy Behbudov*